AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

YUNİS HÜSEYNOV

# QARABAĞ TARİXİ MƏNBƏLƏRDƏ

Bakı - 2012

*A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çapa məsləhət görülmüşdür*

**Elmi redaktor:** Əməkdar elm xadimi, t.e.d., professor **Y.M.MAHMUDOV**

**Rəyçilər:** t.e.d. **Q.Ə.HACIYEV**
t.e.d. **K.K.ŞÜKÜROV**
t.ü.fəlsəfə doktoru **Z.H.BAYRAMOV**

**HÜSEYNOV Yunis Rza oğlu, t.ü. fəlsəfə doktoru: QARABAĞ TARİXİ MƏNBƏLƏRDƏ Bakı: "Şuşa" nəşriyyatı, 2012. – 248 s.**

**H-04 (2012)**

Əsərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın qədim dövrlərinə, bölgənin toponimiyasına, diyarın qədim əhalisinin etnik tərkibinə, Qarabağ xanlığının yaranmasının tarixi şəraiti, xanlığın ictimai quruluşu, sərhədləri, təbii-coğrafi mövqeyi, iqtisadiyyatı, ticarət əlaqələri, Osmanlı Türkiyəsi və Gürcüstanla siyasi münasibətləri və habelə XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Qarabağ xanlığının Qacarlarla Rusiya imperiyası arasında beynəlxalq çəkişmə meydanına çevrilməsi problemləri araşdırılır.

Əsər tədqiqatçılar, müəllim və tələbələr, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

$$\textbf{H}\ \frac{051\ (L - 041)}{051 - 04\ (2012)}\ \text{Sifarişlə}$$

***Müəllif tərəfindən hədiyyə***

**© Y.R.HÜSEYNOV, 2012**

# MÜƏLLİM ÖMRÜ –
# ŞƏRƏFLİ HƏYAT YOLU

## Müəllif haqqında

> **“Həyatını müəllimliyə həsr edən insanlar, həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır”**
>
> **Heydər Əliyev**

Xalqımızın belə bir fəlsəfi deyimi var: **“Niyyətin hara, mənzilin də ora”.** İnsan öz qəlbində, xəyallarında nəyə üstünlük verirsə, həmin arzulara çatmağın da yollarını müəyyən edir və onlara çatmaq uğrunda fədakarlıqla mübarizə aparır. Vətəninə, xalqına, dövlətinə ləyaqətli vətəndaş olmaq hər bir insanın özündən, aldığı ailə tərbiyəsindən asılıdır. İlk növbədə isə başqalarına nümunə olmaqda torpağın müqəddəsliyi, onun əvəzolunmaz gözəlliyi, bu torpağın yetirdiyi barında, bərəkətindədir. Saf təbiətin bəhrəyə gətirdiyi təamından qidalanan insanlar qüvvətli, namuslu, qeyrətli, istedadlı və həyatda müdrik olurlar. Müqəddəs torpağın yetirdiyi nemətlərdən pərvazlananlar, el-oba içərisində özlərinə əbədi heykəl ucaldırlar.

Bu baxımdan elm, ədəbiyyat, incəsənət mərkəzi və başımızın tacı olan **ŞUŞA-PƏNAHABAD** da müqəddəs torpaqdır. Əzəmətli dağları, səfalı yaylaqları, minbir dərdə məlhəm olan saf suları, təmiz və şəffaf bulaqları və Ulu Tanrının bu diyara əbədi olaraq bəxş etdiyi digər nemətləri olan Şuşa görkəmli şəxsiyyətlərin - **Qasım bəy Zakirin, Xurşudbanu Natəvanın, Mir Möhsün Nəvvabın, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy**

**Haqverdiyevin, Yusif Vəzir Çəmənzəminlinin, Firidun bəy Köçərlinin, Əhməd Ağaoğlunun, Həşim bəy Vəzirovun, Kərim bəy Mehmandarovun, Hacı Hüsünün, Məşədi İsinin, Cabbar Qaryağdı oğlunun, Keçəçi oğlu Məhəmmədin, Segah İslamın, Məşədi Məhəmməd Fərzəliyevin, Seyid Şuşinskinin, Xan Şuşinskinin, Üzeyir bəy Hacıbəyovun, Süleyman Ələsgərovun və yüzlərlə dünya şöhrətli şəxsiyyətlərin vətənidir. Bu elm və mədəniyyət xadimləri Şuşanın şöhrətini dünya səviyyəsinə qaldırmışlar.**

Bu tarixi şəxsiyyətlərin ənənələrini indi də davam etdirən ziyalılarımızın sayını sadalamaqla qurtarmaz. Biz belə ziyalılarımızla haqlı olaraq fəxr edirik, buna mənəvi haqqımız var. Belə ziyalılarımızın hər birinin öz dəsti-xətti var.

Şuşanın ziyalı müəllimlərindən söhbət açarkən rayonumuzda təhsil sahəsində özünün elmi, metodiki, pedaqoji bilik səviyyəsi ilə fərqlənən əzmkar, öz üzərində müntəzəm çalışan, tədqiqatçı alim, böyük hörmətə malik olan, rayonumuzun təhsilinin ağsaqqalı **Yunis Rza oğlu Hüseynov** yada düşür.

Yunis Rza oğlu Hüseynov **15 sentyabr 1935-ci ildə Şuşa** şəhərində anadan olmuşdur. O, **1945-ci** ildə Şuşa şəhər yeddiillik məktəbinin birinci sinfinə daxil olub, **1952-ci** ildə oranı yüksək qiymətlərlə qurtarıb, həmin ildən Şuşada nəşr olunan **"Kolxoz bayrağı"** qəzetinin redaksiyasında mürəttib vəzifəsində əmək fəaliyyətinə başlamışdır. Yunis müəllim işləməklə bərabər, öz təhsilini Şuşa şəhər Fəhlə-Gənclər məktəbində davam etdirmişdir. Yunis Hüseynov həmin məktəbin onuncu sinfini **1955-ci** ildə yaxşı və əla qiymətlərlə bitirdikdən sonra, **1960-cı** ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) əyani tarix fakültəsinə daxil olub, oranı **1965-ci** ildə yüksək qiymətlərlə qurtarmış, həmin ildən, **2011-ci** ilin avqust ayına kimi fasiləsiz olaraq Şuşa şəhərində pedaqoji işdə çalışmışdır. O, **Şuşa şəhər 4 saylı orta məktəbdə tarix müəllimi və təlim-tərbiyə işləri üzrə direktor müavini, Şuşa Rayon Metodkabinetinin müdiri, Şuşa Rayon Təhsil Şöbəsinin baş müfəttişi, Şuşa şəhər 3 saylı orta internat-**

**məktəbinin direktoru vəzifələrində çalışmışdır.**

**Məlum hadisələrdən sonra Yunis müəllim 1992-ci ilin sentyabrından 2011-ci ilin avqustuna** kimi Bakının Yasamal rayonunda yerləşən Şuşa şəhər 1 saylı tam orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır.

Yunis müəllim elmi-tədqiqat işləri ilə məşğul olmuş, **2009-cu** ildə dissertantı olduğu Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Şurasında **"QARABAĞ-NAMƏLƏR" Azərbaycan tarixini öyrənmək üçün mənbədir" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır**.

Yunis Hüseynovun "Şuşa" qəzetində, Moskva və Tiflis şəhərlərində, habelə, Bakı şəhərində nəşr olunan elmi, siyasi-kütləvi jurnallarında onlarla elmi məqaləsi çap olunmuşdur. Müəllim-alim iki kitab müəllifidir.

Yunis müəllimin, pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, **"Metodist müəllim", "Azərbaycan Respublikasının Xalq Təhsil Əlaçısı, "Ali kateqoriyalı müəllim", Bakı şəhərində keçirilən pedaqoji mühazirələrdə məzmunlu çıxışına görə ikinci dərəcəli diploma, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən pedaqoji mühazirələrdə də yüksək məzmunlu çıxışına görə də ikinci dərəcəli diploma layiq görülmüşdür. Bundan başqa, Yunis müəllim XXI əsrin tanınmış maarifçisi Beynəlxalq diplomu ilə də təltif olunmuşdur. "Əmək Veteranı" medalı da almışdır.**

**Yunis müəllim 2007-ci ilin oktyabr ayının 3-də Prezidentimiz İlham Əliyev cənablarının Sərəncamı ilə "TƏRƏQQİ" medalına layiq görülmüşdür.**

**Hal-hazırda Yunis müəllim yaşa görə təqaüddədir.**

Yunis müəllimin pedaqoji fəaliyyəti çoxsahəli, pedaqoji-metodiki cəhətdən rəngarəngdir. Təhsilimizin yeniləşdirilməsində Yunis müəllim məqsədyönlü pedaqoji fəaliyyət göstərmişdir. Respublikamızda həyata keçirilməkdə olan təhsil islahatında qarşıya qoyulan vəzifələri dərindən bilən Yunis müəllim fəaliy-

yət göstərmiş olduğu Şuşa şəhər 1 saylı tam orta məktəbdə və bütövlükdə rayonumuzda olduqca məqsədyönlü pedaqoji iş aparmış, bu sahədə qarşıya çıxan problemlərin uğurla aradan qaldırılması üçün Şuşa Rayon Təhsil Şöbəsinin metodkabineti ilə birgə yorulmadan çalışmışdır. O, ilk olaraq yeni təlim texnologiyalarının tətbiqi ilə özünün açıq və mən deyərdim ki, öyrədici xarakterli dərsini təşkil etmiş, təhsil islahatlarına həsr olunmuş elmi-praktik konfransların təşkilində rayon təhsil şöbəsinə yaxından köməklik göstərmişdir.

Yunis müəllimin təşəbbüsü ilə Şuşa şəhər 1 saylı tam orta məktəbdə yeni fənn kurikulumlarının tətbiqi ilə əlaqədar olaraq Təhsil Problemləri İnstitutunun direktor müavini, professor Yəhya Kərimovun iştirakı ilə elmi-praktik konfrans keçirilmişdir. Konfransda rayonumuzun bir sıra məktəb rəhbərləri və qabaqcıl müəllimləri də iştirak etmişdir. Onu da qeyd etməliyəm ki, həmkarım Yunis müəllimin yeni təhsil proqramlarının (kurikulumların) tətbiqinə həsr olunmuş sərgi tablosu müəllimlərimiz üçün böyük elmi-metodik vəsait rolunu özündə ehtiva etmişdir.

Yunis müəllim yeni təhsil proqramlarına həsr olunmuş bir çox pedaqoji məqalələrin müəllifidir. Rayonumuzda bu sahədə ilk təşəbbüs göstərənlərdən biri də məhz o, olmuşdur. Yunis müəllim **"Azərbaycan Respublikasının "Təhsil Qanunu" artıq fəaliyyətdədir", "Təhsilimizin bu günü və sabahı", "Təhsil islahatı zamanın tələbidir", "Milli təhsilimiz xalqımızın ruhudur", "Problemli təlim və onun imkanları", "Təhsil sahəsində qarşımızda daha mühüm və təxirsalınmaz vəzifələr durur" və sair** pedaqoji məqalələrin müəllifidir. Hər bir məqalədə o, təhsilimizin ən aktual sahələrinə nəzər salmış, öz fikir və düşüncələrini şərh etmişdir.

Mən təhsilimizdə baş verən keyfiyyət dəyişiklikləri ətrafında Yunis müəllimlə söhbət apararkən o, qeyd etdi ki, keyfiyyət dəyişiklikləri zamanın tələbidir. Yeni təhsil sisteminin yaradılması və onun artıq vətəndaşlıq hüququ alması, milli müstəqilliymizin ən böyük nailiyyətidir. Bu uğurları inkişaf etdirmək,

dünya təhsili səviyyəsinə qaldırmaq biz müəllimlərin vətəndaşlıq vəzifəsidir, bundan yüksək və şərəfli iş təsəvvürümə gətirmirəm.

Bu söhbət əsnasında Yunis müəllim vaxtilə ona dərs deyən bilik, əxlaq və mənəvi cəhətdən respublikamızda tanınan, görkəmli şəxsiyyətlər yetişdirən müəllimləri – **Mirzə Xosrov Axundov, Ağa Kazımov, Əyyub Kazımov, Keymah Bəhmənov, Keykavus Bəhmənov, Mərdan Əliyev, Tofiq Əliyev, Tovuz Abbasova, Diliş Mehdiyeva, Zəhra Məmmədova, Rüstəm Zeynalov, Yaqub Quliyev və başqa müəllimləri iftixarla yada saldı.** Onları unutmaq olarmı, əlbəttə yox! Onların ruhu şad olsun, unutsaq biz də unudularıq...Yuxarıda hörmətlə adları qeyd olunan müəllimlərin elmi, metodiki, siyasi bilikləri Yunis müəllimin həyat yoluna yaşıl işıq salmışdır. Elə bir işıq ki, bu işıq, onun fəhləlikdən müəllimliyə və alimliyə qədər şərəfli yol keçməyinə səbəb olmuşdur.

Yunis müəllimin şəxsiyyəti təhsillə, əməklə və elmlə vəhdət təşkil edir. O, daim düşünür, araşdırmalar aparır. Müəllim-alim, milli tariximizi şagirdlərinə öyrədərkən, həmişə təlimin səmərəli üsul və metodlarından istifadə etmiş, tariximizi öz yetirmələrinə həvəslə öyrətmişdir. Hər Şuşa ailəsində onun mənəvi əməyi var. Müəllim-alim bunu özünün ən böyük və heç bir şeylə əvəz olunmaz mənəvi sərvəti hesab edir. Bax budur mənim həmkarımın həyatda qazandığı ən qiymətli sərvət!

Yunis müəllim həmişə qeyd edir ki, yaxşı əməlləri təlqin etmək istəyirsənsə, onda özün yaxşı olmalısan. Elədiyin yaxşılığı dilə gətirmək, ən böyük qəbahətdir. Paxıllıq, qiybət etmək, kiməsə rişxənd etmək Yunis müəllimin şəxsiyyətinə olduqca yaddır. O, yalan danışanlara, böhtan xarakterli əməllərə nifrət edir. O, bütün bunları ziyalı adı daşıyanlara yad olan əməl kimi qiymətləndirir.

İnsan çoxşaxəli bir ağacdır, böyük bağın dərilən nemətidir, insanın dəyəri onun əməlləri ilə ölçülür, insanın gözəlliyi onun sadəliyində, haqq sözündə, mənəvi zənginliyində, vətənini, dövlətini və xalqını dərindən sevməyindədir.

Uzun müddət təhsil sahəsində səmərəli fəaliyyət göstərən Yunis müəllimin saysız-hesabsız müəllim, həkim, hüquqşünas, mühəndis və digər peşə sahibləri kimi yetirmələri var. Onlar öz müəlliminə böyük hörmətlə yanaşır, onunla haqlı olaraq fəxr edirlər. Mən bütün el məclislərində bunun canlı şahidi olmuşam. Onların içərisində alim olanlar da var. Yunis müəllimin özü də onlarla fəxr edir.

Mən deyərdim ki, Yunis müəllimin həyatı elm mayası ilə yoğrulmuşdur. Artıq onun saçları tamamilə ağarıb. Atalar çox yaxşı demişlər, uca dağların zirvəsi ağappaq qarla örtülü olar. Yunis müəllim isə saçının ağarmasını baharın müjdəçisi hesab edir. Mən cəsarətlə deyərdim ki, onun yaşı sərvəti, dövlətidir. **15 sentyabr 2012-ci ildə müəllim-alimin 77 yaşı tamam olacaqdır. Amma ona ilk baxışda bu yaşı vermək olmaz. O, elmi yaradıcılığını indi də uğurla davam etdirir.**

Tarix elmləri üzrə fəlsəfə doktoru Yunis Hüseynov, qondarma Dağlıq Qarabağ həqiqətlərini beynəlxalq aləmə çatdırmaq üçün xarici elmi-kütləvi jurnallarda bu sahədə sanballı materiallarla çıxış edir. Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində nəşr olunan **"Вопросы гуманитарных наук"** jurnalında 3, qonşu Gürcüstanın paytaxtında nəşr olunan **"Кавказ и Мир"** jurnalında **4** elmi məqaləsi nəşr olunmuşdur. Bu məqalələr **3 il** ərzində işıq üzü görmüşdür. Həmin elmi məqalələrdə quldur, torpağı, vətəni, paytaxtı, mədəniyyəti, bir sözlə mənşəyi məlum olmayan ermənilərin yalanlarını dünyaya çatdırmaqda Yunis müəllimin əməyini xüsusi qeyd etməliyəm. Onun hər bir məqaləsi erməni faşistləri üçün tutarlı zərbədir.

Mən bu məqalədə Yunis müəllimin pedaqoji-elmi və siyasi fəaliyyətindən qısa olsa da bəhs etməyə çalışdım.

Yunis müəllim məktəbi cəmiyyətimizin mənəvi özəyi hesab edir. O, mədəni rəftarı, ciddi, eyni zamanda da qayğıkeş davranışı ilə müəllim yoldaşlarına böyük mədəni, emosional təsir göstərmiş, öz hərəkət və davranışlarında həmişə səmimi və təmkinli olmağı üstün tutmuşdur. **20 ilə qədər** təlim-tərbiyə işləri üzrə direktor müavini işlədiyi Şuşa şəhər **1 saylı** tam orta

məktəbin kollektivi Yunis müəllimin onlara göstərdiyi qayğını böyük məmnuniyyətlə qeyd edirlər. O, təqaüddə olmasına baxmayaraq, bizimlə daim əlaqə saxlayır.

Mən, geniş, dərin, zəngin pedaqoji düşüncə sahibi olan Şuşa Rayon Təhsil Şöbəsinin fəxri, xeyirxah insan Yunis müəllimə uzun ömür, səmərəli yaradıcılıq və sağlam həyat arzulayıram.

**Çox yaxşı deyiblər: - Şöhrətdir, şərəfdir zirvə dağ üçün!**

***Təvəkkül Əliyev,***
***Şuşa Rayon Təhsil Şöbəsinin müdiri,***
***əməkdar müəllim***

# G İ R İ Ş

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra tariximizin ağ ləkələrinin aradan qaldırılması və sovet dövrünün tarix elmi qarşısında qoyduğu tələblərdən irəli gələn səhvlərin, tendensiyalı mülahizələrin, bu sahədə əvvəllər yol verilmiş qüsurların ləğvi sahəsində böyük və məqsədyönlü işlər görülmüşdür.

Tarixi həqiqətlərə söykənməklə, milli dövlətçilik tariximizin ayrı-ayrı inkişaf mərhələlərində mütərəqqi, təqdirəlayiq nə varsa, onların hamısından ətraflı dərəcədə faydalanmaqla tariximizin öyrənilməsi sahəsində mövcud olan boşluqları doldurmaq olar. Bu mənada Azərbaycan tarixində mühüm mənbə olan **«Qarabağnamələr»in** tarixi baxımdan tədqiqi son dərəcə vacib və əvəzsizdir. Son illərdə Azərbaycanın tarixçi alimləri tərəfindən Qarabağ xanlığına aid müxtəlif mənbələrin hazırlanıb nəşr edilməsinə, ayrı-ayrı müəlliflər tərəfindən xanlığın sosial-iqtisadi və mədəni həyatına dair əsərlərin yazılmasına baxmayaraq, bütövlükdə XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə kimi mövcud olmuş Qarabağ xanlığının tarixi «Qarabağnamələr» əsasında müstəqil şəkildə araşdırılmamışdır.

**«Qarabağnamələr»** Qarabağ xanlığının tarixini öyrənmək üçün mühüm tarixi mənbədir. Bu xanlığın tarixinin və ümumilikdə Azərbaycan tarixinin öyrənilməsində «Qarabağnamələr»in mövcud əsər üçün tədqiqat obyekti kimi seçilməsi də təsadüfi deyildir. Əvvəla Qarabağ xanlığı Şimali Azərbaycan xanlıqları içərisində siyasi, iqtisadi və mədəni inkişafının xüsusiyyətlərinə görə seçilirdi. Digər tərəfdən isə Azərbaycanın

XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərini əhatə edən mürəkkəb tarixi dövrünün tam və obyektiv mənzərəsini Qarabağ xanlığının sosial-iqtisadi və siyasi həyatını öyrənmədən yaratmaq mümkün deyildir.

Əsası 1747-ci ildə qoyulmuş və 1822-ci ilədək mövcud olmuş Qarabağ xanlığının dövlətçilik tariximizdə rolu və yerinin müəyyənləşdirilməsi çox vacib elmi və siyasi əhəmiyyətə malik məsələlərdən biridir. Qarabağ xanlığının dövlətçilik təcrübəsinin və inzibati idarəetmə sisteminin öyrənilməsinin XX əsrin sonlarında yenidən öz dövlətçiliyini bərpa etmiş xalqımızın hazırkı inkişaf mərhələsində milli dövlət quruculuğu işi üçün də böyük əhəmiyyət kəsb edir.

Torpaqlarımızın 20 faizini, o cümlədən Qarabağın böyük hissəsini işğal etmiş ermənilərin bu ərazilərin tarixən onlara məxsus olması haqqında qeyri-obyektiv qondarma iddialarının əsassızlığını sübut etmək, onların beynəlxalq ictimai fikri və siyasi iradələri çaşdırmağa yönəlmiş cəhdlərini puça çıxarmaq üçün Azərbaycan torpağının ayrılmaz tərkib hissəsi kimi Qarabağ bölgəsinin, Azərbaycan dövləti kimi Qarabağ xanlığının tarixinin tutarlı qaynaqlar, o cümlədən «Qarabağnamələr» əsasında obyektiv və gerçəkliyə uyğun şəkildə öyrənilməsi, şübhəsiz ki, çox aktualdır.

Tarixşünaslığımızda «Qarabağnamələr» və digər salnamələr əsasında Qarabağ xanlığının tarixi ayrıca problem şəklində indiyə qədər öyrənilməsə də ayrı-ayrı tədqiqatlarda müxtəlif mövzular ilə bağlı olaraq bu problemə toxunulmuşdur. Qarabağ xanlığının siyasi quruluşunu öyrənməyi qarşısına məqsəd qoymuş Ə.B.Şükürzadənin dissertasiya işi (137) xanlığın tarixinin öyrənilməsində ilk addımlardan biri kimi qiymətləndirilə bilər. Qarabağ xanlığının iqtisadiyyatını araşdıran iqtisadçı alim M.M.Mustafayev öz dissertasiyasında (114) «Qarabağnamələr»dən və Qarabağ tarixinə aid müxtəlif əsərlərdən geniş istifadə etmişdir. Müəllif bütövlükdə Qarabağın tarixini öyrənməyi qarşısına məqsəd kimi qoymadığından xanlığın iqtisadi tarixini tədqiq etməklə kifayətlənmişdir.

G.N.İsmayılova XIX-XX əsrin əvvəllərində Şuşa şəhərinin tarixinə həsr etdiyi dissertasiya işində (98) «Qarabağnamələr»dən istifadə etsə də, bütövlükdə həmin tədqiqatda başlıca yeri məhz xanlığın paytaxtı olmuş bu şəhər-qalanın tarixi tutur.

S.Kərimova və V.Umudovun 90-cı illərdə müdafiə etdikləri namizədlik dissertasiyalarında bizi maraqlandıran məsələlərə də qismən toxunulmuşdur (40;73). Y.Ağamalının 2002-ci ildə müdafiə etdiyi dissertasiya işinin (5) tədqiqat obyekti yerli mənbələr əsasında Qarabağ xanlığının tarixini araşdırmaq olmadığından müəllif daha çox xanlığın xarici siyasətini, qonşu xanlıqlar və dövlətlərlə münasibətlərini diqqət mərkəzinə çəkmişdir.

Z.Ə.Hacıyeva bu yaxınlarda müdafiə etdiyi namizədlik dissertasiyasında (25) Qarabağ xanlığının tarixini bütövlükdə araşdırmamış, xanlığın sosial iqtisadi münasibətlərini və dövlət quruluşu təhlil etməklə kifayətlənmişdir.

Görkəmli şərqşünas və tarixçi alim İ.P.Petruşevski Qarabağ xanlığının tarixinə aid ayrıca bir tədqiqat həsr etməsə də, onun bir sıra araşdırmalarında (123; 124) Azərbaycanın XVIII-XIX əsrlər tarixinin çox mühüm sosial-iqtisadi, və siyasi problemlərinə ətraflı şəkildə toxunulmuşdur.

H.Ə.Dəlili tariximiz üçün çox qiymətli olan əsərində (15) Azərbaycanın cənub xanlıqlarının tədqiqi ilə kifayətləndiyindən burada Qarabağ xanlığının tarixinə diqqət yetirilməmişdir.

Azərbaycanın sovet tarixçilərindən E.A.Paxomovun və Ə.S.Ubaydulinin əsərlərində xanlıqların sosial-iqtisadi strukturu, sosial-silki quruluşu və xüsusilə torpaq sahibliyi formaları haqqında çox qiymətli məlumatlar vardır (125).

V.N.Leviatovun Azərbaycanın XVIII əsr tarixinə həsr etdiyi monoqrafiyasında (109) Qarabağ xanlığı haqqında müəyyən məlumatlarla qarşılaşırıq. H.B.Abdullayevin əsərlərində (82; 83) Azərbaycanın xanlıqlar dövrünün sosial-iqtisadi və hərbi-siyasi xarakterli problemlərinə toxunulsa da, Qarabağ xanlığı ayrıca tədqiq olunmamışdır. Müəllif daha çox Şimal – şərqi Azərbaycan torpaqlarına, Quba xanlığına daha çox diqqət

yetirmiş və Azərbaycanın Rusiya ilə qarşılıqlı münasibətlərini dərindən öyrənməyə çalışmışdır.

Tarix elmləri doktoru K.K.Şükürovun son vaxtlar apardığı elmi araşdırmaların yekunu kimi 2004-cü ildə çap etdirdiyi monoqrafiyada bütövlükdə Azərbaycanın əhali problemləri mövcud mənbələr və ədəbiyyat əsasında hərtərəfli şəkildə təhlil olunmuşdur (72). Müəllif Qarabağ xanlığını xüsusi tədqiqat obyekti kimi seçməsə də, xanlığın demoqrafiya problemlərinə, o cümlədən çar Rusiyası tərəfindən bölgəyə ermənilərin köçürülməsi məsələsinə ümumi şəkildə toxunmuşdur.

M.İ.Abdullayevin araşdırmalarında (2; 3) Şimali Azərbaycan xanlıqlarının, o cümlədən Qarabağ xanlığının aqrar quruluşu torpaq və vergi münasibətləri, bölgəyə ermənilərin köçürülməsi və onun nəticələri, rus müstəmləkəçiliyi ətraflı şəkildə təhlil olunmuşdur.

R.S.Hüseynlinin Azərbaycan ruhaniliyinin tarixinə həsr etdiyi monoqrafiyasında (30) xanlıqlar çağında ruhani zümrəsinin cəmiyyətin həyatında və idarəetmə sistemində yeri və rolunun müəyyənləşdirilməsinə cəhd göstərilmişdir. Monoqrafiyada irəli sürülən elmi müddəalardan Qarabağ xanlığında ruhani zümrəsinin statusunun öyrənilməsi üçün və analoji təhlillər aparılarkən istifadə olunmuşdur.

S.Ə.İbişovun 2004-cü ildə çap etdirdiyi əsasən demoqrafik tədqiqat xarakterli monoqrafiya (35) Quba xanlığının əhalisinin öyrənilməsinə həsr olunmuşdur. Müəllifin bütün tədqiqat boyu gəldiyi elmi nəticələr, bəhrələndiyi yanaşma üsulları Qarabağ xanlığının əhali problemlərinin tədqiqi zamanı bizim üçün də çox faydalı olmuşdur.

R.Göyüşovun 1993-cü ildə nəşr etdirdiyi əsərində (24) əsas diqqət Qarabağın qədim tarixinin öyrənilməsinə verilmişdir. Digər müəllif Q.Ə.Qeybullayev isə öz əsərində (44) Qarabağın etnik tarixini öyrənilməsinə daha geniş yer vermişdir. Hər iki müəllif «Qarabağnamə»lər əsasında Qarabağın bütün tarixinin kompleks şəkildə öyrənilməsi məsələsini qarşıya məqsəd

kimi qoymamışdılar. Mərhum Ə.Hüseynzadənin tarixşünaslıq səpgisində yazdığı çox qiymətli əsərində (33) «Qarabağnamə»-lərin tariximiz üçün bir mənbə kimi əhəmiyyətinin və yerinin müəyyənləşdirilməsinə cəhd göstərilmişdir. XX əsrin 90-cı illərində Z.M.Bünyadov, Y.B.Yusifovun elmi redaktorluğu ilə və S.S.Əliyarlının elmi redaktəsi altında çapdan çıxmış Azərbaycan tarixi dərsliklərində (8;9) Qarabağ xanlığının tarixinə kifayət qədər geniş yer verilmişdir. Həmin kitablardakı materiallar mövzuya aid olan bir çox problemlərin aydınlaşdırılması zamanı çox gərəkli olmuşdur.

İstər XX əsrin 50-ci illərinin sonu – 70-ci illərinin əvvəllərində nəşr olunmuş üçcildlik «Azərbaycan tarixi»nin birinci (B., 1968), istərsə də son illərdə nəsri başa çatdırılmış yeddicildlik «Azərbaycan tarixi»nin üçüncü cildində (B., 1998), habelə Azərbaycan MEA-nın müxbir üzvü, mərhum M.Ə.İsmayılovun tərtib etdiyi «Azərbaycan tarixi»ndə Qarabağ xanlığının sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatı tarixinə ümumi şəkildə nəzər salınmış, bu dövlətin həyatından bir sıra mühüm olaylar qabarıq şəkildə işıqlandırılmışdır.

İranda da son vaxtlar bir sıra müəlliflər fars dilində Qarabağ xanlığının tarixinə aid əsərlər yazmışlar. Həmin əsərlərdə «Qarabağnamə»lərdən də istifadə edilmişdir. **Əlirza Rahvər Diqvan, Pərviz Hare Şahmers** birlikdə yazdıqları «Tarix-i Qarabağ» adlı əsərdə (140) bu bölgənin tarixi keçmişi, Qarabağ xanlığının yaranması, bu xanlığın hərbi-siyasi prblemlərini ümumi səpkidə şərh etmişlər.

Məhəmməd Hafizzadə də fars dilində 2001-ci ildə Təbrizdə nəşr etdirdiyi «Qarabağ» adlı əsərində Qarabağ xanlığına ayrıca bölmə həsr etmişdir. Müəllif qeyd edir ki, «**Qarabağ mahalı tayfaları mənşə etibarilə albanlar olmuşlar... Albaniyanın şərq sahili əhalisi heç vaxt erməni ola bilməzdi və bu ərazi Ermənistan da sayıla bilməzdi...» Tarixi sənədlər göstərir ki, Gülüstan və Türkmənçay müqavilələrindən öncə Dağlıq Qarabağ əhalisinin çox az hissəsini xristianlaşdırılmış albanların azsaylı nəsilləri təşkil edirdi. Müəllif qeyd edir ki,**

**1803-cü ilin sonu 1804-cü ilin lap əvvəlində Gəncənin rus ordusu tərəfindən işğal edilməsində Gəncədə yaşayan ermənilərin, xüsusilə xəyanətkar erməni keşişi Aramın böyük rolu olmuşdur (142, s.74)**.

**Məhəmməd Hafizzadə daha sonra qeyd edir ki, ruslar məhz xəyanətkar ermənilərlə işbirliyi qurmaqla uğurlar qazandılar. Müstəmləkəçilər müsəlman azərbaycanlıları soyqırıma məruz qoyub, onların doğma torpaqlarını işğal edib, erməniləri həmin ərazilərdə yerləşdirdilər. Xain erməniləri onların vətəni sayılmayan ərazidə sakin etdilər. Müəllif Şuşa qalasının rus ordusu tərəfindən işğal edilməsində Abbas Mirzənin etibar etdiyi erməni Georqun və erməni keşişinin xəyanəti barədə ətraflı məlumat verir (142, s.79)**.

Məhəmməd Hafizzadə «Qarabağnamə»lərdən demək olar ki, istifadə etməmiş, siyasi məsələləri ön plana çəkərək Qarabağ xanlığının sosial-iqtisadi tarixinə əsərində az da olsa yer verməmişdir.

Yuxarıda gətirilmiş tarixşünaslıq xülasəsi göstərir ki, Qarabağın tarixinin öyrənilməsi sahəsində indiyə qədər tarixşünaslığımızda bütöv bir sıra işlər görülmüş və bir çox elmi uğurlar qazanılmışdır. Lakin tarixşünaslığımıza salınmış nəzər həm də əyani surətdə göstərir ki, indiyə kimi «Qarabağnamə»lərin əsasında Qarabağın tarixi müstəqil elmi problemi kimi araşdırılmamışdır.

Mövcud əsərin metodoloji əsasını hər bir tarixi qaynağa, hər bir araşdırmaya obyektiv tarixi mövqedən yanaşmaq, tarixi proseslərin əzəli qanunauyğunluqlarını nəzərə almaq təşkil etmişdir. Əsərdə müqayisəli təhlil və ümumiləşdirmələrdən istifadə olunmaqla əsasən «Qarabağnamə»lər, eləcə də digər mötəbər məxəzlər əsasında Qarabağ xanlığının obyektiv və dolğun tarixini yaratmağa çalışmışıq.

Əsərin mənbə bazasını «Qarabağnamə»lər adı altında tanınan və yerli müəlliflər tərəfindən yazılan salnamə tipli əsərlər təşkil edir. Bu salnamələr içərisində **Mirzə Adıgözəl bəyin**

**1845-ci ildə yazdığı «Qarabağnamə» əsəri** (54) xüsusi yer tutur.

Əsər Qarabağ xanlığının yaranması, xanlığın daxili, siyasi həyatı və xarici siyasəti ilə bağlı olan bir sıra mühüm məsələlərin öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

**Mirzə Camal Cavanşir Qarabağinin 1847-ci ildə qələmə aldığı «Qarabağ tarixi»** (55) əsəri Pənah xanın Qarabağ xanlığını yaratmaq uğrunda apardığı mübarizənin, İbrahimxəlil xanın xanlığın möhkəmləndirilməsi sahəsində gördüyü tədbirlərin, xanlığın digər xanlıqlar və qonşu dövlətlərlə münasibətlərinin, xan xəzinəsinin gəlir mənbələrinin və s. məsələlərin öyrənilməsi üçün çox qiymətli mənbələrdən biridir.

**Əhməd bəy Cavanşirin «Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair» adlı əsərində** (17) Pənahəli xan və İbrahimxəlil xanın dövründə xanlıqda baş vermiş hərbi – siyasi hadisələr, Ağa Məhəmməd Qacarın Qarabağa yürüşləri və onların nəticələri, Rusiya ilə münasibətlər, 1805-ci il Kürəkçay müqaviləsi ilə xanlığın Rusiyanın tərkibinə qatılması kimi məsələlərə daha çox diqqət yetirilmişdir.

**Mirzə Yusif Qarabağinin 1854-cü ildə yazdığı «Tarixi Safi» əsəri** (58) Gəncə və Qarabağ xanlarının şəcərəsi, İbrahimxəlil xanın qonşu xanlıqlarla qarşılıqlı münasibətləri, xanlıqlar uğrunda Rusiya ilə Qacarlar arasında baş vermiş müharibələr, Xəmsə məlikləri, Türkmənçay sülh müqaviləsi kimi bir sıra mühüm məsələlərin öyrənilməsi üçün qiymətli mənbələrdən biridir.

**Mirmehdi Xəzani «Kitabi-tarixi Qarabağ» əsərində** (53) bu xanlığın sərhədləri, təsərrüfat həyatı, şəhərləri, mahalları, müdafiə tikililəri, xarici siyasəti və sair məsələlər haqqında digər salnaməçilərlə müqayisədə daha dolğun məlumatlar vermişdir.

**Rzaqulu bəy Mirzə Camal oğlunun «Pənah xan və İbrahim xanın hakimiyyətləri və o zamanın hadisələri» adlı əsəri** (67) Qarabağın təbii – coğrafi şəraiti, şəhərləri, qraf

V.Zubovun başçılığı ilə rusların 1796-cı ildə Şimali Azərbaycana işğalçı yürüşü və sair məsələlər əsərin əhatə etdiyi problemlərin işıqlandırılmasında mühüm rol oynamışdır.

**Mirzə Rəhim Fənanın «Tarixi-cədidi Qarabağ» əsərində** (57) yığcam şəkildə Qarabağ ərazisinin hüdudları, xanlığın daxili həyatı, Rusiya ilə Qarabağ xanlığı arasında bağlanmış Kürəkçay müqaviləsi, Pənah xanın və onun oğlu İbrahimxəlil xanın xarici siyasəti və sair məsələlərə daha çox diqqət yetirilmişdir.

**M.Baharlının 1888-ci ildə yazdığı «Əhvalati-Qarabağ» əsərində** (10) Qarabağın siyasi tarixindən daha çox onun tarixi məişətinə, o cümlədən adət-ənənələrinə, etnoqrafiyasına, habelə tarixi şəxsiyyətlərinə və memarlıq abidələrinə diqqət yetirilmişdir. **Həsən İxfa Əlizadə «Şuşa şəhərinin tarixi» adlı əsərində** (27) bu şəhərin bina olunmasından, qalaların tikilməsindən, Pənahəli xanın və İbrahimxəlil xanın hakimiyyətləri dövründə baş vermiş mühüm hərbi – siyasi hadisələrdən, habelə Şuşa şəhərinin tarixi abidələrindən və mədəni həyatından bəhs olunmuşdur.

XIX əsrin görkəmli tarixçisi **Abbasqulu Ağa Bakıxanovun 1841-ci ildə yazıb başa çatdırdığı «Gülüstani-İrəm» əsəri** (11) də Qarabağ xanlığının tarixinin öyrənilməsi üçün mühüm mənbələrdən biridir. 1823-cü ildə Qafqazın baş komandanı A.P.Yermolov tərəfindən Qarabağ əyalətini tədqiq edən komissiyanın üzvü təyin olunan A.A.Bakıxanov Qarabağın tarixi, coğrafiyası haqqında topladığı materialları çox qiymətli əsərində diqqətlə təhlil etmişdir. «Gülüstani-İrəmin» sonuncu – V fəslində Qarabağ xanlığının 1747-ci ildən 1813-cü ilədək siyasi tarixinin bir sıra mühüm məsələləri, digər xanlıqlarla müqayisəli şəkildə tədqiq olunmuşdur.

Qarabağ xanlığının tarixi haqqında «Qarabağnamələr»də və digər salnamələrdə əks olunmuş zəngin faktoloji materialları müqayisəli şəkildə təhlil etmək üçün dövrün digər mühüm mənbələrinin də tədqiqata cəlb olunması olduqca vacibdir. Belə mənbələrdən biri olan Qafqaz Arxeoqrafiya Komissiyasının top-

ladığı və Adolf Berjenin redaktorluğu ilə çap edilmiş sənədlər toplusunda (85) bütün Cənubi Qafqaz, habelə Şimali Azərbaycan, o cümlədən Qarabağ xanlığının XIX əsr tarixi haqqında çox qiymətli məlumatlar vardır. Toplunun ikinci, üçüncü, beşinci, altıncı və yeddinci cildlərində Qarabağ xanlığı ilə Rusiya arasında qarşılıqlı münasibətlər, Sisianov və digər Rusiya müstəmləkəçilərinin mənfur siyasəti, 1805-ci ildə bağlanmış Kürəkçay müqaviləsi, müqavilənin hər iki tərəfdən yerinə yetirilmə vəziyyəti, xanlığın ləğv edilməsi və əyalətə çevrilməsi, Qarabağ əyalətinin 1822-ci ildən sonrakı rus idarəçiliyi dövründə vəziyyəti, əhalisi, təsərrüfatı və digər məsələlər haqqında çox zəngin materiallara rast gəlinir. Həmin materialların öyrənilməsi, Qarabağa aid salnamələrdəki məlumatları dəqiqləşdirməyə və tamamlamağa, həmçinin müqayisəli təhlil aparmağa imkan verir. Toplu eyni zamanda Qarabağ tarixinin salnamələrdə verilən xronologiyasını bir qədər də genişləndirməyə və hadisələrin sonrakı axarını öyrənməyə imkan verir.

1823-cü ildə Qafqazın baş hakimi Yermolovun göstərişi ilə xanlıqdan Rusiyanın əyalətinə çevrilmiş Qarabağda keçirilən siyahıyaalmanın materialları (122) xanlığın əhalisinin sayı, sosial – silki və etnik tərkibini öyrənməyə, bütövlükdə demoqrafik prosesləri izləməyə, digər xanlıqlarla müqayisələr aparmağa imkan verir. Siyahıyaalma materialları Qarabağ xanlığının şəhər və kəndləri, torpaq sahibliyi formaları, maliyyə – vergi sistemi və s. məsələlərin də öyrənilməsi baxımından çox əhəmiyyətlidir.

Əsərdən Azərbaycan tarixi üzrə müxtəlif ümumiləşdirici əsərlərin, orta, orta ixtisas və ali məktəb dərsliklərinin yazılmasında istifadə oluna bilər. Əsərin materialları, ümumiləşdirmələri və nəticələri şagird və tələbələr içərisində vətənpərvərlik tərbiyəsi işinin təşkili üçün faydalı ola bilər. Əsərin faktik materialları mənfur erməni qonşularımız və onların havadarlarına qarşı təbliğat müharibəsi üçün çox qiymətli, damarlarında azərbaycanlı qanı axan hər bir oxucu üçün çox maraqlıdır.

Əsər giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I BÖLMƏ

## QARABAĞIN KEÇMİŞ TARİXİ DÖVRÜNƏ BAXIŞ

**Qarabağ Azərbaycan Respublikasının əzəli və qədim torpağıdır**. **«Qarabağ Azərbaycanda tarixi vilayətdir. Kiçik Qafqaz dağlarından başlayaraq Kür və Araz çayları arasındakı əraziləri əhatə edir»**. **(1, səh. 45).** Bildiyimiz kimi Azərbaycanın əlverişli iqlim şəraiti, təbiəti, onun ərazisində ən qədim insanın yaranmasına və tədriclə formalaşmasına əlverişli şərait yaratmışdır. Tarixi qaynaqlar sübut edir ki, Azərbaycan Respublikasının Kür və Araz çayları arasında yerləşən ərazisi ən qədim insanların yaşayış məskəni olmuşdur. Qarabağ ərazisində yerləşən **«Füzuli şəhəri yaxınlığında dünyada ən qədim insan məskənlərindən olan AZIX, TAĞLAR mağaralarının» mövcud olması** dediklərimizi əyani surətdə sübut edir. **(2, s.8)**

**«Azıx mağarası Füzuli şəhərindən 14 km şimal qərbdə yerləşir. Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşir. Üst yura (Yura kelt dilində meşə deməkdir) yaşıl əhəngdaşından əmələ gəlmişdir. Mağaranın bir-birindən dar keçidlərlə birləşən 6 salon var. Mağaranın 2 tərəfdən giriş yeri var. Mağarada 10 təbəqə aşkar edilmişdir». (6, s. 183)**

Azıx mağarası dünyada ibtidai insanın məskən saldığı ən qədim insan düşərgələrindən biridir. Azıx mağarasının faunası olduqca zəngin və maraqlıdır.

Azıx mağarasında arxeoloji qazıntılar 1968-ci ildə arxeoloq Məhəmmədəli Hüseynov tərəfindən aparılmışdır. «Qazıntılar zamanı Azıx mağarasında qədim insanın alt çənə sümüyünün bir hissəsi tapılmışdır (7, s. 183). Buna azıxantrop

adı verilmişdir. Araşdırmalar sübut etmişdir ki, «Azıxantrop təqribən 250-300 min il əvvəl yaşamışdır». (8. səh. 183)

Qarabağın müəyyən bitr hissəsi vaxtilə Uti adlandırılmışdı. Bu həmin ərazidə məskunlaşan Uti tayfalarının yaşadığını sübut edir. **«Utilər də qədim alban tayfalarından biri olmuş və qarqarlara nisbətən daha geniş ərazidə məskunlaşmışdılar (2, s.6)**. Qarqarlar da Qarabağın etnik tərkibinə daxil idilər». Son antik və ilk orta əsrlərdə Qarabağın bir hissəsi Qarqarlar ölkəsi adlandırılmışdır. (2, s.5)

Mənbələrdə qeyd olunur ki, Qarabağın ərazisi Azərbaycanın qədim dövlətlərindən biri olan Albaniyanın ərazisinə **Uti və Arsax vilayətləri də daxil idi. «Ərəb işğalından sonra əsasən düzənlikdə yerləşən Uti Arran, Arsax isə Agvan adlandırılmağa başlandı». (9, s. 22)**

Tarixən məlumdur ki, Albaniyanın Kür çayından cənubdakı ərazi dörd vilayətə - Arsax, Uti, Paytakaran və Sünik vilayətlərinə bölünürdü. (9, s. 22)

Yeri gəlmişkən bir neçə kəlmə Arsax haqqında. **«Arsax erməni adı deyildi… Ona görə ki, … burada heç vaxt bir erməni olmamışdır… Arsax Türk mənşəlidir və «Dünyanın qərb hissəsi deməkdir» (11, s. 16)**

Arsax Qarabağın Dağlıq və Mil düzünün bir hissəsini əhatə edirdi. Arsax 12 əyalətə bölünürdü. Bunu alban tarixçisi M.Kalankatlı və VII əsr coğrafiyaşünasları da təsdiq edirlər. Onlar da Arsaxın əhalisini bir mənalı olaraq albanlardan ibarət olduğunu təsdiq edirlər. Arsax I-VI əsrlərdə Albaniya Arşagirdlərinin, VI-VIII əsrlərdə isə Mehranilərin hakimiyyəti altında olmuşdur. IX əsrdə ərəblər Mehranilərin hakimiyyətinə son qoyaraq Arsaxı-Qarabağı Xilafətin tərkibinə daxil etdilər. (6, s. 405)

Albaniya dövləti təxminən, tarixi mənbələrdə göstərildiyi kimi e.ə. IV əsrdən eramızın VIII əsrlərində tarix səhnəsində olmuşdu. Deməli, Qarabağ Azərabycan Albaniya dövlətinin ayrılmaz tərkib hissəsi idi və burada məskunlaşan etnoslar – utilər, sovdeylər, qarqarlar, saklar və digər tayfaları yaşayırdılar.

Etnoqrafçı alimlər Qarabağın etnik tərkibi haqqında dəyərli tədqiqat əsərləri yazmışlar. Azərbaycan etnoqrafçı alimlərinin heç biri qədim dövrlərdə Qarabağ torpağında bir nəfər də olsun erməni ünsürünün olmasını aşkara çıxara bilməmişdi.

Qarabağın etnik tərkibi haqqında tədqiqatçı-alim Q.Ə.Qeybullayevin dəyərli fikirləri üzərində dayanmaq daha faydalı olardı.

**«Etnoqrafçı və toponimçi alimlərin böyük əksəriyyəti Qarabağın etnik tərkibi haqqında məlumat verərkən eramızın təxminən I minilliyində mövcud olmuş etnik vəziyyəti əsas tuturlar. Ona görə ki, Azərbaycan xalqının yaranması və formalaşması prosesi məhz bu minilliyin daxilində başa çatmışdır. Başqa sözlə desək, bu minillikdə yaşamış tayfalar Azərbaycan xalqının soykökünü təşkil edirlər… Eramızın I minilliyində yaşamış və xalqımızın etnogenezində iştirak etmiş tayfaların bəzilərinin kökləri eradan əvvəlki minilliklərdəki etnik birləşmələrlə bağlıdır». (6, s. 58)**

Qarabağın qədim əhalisinin etnik tərkibindən söhbət açarkən, bu sahədə mövcud tarixi şəraiti də mütləq nəzərə almaq lazımdır. Bu sahədə tarixi məlumat demək olar ki, yox dərəcəsindədir. Kür çayından cənubda yaşayan qədim əhali haqqında ilkin tarixi məlumatlar qədim müəlliflərin əsərlərində əks olunmuşdur.

**«Eramızın I minilliyinə aid mənbələrdə Kürdən cənubdakı ərazidə yalnız alban, sak, qarqar, sode və uti adları ilə məlum olan tayfalar haqqında məlumat verilir. Qarabağda erkən və orta əsrlərdə türkdilli Aran, Tərtər, Donqar, Peçenek, Hun, Qoros (Xoros), Vərəndə, Tuğ və digər tayfalar yaşamışlar» (6, s.58)**

Məlum olduğu kimi Qarabağda alban tayfalarının müəyyən hissəsi məskunlaşmışlar. Bu şübhəsizdir. Ona görə ki, Qarabağ Albaniya dövlətinin tərkib hissəsi idi. «Dağlıq Qarabağda «Alban» etnosunu əks etdirən toponimlərin indiyə

kimi qalması bunu aydın surətdə göstərir». (6, s. 59)

**Qarabağın köklü əhalisi türkdilli – qarqarlar, hunlar, qoroslar, peçeneklər, qıpçaklar və xəzərlər idilər. (6, s. 126)**

**Bütün bunlar göstərir ki, «Arsaxın-Qarabağın yerli əhalisi Qafqazdilli tayfalar və ya da ermənilər olmamışlar. Burada həmişə azərbaycanlıların ulu babaları yaşamışlar (6, s. 126)».**

Arsax sözünün mənası haqqında yuxarıda fikir söyləmişik. Bir daha qeyd etmək yerinə düşər ki, **Arsaq-türk dilli xalqların sözüdür**. Arsaq erməni sözü deyil, bu sahədə elmdə də heç bir məlumat da yoxdur. Qarabağda ermənidilli toponimlər, daha dəqiq desək, ermənilərin yaşayış məntəqələrinin adları da yoxdur. **«Tarixdə iki böyük hadisə – alban xristian kilsəsinin erməni kilsəsinə tabe edilməsi və albanların böyük əksəriyyətinin İslam dinini qəbul etməsi vahid alban xalqının taleyini başqa cür həll etdi: - albanlar dini mənsubiyyətə görə iki düşmən hissəyə parçalandı (6, s. 134).**

Beləliklə də Dağlıq Qarabağın indi «erməni» adlanan əhalisinin ulu əcdadları haqqında tarixi həqiqəti deyə bilərik: **«Onların ulu əcdadları məhz xristian albanlarıdır». (6, s. 139)**

Qarabağda yaşayan ermənilərin damarlarından axan qan xristian albanlarının qanıdır. Faktlar bir daha sübut edir ki, vətəni, paytaxtı, mədəni irsi, siyasi sistemi olmayan erməni ünsürləri tarixdə yadda qalan şəxsiyyət yetirə bilməmişdir.

İndi erməni ünsürləri utanmadan Dağlıq Qarabağın avtoxton, yəni yerli əhali olduqlarını bütün dünyaya bildirmək üçün hər cür alçaqlığa, yalan və iftiralara əl atırlar. Onların bu əməllərini təkzib edən dəlilləri yuxarıda göstərdik. Daha bir tarixi faktı qeyd etmək yerinə düşərdi: - **«1727-ci ildə Dağlıq Qarabağın 5 mahalına mənsub kəndlərin tərtib olunmuş siyahısı erməni yalanlarını sübuta yetirən olduqca tutarlı dəlildir. Talış və ya Gülüstan, Xaçın, Çiləbörd, Vərəndə və Dizaq mahallarında yerləşən 196 kənddən yalnız erməncə**

**izah oluna bilən iki kənd adı var: - Arçazor və Noraşen- «Təzəkənd». Bütün bunlar bir daha sübut edir ki, ermənilər Qarabağa çox-çox sonralar gəlmiş və xristian albanlarla qaynayıb qarışmışlar (6, s. 149-151).**

Erməni ünsürlərinin Azərbaycan ərazilərinə, o cümlədən də Dağlıq Qarabağa kütləvi surətdə köçürülməsi **1826-1828-ci illər Rus-İran müharibəsi ilə əlaqədardır. Bu müharibəni yekunlaşdıran Türkmənçay sülh müqaviləsi** Rusiya imperiyasına geniş siyasi səlahiyyətlər verdi. Bundan istifadə edən Rusiya imperiyası özünə siyasi dayaq yaratmaq üçün İran və Osmanlı Türkiyəsindən ermənilər kütləvi sürətdə Qərbi Azərbaycan ərazisinə, yəni İrəvan xanlığı torpaqlarına və Qarabağa gətirib məskunlaşdırmağa başladı. Bu faktı Rusiya imperiyasının məmurları da təsdiq edirlər. **«Türkməkçay» sülh müqaviləsi əsasında 8249 erməni ailəsi Zaqafqaziyaya köçürülüb İrəvan xanlığı ərazisində və QARABAĞ xanlığı ərazilərində yerləşdirildi. Ümumiyyətlə 1828-ci il 10 fevral Türkmənçay sülh müqaviləsindən sonra, dəqiq desək, 1830-cu ilə kimi Rusiya imperiyası Zaqafqaziyaya İrandan 40 min, Osmanlı Türkiyəsindən isə 84 min erməni ailəsini köçürüb yerləşdirdi. Onların böyük əksəriyəti yuxarıda göstərildiyi kimi Azərbaycan torpaqlarında – İrəvan və Qarabağ xanlıqları ərazilərində yerləşdirildilər. (7, s. 59)**

**«1908-ci ildə Zaqafqaziyaya gətirilən ermənilərin sayı 1 300 000 çatmışdı» (7, s.60)**

Qarabağ əhalisinin maddi təsərrüfat, mədəniyyəti, inam və etiqadlarına aid zəngin etnoqrafik məlumatları təhlil edib, tarixi mənbələrə istinad edən İ.P.Petruşevski yazırdı:

**«Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mərkəz olub, Azərbaycan xalqına məxsusdur». (8, s.12)**

Qarabağın etimologiyası haqqında nə demək olar? Bu barədə müxtəlif mülahizələr mövcuddur. Mülahizə söyləyənlərin hamısı Qarabağı ölkə və ya düzənlik kimi təsəvvür etmiş «bağı» bəzən «meşə» kimi qəbul etmişlər.

**«Fərziyyə müəlliflərini çaşdıran «qara» sözü olmuşdur. Toponimçi tədqiqatçıların əksəriyyəti «qara»nı rəng kimi başa düşdüklərindən, Qarabağı «qara üzümlü», «qara yarpaqlı» bağ kimi izah etməyə səy göstərmişlər. Respublikamızın toponimiyasında qara ilə gələn coğrafi adların tədqiqi qaranın vaxtilə «rəng», «ağır», «qərb», «böyük», «qoçaq», «sıx», «qalın», «çoxluq» mənalarında işlədildiyi müəyyən edilmişdir. (9, s.14)**

Qarabağ toponimiyası haqqında Azərbaycan toponimçi alimlərinin əldə etdikləri elmi nəticələrə müraciət etmək daha faydalı olardı.

Tədqiqatçı toponimçi alim Ş.Sədiyev **«QARABAĞIN»** mənasından bəhs edərkən yazır:

**«Qarabağ» sözünün dilimizə daxil olduğu əsri dəqiq söyləmək çətindir. Lakin Azərbaycan tarixinə aid mənbələrdə onun VII əsrdən bu və ya digər fonetik dəyişmələrdə işləndiyini deyə bilərik. Bu söz qədim tarixi kitablarda müxtəlif şəkillərdə yazılır. Çox güman ki, belə kitabların müəllifləri Qarabağ sözünü bəzən dəyişərək öz milli tələffüzlərinə uyğunlaşdırmış, bəzən də başqa xalqların Qarabağa verdikləri adlarla əvəz etmişlər.**

**… Qarabağ, Azərbaycanın müəyyən coğrafi hissəsinə verilmiş tarixi –ənənəvi addır. O, Azərbaycan dilinə məxsus qara və bağ sözlərindən ibarətdir. Mənaları asan anlaşılan qara sifəti və bağ ismi birləşərək tərkibcə mürəkkəb bir söz - Qarabağ sözünü əmələ gətirmişdir.**

**V.Liokqobitov «Qafqaz arxasındakı rüs mülklərinin icmalı» əsərində göstərir ki, meşələrinə görə zəngin olan bu ölkə… Azərbaycan dilində qara bağ mənasını verən «Qarabağ» adını almışdır. Q.Qan adlı başqa müəllif yazır ki, Qarabağ – qara və bağ sözlərindəndir. Qara yarpaqlı (həmyaşıl) bağlar deməkdir. M.Bodnarski «Coğrafi adlar lüğəti»ndə qeyd edir ki, Qarabağ –qara yarpaqlı bağlar ölkəsi deməkdir. Müasir elmi ədəbiyyat həmin fikirləri qəbul etmişdir. (10, s.15)**

Onu da demək lazımdır ki, Ş.Sədiyev «Qarabağ» sözünün mənasını və bu coğrafi adın yaranma tarixi haqqında elmi məlumatı Şuşa kənd təsərrüfatı texnikumunun tələbəsinin xahişi ilə açıqlamışdır.

Coğrafiyaşünas toponimçi Rəmzi Yüzbaşov da **«QARABAĞ»** toponimi haqqında maraqlı və dəyərli fikirlər söyləyir. R.Sədiyev Dağlıq Qarabağ ərazisində **228 yaşayış məntəqə adını, 28 su obyekti adını, 33 oronim (oronim-düzəltmə quruluşlu coğrafi yer adı mənasını verir), cəmisi 239 toponim əsas götürərək onları təhlil etmiş və əməli elmi nəticələr əldə etmişdir.**

R.Yüzbaşov Qarabağ adının söz kimi VII əsrdən, əyalət kimi XIII əsrdən işlədilməsindən bəhs edərək yazır:

**«Aparılan elmi araşdırmlar göstərir ki, bu adların «ANASI» vaxtilə Araz çayının sahilində yerləşən Qarabağ şəhəri mövcud olmuşdur. Bu şəhərin XVII əsrin birinci yarısına qədər mövcud olması haqqında dəqiq kartoqrafik məlumat əldə edilmişdir. XVII əsrin I yarısında alman səyyahı Adam Olearinin tərtib etdiyi «İran səltənəti» adlı xəritədə Qarabağ yaşayış məntəqəsi 39$^{0}$ şimal en dairəsi ilə 89$^{0}$ 20$^{/}$ şərq uzunluq dairəsinin kəsişdiyi nöqtədə göstrilir. Xəritədə Cənubi Azərbaycandan keçən və Qarasu çayının yatağı yaxınlığı ilə uzanaraq, Kiçik Qafqaza daxil olan mühüm bir ticarət yolunun Qarabağ şəhərindən keçdiyi göstərilir… Həmin şəhər XVII-XVIII əsrlərdə baş verən müharibələr nəticəsində dağılıb məhv olmuşdur. Şəhər adının böyük bir əraziyə verilməsi onun mühüm ticarət mərkəzi və nəqliyyat qovşağı olduğunu göstərir. Şəhər nə qədər yaşamışdır? Əlbəttə bu suala arxeoloqlarımız gələcəkdə daha dəqiq cavab verəcəklər. Biz isə Qarabağ sözünün VII əsrdən mövcud olduğunu nəzərə alıb, onun 1000 ildən artıq ömür sürdüyünü söyləyə bilərik».**

**Qarabağ sözünün mənası haqqında. Bu sözün mənasını şərh edənlər «qara»nın mənasını həmişə rəng adı kimi düşündüklərindən, adın düzgün mənasını izah edə**

**bilməmişlər. Bağa nə üçün qara deyilsin? Bu suala məntiqi cavab verən olmamışdır. Son zamanlarda Azərbaycan toponimikası sahəsində aparılmış işlər nəticəsində «qara»nın bir neçə mənası müəyyən edilmişdir; onlardan biri də «qalın», «sıx» deməkdir. Buna əsasən demək olar ki, Araz çayının sahilindəki Qarabağ şəhəri son dərəcədə bağlı-bağatlı olduğundan belə adlandırılmışdır.**

**Öyrənilən ərazidə müəyyən edilən şəffaf adların 67 faizi (113 vahidi) Azərbaycanca, 18 faizi (31 vahidi) ermənicə, 3 faizi (5 vahidi) rusca, 12 faizi (21 vahidi) hibritdir» (11, s. 86, 92).**

Göründüyü kimi Qarabağda Alban, Azərbaycan, erməni və rus toponimik layları mövcuddur. Bunların ən güclüsü Azərbaycan laylarıdır. Ermənicə olan toponimlərin yaranmasına səbəb, onların Qarabağa köçürülüb gətirilmələri və türkdilli tayfaların əhatəsində yaşamaları olmuşdur.

**Dağlıq Qarabağın, Muğan, Şirvan, Naxçıvan, Gəncə, Qarabağ əyalətləri ilə əhatə olunduğunu nəzərə alsaq yuxarıda qeyd etdiyimiz vəziyyətin yaranmasındakı coğrafi və tarixi şərati dərk etmiş olarıq» (11, s.92)**

**Daha bir misal. «Qarabağ» termini «xalq və bağ», «böyük bağ», «şəfalı bağ» və s. mənasını kəsb edir. Bu adın Azərbaycanın Kür və Araz çayları arasındakı mənzərəli ərazilərə şamil olunması monqol - türk qəbilələrinin ölkəyə gəlmələri ilə bağlıdır… Həmin ərazi Qafqaz Albaniyasının tarixi ərazisi olub, əsasən Arsax, Sünik, Uti, Sakasena və Paytakaran vilayətlərini əhatə edirdi və bu adla da tanınırdı» (12, s. 98-99).**

Əlbətə Qarabağ sözünün mənası haqqında daha çox misallar gətirmək olar. Qarabağ Azərbaycan Respublikasının qədim ərazisidir. O, qədim tarixə malikdir və bu söz birmənalı olaraq Azərbaycan xalqına məxsusdur.

XX əsrin əvvəllərinə kimi Qarabağ coğrafi məkan kimi tam halda, Qarabağ adlandırılırdı. Hər bir ölkənin düzənlik, dağlıq, dərə, təpə, çəmənlik, meşə və digər coğrafi əraziləri

olduğu kimi Azərbaycanda da bu coğrafi məkanlar var. Qarabağın bütün ərazisi Azərbaycan xalqına məxsusdur. Qarabağ təkcə Azərbaycan Respublikasının deyil, Yaxın və Orta Şərqin mədəniyyət beşiyidir. Artıq bu məsələlər özünün ümumbəşəri hüququnu əldə etmişdir.

Ulu Tanrı Qarabağa bütün təbii nemətləri bəxş etmişdir. Diyarın təbii zənginliyi, flora və faunası xarici düşmənləri həmişə özünə cəlb etmişdir. Tarix sübut edir ki, Qarabağ Dünyanın cənnət məkanıdır.  Bu məkan yalnız və yalnız Azərbaycan xalqına məxsusdur.

Qarabağın çox hissəsi yüksək yayladır. Qarabağın iqlimi mülayim, təmiz bol sulu, torpağı məhsuldardır. Bu şərait türk hökmdarlarının da diqətindən kənarda qalmamışdır.

**1064-cü ildə** Gürcüstan səfərindən qayıdarkən Böyük Səlcuq hökmdarı Məlikşah Qarabağda qışlamışdır. Elxanilərin qış iqamətgahı Qarabağda yerləşirdi. Əmir Teymur və daha sonra Ağqoyunlu hökmdarları da Qarabağda qışlamağı xoşlayırdılar **(4, s.26, 27).**

XIII-XIV əsrlərdə Qarabağ Azərbaycanda baş verən ictimai - siyasi hadisələrin əsas mərkəzlərindən biri idi. Hülakülər və Cəlalilər dövlətlərinin hökmdarları həmişə Qarabağda istirahət edirdilər. Qazan xan və Arqun xan Qarabağda taxta çıxmışdılar. (4, s.27)

**Qarabağ 551-ci ildən alban katalikosunun daimi yaşayış yerinə, 630-cu ildən isə Mehranilər sülaləsindən olan böyük alban knyazları Varaz Qriqorun, Cavanşirin və başqalarının iqamətgahına çevrilir. (12, s. 40)**

Tarixin müəyyən mərhələlərində mövcud dövlətlərin zəifləməsi və onlar güclü dövlətlərin hərbi müdaxiləsinə cavab verə bilməmələri nəticəsində ya onların işğal zonasına çevrilir, ya da ərazilərinin müəyyən hissəsini itirirlər. Qafqaz Albaniyası da bu vəziyyədən kənarda qalmamışdır.

**Qafqaz Albaniyasının ərazisi VIII əsrdən başlayaraq ciddi təbəddülatlara uğradı. Buna səbəb ərəb yürüşləri, ölkənin Xilafətin tərkibinə qatılması, Alban dövlətinin**

**süqutu, İslam dininin tədricən yayılması və xristianlığın qismən olsa da aradan çıxması idi» (12, s. 42)**

Göründüyü kimi, qədim Alban dövlətinin VIII əsrdən başlayaraq tarix səhnəsindən çıxmasının obyektiv səbəbləri vardır. Bütün bunlar Albaniya adının tarix səhnəsindən çıxmasına gətirib çıxardı. **Onun ərazisi üç vilayətə – Arran, Muğan və Şirvan vilayələrinə bölündü. (12, s. 42)**. Bu bölgünün yekunu olaraq «Arran» adı ilə yalnız Kür çayından Araz çayı arasındakı torpaqlar nəzərdə tutulurdu. Muğan daha geniş ərazini əhatə edirdi. Belə ki, Muğan Kürün Araza qovuşduğu yerdən cənub-şərqdəki əraziləri əhatə edirdi. **«Kürün sol sahili əraziləri (Dərbəndin şimalına kimi) isə Şirvan adlandırılmağa başladı» (12, s.42)**.

Qarabağın orta əsrlər tarixinə nəzər saldıqda məlum olur ki, bu dövrdə Qarabağda bir sıra dövlət qurumları təşəkkül tapmışdır. Bunlar xırda dövlət qurumaları olmalarına baxmayaraq tarixdə çox böyük rola malik olmuşlar. **«Girdiman hökmdarlığı, Xaçın knyazlığı və Qarabağ xanlığı bu baxımdan diqqəti cəlb edir» (12, s. 101).**

XIII əsrdə Qarabağın ərazisində yaranan Xaçın məlikliyi yerli alban nəslinə məxsus idi. Xaçın xristian alban məlikliyi Qarabağın dağlıq ərazisində yerləşirdi. Xristianlığı qəbul edən Xaçın alban məlikliyi öz varlığını XIX əsrin əvvəllərinə kimi qoruyub saxlaya bilmişdir. XIII əsrdə də Arranın əhalisi türklərdən ibarət olduğu mənbələrdə öz əksini tapmışdır.

**XIII əsrin anonim məxəzi olan «Əcaib əd-dünya»da məlumat verilir ki, «türklər Arranda əsas etnik qrup idi. Arranda 100.000 türk süvarisi var idi» (13, s. 24).**

İndi də bir qədər Arsax-Xaçın knyazlığı haqqında. Bu knyazlığın siyasi, iqtisadi və sosial yüksəlişi XII-XIII əsrlərə təsadüf edir. **«Qədim Albaniyanın bir hissəsi olan bu knyazlığın mərkəzi Xaçınçayın və qismən də Tərtər çayının bölgələrində yerləşirdi. Alban Mehranilər sülaləsinin nümayəndələrindən, xəlifələrindən biri olan Həsən Cəlal (1215-1261) bu knyazlığın hökmdarı idi… O, mənşəcə alban**

**idi (13, s. 41). Sənədlər sübut edir ki, Həsən Cəlal yüksək siyasi titullar daşımış… Arsax ölkəsinin mütləq hökmdarı olmuşdur.**

**Arsaxda bir çox tarixi abidələr Həsən Cəlalın göstərişi ilə inşa olunmuşdur. Bu tarixi memarlıq abidələrinin bir çoxu bu günə kimi Qarabağda qalır. «Qansazar monastr kompleksi Həsən Cəlalın göstərişi ilə inşa olunmuşdur… Həsən Cəlalın nəsli və 1261-ci ildə isə özü də burada dəfn olunmuşdur… Həsən Cəlal bu kilsəni Albaniyanın «taxt-tac kilsəsi» adlandırırdı. Kilsədə olan daş kitabələrində yazılmışdır ki, bu kilsə albanlar üçün inşa edilmişdir» (13, s. 43)**

**Hal-hazırda Qansazar kilsə kompleksində 84 daşüstü yazı mövcuddur. Qarabağın dağlıq ərazisində yerləşən Ağdərə rayonunun Vəngi kəndində yerləşir. Bu memarlıq abidəsi orta əsr alban memarlıq məktəbinin nadir incisidir. Onu da qeyd edək ki, erməni memarlığında QANZASAR alban memarlığının bənzəri yoxdur. (13, s. 43)**

Yuxarıda deyildiyi kimi vətəni, topağı olmayan, dağ yəhudiləri ilə qaraçıların törəmələri olan ermənilər tarixdə yadda qalan heç bir mədəni irs yarada bilməmişlər.

**«XV əsrdə alban Həsən Cəlal (Cəlairlər) Qaraqoyunlu Cahanşahdan «məlik» titulunu aldı. Sonralar cəlalilər nəsli beş alban feodal knyazlığına –məlikliyinə – Gülüstan, Çilaberd, Xaçın, Vərəndə və Dizaq məliklərinə parçalandılar. Erməni tarixşünaslığında məliklik titulu erməni gerçəkliyi kimi qələmə verilməyə cəhd göstərilmişdir. Lakin məlik titulu Xaçın vilayətində yaşamış alban feodal nəsilləri üçün xasdır. Bu nəsillər Həsən Cəlalın nəsli ilə, daha qədimlərdə isə Mehranilər və alban Arşagirlər sülalələri ilə bağılıdır» (13, s. 45)**

**Məlik ərəb mənşəlidir. Onun ermənilərə aidiyyatı yoxdur. Bu istilah «Qaraqoyunlu hərbi-köçəri əyanlarının ictimai-hüquqi normalarının doğurduğu nəticələrdən biridir. Erməni gerçəkliyi üçün işxan, tanuter, paron**

**istilahları səciyyəvidir. XV əsrdə alban xristian əyyanları məlik istilahını … xüsusi məqsədlə qəbul etmişlər və bu hal onların özlərini ermənilərdən fərqləndirmək istəyinin nəticəsi olmuşdur» (13, s. 46)**

Qarabağ müxtəlif əsrlərdə bu və ya digər dövlətlərin tərkibində olmuş və həmin dövlətlərin siyasi, iqtisadi, sosial və mədəni inkişafı ilə sıx bağlı olmuşdur. **Belə ki, «Qarabağ tarixi - etnoqrafik əyalət kimi əvvəlcə Alban dövlətinin tərkibinə daxil olmuş, sonra bütün Azərbaycanla birlikdə ərəb Xilafətinin əsarəti altına düşmüş, ərəb imperiyasının süqutundan sonra IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Səlairlər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy-Eldəgizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər) dövlətinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərfkibinə daxil olmuşdur. (9, s. 8)**

Bu deyilənlər sübut edir ki, Qarabağ əzəli Azərbaycan torpağı olaraq, onunla birlikdə siyasi hadifsələrə qatılmışdır.

Əmir Teymurun Azərbaycana yürüşlərində Qarabağ xüsusi yer tutur. Həmin yürüşlərdə böyük türk sərkərdəsinin Qarabağda istirahəti, quruculuq və abadlıq işləri aparması tarixin yaddaşında həkk olunmuşdur.

Ona görə də Əmir Teymurun Azərbaycana yürüşlərinə bir qədər geniş yer verilməsi daha məqsədə müvafiq olardı.

XIV əsrin əvvəlləri tariximiz tarixşünaslığımızda mürəkkəb dövr kimi səciyyələndirilir. Dövrün hadisələri zənginliyi ilə bir-birindən fərqlənirdi və bu hadisələr bütün Şərqi lərzəyə salan Əmir Teymurun siyasi həyata başlaması ilə sıx bağlı idi. Azərbaycan Makedoniyalı İsgəndər, Yuli Sezar, Napoleon Bonapart kimi sərkərdələrlə eyniləşdirilən, dünyanın görkəmli sərkərdəsi və dövlət xadimi, "İkinci Çingiz" adlandırılan və Avropa ölkələrində Tamerlan adı ilə də tanınan Əmir Teymurun əsas fəaliyyət meydanına çevrilmişdi.

Əmir Teymur 1336-cı ildə Amur-Dərya ilə Sır-Dərya çayları arasındakı Mavəraünnəhrdə, Xacə İlqar adlı kənddə

anadan olmuşdur. Atası Turcay Barlas bəylərindən idi. O, yaşıdları arasında çevikliyi, mərdliyi, cəsurluğu ilə fərqlənirdi. At çapmaqda, ox atmaqda ad çıxarmışdı. Gənc yaşlarından hərbi yürüşlərdə iştirak edər, döyüş meydanında istədiyinə nail olmaq üçün bütün maneələri dəf edərdi. Öz gələcəyinə də daxilən inanırdı. Əmir Teymur taleyinin zirvəsinə çatdığı dövrdə fərəh hissi ilə deyirdi: **“Mən on iki yaşımda olarkən özüm də fövqəladə fərasət və əzəmət hiss etdim. On səkkiz yaşımda at çapmaq və ovçuluqda olan məharətim barədə hərtərəfli düşünməyə və nəticələr çıxarmağa başladım. Əksər vaxtımı Qurani-Kərimi oxumağa, şahmat oynamağa və at çapmağa həsr etdim”**.

Monqol xanı Tucluq Teymur Mavəraünnəhri ələ keçirdikdən sonra 25 yaşlı Teymuru Keş vilayətinə hakim təyin etmişdi. O, nüfuzlu bir türk əmirinin qızı ilə evlənmiş, Mavəraünnəhrin hakimi İlyas Xocaya qulluq etmişdir. Lakin ona qulluq etməyi özünə sığışdırmayan Əmir Teymur qaynı Hüseynlə birlikdə İlyas Xocaya qarşı mübarizəyə başladı. Ancaq Hüseyn Teymura xəyanət etdi. O, başa düşdü ki, Hüseynə etibar etmək olmaz, çünki qaynı özü üçün əsas rəqib olan Teymuru aradan götürmək istəyirdi.

İlyas Xoca monqol xanlarının hakimiyyətinə qarşı çıxan sərbadilərin (“sərbadi” fars sözüdür, mənası “dara çəkilənlər” deməkdir) müqaviməti ilə qarşılaşdı. 1366-cı ilin yazında Teymur və Hüseyn Səmərqənd ətrafında sərbadilərin başçısı Mövlanzadəni tutdular. Lakin Teymur Mövlanzadəni azad etdirdi. Teymur və Hüseyn Səmərqəndi tutub, şəhərə daxil oldular. Hakimiyyət uğrunda aparılan mübarizə torpaq sahiblərinin, tacirlərin, din xadimlərinin narazılığına səbəb olurdu. Bunu Teymur da yaxşı dərk edirdi. Ona görə də vəd edirdi ki, hakimiyyətə gəlsə, vahid dövlət yaradacaq və ölkədə hərc-mərcliyə son qoyacaq. Eyni zamanda hökmdar taxtında əyləşməyə də tələsmirdi. Çünki Çingiz xanın soyundan deyildi. Ona görə də Teymur hökmdar taxtına həmin soydan olan Soyurqatmış xanı əyləşdirdi.

Teymurun övladı öləndən sonra onun Hüseynə qarşı münasibəti düşmənçiliyə çevrildi. Hüseyn Bəlx qalasına köçdü, xəzinəni də bura gətirib, qalanın müdafiəsini gücləndirdi. Belə şəraitdə Teymur Hüseynin güclənməsinə dözə bilməzdi. Teymur Bəlx qalasına hücum etmək və rəqibini aradan götürmək qərarına gəldi.

Tarixçilərin yazdığına görə Bəlxə hücum ərəfəsində Teymurun mötəbər adamı - məkkəli üləma Seyid Bərkə bu döyüşün Teymur üçün uğurlu olacağını demiş və ona öz əli ilə hakimiyyət rəmzi olan təbil və bayraq vermişdi. 1370-ci il aprel ayının 9-da Bəlxə toplaşan minbaşıların və tümən başçılarının qurultayında Teymur türk ənənələrinə uyğun ağ keçə üzərində yuxarıya qaldırıldı və üləma Seyid Bərkənin oxuduğu Quran ayəsindən sonra Mavərünnəhr ölkəsinin əmiri elan olundu. Beləliklə də, dərin zəkaya və möhkəm iradəyə malik olan Əmir Teymur istək və arzularına çatdı və Səmərqəndi ölkəsinin paytaxtı elan etdi. Dərhal da tənəzzülə uğramış ölkəni inkişaf etdirməyə və qayda-qanun yaratmağa başladı.

Yuxarıda dediyimiz kimi, Əmir Teymur Çingiz xan nəslindən olmadığı üçün "xan" titulu qəbul etmədi. Əmir Teymur kimi də qaldı. O, ömrünün 57 ilini at belində hərbi səfərlərdə keçirdi və 27 ölkənin xaqanı oldu.

Əmir Teymur Azərbaycana üç dəfə - 1386-1387-ci, 1392-1395-ci və 1399-1405-ci illərdə hərbi yürüş etmişdir. Yalnız belə bir tarixi faktı göstərmək kifayət edər ki, onun birinci yürüşü ilə ikinci yürüşü arasındakı dövrlərdə Azərbaycanın paytaxtı Təbriz şəhəri feodal ara müharibələrinin qanlı meydanına çevrilmişdi. Bu mübarizəni Əmir Teymurun Təbrizdəki əmirləri ilə yanaşı, cəlairi Sultan Əhməd və onun Əlincə qalasındakı əmirləri, Təbrizin daxili əmirləri, Marağa hakimi Yadigar şah, Mahmud Xalxali, Qara Yusif Qaraqoyunlu və başqaları aparırdılar. 1485-1492-ci illərdə Təbrizə 22 dəfə dağıdıcı hücum edilmişdi.

XIV əsrin 80-90-cı illəri tarixdə Azərbaycan üçün daha ağır dövr kimi qalmışdır. Bu dövr Əmir Teymurla Qızıl Orda

xanı Toxtamışın Azərbaycana yürüşləri ilə xarakterizə olunur. 1386-cı ildə Əmir Teymur Iran ərazisinə daxil oldu. Onun qoşunları Sultaniyyəni tutub Təbrizə tərəf irəlilədi və şəhəri tutdu. Bu hadisədən sonra Əmir Teymur Ucandan Həştrud yolu ilə Təbrizə gələrək Şənbi-Qazanda düşərgə saldı. Sultan Əhməd bundan sonra Naxçıvana gedərək, ordan da Bağdada qayıtdı.

Təbrizi ələ keçirən Əmir Teymur şəhərdə olan görkəmli sənətkarları və elm adamlarını Səmərqəndə göndərilməsi haqqında göstəriş verdi. Təbrizdən qaçan cəlairli Sultan Əhmədlə İlyas Xoca arasında qanlı döyüş baş verdi. İlyas Xocanın bu döyüşdə yaralanması Sultan Əhmədi ölümdən qurtardı. Şərəf əd-Din Əli Yəzdi yuxarıda qeyd olunan döyüş haqqında yazmışdır: **"Əmir Şeyx Əli Bahadırın oğlu İlyas Xoca qoşundan bir neçə nəfərlə Naxçıvandan keçib, Nəməkzar ərazisində Sultan Əhmədə çatdı. Onunla çoxlu döyüşçü var idi... Bu döyüşdə İlyas Xoca yaralandı və döyüşdən qaldı. Bu səbəbdən Sultan Əhməd xilas olub canını qurtardı" (Bax: - iqtibas göstərilən müəllifin "ZƏFƏRNAMƏ" əsərindən götürülən Azərbaycan tarixinə dair qeydlər. B., 1996, səh. 31)**.

Əmir Teymurun Azərbaycana yürüşləri içərisində Əlincə qalasının müdafiəsi xüsusi yer tutur. Qala 14 il teymurilərə inadlı müqavimət göstərməklə tarixdə özünə şərəfli ad qazandırmışdır. Əlincə qalası 1387-ci ildən 1400-cü ilə kimi mühasirədə qalmışdır. Hücumlara cavab verə bilməyən cəlairli Əmirləri Əlincə qalasında sığınacaq taparaq burda gizlənmişdilər.

Əmir Teymur Azərbaycanın cənub torpaqlarının böyük hissəsini tutduqdan sonra, 1387-ci ilin payızında Naxçıvanın əzəmətli Əlincə qalasına yaxınlaşdı. İlyas Xocanın başçılıq etdiyi qoşun naxçıvanlıların müqavimətini çətinliklə qıra bildi. Naxçıvanın Gərni və Sürməli adlı istehkamları dağıdıldı. Qala uzun illər müdafiə şəraitində içərisində olan adamları ərzaq və su ilə təmin etmək imkanına malik idi.

Sultan Əhməd xəzinəsini, ailəsini və yaxın adamlarını

qalada yerləşdirib, müdafiə işlərini Əmir Altuna tapşırmışdı. Onun sərəncamında 300-ə yaxın qorçu (döyüşçü) var idi. Şəki hakimi Seyid Əli də Əlincə qalasının müdafiəçilərinə kömək edirdi. Ümumiyyətlə, Əmir Teymur Əlincə qalasına dörd dəfə - 1387-ci, 1393-cü, 1397-ci və 1400-cü illərdə yürüş etmiş və heç birində məqsədinə nail ola bilməmişdi. Qalanın müdafiəsinə başçılıq edən Sultan Tahir ilə Əmir Altun arasında ailə zəminində baş verən münaqişə nəticəsində qalanın müdafiəsi zəifləyirdi. Bu dövrdə Əmir Teymur Azərbaycanda deyildi. Sultan Tahir xəzinəni və yaxın adamlarını götürüb, Bağdada atası Sultan Əhmədin yanına gedir. Beləliklə də, 14 il Əmir Teymura tabe olmayan Əlincə qalası 1400-cü ildə müdafiəsiz qaldığına görə süqut etdi.

**Ərəb tarixçisi İbn Ərəbşah yazır ki, Əmir Teymur qalanı ələ keçirdikdən sonra öz əzəmətilə onu heyrətə gətirən bu qalanı xüsusi ziyarət etmiş və ona heyran olduğunu bildirmişdir...**

Azərbaycanın cənub ərazilərinin və Əlincə qalasının mühasirəsi Şirvanı da böyük təhlükə qarşısında qoydu. 1382-ci ildə Huşəngin vəfatından sonra Şirvan feodalları onun əmisi oğlu İbrahim İbn Sultan Məhəmməd ibn Keyqubadı hökmdar seçdilər. O, Məzyədilər sülaləsinin bir qolu olan Dərbəndi Şirvanşahları sülaləsinin ilk nümayəndəsi idi. Şimaldan Şirvanı Qızıl Orda xanı Toxtamış təhlükə altında saxlayırdı. Əmir Teymur da Şirvanı təhlükə altına salmışdı.Toxtamışla onun düşmənçilik münasibətindən Şeyx I İbrahim məharətlə istifadə edərək Əmir Teymura tabe olmağı üstün tutub, ona itaət etdiyini bildirdi.

Tarixi mənbələr 1386-cı ildə Qarabağa, Şirvanşahın ərazisinə daxil olan Dərbənddən keçərək Dəşti-Qıpçağa Əmir Teymurun görüşünə gedən I İbrahimin Şirvanşah adını qoruyub-saxlamağa müvəffəq oldu. Qaynaqlar xəbər verir ki, I İbrahim Əmir Teymurun görüşünə getməzdən əvvəl ən inandığı böyük vəziri Qazi Əbu Yəzidlə məsləhətləşmiş və o, Şirvanşaha qaçıb, dağlarda gizlənməyi, ona məsləhət görmüşdü. Lakin I İbrahim

həyatını təhlükə qarşısına qoyaraq Əmir Teymurun adına xütbə oxunmasını və sikkə kəsilməsini əmr etdi və itaətini bildirmək üçün bahalı hədiyyələrlə onun qərargahına yollandı. I Ibrahim monqol hökmdarlarında dəbdə olduğu kimi, hər hədiyyədən doqquz ədəd təqdim etmişdi. Qulların sayı isə səkkiz idi. Əmir Teymurun vəziri qulların sayının nə üçün səkkiz olduğunu soruşduqda I İbrahim dərhal cavab vermişdi ki, doqquzuncu qul mən özüməm. Onun bu hərəkəti Əmir Teymurun xoşuna gəlmiş, onu oğlu adlandırmış və ona fəxri hərbi paltar bağışlamışdı. Onu Şirvan və Şamaxının hakimi təyin edərək öz torpaqlarına qayıtmağa icazə vermişdi. Beləliklə də, I İbrahimin çevik və düşünülmüş siyasəti Şirvanı viran olmaqdan və fəlakətdən xilas etdi. Əmir Teymur bəzi torpaq mülklərini də I İbrahimin torpaqlarına qatdı və öz xələflərinə Şirvanşahın övladlarının (əhalisinin) əmin-amanlığının təmin olunmasını vəsiyyət edən fərman verdi. Qızıl Orda xanı Toxtamışın bütövlüklə zərərsizləşdirilməsində Əmir Teymurun ən etibarlı köməkçisi I İbrahimin böyük xidmətləri tarixi mənbələrdə özünün parlaq təcəssümünü tapmışdır. Şirvanşah I Ibrahim Azərbaycan torpaqlarını vahid dövlət halında birləşdirmək üçün Əmir Teymurla olan münasibətlərindən məharətlə istifadə edirdi. Belə ki, o öz təsirini Qarabağ, Şəki, Dərbənd və Qəbələyə qədər yaymağa müvəffəq oldu.

Əmir Teymur İslam dininin ən böyük müdafiəçisi idi. Bunu mənbələr tutarlı dəlillərlə sübut edir. “Zəfərnamə” müəllifi Şərəf əd-Din Əli Yəzdi yazırdı: “Sahibqıran (Əmir Teymur - Y.H.) Kür çayını keçib, sədaqətli qoşunun üzəngisini Bərdəyə tərəf çəkdi. Əhali ona tabe oldu, itaət göstərdi. Qarabağda həbsdə olan Boqrat Tiflisini hüzuruna çağırtdırdı və onu... Məhəmməd dininə dəvət etdi... Boqrat tohidi dilinə gətirdi... Sahibqıran həzrətləri mərhəmət və hörmət bəsləyib Boqrata məxsus olan ölkənin (Gürcüstanın) hakimiyyətini özünə qaytardı... Sahibqıran həzrətləri həmin qışda səadət və iqballa Araz çayının sahilində qışladı.

Əmir Teymur 1387-ci il yanvarın 1-də Bərdəyə tərəf üz

tutdu. Muğan səhrasında və Ağdamda ov etdi, Araz çayının kənarında məskən saldı. Çayın üzərində qayıqlardan körpü saldılar və sağ-salamat çayı keçdi və Arran Qarabağını özünə məskən seçdi (Bax: “Zəfərnamə”. səh. 60).

Əmir Teymur 1399-1400-cü ilin qışında - Qarabağ qələbə əzmli ordunun iqamətgahına çevrildiyi vaxt Gürcüstana hərbi yürüş planlaşdırdı... Bu zaman Gürcüstana gedən mühəssil (vergi toplayan) geri qayıtdı. Məlik Georgi (Gürcüstan hakimi - Y.H.) öz qardaşını çoxlu mal-dövlət və vəsaitlə, hər cür töhfə, hədiyyə, ov heyvanları, ərəb atları ilə İslam pənahı olan dərgaha göndərmişdi. Məlik Georginin qardaşı əmirlərin köməyi ilə ətək öpməyə nail oldu, hədiyyələr verib, qardaşının xahişini çatdırdı. Sahibqıran Məlik Georginin günahlarını bağışlayaraq buyurdu: “Qardaşına çatdır ki, aman verdim və bu ölkədən yürüş üzəngisini geri çəkirəm, o şərtlə ki, bundan sonra öz həddini bilsin, müsəlmanlarla ədəblə davransın, onların qanunlarına əməl etsin, heç bir vəchlə islam əhlini təşvişə salmağı ağlına gətirməsin...” (“Zəfərnamə”, səh. 67.)

Əmir Teymur 1402-ci il fevral ayının 16-da Qarabağa gələrək burda məskən salmış və həmin ilin mart ayının 12-də Şəmkirə getmişdi. “Zəfərnamə”də deyilir: “Inşa etmək, qurmaq dünyanın böyük tədbirlərindən, bəni-Adəmin mühüm işlərindən sayılır. Sahibqıranın ali məqsədi dünyanın və aləm əhlinin xeyrinə cəhd göstərmək olduğundan istər məskən saldığı və istərsə də səfərdə olduğu vaxtlarda hardasa az müddətdə düşərgə salıb qaldıqda məmləkətlər bəzəyinin (Əmir Teymurun) fikri xeyirli binaların inşasına cəlb olunurdu. O cümlədən, günəş sayəli düşərgənin zəfərli cəmşidi payız bürcünə tərəf dönəndə və günəş şöləli (Sahibqıran) Qarabağ qışlağına gələndə Beyləqanın təmir olunması arzusu mübarək qəlbində baş qaldırdı. Şəhər uzun müddətdən bəri elə viran hala düşmüşdü ki, nə binalarından əsər qalmışdı və nə də orda həşəratdan başqa canlı gözə dəyirdi.

...Soyuq mövsüm olmasına baxmayaraq, yarlıq verildi, mahir mühəndislər, işbilən memarlar şəhərin xəndək, qala

divarları, dörd bazar, çoxlu evlər, hamam, saray, bostan yerləri və sahələrinin planını hazırladılar. Plana əsasən ərazini böldülər, iplə işarə etdilər və onları şahzadələr və əmirlər arasında payladılar. Qoşun əhli böyük həvəslə işə başladı. Həmin binaların hamısını bişmiş kərpicdən tikib, bir ay müddətində başa çatdırdılar. Şəhər barısının uzunluğu böyük arşın ilə 2400 arşın, divarın eni 11 arşın, hündürlüyü 15 arşına yaxın, xəndəyin eni 30 arşın, onun dərinliyi 20 arşına yaxın idi. Hasarın dörd tərəfindən hər birində mötəbər bürclər qaldırdılar, ortalarında isə başqa bürclər tikdilər. İki tərəfində iki darvaza qoydular. Hər yerində şərəfə (əzan yeri), deşik (divar üstü) və mazğal (səngəndaz) düzəltdilər. Əmir Teymurun göstərişi bir ay müddətində həyata keçirildi. İlahinin köməyi ilə Sahibqıranın zəkası olmadan bu qədər işləri qısa müddət ərzində yerinə yetirmək mümkün deyildi. Bir ay ərzində Beyləqan orta əsr şəhərləri içərisində özünəlayiq yaşayış məskəninə çevrildi.

Sözsüz ki, Əmir Teymur olduqca qəzəbli şəxsiyyət idi. O, bəzən məhəbbətin üzərinə qəzəb və kin çiləyib, cahanı alt-üst edərdi, razılıq vaxtı rəhm etmək üçün lütflə danışdıqda aləm onun sözlərindən və əməllərindən bəzənərdi (səh.74). Beyləqan bərpa edilib gözəlləşdirildikdən sonra Əmir Teymur etibar etdiyi Bəhram şahı Beyləqanın mühafizi vəzifəsinə təyin etmişdi. Sahibqıranın şəxsi göstərişi ilə Beyləqandan keçməklə Araz çayından arx çəkilməsi həyata keçirildi. Arx bir ay müddətində çəkilib, başa çatdırıldı.

Qarabağ qışlağında baş verən hadisələrdən biri də Əmir Teymurun ən əziz və sevimli adamı olan Seyid Bərkənin gözlənilmədən xəstələnməsi və vəfat etməsi idi. Əmir Teymurun göstərişi ilə onun cənazəsi Səmərqəndə aparıldı. O, bu ağır itkinin təsiri altına düşdü, qəm-qüssə ona hakim kəsildi. Onun əhvali-ruhiyyəsini aradan qaldırmaq üçün ov məşğuliyyəti keçirmək qərara alındı. Bu məqsədlə Əmir Teymur Ağdaş ərazisinə gedərək ov etməklə məşğul oldu.

Tarixi mənbələrdə qeyd olunur ki, Əmir Teymur 1404-cü il iyulun 19-da Rum və Şam yürüşlərini başa çatdırıb,

Səmərqəndə qayıtdı. Onun paytaxta gəlişi böyük bayram şənliklərinə səbəb oldu.

Əmir Teymur uğurlu hərbi yürüşlərdən vəcdə gələrək düşünürdü ki, göydə Allah tək olduğu kimi yerdə də hakim tək olmalıdır. O, Allaha dərindən inanırdı, həmişə yanında Quran gəzdirirdi. Ustadı Seyid Bərkə Əmir Teymurun ən yaxın məsləhətçisi idi. O, hərbi yürüşlərdən əvvəl və ya yazdığı məktublarda ilk olaraq "Mən, Allahın qulu Teymur" sözləri ilə başlayardı. İşğal etdiyi ölkələrdə alimlərə, sənətkarlara və tacirlərə toxunmazdı.

Əmir Teymur Çinə hərbi yürüş etmək üçün hazırlıq görürdü. 1405-ci ilin soyuq fevral gecələrindən biri idi. Asiya qitəsinin yarısından çoxunu fəth etmiş 69 yaşlı Əmir Teymur qədim Otrar şəhərində amansız ölümlə mübarizə aparırdı. Inanırdı ki, həkimi Fəzlullah onu ölümün pəncəsindən xilas edəcək. Məhz ona görə də Çinə hərbi səfərin təxirə salınması haqqında təklifləri qətiyyətlə rədd edirdi. Əmir Teymur həmişə olduğu kimi yenə də Allahdan bu səfərin də zəfərlə başa çatdırılması üçün dualar edir və ondan möhlət diləyirdi...

1405-ci ilin fevral ayının 17-də səhər həkim Fəzlullah özündə cəsarət tapıb, Əmir Teymura həqiqəti söyləyə bildi. Həkim göz yaşları tökərək Əmir Teymura dedi ki, vəsiyyətini etsin, yoxsa, gec olar... Əmir Teymur işıqlı həyatla əbədi olaraq vidalaşdı... O, ölüm ərəfəsində yalnız bir neçə söz deyə bildi: "Məni Seyid Bərkənin ayağı altında dəfn edin... Bir də ki, nə olursa-olsun, qılıncı əlinizdə möhkəm tutun... Zəifliyi qəlbinizə yaxın buraxmayın. Zəiflik ağlınızı çaşdırar, ruhunuzu məhv edər, məqsədinizin həyata keçirilməsinə böyük əzmlə çalışın. Eşidirsiniz? Zəif olan məqsədinə çata bilməz!.."

Əmir Teymurun vəfatından sonra onun oğlanları və nəvələri arasında hakimiyyət uğrunda mübarizə başlandı. Onun varisi olan Pir Məhəmməd bu mübarizənin qarşısını ala bilmədi... (**Y.Hüseynov**, **«Şuşa»** qəzeti, 31 iyul 2012, №14.)

**1501-ci ildə** Azərbaycan Səfəvilər dövlətinin yaranması, Azərbaycan torpaqlarının mərkəzləşməsinin əsasını qoydu və bu

iş təxminən **XVI əsrin** ortalarında başa çatdı. Qarabağın Azərbaycan Səfəvilər dövlətinin tərkibinə qatılması nəticəsində burada ayrıca bəylərbəylik, - Qarabağ bəylərbəyliyinin yaranmasına səbəb oldu. Səfəvilər dövründə Qarabağ bəylərbəyliyindən başqa daha üç - mərkəzi Şamaxı olan Şirvan, mərkəzi Təbriz olan Azərbaycan və Çuxursəd bəylərbəylikləri də yaradılmışdı. Qarabağ bəylərbəyliyinin mərkəzi şəhəri Gəncə idi.

**«Səfəvilər dövründə şaha və hökmdar sülaləsinə məxsus torpaqlar heç bir bəylərbəyliyə daxil deyildir». (16, s.140)**

**Qarabağ bəylərbəyliyinin ərazisi – «Kür və Araz çayları arasında qərbdə Samxet dağları və Göyçə gölünə kimi uzanan olduqca geniş bir ərazini təşkil edirdi. Bəylərbəyliyin tərkibinə Bərdə şəhəri, Aqstabad (indiki Ağstafa), Bərgüşad, Arazbar, Cavanşir və başqa mahallar daxil idi. Qarabağ bəylərbəyliyi vəzifəsinə adətən Səfəvilərin hakimiyyətə gəlməsinə kömək edən qızılbaş tayfalarından biri – Qacar tayfafsından olan Ziyadoğulları nəslinin nümayəndələri təyin olunurdu. İlk Qarabağ bəylərbəyi Şahverdi Sultan Ziyadoğlu (1551-1568) idi». (5, s.27)**

**«1593-cü ilin məlumatına əsasən, Gəncə-Qarabağ əyaləti 7 sancaq, 36 nahiyəyə bölünürdü» (18, s.5)**

Həmin mənbə də qeyd olunan yer adlarının hamısı Azərbaycan adlarıdır.

XVIII əsrin əvvəllərində Azərbaycan Səfəvilər dövlətinin tənəzzülə uğraması nəticəsində Azərbaycan torpaqlarına yiyələnmək uğrunda İran, Rusiya və Osmanlı türkiyəsçi arasında siyasi mübarizə gücləndi. Bununla da torpaqlarımız həmin dövlətlərin hərbi əməliyyat meydanına çevrildi. Azərbaycanın bu ağır dövründə işğalçılara qarşı mübarizədə böyük şöhrət qazanan Əfşarlar sülaləsinin nümayəndəsi Nadirin mövqeləri xeyli möhkəmləndi.

**«1735-ci il martın 21-də Gəncə yaxınlığında Rusiya və İran dövlətlərinin nümayəndələri arasında sonralar «Gəncə müqaviləsi» adını almış müqavilə imzalandı. Bu**

**müqavilənin şərtlərinə əsasən, rus qoşunları Xəzərsahili vilayətləri tamamilə tərk edir, burada əvvəlki inzibati idarə sistemi bərqərar olunurdu». (13, s. 415)**

Nadirin əldə etdiyi qələbələr osmanlıların da Azərbaycan ərazilərindən çıxarılmasını sürətləndirdi. Nadirin sərkərdəlik məharəti, əldə etdiyi qələbələr, İranın siyasi dairələri arasında onun şəxsi nüfuzunun möhkəmlənməsinə səbəb oldu.

**«Böyük qüvvə sərf etmədən Xəzərsahili vilayətləri ələ keçirən Nadir Cənubi Qafqazda Osmanlı ağalığına qarşı həlledici döyüşlərə başladı. 1735-ci ilin iyununda Eçmiədzinin şimal-şərqində İran və Osmanlı qoşunları arasında baş verən döyüş Nadirin qələbəsi ilə nəticələndi» (13, s.415)**

Nadirin əldə etdiyi hərbi uğurların yekunu olaraq Osmanlı komandanlığı 1735-ci ilin sonunda öz qoşunlarını Cənubi Qafqaz hüdadlarında tamamilə çıxardı.

Beləliklə də Nadirqulunun siyasi nüfuzu ölkə daxilindən kənarda da şöhrət qazandı. İndi o, İran səltənətində birinci şəxsiyyətə çevrilə bilərdi və çevrildi də.

**«Nadir qışlamaq üçün öz ordusu ilə Muğana çəkilmək qərarına gəldi. Əvvəlcədən hazırlanmış plana görə, burada təntənəli surətdə tacqoyma mərasimi keçirilməli idi. 1736-cı ilin mart ayında Nadir şah elan olundu». Azərbaycanın bəzi feodalları Nadirin şah elan edilməsinə mənfi münasibət bəsləyirdilər. Bu sahədə Ziyadoğlu nəslindən olan Gəncə xanları xüsusilə fərqlənirdilər… Yeni Şahın namizədliyinə qarşı çıxmış Ziyadoğulları, otuziləri, kəbirləri, cavanşirləri Nadir şah ağır cəzalandırdı (13, s. 415). Onlar Xorasana sürgün olunmuşdular. 1747-ci il iyunun 19-da (bəzi məlumatlara görə 9 mayda) Nadir şah saray əyanları tərəfindən Xorasan yaxınlığında yerləşən Xanbusan yaylağında öldürüldü.**

Nadir şah öldürüldükdən sonra onun yaratdığı imperiya dağıldı.

Nadir şah imperiyasının dağılması nəticəsində

Azərbaycan ərazisində xırda feodal dövlətlər yarandı. Bunlar ayrı-ayrı xanlıqlar idi. Bu xanlıqların timsalında Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdi. Gəncə xanlığı ərazisində iki xanlıq – Gəncə və Qarabağ xanlıqları yarandı.

Beləliklə də Azərbaycan ərazisində iyirmiyə qədər müstəqil və yarımmüstəqil feodal xanlıqlar təşəkkül taparaq öz varlıqları uğrunda tarix səhnəsinə çıxdılar. Olduqca çətin tarixi şəraitdə Ağdamın Sarcalı oymağından olan, Cavanşirlər sülaləsinin nümayəndəsi, görkəmli dövlət xadimi və sərkərdə olan Pənahəli bəy Qarabağ xanlığının əsasını qoydu.

Qarabağ xanlığı haqqında kitabın ikinci bölməsində ətraflı söhbət açılır.

Azərbaycan xanlıqlarının bəziləri Nadir şah dövründə, bəziləri isə onun öldürülməsindən və imperiyasının dağılmasından sonra yaranmışdır.

## Ədəbiyyat


1. ASE. III c., 598 s. B., 1979-cu il
2. Rəşid Göyüşov. Qarabağın keçmişinə səyahət. 83 s., Azərbaycan Dövlət Nəşriyyatı, B., 1993
3. ASE. I cild. 592 s., B., 1976
4. T.Mustafazadə. Qarabağ xanlığı. 333 s. Sabah nəşriyyatı, 2010.
5. İ.H.Əliyev. Dağlıq Qarabağ: -Tarix, faktlar, hadisələr. 120 s. B., Elm, 1989-cu il
6. Q.Ə.Qeybullayev. Qarabağ / Etnik və siyasi tarixinə dair. 248 s. B., 1990
7. N.N.Şavrov. Novaya uqroza russkomu delu v Zakavkazye – SPb, 1911
8. İ.P. Petruşevski. Xristianlığa qədər Dağlıq Qarabağ kəndlisinin etiqadları. Azərbaycan dilində. 38 s. Bakı, 1930-cu il
9. X.D.Xəlilov. Qarabağın elat dünyası. 119 s. B., Azərnəşr, 1992

10. Ş.Sədiyev. Qarabağ sözünün mənası. «Elm və həyat» jurnalı. 1963, №3, s.15.
11. R.Yüzbaşov. Dağlıq Qarabağ Muxtar Vilayətinin toponimikası. Azərbaycan SSR EA xəbərləri. Yer haqqında elmlər seriyası. 1969. №2, s. 86-92.
12. V.Piriyev. Azərbaycan tarixi – siyasi coğrafiyası. 152 s. B., «Araz». 2002
13. Azərbaycan tarixi. VII clddə. III cild. O.Əfəndiyevin redaktorluğu ilə. B., Elm, 2007, s. 24.
14. Şərəf Əd-Din Əli Yəzdi. Zəfərnamə. 79 s. B., 1996
15. Y.R.Hüseynov. Əmir Teymurun Azərbaycana hərbi yürüşləri. «Şuşa» qəzeti, 31 iyul 2012, №14
16. ASE, II cild, B., 1978.
17. N.F. Axundov. Qarabağ salnamələri. B., Yazıçı. 232 s., 1989
18. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. B., Şuşa nəşriyyatı, 2000, 576 s.

# II BÖLMƏ

# QARABAĞ TARİXİ MƏNBƏLƏRDƏ

## I FƏSİL

### «QARABAĞNAMƏLƏR»İN MƏNBƏŞÜNASLIQ BAXIMINDAN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN

Azərbaycan tarixşünaslığında əldə edilən uğurlara baxmayaraq, XIX əsrdə Azərbaycanda tarix elminin nailiyyətləri və onun xüsusiyyətləri uzun müddət tədqiqat obyektindən kənarda qalmışdır. Demək olar ki, Azərbaycan tarixinin həmin dövrünə həsr edilən əsərlərin çox böyük əksəriyyəti əlyazması halında qalmış, fars və rus dillərində yazılan tarixi əsərlər və tərtib olunan sənədlər isə doğma Azərbaycan türkcəsinə tərcümə edilməmişdir. Bu isə XIX əsrdə Azərbaycan tarixində çoxsaylı ağ ləkələrin qalmasına səbəb olmuşdur.

XIX əsr tarixçilərindən ancaq Abbasqulu Ağa Bakıxanov, Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir, Mirmehdi Xəzani və Kərim ağa Fatehin yaradıcılığı üzərində dayanan, onların əsərlərini təhlil edən H.İmanov, fikrimizcə, onları düzgün olmayaraq Azərbaycan zadəgan-mülkədar tarixşünaslığının nümayəndələri kimi xarakterizə etmişdir (33, s.5). Biz müəllifin bu fikri ilə razılaşa bilmərik. Təkcə elə ona görə ki, həmin tarixçilərin bəzilərinin (məs., A.Bakıxanovun), əsərləri öz yazılış tərzi, söykəndiyi qaynaqların zənginliyi və mötəbərliliyi müəllif araşdırmalarının dərinliyi və s.-yə görə bugünkü çağdaş tarixşünaslıq üçün əvəzsiz örnək olaraq qalmaqdadır.

XIX əsrin birinci yarısında Qarabağ xanlığının tarixinə həsr olunmuş əsərlərdən Mirzə Adıgözəl bəy və Mirzə Camalın «Qarabağnamələri» xüsusilə seçilir. İ.P.Petruşevski, S.P.Ağayan, V.N.Leviatov, Əli Hüseynzadə, N.Axundov və bir sıra digər müəlliflər öz tədqiqatlarında «Qarabağnamələr» dən geniş istifadə etmişlər.

V.H.Leviatov «Mirzə Adıgözəl bəyin tərcümeyi-halına aid materiallar» və Mirzə Adıgözəl bəyin «Qarabağnamə» əsərinə yazdığı müqəddimədə (54, s.6-27), Əli Hüseynzadə «Mirzə Camal Cavanşir və onun «Qarabağnamə»si (55, s.104-105) və «XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı» əsərində (33), Ə.B.Şükürzadə isə özünün «Əhməd bəy Cavanşirin tərcümeyi-halı» (17, s.150-156) adlı yazısında «Qarabağnamələr»dən geniş istifadə etmiş və yeni düzəliş, əlavə və qeydlər etməklə onları daha da zənginləşdirmişlər.

Əli Hüseynzadə Mirzə Yusif Qarabağinin «Tarixi-safi», Mirmehdi Xəzaninin «Kitabi-tarixi Qarabağ» əsərlərini «XX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı» əsərində geniş təhlil etmiş, bu salnamə tipli əsərlərin məziyyətləri və çatışmazlıqlarını ustalıqla dəyərləndirmişdir. (33, s.6).

Ə.B.Şükürzadə «Qarabağ xanlığının siyasi quruluşu» və M.Mustafayev «Qarabağ xanlığının iqtisadiyyatı» (137; 114) dissertasiyalarında «Qarabağnamələr»dən geniş istifadə etmişlər.

G.N.İsmayılova 1987-ci ildə müdafiə etdiyi «XIX-XX əsrin əvvəllərində Şuşa şəhərinin tarixi» adlı dissertasiyasında, Kərimova Sevilin 1995-ci ildə müdafiə etdiyi «Çarizmin Azərbaycanın şimalında və müstəmləkəçiliyində Erməni siyasətçilərinin rolu» (40), Vidadi Umudovun 1996-cı ildə müdafiə etdiyi «Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəçilik əleyhinə mübarizə» (1801-1826-cı illər)» (73) dissertasiyalarında «Qarabağnamələr»dən səmərəli istifadə edilmişdir.

Nazim Axundov Mirzə Yusif Qarabağinin «Tarixi-safi», Mirmehdi Xəzaninin «Kitabi-tarixi Qarabağ», Rzaqulu bəy Mir-

zə Camal oğlunun «Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri», Mirzə Rəhim Fənanın «Tarixi-cədidi Qarabağ», M.Baharlının «Əhvalati-Qarabağ», Həsən İxva Əlizadənin «Şuşa şəhərinin tarixi», Həsənəli Qaradağinin «Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları» əsərlərini «Qarabağnamələr» in ikinci kitabında nəşr etdirmiş, onlara ön söz yazmış və düzəlişlər etmişdir. Bundan əlavə N.Axundov 1989-cu ildə 232 səhifəlik «Qarabağ salnamələri» (6) əsərini də yazmışdır. Bu əsərdə müəllif «Qarabağnamələr»ə istinad edərək Qarabağın keçmişi və başlıca olaraq Qarabağ xanlığının siyasi tarixini, xanlığın iqtisadi-ictimai və mədəni həyatını ətraflı işıqlandırır. Kitabda salnamələr və onların müəllifləri haqqında da ətraflı və sistemli məlumat verilir.

Qarabağ xanlığı tarixinin ilk salnaməçilərindən Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir öz əsərlərində Cavanşir nəslindən olan Pənahəli xan, İbrahimxəlil xan və Mehdiqulu xanın dövründə baş verən hadisələrə dair geniş məlumat verirlər. Hər iki əsər Rusiya-İran və Rusiya-Osmanlı müharibələrinə dair ən mötəbər mənbələrdəndir.

Əli Hüseynzadə qeyd edir ki, «istər Mirzə Adıgözəl bəy, istərsə də Mirzə Camal həm Qarabağ xanlığında, həm də çar hökumətinin Qafqazdakı idarə işlərində yaxından iştirak etdiklərindən qələmə aldıqları hadisələrin bəzilərinin şahidi olmuşlar. Müəlliflər Qarabağın, o cümlədən Azərbaycanın Rusiya ilə birləşdirilməsinə (işğalına - Y.H.) müsbət münasibət bəslədiklərindən hadisələrin təsvir və şərhində Rusiya dövlətinə hüsn-rəğbətlərini ifadə etmişlər» (33, s.30).

Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir öz əsərlərində etiraf edirlər ki, onların qələmə aldıqları hadisələrin əsas hissəsi şəxsi müşahidələrə və habelə yaşlı adamların söylədiklərinə əsaslanır. V.N.Leviatovun yazdığına görə, Qarabağ xanlığı barədə ilkin salnamənin müəllifi Mirzə Adıgözəl bəy təxminən XVIII əsrin 80-ci illərinin əvvəllərində doğulmuş, 1848-ci ildə sentyabr ayının 9-da vəfat etmiş və Goranboy yaxınlığındakı Rəhimli kəndinin qəbiristanında dəfn edilmişdir. Adı-

gözəl bəy, öz tərcümeyi-halı barədə müəllifi olduğu «Qarabağnamə»də müəyyən məlumat vermişdir (54, s.6,16,89).

Mirzə Adıgözəl bəy «Qarabağnamə»sini 1845-ci ildə yazmışdır. Əsərdə 1736-cı ildən başlayaraq 1828-ci ilə kimi Qarabağın siyasi tarixi əhatə edilir. 1845-ci ildə «Zakavkazskiy vestnik» qəzetinin 13 və 14-cü saylarında Qarabağ xanlığının tarixinə dair imzasız iki məqalə çap olunmuşdur. Məqalələrdə təsvir olunan hadisələrin ardıcıllığı və onlara verilən obyektiv qiymət göstərir ki, bunlar Mirzə Adıgözəl bəyin «Qarabağnaməsi»nin qısa icmalıdır (6, s.9).

Maraqlı bir cəhəti də qeyd etmək lazımdır ki, Mirzə Adıgözəl bəyin «Qarabağnaməsi»ni onun diktəsi ilə qarabağlı şair Hüseyn Salari yazmışdır. Salari əsər boyu təsvir olunan hadisələr haqqında beyt və bəndlər yazaraq əsəri daha da zənginləşdirmişdir. Çox güman ki, əsərin diktə yolu ilə Hüseyn Salarinin yazması Mirzə Adıgözəl bəyin qocalığı ilə əlaqədar olmuşdur. Hələlik bu mülahizə tam sübuta yetirilməmişdir (6, s.9).

Mirzə Adıgözəl bəyin «Qarabağnamə»si Azərbaycan dilində Qarabağ tarixi barəsində yazılan ilk əsərdir. Əsərin orijinalı Tiflis şəhərinin ümumi kitabxanasında saxlanılır. Mirzə Adıgözəl bəy Qarabağ xanlığında baş vermiş siyasi, iqtisadi və mədəni hadisələrlə yanaşı, alban xristian xəmsə məlikləri və onların mənşəyi haqqında çox maraqlı məlumat verir. Onun bu etnik qruplar haqqında məlumatı bir sıra elmi ədəbiyyatda öz əksini tapmadığından, onlar haqqında Mirzə Adıgözəl bəyin qeydlərinin verilməsi məqsədəmüvafiq olardı. Müəllif «Xəmsə» adı ilə tanınan mahalların məlikləri haqqında yazır: «Bu mahalların biri Dizaqdır. Məlikləri Məlik Yegan adlanır. O, Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtına oturub hörmət qazanmışdır.

İkincisi – Vərəndədir. Məlikləri Məlik Şahnəzərlilər olmuşdur. Onlar daha qədim bir nəslə mənsub və daha çox etibar sahibidirlər. Əsilləri də Göycə əsilzadələrindəndir. Sonra oradan Qarabağa gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

Üçüncüsü Xaçındır. Məlikləri Həsən Cəlalıyan övladıdır… Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliyi olmamışdır. Buna görə, məliklik pərisi hər an bir şəxsin məclisinin saqisi olmuş və hər bir vaxt bir hərifi sərxoş etmişdir. Axırda mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı rəyasət üfüqündən baş vurub Qarabağ vilayətinin bütün sahəsini cəlal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı məlik Mirzə xan özünün gözəl iradə və sədaqətli əqidəsinə görə, bu əbədi dövlət məmurlarının əmrilə məliklik sikkəsini gümüş kimi saf olan adına kəsdirdi. Ondan sonra da oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman «hər kəsin növbəti beş gündür» misrasını məzmunca məliklik bayrağını göylərə qaldırdılar.

Dördüncü – Çiləbörd mahalıdır. Məlikləri Allahquludur. Əsilləri Maqavizdən gəlmədir. Bunlar gəlib Çiləbörddə məlik olmuş, Tərtər çayının ortasında vage ən möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yolu olan Cermux (rəvayətə görə, Çiləbördün müxtəsər adıdır) qalasını özlərinə məskən, sığınacaq və mənzil etmişlər…

Beşinci – Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədirlər. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu dəfələrlə məliklik etmişlər. Sonralar Məlik Usub Gülüstan qalasını zəbt edib orada sakin olmuşdur.» (54, s.36-38).

Ə.Hüseynzadənin yazdığına görə, V.N.Leviatov Mirzə Adıgözəl bəyin «Qarabağnamə»sini təhlil edərkən səhvə də yol vermiş, Mirzə Adıgözəl bəyin və Mirzə Camal Qarabağinin «Qarabağnamə»lərinin yazılma tarixini səhv salmış, heç bir əsas olmadan belə bir mühakimə irəli sürmüşdür ki, guya Mirzə Adıgözəl bəy «Qarabağnamə»sini yazarkən Mirzə Camal bəy Qarabağinin «Qarabağ tarixi»ndən istifadə etmişdir. Lakin əsərin mətni ilə tanışlıqdan sonra məlum olur ki, Mirzə Adıgözəl bəy öz əsərini Mirzə Camal bəy Cavanşirdən iki il əvvəl - 1845-ci ildə yazmışdır. Mirzə Camal Cavanşir isə «Qarabağ tarixi» əsərini 1847-ci ildə yazıb başa çatdırmışdır (33, s.32; 55, s.106).

İ.P.Petruşevski də Mirzə Adıgözəl bəyin «Qarabağnamə» adlı salnaməsini təxminən 1847-ci ildə tərtib etməsini qeyd etməklə səhvə yol vermişdir (123, s.48).

Qeyd etmək lazımdır ki, Mirzə Adıgözəl bəy və Mirzə Camal bəy Cavanşir öz «Qarabağnamə»lərində istifadə etdikləri mənbələrin hamısını göstərmişlər. Hər iki əsərin mətni tutuşdurulduqda məlum olur ki, əsərlərdə təsvir edilən hadisələr eyni plan üzrə verilir, hər ikisində əsasən eyni faktlar təsvir olunur. Əgər belədirsə onda Mirzə Camal Cavanşir «Qarabağ tarixi» salnaməsini yazarkən Mirzə Adıgözəl bəyin «Qarabağnamə»sindən istifadə edə bilərdi. Fikrimizcə, hər iki müəllif öz əsərini müstəqil şəkildə yazmışlar.

Mirzə Adıgözəl bəyin «Qarabağnamə»sinin üzü 1848-ci ildə Tiflisdə Azərbaycan şairi Mirzə Şəfi Vazeh tərəfindən nəstəliq-şikəstə xətti ilə nəfis şəkildə köçürülmüşdür.

Hazırda isə, həmin əlyazması Peterburq şəhərindəki Şərqşünaslıq İnstitutunun kitabxanasında saxlanılmaqdadır (6, s.1011).

Tarixi araşdırmalar sübut edir ki, Mirzə Adıgözəl bəyin «Qarabağnamə»si Peterburqa şərqşünas Xanıkovun təşəbbüsü ilə göndərilmişdir (6, s.11).

Mirzə Adıgözəl bəyin «Qarabağnamə»si on iki fəsildən və «Əsərin müəllifi kapitan Mirzə Adıgözəl bəyin tərcümeyi-halı» adlı sonuncu xüsusi bölmədən ibarətdir. Bu qiymətli əsərin hər bir fəsli Azərbaycan tarixşünaslığında özünəməxsus yer tutur.

1826-1828-ci illər Rusiya-İran müharibəsini Azərbaycan tarixşünaslığında ilk dəfə Mirzə Adıgözəl bəy təsvir etmişdir. Tarixçi 1826-1828-ci illərin Rusiya-İran müharibəsinin ən mühüm hadisələrini araşdırmış və onları xronoloji ardıcıllıqla qeyd etmişdir (54, s.59-89; 109, s.26).

Mirzə Adıgözəl bəyin «Qarabağnamə»sində ruspərəstlik aydın surətdə hiss olunur. O, rus-İran müharibələrinin səbəb və nəticələri açıqlamır, 1804-1813 və 1826-1828-ci illər rus-İran müharibələrinin soyğunçu, qarətçi, işğalçı və müstəmləkəçi

xarakterinə toxunmur. Halbuki, 1813-cü il oktyabrın 12-də Gülüstan kəndində və 1828-ci il fevralın 10-da isə Türkmənçay kəndində tərəflər arasında imzalanmış müqavilələrdə bu hal istənilən qədər açıq şəkildə özünü büruzə verir.

«Qarabağnamə»də XVIII əsrin tarixi hadisələri hekayə xarakteri daşıyır. Ona görə ki, müəllifin özünün də göstərdiyi kimi, həmin məlumatları qocaların danışıqları əsasında toplamışdır (54, s.28). Əsərin XIX əsrə aid olan hissəsi daha dolğun və tarix üçün dəyərlidir. Müəllifin öz dövründə baş vermiş tarixi hadisələrin əsərdə geniş təsviri dolğun və çox qiymətlidir. Mirzə Adıgözəl bəyin «Qarabağnamə»si konkret tarixi faktlarla zəngindir. Müəllif böyük səy və gərgin əmək sərf edərək Qarabağın və qismən də Cənubi Qafqazın tarixinə aid sanballı tarixi materiallar toplamışdır. O, öz vətənini gələcək tarixi taleyini irəlicədən müəyyən edən hadisələrə, faktlara diqqətlə yanaşmışdır. Əsərin böyük bir hissəsi ya hadisələrin şahidi və ya onların müasiri tərəfindən qələmə alınmışdır. Belə hesab edirik ki, bu salnamədəki qüsurlar onun elimli dəyərinə ciddi xələl gətirmir. Həmin qüsürlar əsasən dövrün ictimai-siyasi şəraitinin və müəllifin həmin cəmiyyətdə tutduğu mövqeyinin bilavasitə nəticəsi hesab edilməlidir.

Qarabağ xanlığının tarixinə aid ikinci əsərin müəllifi Mirzə Camal Cavanşir Qarabağidir. O, 1773-cü ildə Qarabağın Xocalı kəndində anadan olmuş, təxminən 80 il ömür sürərək 1853-cü ildə vəfat etmişdir. Mirzə Camal Cavanşir İbrahimxəlil xanın vəziri olmuş, xanlığın daxili və xarici həyatında yaxından iştirak etmişdir. Qarabağ xanlığı Rusiya himayəsinə keçdikdən sonra (işğalından sonra - Y.H.) Mirzə Camal Mehdiqulu xanın yanında həmin vəzifədə qalmışdır (33, s.31). Qarabağ xanlığı ləğv edildikdən sonra Mirzə Camal Qarabağ əyaləti məh-kəməsinə üzv təyin edilmiş və burada 18 ilə yaxın çalışdıqdan sonra - 1840-cı ildə qocalığı ilə əlaqədar olaraq istefaya çıx-mışdır (55, s.104).

Mirzə Camal Cavanşir fars dilində yazdığı «Qarabağ tarixi» əsərini 1847-ci ildə bitirmişdir. Həmin əsərin dəyəri bir

tərəfdən və ilk növbədə müəllifin hadisələrin bir çoxunun iştirakçısı, canlı şahidi olmasındadırsa, digər tərəfdən bu hadisələri Qarabağda yaşayan hərbi və siyasi xadimlərdən eşidib qələmə almasındadır (58, s.31). Elə buna görə də Mirzə Camal Qarabağinin «Qarabağ tarixi» əsərində verilmiş tarixi məlumatlar böyük əhəmiyyətə malikdir.

1855-ci ildə görkəmli şərqşünas və qafqazşünas Adolf Berje Mirzə Camalın «Qarabağ tarixi» əsərini rus dilinə tərcümə etmiş və həmin ildə əsəri «Kavkaz» qəzetində çap etdirmişdir. Eyni zamanda Adolf Berje M.F.Axundovun vasitəsilə tanış olduğu Mirzə Camalın oğlu Rzaqulu bəydən atasının tərcümeyi-halı haqqında məlumat almış və onu yazısına əlavə etmişdir (6, s.12; 33, s.31).

Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı aktların məşhur redaktoru Adolf Berje Mirzə Camal Qarabağinin tərcümeyi-halından bəhs edərək yazırdı: «Mirzə Camal fars, ərəb, osmanlı dillərindən başqa avar və ləzgi dillərini də bilirdi. Tarix, coğrafiya və astronomiya haqqında yaxşı məlumatı vardı. Tibb elmini bildiyi üçün istefaya çıxdıqdan sonra ömrünün sonuna qədər xəstələri pulsuz müalicə edirdi. Buna görə də xalq arasında hörməti vardı» (33, s.32).

Mirzə Camal Şuşada mollaxanada oxumuş, ərəb və fars dillərini də məhz burada öyrənmişdir. Gənc yaşlarında Qarabağ xanı İbrahimxəlil xanın dəftərxanasında mirzə vəzifəsində işləmişdir (6, s.1213).

**Bu insanın həyatının son anını A.Berje belə təsvir edir: «1853cü il aprelin 8-də, axşam namazından sonra xəstə likdən zəifləmiş Mirzə Camal bütün yaxın adamlarını çağırmış, onlara xoşbəxtlik arzulamış və nəsihət etmiş, yaddaşı özündə, sakitcə vəfat etmişdir» (33, s.32).**

Ağa Məhəmməd xan Qacarın 1795-ci ildə Şuşaya birinci yürüşü və qalanı mühasirədə saxladığı vaxt Mirzə Camal və onun atası, Şuşanın qalabəyisi Məhəmmədxan bəy İran sərbazlarına qarşı mübarizədə fəallıq göstərmişlər. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra

İbrahimxəlil xan Mirzə Camalın xidmətini nəzərə alaraq onu Molla Pənah Vaqifin əvəzinə xanlığın vəziri təyin etmişdir. 1805-ci il may ayının 14-də Gəncə yaxınlığında Kürəkçay sahilində İbrahimxəlil xanla general Sisianov arasında müqavilənin imzalanması mərasimində Mirzə Camal da iştirak etmişdir. Onun bu müqavilə ilə əlaqədar fəaliyyətinin nədən ibarət olması hələlik bizə məlum deyil. Həmin müqavilə birinci rus-İran müharibəsi zamanı Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğal olunması istiqamətində qəsbkar romanovlar Rusiyasının qazandığı növbəti böyük uğur idi (6, s.13).

Mirzə Camalın «Qarabağ tarixi»ndə əsasən Pənahəli xan və İbrahimxəlil xanın xarici istilaya qarşı apardıqları müharibələr təsvir olunur. İstiqlaliyyət uğrunda aparılan bu müharibələr ədalətli müharibələr idi. Onların istər Cənubi Qafqazın yerli qonşu xanlıqları, istərsə də bəzi qədim alban knyazlarının tör-töküntüləri olan və özlərini erməni kimi qələmə verən məliklərlə mübarizələri də xarici istilaya qarşı birliyi təmin etmək məqsədi daşıyırdı. Bundan əlavə Mirzə Camal Qarabaği digər salnaməçilərdən fərqli olaraq Qarabağın tarixini qələmə alarkən siyasi problemlərlə yanaşı öz əsərində xanlığın sosial-iqtisadi həyatına, o cümlədən torpaq mülkiyyət formalarına, feodal münasibətlərinə toxunmuş, vergi və mükəlləfiyyətlərdən də yazmışdır.

Həm Mirzə Adıgözəl bəyin, həm də Mirzə Camal Qarabağinin «Qarabağnamələri», Şəki xanlarının tarixi də bura daxil olmaqla, öz iqtisadi-siyasi təməlini itirmiş saray salnaməçilik ənənəsinin davamı kimi səciyyələndirilə bilər. Lakin bunlar klassik saray salnaməçiliyindən aşağıdakı xüsusiyyətləri ilə fərqlənirlər:

1. Klassik saray salnamələrində müəyyən dövrdə baş verən hadisə və faktlar illər üzrə verilirsə «Qarabağnamələr»də tarixi hadisə və faktlar fəsillərə əsasən müəyyənləşdirilir;

2. Mirzə Adıgözəl bəyin və Mirzə Camal bəy Cavanşirin salnamələri bəhs olunan dövrlərdə yazılan saray salnamələri ilə müqayisədə olduqca böyük üstünlüklərə malikdir. Belə ki,

onların əsərləri sadə dildə yazılmaqla, dərin məzmuna malikdir.

3. «Qarabağnamələr»də Qarabağ xanlığının banisi Sarıcali oymağından olan Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın şəxsiyyətlərinə, dövlət quruculuğuna tarixi baxımdan real qiymət verilir.

XIX əsrin 50-ci illərində Mirzə Camalın oğlu Rzaqulu bəy də «Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri» adlı salnamə yazmışdır. Əslində o, atası Mirzə Camal Cavanşirin «Qarabağ tarixi»nin faktlarını sadəcə xülasə edərək onu yeni əlavə olunmuş mülahizə və faktlarla zənginləşdirmişdir. Rzaqulu bəy Mirzə Camal oğlunun əsəri ilk dəfə Nazim Axundov tərəfindən «Qarabağnamələr»in ikinci kitabına daxil edilmiş və ona ön söz yazılmışdır (67, s.205-246). Bundan əlavə N.Axundov «Qarabağ salnamələri» əsərində Rzaqulu bəyin əsərini geniş təhlil etmişdir (6, s.14).

Bizim dövrümüzədək gəlib çatmış və hələlik bizə məlum olan «Qarabağnamə»lərin müəlliflərindən biri də Əhməd bəy Cavanşirdir (1828-1903). Bu müəllifinin tərcümeyi-halı və əsəri haqqında ilk dəfə Ə.B.Şükürzadə mətbuatda geniş məqalə ilə çıxış etmiş və onu geniş təhlil etmişdir (17, s.150-156).

Əhməd bəy Cavanşirin Qarabağ xanlığının tarixinə dair 1883-cü ildə yazdığı «Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair» əsəri «Kavkaz» qəzetində çap edilmişdir. Əsər barədə tarix ədəbiyyatında müəyyən fikirlər söylənilmişdir. Qeyd edək ki, Əhməd bəy Cavanşir Şimali Azərbaycanın Rusiya tərəfindən istilasına müsbət münasibət bəslədiyi üçün (bu, onun əsərindən də aydın görünür - Y.H.) Azərbaycanda çar Rusiyasının inzibati-mülki tədbirlərinin həyata keçirilməsində şəxsən iştirak etmişdir (33, s. 139).

Müəllif «Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair» əsərini Mirzə Adıgözəl bəy, Mirzə Camal və Mirmehdi Xəzani kimi Qarabağ tarixçilərinə əsasən yazdığını etiraf edir (33, s.139).

Əhməd bəy Cavanşirin «Qarabağnamə»si ilk dəfə 1884-cü ildə Tiflisdə, sonra 1901-ci ildə Şuşada və 1961-ci ildə isə

Bakıda Azərbaycan SSR EA tərəfindən rus və Azərbaycan dillərində çap edilmişdir (7, s.405).

«Qarabağnamələr»in müəlliflərindən biri də Mirzə Yusif (Nersesov) Qarabağidir. O, 1798-ci ildə anadan olmuş, 1860-cı ildə ölmüşdür. Mirzə Yusif Qarabağinin «Tarixi-safi» əsəri 1804-1828-ci illər Rusiya-İran müharibələrinin və Azərbaycan tarixinin müəyyən səhifələrinin öyrənilməsində qiymətli mənbələrdən biridir. «Tarixi-safi» XX əsrin 30-cu illərinə kimi tarixçilərimizə məlum deyildi. Bu əsər haqqında bizə ilk dəfə Əli Əjdər Səidzadə məlumat verilmişdir (33, s.88).

Biz «Tarixi-safi»nin məzmunu haqqında (çox müxtəsər də olsa) ilk məlumata «XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı» adlı məqalədə və həmin məqalə müəlliflərinin iştirakı ilə yazılmış «XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı» adlı əsərdə qarşılaşırıq (108, s.236; 46). Göstərilən hər iki əsərdə müəlliflər Mirzə Yusifin müxtəsər tərcümeyi-halını verdikdən sonra «Tarix-safi»nin qısa məzmunundan söhbət açırlar.

Mirzə Yusif Qarabağinin əsərinin yeganə nüsxəsi Gürcüstan EA yanında S.N.Canişia adına Dövlət Muzeyinin əlyazmaları fondunda saxlanılır. Fars dilində yazılan bu əsər Qarabağın 1745-1828-ci illər arasındakı tarixindən bəhs edir (33, s.16).

Müəllifin ziddiyyətli və yanlış fikirləri «Tarixi-safi»nin ayrı-ayrı fəsillərində özünü aydın göstərir. Ə.Hüseynzadə göstərilən əsərində Mirzə Yusifin «Tarixi-safi» əsəri barədə ətraflı şərh verilmiş və onun millətçilik mövqeyi təhlil olunmuşdur. Müəllif «Tarixi-safi»də Qarabağın və Azərbaycanın bütün Aran ərazisinin vaxtilə «Böyük Ermənistana» məxsus olduğunu iddia edir. Maraqlı burasıdır ki, Mirzə Yusif Qarabaği Azərbaycanın qədim şəhəri, Aranın anası hesab olunan Bərdənin tərənnüm və təsvirinə dair Nizami Gəncəvidən məşhur parçaları misal gətirirsə də tarixi həqiqəti söyləməyi caiz bilmir (33, s.16). O, tarixə baxışda qəddar millətçi M.Çimçiyanın tam təsiri altında olduğunu nümayiş

etdirir.

Professor Nazim Axundov da «Qarabağ salnamələri» əsərində Mirzə Yusifin «Tarixi-safi» əsərində yol verdiyi saxtakarlıqları cəsarətlə, tutarlı şəkildə tənqid etmiş və ona aydınlıq gətirmişdir. Son olaraq deməliyik ki, bütün qüsurlarına baxmayaraq, «Tarixi-safi»nin son - IX fəsli Rusiya-İran müharibələrini öyrənmək nöqteyi-nəzərindən əhəmiyyətli mənbələrdən sayılmalıdır.

İlk «Qarabağnamə» adlı əsərin müəllifi Mirzə Adıgözəl bəydən sonra, Qarabağ tarixinə həsr edilən Azərbaycan dilində yazılmış növbəti əsərin müəllifi Mirmehdi Xəzanidir. O, 1819-cu ildə anadan olmuş, 1894-cü ildə vəfat etmişdir. Mirmehdi Xəzani «Kitabi-tarixi-Qarabağ» əsərində 1747-ci ildən 1828-ci ilə kimi olan tarixi hadisələr təsvir olunur. Əsər ilk dəfə «Qarabağnamə»lərin ikinci kitabında Nazim Axundov tərəfindən çap edilmiş və ona ön söz yazılmışdır (53, s.94). Mirmehdi Xəzaninin «Kitabi-tarixi-Qarabağ» kitabından ilk dəfə mənbə kimi V.N.Leviatov istifadə etmişdir (33, s.16).

Mirmehdi Xəzaninin əsəri ilə ilk dəfə bizi tanış edən Həsən İmanovdur. O, Azərbaycan tarixşünaslığına həsr edilmiş bir məqalədə Xəzaninin öz əsərini Mirzə Adıgözəl bəyilə Mirzə Camalın «Qarabağnamələrin»dən köçürüb yazdığını irəli sürür, ona görə də haqsız olaraq, bu əsərin əhəmiyyətsiz olduğunu qeyd edir (109, s.8).

Həsən İmanov da V.N.Leviatov kimi Mirmehdi Xəzaninin əsərinə yaxşı bələd olmadığı üçün belə bir qənaətə gəlmişdir ki, guya o, Mirzə Adıgözəl bəyin əsərindən köçürmədir. Halbuki, Qarabağın tarixinə həsr olunmuş ikinci əsərin müəllifi Mirzə Camaldır. V.N.Leviatov yazır: «Mirzə Adıgözəl bəydən sonra Qarabağın tarixini yazan Mirmehdi Xəzani, öz əsərinin birinci fəslini Qarabağın coğrafiyasının təsvirinə həsr etmiş və bununla da Mirzə Adıgözəl bəyin əsərində qalmış boşluğu qismən doldurmuşdur» (6, s.19).

Qeyd edək ki, həmin boşluğu artıq Mirzə Camal Qarabaği doldurmuşdur.

Mirmehdi Xəzaninin salnaməsinin yazılma tarixi dəqiq məlum deyildir. Lakin onun 1905-ci ildə üzü köçürülmüş B-1917 nömrəli nüsxəsində göstərilir ki, «əsər 1866-cı ildən mövcuddur».

Yuxarıda adları qeyd edilən «Qarabağnamələr»dən başqa M.Baharlının «Əhvalati-Qarabağ», Mirzə Xosrov Axundovun «Qarabağ tarixi» və Həsən İxfa Əlizadənin «Şuşa şəhərinin tarixi», Mirzə Rəhim Fənanın və Həsənəli Qaradağinin də Qarabağ tarixinə aid fraqmentləri də vardır. M.Baharlı və Mirzə Xosrov Axundov öz əsərlərində tələsikliyə yol vermiş və hadisələri, demək olar ki, şərh etməmişlər. Baharlı «Əhvalati-Qarabağ» əsərində Qarabağ tarixindən daha çox onun memarlıq abidələri, tarixi şəxsiyyətləri, adət-ənənələri, etnoqrafik xüsusiyyətlərindən danışır. Bu əsər 1888-ci ildə yazılmışdır (10, s.270).

Göründüyü kimi «Qarabağnamə»lər istər quruluşca və istərsə də məzmun etibarilə bir-birinə çox oxşardır. Ona görə ki, bu salnamələr eyni dövrü, oxşar fakt və hadisələri əhatə edir. «Qarabağnamə»lər uzun müddət işıq üzü görməmiş, ictimaiyyətə çatdırılmamışdır. Bu salnamələr elmi ədəbiyyatda istənilən səviyyədə bir mənbə kimi istifadə edilməmişdir. XX əsrin 60-70-ci illərinə kimi ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin tələbə və şagirdləri salnamələrdən xəbərsiz qalmışdır. «Qarabağnamələr»in üçü çar məmurlarının sifarişi ilə yazılmışdırsa da tariximizin müəyyən dövrləri üçün onlarda qiymətli tarixi faktlar var. Mirzə Adıgözəl bəy və Mirzə Camal bəy «Qarabağnamələri»ni yazarkən, yuxarıda göstərdiyimiz kimi, nə Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları, nə də N.Dubrovin və V.Pottonun əsərləri mövcud deyildir. Qarabağ tarixinə həsr olunmuş salnamələrin heç birinin müəllifi Qarabağın və bütövlükdə Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalına mənfi münasibəti hiss olunmur. Salnamələrdə ruspərəstlik özünü aydın surətdə əks etdirir. Bu isə təbiidir. Ona görə ki, salnamə müəllifləri çarizmin idarəçilik sistemində vəzifə və ixtiyar sahibi olmuşlar.

Deməliyik ki, 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay işğalçı sülh müqavilələrinin şərtləri Mirzə Adıgözəl bəyə və Mirzə Camal bəy Cavanşirə müəyyən qədər təsir göstərməli idi. Belə hesab edirik ki, onların hər ikisinin Türkmənçay sülhündən sonra siyasi həyata qiymət vermək barəsində susmaları, bu şəxsiyyətlərin tarixi haqsızlıqlara qarşı lal etirazlarının əlaməti də sayıla bilər.

İbrahimxəlil xanın 1806-cı ildə ailə üzvləri ilə birlikdə, qəddar müstəmləkəçi olan mayor Lisaneviçin başçılığı altında vəhşicəsinə qətlə yetirilməsinin səbəbləri, Mirzə Adıgözəl bəy və Mirzə Camal bəy Cavanşirin salnamələrində özünün ədalətli təhlilini tapmamışdır. Eyni zamanda biz onları tarixi həqiqətlərdən tam qaçmaqda günahlandıra bilmərik. Belə mövqeli və dünyagörüşlü tarixçilər dolayı yollarla hadisənin tam təfsilatını verməli idilər. Mehdiqulu xanın başına açılan oyunlar, xanlığın simvolik daxili muxtariyyətinin də ləğvi, bu işdə ermənilərin oynadıqları mənfur rol, salnamələrdə öz əksini tapmamışdır. Ermənilərin Qarabağ, İrəvan və Naxçıvan xanlıqları ərazilərində nə vaxt və necə yerləşdirilmələri «Qarabağnamələr»in heç birində işıqlandırılmamışdır. Mirzə Adıgözəl bəy və Mirzə Camal bəy Cavanşirin ermənilərin həmin xanlıqların ərazisində məskunlaşdırılmaları haqqında məlumatları bugünkü həyatımız üçün qiymətli mənbə ola bilərdi.

«Qarabağnamə»lərdə verilmiş fakt və məlumatlara tənqidi yanaşmaq lazımdır. Xüsusilə Rusiya-İran müharibələrində rus qoşunlarının və onların işğalçılıq yürüşlərinə başçılıq edən rus və erməni generallarının fəaliyyəti burada hədsiz dərəcədə şişirdilib, əksinə Abbas Mirzənin «qızılbaş qoşunlarının» döyüş qabiliyyəti son dərəcə kiçildilib.

İlk dəfə olaraq Mirzə Adıgözəl bəy öz «Qarabağnamə»sində Qarabağın etnik tərkibinə toxunmuş, Qarabağın siyasi və iqtisadi həyatında heç bir əhəmiyyətli rol oynamayan məlikliklər haqqında ətraflı məlumat vermiş və bu, sonrakı «Qarabağnamə»lərin əksəriyyətinə «köç etmişdir».

Qarabağ xanlığının iqtisadi həyatının bəzi sahələri-ticarət, sənətkarlıq, pul dövriyyəsi ötəri də olsa salnamələrin bəzilərində öz əksini tapmışdır.

Salnamə müəllifləri Qarabağın ərazisini, coğrafi mövqeyini, mədəni həyatını da təsvir etməyə səy göstərmişdilər.

Qarabağ xanlığının tarixi barədə salnamələr yazılsa da, onun həm siyasi və həm də ictimai-iqtisadi tarixi hələ də məhz «Qarabağnamə»lərə söykənilməklə müstəqil bir tədqiqat obyekti kimi işlənilməmişdir. Söz yox ki, Qarabağ salnamələri və onlardan sonra yazılan əsərlər bu sahədə tədqiqatçılara böyük kömək edə bilər.

Qarabağ salnaməçiləri Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir şəxsən gördükləri və məkrli siyasətlərinin şahidi olduqları lisanlviçlərin, madatovların, behbudovların, reutların və başqa generalların, hərbçilərin Qarabağda və Azərbaycanın digər bölgələrində törətdikləri qanlı cinayətləri qələmə almamışlar.

Haqqında danışdığımız bu məqamlar Firudin Əsədov və Sevil Kərimova tərəfindən yazılmış «Çarizmi Azərbaycana gətirənlər» adlı kitabda (22) ustalıqla qabardılmışdır. Kitabda Azərbaycanda müstəmləkəçilik siyasətinin həyata keçirilməsində xüsusi rol oynamış ayrı-ayrı rus və tarixi düşmənlərimiz olan erməni zabitlərinin həyat və fəaliyyəti, xalqımıza qarşı onların düşmənçilik siyasətləri, Qafqazın, o cümlədən Azərbaycanın ruslar tərəfindən işğal olunması zəngin tarixi faktlarla işıqlandırılmışdır.

Bu gün xalqımızın müstəqilliyimizi möhkəmləndirmək, ərazi bütövlüyümüzü bərpa etmək uğurunda apardığı mübarizə, torpaqlarımızda erməni qəsbkarlarına qarşı tökülən şəhid qanları, öz tarixi keçmişimizin ağ ləkələrini aşkara çıxarıb tədqiq etmək, xalqa çatdırmaq əsas vəzifə kimi qarşıda durur. Vətənimizin böyük bir hissəsi vaxtilə Rusiya imperiyası

tərəfindən işğal olunmuşdur. Buna görə də Azərbaycan xalqı öz düşmənlərini yaxşı tanımalı, bu gün başına açılan müsibətlərin, faciələrin kökünü yaxşı bilməli, tarixən rus-erməni işğalının, siyasətinin əsl mahiyyətini dərindən öyrənməlidir (22, s.140).

Araşdırmalar göstərir ki, «Qarabağnamələr»in heç birində bu diyar əhalisinin etnik tərkibi haqqında ətraflı məlumat verilmir. Salnamə müəllifləri yalnız, Qarabağ xanlığının sərhədlərini qeyd etməklə kifayətlənirlər. Demək olar ki, onlar xanlığın ərazisini bir-birindən fərqli surətdə qeyd etmirlər. Bu isə təbiidir. Məlumdur ki, 1804-1813-cü və 1826-1828-ci illər Rusiya-İran müharibələri dövründə Qarabağ əhalisinin müəyyən hissəsi ya məhv olmuş və ya da öz ata-baba torpaqlarını tərk edərək Qacar və Osmanlı səltənətlərinin ərazilərinə qaçmağa məcbur olmuşdur.

Qafqaz qoşunlarının baş komandanı general P.D.Sisianov 22 may 1805-ci ildə 19 saylı məlumatında yazırdı: «Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısıdır. Buna görə də onu əldə saxlamağa və möhkəmlənməsinə daha çox səy göstərilməlidir» (86, c.II, s.703).

Belə bir məqsəd tezliklə həyata keçirildi. 14 may 1805-ci ildə Gəncə yaxınlığında Kürəkçay sahilində Qarabağ xanı İbrahimxəlil xanla Sisianov arasında bağlanan müqaviləyə əsasən Qarabağ xanlığı (tarixi Qarabağ - Y.H.) Rusiya imperiyasının tərkibinə daxil edildi.

Məlum olduğu kimi, Qarabağ xanlığı 1822-ci ildə Rusiya imperiyası tərəfindən ləğv olundu. Bu isə Kürəkçay müqaviləsinin şərtlərinin ruhuna tam zidd idi. Xanlığın yerində Qarabağ əyaləti yaradıldı. 1840-cı ildə isə Şuşa qəzası yaradılaraq Kaspi (Xəzər) vilayətinin tərkibinə daxil edildi (96, c.IV, s.122).

1868-ci ildə Yelizavetpol quberniyası yaradıldıqdan sonra Şuşa qəzası bu quberniyanın tərkibinə salınmışdır. Onun torpaqlarının bir hissəsindən yeni Zəngəzur qəzası yaradıldı (139, c.IV, s.2). 1883-cü ildə Şuşa qəzasının ərazisi hesabına

yeni Cavanşir və Cəbrayıl qəzaları təşkil olundu. Bir müddət sonra burada Qaryagin (Koryagin) qəzası yaradılmışdır. Qarabağın bu inzibati bölgüsü demək olar ki, heç bir dəyişiklik olmadan 1921-ci ilə kimi qalmışdı (42, s. 163).

Qarabağ Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra Sisianov Qarabağda Rusiya imperiyasının mövqeyini möhkəmləndirmək məqsədilə Şuşa qalasına qoşun yerləşdirdi.

Aramsız müharibələr, rusların müstəmləkə zülmü, ermənilərin əzəli Azərbaycan torpaqlarında yerləşdirilməsi və s. yerli aborigen türk əhalisini doğma yurddan didərgin salırdı. 1805-ci ildə Qarabağda 10000 ailənin yaşadığını göstərən bir mənbə 1808-ci ildə əhalinin sayını azalıb 7474 ailəyə çatdığını qeyd edirdi (88, c.IV, s.579).

1823-cü ildə isə Qarabağda əhalinin sayı və milli tərkibi aşağıdakı kimi göstərilir.

Azərbaycanlılar 15729 ailə; onlardan 1111 ailə şəhərlərdə, 14618 isə kənddə yaşayırdılar. Bu dövrdə Qarabağda Rusiya imperiyasının köməyi ilə gətirilib yerləşdirilən ermənilərin sayı isə belə idi: - 4366 ailə onlardan 421 ailə şəhərlərdə, 3945 ailə isə kəndlərdə yaşayırdılar (122).

Rəqəmlər sübut edir ki, 1823-cü ilə kimi Qarabağa köçürülənlərin hesabına əyalətdəki ermənilərin sayı artıb 4366 ailəyə çatmışdır. 1826-1828-cı illərdə Rusiya-İran müharibəsinin gedişində və az sonra daha 18 min erməni ailəsi Qarabağın dağlıq hissəsində salınmış Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və digər kəndlərdə yerləşdirilmişdi (139, c.IV, s.10). Digər bir mənbədə göstərilir ki, Zəngəzurda, Əxlation, Parnaküt və Şinatağ kəndlərindən başqa bütün erməni kəndləri 1826-1829-cu illərdə Qarabağa Xoy, Salmas və digər yerlərdən gətirilmiş ermənilər tərəfindən salınmışdır (139, c.IV, s.10).

1828-ci il 10 fevralda Rusiya ilə İran arasında imzalanan işğalçı Türkmənçay sülh müqaviləsinin imzalanmasından sonra həmin müqavilə əsasında bir neçə ay müddətində İrandan Şimali

Azərbaycana 40 min erməni ailəsi köçürüldü (107, s.92-94). 1829-cu ildə Rusiya ilə Osmanlı imperiyası arasında imzalanan Ədirnə sülhünə əsasən sonuncunun torpaqlarından Cənubi Qafqaza 84000 erməni ailəsi köçürülüb yerli müsəlman-türk əhalisinin ən yaxşı torpaqlarında yerləşdirildilər.

1828-1830-cu illərdə Qarabağın dağlıq zonasına 200000 nəfər erməni göçürülmüşdür (133 s.59).

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi illərində Cənubi Qafqaza daha 85000 nəfər erməni gətirilmişdir (133, s.59).

1894-cü ildə Osmanlı Türkiyəsindən Cənubi Qafqaza 90000 nəfər, 1897-ci ildə isə 10000 nəfər erməni köçmüşdür. 1896-cı ildə Cənubi Qafqaza gəlmə ermənilərin sayı hesabına ermənilərin sayı 900000 nəfərə çatmışdır. 1908-ci ildə isə Cənubi Qafqazda bu rəqəm artıq 1300000 nəfəri ötmüşdür. Rus məmurlarından birinin etirafına görə, bunların 1000000 nəfəri Rusiya imperiyası tərəfindən Cənubi Qafqaza gətirilmiş ermənilər idi (133, s.6).

Rusların əli ilə İran və Türkiyədən gətirilən ermənilərin böyük əksəriyyəti Qarabağ, İrəvan və Naxçıvan ərazilərində yerləşdirilirdi. 1897-ci ildə əhalinin siyahıya alınması zamanı Qarabağda yaşayan 54841 ailənin 18616 erməni ailəsi olduğu göstərilir (132).

1813-cü və 1828-ci illərdə Rusiya imperiyası ilə İran arasında imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Qısa bir müddətdə ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi.

İrəvan, Qarabağ, Naxçıvan və başqa Azərbaycan xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında «Erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin

bünövrəsi qoyuldu. Bədnam «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı.

Cənubi Qafqazda sovet işğalından sonra ermənilər daha da azğınlaşdılar. Sovet imperiyasında rəhbər vəzifələrə soxulan ermənilər Moskvanın köməyi ilə Azərbaycan torpaqları hesabına «ərazilərini» genişləndirməyə başladılar. Qərbi Azərbaycan torpaqlarında özlərinə sığınacaq tapan ermənilərə əsrlər boyu Qarabağ bəylərbəyliyi və xanlığın ərazisi olan Zəngəzur mahalı, o cümlədən Mehri, Qapan (indiki Qafan), Gorus və başqa ərazilər rusların əli ilə Ermənistan SSR-ə verildi.

1923-cü il 7 iyulda Moskvanın təzyiqi ilə Qarabağın dağlıq hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olundu. Halbuki Ermənistan SSR ərazisində öz tarixi torpaqlarında yaşayan, sayca gəlmə Qarabağ ermənilərindən qat-qat çox olan Azərbaycan türklərinə heç bir muxtar hüquq verilməməsi, 4,4 min kvadrat kilometr ərazidə belə bir bədnam vilayətin təşkilinə heç bir ehtiyac yox idi. Şuşa şəhərinin köməkçi hərbi və təsərrüfat qəsəbəsi olan Xankəndi (Stenapakert) vilayətin mərkəzi elan olundu. 10-dan artıq dağıdıcı müharibəyə sinə gərmiş, dörd yüzə qədər memarlıq abidəsi olan Şuşa şəhəri 1923-cü ildən sonra ikinci plana keçdi. Qarabağ xanlığının mərkəzi olmuş Şuşa ermənilərin təzyiqinə məruz qaldı. Ermənilər saxta yolla vilayətdə öz saylarını artırırdılar. M.Qorbaçovun «yenidənqurma»sından istifadə edən ermənilər 13 fevral 1988-ci ildə Xankəndində antiazərbaycan qiyamı qaldırdılar. Azərbaycanın o zamankı səriştəsiz rəhbərləri bu problemi həll edə bilmədilər. Bundan istifadə edən M.Qorbaçov Azərbaycana, onun ayrılmaz tərkib hissəsi olan Qarabağa yaxşı silahlanmış qoşun hissələri yeritdi. Bununla da Qarabağ, demək olar ki, Azərbaycanın nəzarətindən çıxarıldı. Ermənipərəst siyasət yeridən Qorbaçov 1989-cu ilin yanvar ayında SSRİ Ali Sovetinin Rəyasət Heyəti adından «Azərbaycan SSR-in DQMV-də Xüsusi İdarəçilik formasının tətbiqi haqqında» qərar verdi. Vaxt itirmədən ermənipərəst A.Volskinin rəhbərliyi altında

Moskvaya tabe olan Xüsusi İdarəçilik Komitəsi (XİK) yaradıldı.

Beləliklə də DQMV əməli olaraq Azərbaycana tabeçilikdən çıxarıldı. XİK əsas vəzifəsini, yəni Azərbaycanın qədim torpağı olan Qarabağın Dağlıq hissəsi deyil, bütövlükdə Qarabağı erməni-rus işğalçılarının ixtiyarına keçirmək vəzifəsini yerinə yetirdi.

Azərbaycanın demokratik qüvvələrinin güclü təzyiqi altında SSRİ Ali Sovetinin Rəyasət heyəti 28 noyabr 1989-cu ildə XİK ləğv etdi. Lakin artıq gec idi.

Qarabağ birdir. Onun aranı da var, dağı da var. Təbiət bu diyarı belə yaratmışdır. Qarabağ heç vaxt, istər qədimdə, istərsə də Rusiya və sovet imperiyaları dövrlərində Ermənistanın olmamışdır və olmayacaqdır. Ermənilər Cənubi Qafqaza gəlmədilər, onların bu diyarda heç bir yeri və rolu olmamışdır. Onlar Qərbi Azərbaycan torpaqlarını qəsb etmiş yabançılar və gəlmələrdirlər.

# II FƏSİL

# QARABAĞ XANLIĞININ YARANMASI VƏ XANLIĞIN DAXİLİ HƏYATI «QARABAĞNAMƏLƏR»DƏ

## 2.1. QARABAĞ XANLIĞININ YARANMASI VƏ İCTİMAİ-SİYASİ QURULUŞU

Nadir şahın 1747-ci ildə öldürülməsindən sonra Azərbaycan ərazisində yaranan feodal dövlətlərindən biri də Qarabağ xanlığı idi. Qarabağ xanlığının meydana çıxması və formalaşmasının müəyyən özünəməxsus cəhətləri vardır. N.Axundovun yazdığı kimi, əgər Bakı, Təbriz, Şəki, Quba, Ərdəbil, Gəncə və digər xanlıqlar tarixən siyasi, iqtisadi və mədəni mərkəz kimi inkişaf etmiş şəhərlərin ətrafında yaranmışdısa, Qarabağ xanlığının banisi Sarıcalı Pənahəli xan Cavanşir yaratdığı xanlıq üçün məxsusi mərkəz, paytaxt da yaratmalı olmuşdur (6, s.25).

Qarabağ salnaməçilərinin hamısı Qarabağ xanlığının yaranmasını Sarıcalılı Pənahəli xanın adı ilə bağlayırlar. Mirzə Adıgözəl bəy Pənahəli bəyin (İbrahimxəlil ağanın babası - Y.H.) əslən Sarıcalı tayfasından olduğunu qeyd etmişdir (54, s.31). Mirzə Camal Cavanşir isə onun bu fikrini Cavanşirlərin Sarıcalı oymağından olmasını yazmaqla qəbul edir (55, s.110). Mirzə Camal bəy Qarabaği «Qarabağnamə»sində yazır: «Mərhum

Pənah xanın əsl-nəsəbi Dizaxın Cavanşir elindəndir. Bu el qədim zamanlarda Türküstandan gəlmiş Bəhmənli elinin bir qolu olan Sarıcalı oymağındandır. Bunların ata-babaları Cavanşir eli arasında məşhur, adlı-sanlı, çörəkli, mal-dövlət və ehsan sahibi olmuş adamlar idilər» (55, s.110).

Mirzə Yusif Qarabaği və Rzaqulu bəy Mirzə Camal oğlu əsərlərində Qarabağ xanlarının mənşəyi ilə bağlı məsələdə Mirzə Camalın bu barədə yuxarıda gətirdiyimiz mülahizələrinə istinad etmişlər (58, s.14; 67, s.208). Ancaq bu salnaməçilərdən Əhməd bəy Cavanşir və Mirmehdi Xəzani əsərlərində əvvəl adları çəkilən müəlliflərdən fərqli olaraq, Qarabağ xanlarının türk-türkmən deyil, monqol soyundan olmaları ilə bağlı rəvayətlərə üstünlük vermişlər. Ancaq onların bu ehtimallarını mötəbər mənbələr təsdiq etmir (17, s.158; 53, s.105). Belə ki, Fəzlullah Rəşidəddinin **«Cami ət-təvarix»** adlı əsərində sadaladığı monqol tayfalarının sırasında Cavanşir tayfasının adı çəkilməmişdir. Səfəvilər dövrünün mötəbər qaynaqlarına istinad edən F.Sümərin əsərində isə otuz iki türkmən tayfasının içərisində Cavanşirlərin də adı çəkilmiş və onların XVI-XVII əsrin əvvəllərində Qarabağda məskun olduqları göstərilmişdir (79, s.198,199). «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» adlı rəsmi sənəddə isə yazılmışdır: «Cavanşir tayfasının Sarıcalı oymağı... Xaçın nahiyəsində, Tərnəküt torpağında qışlayır... Güştağ adlı yerdə yaylayır. Bayat torpağında Doğalan və Zəliyan çayları kənarında əkinçiliklə məşğul olurlar» (23, s.449).

«Qarabağnamələr»in demək olar ki, hamısında XVIII əsrin əvvəllərində Azərbaycanda baş vermiş siyasi hadisələrin təsvirləri üst-üstə düşür. Mirzə Adıgözəl bəyin «Qarabağnamə»si ilə Mirzə Camalın «Qarabağ tarixi» əsərlərinin müqayisəli təhlili göstərir ki, XVIII əsrin birinci yarısında Azərbaycanda, o cümlədən də Qarabağda baş verən siyasi hadisələr bir-birini tamamlamışdır.

Məlum olduğu kimi, XVIII əsrin əvvəllərində bir vaxtlar çox möhtəşəm səltənət sahibi olmuş Səfəvilərin hakimiyyəti son

dərəcə zəifləmişdi. Nəhayət, XVIII əsrin 30-cu illərinin ortalarında görkəmli Azərbaycan türk sərkərdəsi Nadir xan Əfşar hakimiyyəti ələ almaq üçün Muğanda qurultay çağırılmasını təşkil etdi. Qurultayda Nadirin şah elan edilməsi üçün əvvəlcədən lazımi tədbirlər görülmüşdür. 1736-cı ildə Muğanda keçirilən tacqoyma mərasimi zamanı Qarabağın ziyadoğlular, iyirmidördlər, otuzikilər, Cavanşir və başqa elləri Nadirqulu xanın namizədliyinin əleyhinə çıxdılar və taxtda yalnız Səfəvilər sülaləsinin nümayəndələrinin oturmasını təkid etdilər. Məhz bu səbəbdən Nadir şah taxtına oturduqdan sonra qarabağlıları cəzalandırmağı qərara aldı. O, Qazax, Borçalı və Şəmşəddin ellərini öz vassalı Kartli çarı Teymurazın idarəsinə verdi. Cavanşir, otuziki, Kəbirli ellərini Xorasan vilayətinə və Əfqanıstanın sərhədlərinə sürgün etdi. Qarabağın beş alban xristian məlikliklərinə bilavasitə şaha tabe olmaları barədə əmr verdi (8, s.531).

N.Axundovun yazdığı kimi, Nadir şah dövlətində böyük inzibati dəyişikliklər həyata keçirdi. O, Səfəvilərdən miras qalmış bəylərbəylik inzibati bölgüsünü də ləğv etdi. Bütün Azərbaycan torpaqlarını eyniadlı bir vilayətdə birləşdirərək bu vilayətin idarəsini qardaşı İbrahim xana tapşırdı. Bununla da başqa bəylərbəyliklər kimi Qarabağ bəylərbəyliyinin varlığına son qoyuldu (6, s.31).

Mirzə Adıgözəl bəyə görə, Qarabağ bəylərbəyliyi ləğv edildikdən sonra Nadir şahın fərmanı əsasında Qarabağ elatları Xorasana köçürülmüş və Sərəxsdə onlara yerləşmək üçün məskən ayrılmışdır. Şahın buyruğu ilə bu ellərin cəsarətli adamları orduda xidmət etməli idilər. Mirzə Adıgözəl bəy yazırdı: «Nadir şah Cavanşirdən qoşun yığdığı zaman, İbrahimxəlil ağanın (İbrahimxəlil ağa Pənahəli xanın atası, İbrahimxəlil xanın isə babası idi - Y.H.) rəşid və böyük oğlu Fəzləli bəyi özünə naib etdi. Eşikağası mənsəbini ona münasib gördü və bu qulluğu o, mərhumə verdi... Çox keçmədi o, qətlə yetirildi. Nadir şah onun kiçik qardaşı Pənahəli bəyi hüzuruna çağırıb, əlinə çomaq verdi, əynini qiymətli eşikağası xələti ilə bəzədi və böyük qardaşının mənsəbini ona verdi. O, tapşırılan

işləri bir neçə gün lazımi dərəcədə sədaqətlə yerinə yetirirdi. Lakin Nadir şahın ona olan qorxunc baxışlarından və qərəzkarlıqla etdiyi rəftarından başa düşdü ki, o (şah), mütləq belə bir zirəkmaddə cavanın kökünü kəsməkdə səhlənkarlıq və belə bir igid şəxsin vücudunu aradan qaldırmaqda kahallıq etməyəcəkdir» (54, s.30, 31-32).

Qarabağ ellərinin Xorasana sürgünü sözsüz ki, Fəzləli bəy və qardaşı Pənahəli bəy tərəfindən yaxşı qarşılanmamışdı. Ola bilsin ki, Nadir şah Fəzləli bəyi elə buna görə öldürtmüşdü. Pənahəli bəyin qardaşı Fəzləli bəy Nadir şahın göstərişi ilə öldürüldükdən sonra, artıq o, Nadir şahın sarayında qala bilməzdi, ona görə də «qaçmağı qərara aldı. O, Qarabağa gəlib öz uca nəslinə mənsub bir neçə nəfəri özünə yoldaş etdi...» (54, s.32). Mirzə Camalın yazdığına görə Pənahəli bəy Xorasandan Qarabağa 1738-ci ildə qaçmışdır (55, s. 110). Bu hadisədən xəbər tutan Nadir şah Azərbaycan və Şirvan xanlarına qəzavü-qədər kimi nüfuzlu olan qələmilə çoxlu hökmlər yazdı. Bu hökmləri sürətli çaparlar vasitəsilə göndərdi ki, Pənahəlini tutub onun hüzuruna göndərsinlər. Lakin Pənahəli bəyi tutmaq mümkün olmadı (54, s.32).

Nadir şah tərəfindən izlənən Pənahəli xan Mirzə Camalın yazdığına görə, Qarabağ dağları, Şəki və Qəbələdə yaşayırdı. Çox keçmir ki, oğlu İbrahimxəlil xan da atasının ardınca Qarabağa gəlir (55, s.111).

Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşirin salnamələrində Nadir şah tərəfindən Qarabağ bəylərbəyliyinin ləğv edilməsini və yerli elatlara divan tutulmasını daha geniş şəkildə təsvir etmişdilər. Hər iki salnamədə 1747-ci ildə Nadir şahın öldürülməsindən sonra vaxtilə onun Xorasana köçürtdüyü Qarabağ ellərinin geriyə, Qarabağa qayıtmaları çox ətraflı təsvir olunmuşdur. Mirzə Camal Cavanşir yazır: «Nadir şah tərəfindən Xorasana köçürülmüş Cavanşir və başqa ellər özbaşına bütünlüklə oradan köçüb, vətənlərinə gəldilər. Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ ellərini qarşılamaq üçün İraq və Azərbaycan sərhədinə qədər getdi. (Onlar) Qarabağ

torpağına daxil oldular. Hər kəs öz əvvəlki yurduna gedib rahatlandı...» (55, s.111).

Nadir şahın öldürülməsindən sonra Qarabağdakı elatlarının əsilzadələri içərisində ən nüfuzlu nümayəndə olan Pənahəli bəyin Qarabağda hakimiyyətini möhkəmləndirməsi, yəni Azərbaycanın quzeyində Qarabağ adlı yeni bir xanlığın yaranması «Qarabağnamələr» də təsvir edilmiş, ancaq bu salnamələrdə xanlığın meydana gəlməsinin iqtisadi və siyasi amillərlə səciyyəvi olan səbəbləri öz əksini tapmamışdır və ya bu qəbildən olan problemlərə çox ötəri toxunulmuşdur. Mirzə Adıgözəl bəy Nadir şahın öldürülməsindən sonra Xorasandan Qarabağa qayıdan elatlara Pənahəli bəyin torpaqlar verməsini, onları himayəyə almasını, ehtiyaclarını təmin etməsini parlaq boyalarla təsvir edərək yazırdı ki «Bu qayda ilə cəmiyyət quruldu və o, öz istedadını göstərdi» (54, s.33). Mirzə Camal Cavanşir də Pənah xanın Qarabağ elatları və məlikliklərini hərbi-siyasi mübarizədə özünə tabe etməsi, qonşu xanlıqlarla ilk savaşı və nəticədə istiqlaliyyətini möhkəmləndirərək güclü xanlığa çevrilməsini müfəssəl təsvir etmişdir (55, s.111, 112, 113). Beləliklə, Nadir şahın öldürülməsindən sonra Qarabağ torpağında müstəqil dövlətin bütün göstəricilərini özündə birləşdirən Qarabağ xanlığı yaranmışdı (9, s.510). Mirzə Camal Cavanşir yazır: «Pənah xan ətraf xanların (onun) üzərinə hücum edəcəklərini bilərək ailə və qohumlarının, qulluqçu və yaxın adamlarının və (el) böyüklərinin qorunması üçün ellərin arasında münasib bir yerdə qala tikilməsini lazım bilmişdi. Məşvərətdən sonra, indiki Kəbirli mahalı içində olan Bayat qalasının binası qoyuldu (1748). Qısa bir zamanda möhkəm hasar və xəndək qayırıldı, bazar, hamam və məscid tikildi. Xan, bütün ailəsini, qohumlarının və el böyüklərinin əhl-əyalını oraya topladı» (55, s.111).

«Qarabağnamə» müəlliflərinin demək olar ki, hamısı Bayat qalasının inşa olunmasını, Şirvan və Şəki hakimlərinin Pənahəli xana olan münasibətlərini eyni şəkildə qələmə almışlar.

Şimali Azərbaycan xanlıqları içərisində Quba və Qarabağ

xanlıqları ilə yanaşı güclü xanlıqdan biri də Şəki xanlığı idi. Şəki xanı Hacı Çələbi qonşuluğunda güclü Qarabağ xanlığının yarana biləcəyindən bərk təşvişə düşmüş və Qarabağın xristian araqarışdırıcılarının təhriki ilə bu xanlığı özünə tabe etmək fikrinə düşmüşdür. Bu barədə Mirzə Adıgözəl bəy yazır: «Hacı Çələbi... Dərbənd, Car və Balakənədək bütün Şirvanat qoşusunu cəm etdi. Pənah xan da qabaqcadan bütün elata bu əhvalatı bildirmiş və hamısını yığıb səngərə dolduraraq sığınacaq etmişdi. Hacı Çələbi gəldi və mühasirə ilə məşğul oldu. Hər gün müharibə edir, didişib-döyüşməkdən əl çəkmirdilər. Axırda Hacı Çələbi məqsədinə çatmadan, külli zərərlə qayıtmaq təbilini vurdurdu» (54, s.34).

Pənahəli xanın qüdrətli bir Qarabağ hakimi kimi tanınmasında Hacı Çələbi və onun müttəfiqlərinin Qarabağ üzərinə uğursuz yürüşü mühüm rol oynadı. Hacı Çələbi Qarabağdan geri qayıdarkən demişdir: «Pənahəli xan bu vaxta kimi bir parça gümüş idi, biz gəldik, ona sikkə vurduq və qayıdırıq» (54, s.35).

Mirzə Camal Cavanşir isə bu kəlamı belə ifadə etmişdir: - «Pənah xan bir xan idi. Biz gəldik onunla dava etdik və bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdırıq» (55, s.112). Göründüyü kimi, Şəki hakimi Çələbi xanın bu sözləri onun öz məğlubiyyətinin açıqdan-açığa etirafını özündə əks etdirir.

«Qarabağnamələr»in müəllifləri göstərirlər ki, Pənahəli xan bir müddət Bayat qalasını xanlığın mərkəzi kimi saxladı. Ancaq ətrafı düşmən bürüdüyünə görə burada əbədi şəhər və qala tikmək ehtiyatsızlıq hesab edilərək, məsləhət görülmədi. Mirzə Camal göstərir ki, Pənahəli xan Xaçın məlikliyinin düşmənçiliyinə, fitnə-fəsadlarına silah yolu ilə son qoyduqdan sonra Şahbulaq adı ilə məşhur olan Tərnəküt qalasının binasını qoydu. Xanın müşavirləri olan əyan-əşrəfin məsləhəti ilə Bayat qalası tərk olundu. Şahbulaqdakı böyük çeşmə yanında qala tikildi, onun ətrafında yüksək yerlər boyunca hündür qala divarları hörüldü, bazar, çarsu, hamam və məscid tikildi. Hicri tarixi ilə 1165-ci (1751-1752-ci illər) ildə, elat camaatının bütün

evləri-böyüklərin, sənətkarların, xanın yaxın adamlarının və xidmətçilərinin (ailəsi) Şahbulaq qalasına köçürüldü (55, s.113).

Mirzə Adıgözəl bəy isə xristian alban məlikləri ilə bağlı bu hadisəni belə qələmə almışdır: «Bundan sonra Pənah xan düşündü ki, mən təzəbinə bir adamam. Cavanşir və otuziki elatı yağı, xəmsə məlikləri də mənə düşməndirlər. Mən gərək möhkəm bir yerdə məskən və mənzil salam. Düşməni dəf etməkdə kahallıq və fəsad əhli ilə mübarizədə səhlənkarlıq etməyəm. Buna görə də Bayat şəhərini dağıtdı və gəlib bir təpənin ətəyində Şahbulağı adı ilə məşhur olan Tərnəkütdə bir qala bina etdi. Daş və əhəngdən məscidlər, evlər, çarsu və hamamlar tikdirdi. Bu işləri 1165-ci ildə bitirərək, oranı özünə məskən etdi» (54, s.35).

Bayat qalası strateji baxımdan əlverişsiz yerdə olduğuna görə Tərnəkütdə yeni müdafiə qalası tikdirilmişdir. «Qarabağnamələr» də Şahbulaq qalasının səhvən 1751-1752-ci illərdə tikdirildiyi göstərilir. Bir sıra tədqiqatçıların hərtərəfli araşdırmaları göstərir ki, əslində bu qala 1749-cu ildə tikilmişdir.

Pənahəli xan qorxmaz, zirək və uzaqgörən dövlət xadimi idi. O, öz vətənini qızğın məhəbbətlə sevirdi. Pənahəli xandan söhbət açan A.A.Bakıxanov yazırdı: «Rəftarında sadə və avam olmasına baxmayaraq, anadangəlmə qabiliyyətə malik idi» (4, s.366). Pənahəli xan Nadir şah tərəfindən sürgün edilmiş yerli Qarabağ elatlarından başqa qonşu xanlıqlardan Qarabağa - qaraçorluları, salahlıları, dəmirçihəsənliləri, boyəhmədliləri, səfikürdləri, cinliləri, saatlıları və digərlərinin müəyyən hissələrini də köçürüb məskunlaşdırmışdı. Pənahəli xan müstəqil hakim olmaq iddiasına düşmüş cavanşir tayfa başçılarının müqavimətini cəsarətlə qıra bildi və onları özünə tabe etdi. Beləliklə də o, Cavanşir tayfasının vahid və şəriksiz başçısı oldu, özünü xan elan etdi. Əhməd bəy Cavanşir yazır: «Təzə xan ilk baxışdan məğrur, əxlaqlıdır. O, Arqun xanın nəslindəndir və onun ulu babalarından biri Məhəmməd xan bütün Qarabağ torpağını almış, uzun müddət müstəqil olaraq

ondan istifadə etmiş və Qarabağda daimi olan qəbilə davasına son qoymuşdur» (17, s.158).

Pənah xan Qarabağı vahid xanlıq halında birləşdirmək uğrunda mübarizəni bir an da olsun dayandırmırdı. Bu fikir «Qarabağnamələr»də də ardıcıl və təkrar-təkrar öz əksini tapmışdır. Pənahəli xanın bu məqsədini yaxşı duyan və bunu öz müstəqillikləri üçün təhlükə sayan Çiləbörd və Gülüstan məlikləri birləşərək onun üzərinə hücuma keçməyə cəhd göstərdilər. Lakin onların bu cəhdi dəf edildi. Pənahəli xan diplomatik yolla məlikləri bir-birindən ayırmaq və onların arasında nifaq salmağı üstün tutdu. Bu, gəlmə məliklərin tezliklə ram olunmalarına şərait yaratdı. Məliklər arasında mövcud olan nifaqdan Pənahəli xan məharətlə istifadə edə bildi. «Qarabağnamə» müəllifləri Vərəndə məlikliyi istisna olmaqla başqa məliklər arasında da mövcud olan düşmənçiliyi az da olsa nəzərə çatdıra bilmişdilər. Vərəndə və Xaçın məlikləri tezliklə Pənahəli xana tabe oldular. Dizaq, Çiləbörd və Talış məlikləri bir neçə il «xana qarşı düşmənçilik etdilər» (55, s. 112,113). Bu məliklər bir müddət Qarabağda mərkəzləşdirmə siyasətinə qarşı çıxmış, habelə bütün Quzey Azərbaycanda didişmə və pərakəndəliyin salınmasında az rol oynamamışdılar (9, s.521).

V.A.Potto yazır: «Pənah xan İrandan böyük miqdarda həmyerliləri ilə Vətənə qaça bildi və vətəndə üsyan bayrağı qaldırdı. Qarabağ İrandan ayrıldı və 1747-ci ildə Pənah xan özünü hakim elan etdi. Beləliklə, böyük dövlətin sərhədlərində öz müstəqilliyini inadla qoruyan kiçik bir müstəqil dövlət əmələ gəldi» (126, c.2, s.602). Bu müstəqil dövlətin başçısı Pənahəli xan, salnamələrdə deyildiyi kimi, günü-gündən öz mövqeyini möhkəmləndirir, dövlət quruculuğunda uğurlar qazanırdı. Mirzə Camal Cavanşir, Mirzə Adıgözəl bəy Pənah xanın ilk uğurları ilə yanaşı, Nadir şahdan sonra hakimiyyət uğrunda gedən çəkişmələr və hakimiyyətə keçən şahın siyasi pərakəndəliyi aradan qaldırmaq üçün quzeydəki xanlarla apardıqları diplomatik danışıqlar barəsində də öz əsərlərində müəyyən məlumatlar verirlər. Mirzə Camal yazır: «Mərhum Nadir şah

öldürüldükdən sonra qardaşı oğlu Əliqulu xan Adil şah ləqəbilə mərhum Nadir şahın şahlıq taxtına çıxdı. Adil şah tərəfindən Azərbaycana sərdar təyin edilmiş, Təbriz şəhərində yaşayan Əmiraslan xan Pənah xanın Qarabağda olan belə bir şöhrət və istiqlaliyyətini eşitdikdə, öz adından ona (hədiyyə olaraq) at, qılınc və xələt göndərərək, onu Adil şaha itaət etməyə dəvət və təşviq etdi» (55, s.114). Lakin Adil şahın hökmdarlığı və onun valisinin - Əmiraslan xanın hakimliyi çox sürmədi. Birincini - Adil şahı Nadir şahın nəvəsi Şahrux Mirzə, ikincini - Əmiraslan xanı isə qaradağlı Kazım xan öldürdü» (17, s.160-161).

Əslində Adil şaha qədər Bayat qələbəsi və Xəmsə məliklərinin əsasən itaət altına alınması ətraf xanlar tərəfindən Pənahəli xanın dövlət başçısı kimi tanınmasına siyasi şərait yaratmışdı və Pənah xan da, V.A.Pottonun qeyd etdiyi kimi, bu şəraitdən bacarıqla istifadə edə bilmişdi. «Qarabağnamələr» də Pənah xana Adil şah tərəfindən xanlıq fərmanı göndərildiyi barədə müfəssəl məlumatlar verilmişdir. Öz istiqlaliyyətini Adil şaha qədər təsdiq və təsbit etmiş Pənahəli xana xanlıq, Mirzə Camalın fikrincə, ilk dəfə Adil şah tərəfindən verilmişdir. O, yazırdı: «Müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1748-ci ildə Adil şahın Pənahəli xana xan adı verilməsi və Qarabağ hakimliyi vəzifəsinə təyin olunması haqqında imzaladığı fərmanı qiymətli xələt, qızıl yəhərli at və qaş-daşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmiraslanın yaxın adamları vasitəsilə, Bayat qalasına gəlib çatdı. Sərdar Əmiraslan özü də Pənah xana ayrıca töhfələr göndərmiş, Pənah xanın elçi sifətilə göndərdiyi kəndxudalara xələt və bəxşişlər verib, onlara hörmət və mehribanlıq etmişdi» (55, s.114-115).

Bu, gecikmiş fərman idi, beləki o 1748-ci ildə verilmişdi, Pənahəli xan isə artıq 1747-ci ildən xanlıq edirdi.

Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşirin Əmiraslan xanla Pənahəli xan arasındakı diplomatik danışıqlar haqqındakı məlumatları təhlil edilərkən, aydın olur ki, Pənahəli xanın Adil şaha qısamüddətli tabeçiliyi formal xarakter daşımış, əslində Pənah xan cənubdakı qarışıqlıqlardan öz hakimiyyətini

möhkəmləndirmək və xanlığın ərazisini daha da genişləndirmək imkanı əldə edə bilmişdir. Salnaməçilər, xüsusilə də Mirzə Camal yazır ki, Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Təbriz və Qaradağ xanları Pənahəli xanın yanına elçi və məktub göndərib, onunla dost və müttəfiq olmaq istədiklərini bildirirdilər (55, s.113). Sözünə davam edən Mirzə Camal Cavanşir qeyd edir: «O, (Pənahəli xan) xanların bəzisi ilə qohum oldu. Naxçıvan, Təbriz və Qaradağ hakimlərinin hökmü altında olan Naxçıvanın Zəngəzur, Təbrizin Qapan və Qaradağın Çuldur və Mehri mahallarına əl uzadaraq hamısına sahib oldu. Onları Qarabağın başqa rəiyyətlərinə qataraq, hamısına məliklər və sultanlar təyin etdi. Hamı mərhum Pənah xanın əmrinə tabe oldu və indi də olmaqdadır» (55, s.113-114).

Salnamələrin verdiyi məlumata görə müəyyən bir müddət Pənahəli xanın Gəncə, İrəvan, Naxçıvan və xüsusilə Ərdəbil xanlıqları üzərində güclü təsiri olmuşdur. O, «Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə hakim təyin etdi. Gəncə xanzadələrindən kefi istədiyi adamı hökumət işinə təyin edir, istəmədiyini isə vəzifəsindən çıxarırdı. Pənah xan vilayətin xanlarının uşaqlarından bir neçəsini girov adı ilə gətirib, Şahbulağı qalasında saxlayırdı» (55, s.115).

Salnamələrdə göstərilir ki, belə bir vəziyyət Məhəmmədhəsən xan Qacarın Mazandaran, İraq və Azərbaycanın bir sıra bölgələrində özünü müstəqil elan etdiyi günə qədər davam etmişdir. «Hökumət işlərini bir an belə unutmayan ... Pənah xanın işgüzar və bacarıqlı adamları, xanın əmrinə görə məsləhət üçün yığışıb dedilər: «... Nadir şah vəfat etdikdən sonra bizimlə Əliqulu xan və Sərdar Əmiraslanın arasında sülh, ittifaq və dostluq əlaqəsi davam etməkdə idi. İndi, çox mümkündür ki, belə bir münasibət və dostluq əlaqəsi bizimlə Məhəmmədhəsən xan arasında olmasın. Ətraf xanlardan da bir o qədər xatircəm deyilik. Onların Məhəmmədhəsən xanı üzərimizə təhrik edərək, onunla birlikdə bizə qarşı çıxacaqları ehtimalı vardır. (Belə bir vəziyyətdə) Qarabağın elləri, adlı-sanlı adamları qızılbaş qoşununun ayağı altında payimal olar, biz isə Şahbulağı

qalasında elə bir qüvvətli düşmənin və ətraf xanların qarşısında müqavimət göstərə bilməyib, bütünlüklə qırılarıq. Ona görə bu işin əlacını qabaqdan görmək lazımdır. Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir (55, s.115).

Cənubdan gələn həyəcanlı xəbərlər və Azərbaycanda baş verən hadisələr, qanlı feodal ara müharibələri şəraitində, Şahbulaq qalası da o qədər etibarlı sığınacaq deyildir. Təcili tədbirlər görülməli və daha etibarlı, möhkəm qala salınmalı idi. Artıq yuxarıda deyildiyi kimi, Pənahəli xan geniş tərkibli məsləhət şurası çağırdı və yeni qala salınması haqqında qəti fikrə gəlindi. Qarabağ xanlığının yeni paytaxtı - Şuşa qalasının tikilməsinə qərar verildi. Beləliklə tezliklə Azərbaycan ərazisində yeni bir şəhər əmələ gəldi. Şuşa şəhəri - qalası XVIII əsrin ortalarında meydana çıxsa da özünün siyasi, iqtisadi və mədəni inkişafına görə bir çox orta əsr Azərbaycan şəhərlərini qabaqlamışdır (6, s.51).

Salnaməçilərin verdikləri məlumata görə, Şuşa qalasının tikilməsi tarixçəsi belə olmuşdur: - Pənahəli xanın yeni paytaxt yaratmaq fikrində olduğunu bilən saray əyanlarından bir qrupu ona dəniz səviyyəsindən 1800-2000 metr yüksəklikdə olan və üç tərəfdən təbii müdafiəsi olan, meşələrlə örtülmüş, bir tərəfdən uçurum, digər tərəfdən isə sıldırım qayalarla əhatə olunmuş, bir növ təbii qalanı xatırladan yeri göstərdilər. Xanlığın gələcək paytaxtı və başlıca istinadgah-istehkamı olacaq belə bir qalanın salınmasına başlıca tələbləri Pənahəli xan özü müəyyən etmişdir.

Mirzə Camal yazır: «Xanın (Pənah xanın) bir neçə nəfər bilici və məlumatlı adamı gedib, qalanın yerini və ətrafını yoxladı. Qalanın içində iki-üç bulaqdan başqa axar su yox idi. Bu bulaqların suyu isə qala camaatına kifayət etməzdi. Ona görə güman gələn yerlərdə quyu qazdırıb, müəyyən etdilər ki,

buranın bir çox yerlərində su quyuları qazmaq mümkündür. Bu xəbəri mərhum Pənah xana çatdırdılar. (Xan) sevinərək, bir neçə nəfər öz yaxın adamı ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın əsasını qoydu (55, s.116). Bir çox qaynaqların məlumatlarına görə hicri təqvimi ilə Şuşa qalasının əsası 1170-ci ildə qoyulmuşdu. Lakin son zamanların araşdırmaları sübut edir ki, salnamə müəllifləri bu sahədə müəyyən qüsurlara yol veriblər. Hesab edilir ki, Pənahabadın bünövrəsi artıq 1750-ci ilin ikinci yarısında qoyulmuşdur. Bu fikri A.A.Bakıxanov da təsdiq edir: «Şuşa Azərbaycanın Təbriz kimi qədim şəhərlərindən biridir, onun ilk adı heç də Pənahabad, Şuşa yox, Novruz olmuşdur». Pənahəli xanın dövründə qala iri bir şəhərə çevrilmişdir. 1751-ci ildə əfqanlı Azadxan İrəvanı mühasirə edərkən Şuşa qalası nəinki var idi, həm də orada Pənahabad adlı pul da kəsilirdi (8, s.535).

Belə olan təqdirdə güman edə bilərik ki, ya Şuşa qalasının əsası hələ 1750-ci ildən də əvvəl qoyulmuşdur (çünki belə qalanı bir ilə tikmək qeyri-mümkün idi), ya da artıq vaxtilə, mövcud olmuş qalada sadəcə tamamlama işləri aparılmışdır.

Mirzə Camal isə yazır: «Qala tikildikdən sonra Şahbulağı qalasının sakinləri olan bütün rəiyyətləri, əyanların, məliklərin, mülazimlərin, ellərin və bir para kəndlərin kəndxudalannın ailələrini köçürüb, bu qalanın içində yerləşdirdilər» (55, s.116).

Şuşa qalasına qonşu Azərbaycan xanlıqlarından da gələnlər oldu. Özgə şəhər və kəndlərdən gələnləri müvafiq olaraq müəyyən məhəllələrdə yerləşdirirdilər. Bunu Şuşa şəhərindəki bir çox küçə və məhəllə adları bir daha sübut edir. Şuşanın bəzi məhəllələrini Təbrizli, Əylisli, Qazançalı, Köçərli, Culfalılar və sair adlandırılması, həmin məhəllələrdə yaşayanların müvafiq şəhər və kəndlərdən gəlmələrini göstərən dəlillərdir (6, s.53). Təbii ki, bu məhəllələr birdən birə yaranmamışdır.

Yeri gəlmişkən deyək ki, respublikamıza qarşı torpaq iddiasında olan erməni alimləri Şuşa şəhərinin salınması

haqqında danışarkən saxtakarlıqlara əl atır, şəhərin tarixini saxtalaşdırmağa çalışırlar. Məsələn, Şagen Mkrtiçyan adlı birisi «Dağlıq Qarabağ-memarlıq abidələri» adlı elmdən çox fantaziyalarla dolu olan cızma-qarasında yazır ki, Şikinar qalası guya hələ VI əsrdə mövcud olmuşdur. Guya knyaz Hovanes-Avan 1740-cı ildə Şuşa qalasını yenidən bərpa etmişdir. Guya 1803-cü ildə erməni könüllülərinin köməyi ilə ruslar Şuşa şəhərini-qalasını almış və xarici müdaxiləçilərin hakimiyyətinə son qoymuşlar (6, s.53). Bu heç bir tarixi qaynağa söykənməyən, heç bir məxəzlə təsdiqlənməyən və heç bir məntiqə müvafiq olmayan sayıqlamalar, siyasi xal yığmaq məqsədlərinə xidmət edir və açıq gülüşdən başqa heç nə doğura bilməz.

Salnamələrin heç birində, o cümlədən də erməni Mirzə Yusif Qarabağinin «Tarixi-safi» əsərinin «Şuşa qalasının binası, Qacar Məhəmmədhəsən xanın Şuşa qalasına hücumu və məqsədə çatmadan geri qayıtması» fəslində Mkrtiçyanın yuxarıda gətirilmiş sayıqlamaları barəsində bir kəlmə də yoxdur. Mirzə Yusif Qarabaği Mirzə Adıgözəl bəyin, Mirzə Camal bəy Qarabağinin salnamələrində irəli sürülən fakt və hadisələri təkrar edir. O, qeyd edir ki, «O, (Pənah xan) öz vəzir- vəkilləri ilə məsləhət etdi, bu qərara gəldilər ki, gözəl, səfalı və xətasız bir yerdə qala tikdirsinlər. Onlar salınacaq qalanın yerini müəyyən etdilər. Bu yeri Pənah xan özü gedib gözü ilə görmüş və hər cəhətdən bəyənmişdi. Lakin ərazinin ortasından su axmadığı üçün bir neçə quyu qazdırdı və bu quyulardan çoxlu su çıxdı. Bundan sonra 1752-ci ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu» (58, s.18).

Mirzə Yusif Qarabaği daha sonra əlavə edirdi ki «şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən piyadalar və qeyrilərinin gediş-gəlişi mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur. Divar çəkmək üçün şəhərin aşağı tərəfini və bir də şərq tərəfinin yerlərini ölçdülər. Bu işdə kənd əhli, mahalların, ellərin başçıları ilə bir yerdə çalışaraq, beş arşın hündürlüyündə, iki arşın enində bir divar hördülər. Bu divarlardan dörd darvaza açdılar və şərq

tərəfdən olan darvazaya - Şuşa kənd darvazası deyilir. İki darvaza isə şimal ilə qərb arasındadır. Bunlardan birinə İrəvan darvazası, digərinə isə Gəncə və Çiləbörd darvazası deyilir. Dördüncü darvaza isə dağılmış və hazırda onun yerinə divar tikilmişdir. İndi isə şəhərin üç darvazası var» (58, s. 18).

Pənah xanın dövründə təməli qoyulmuş Şuşa şəhərinin kanalizasiya sistemi də var idi. Bu öz dövrünün möhtəşəm şəhərqalası Qurdlar, Quyuluq, Çuxur, Hacıyusifli, Merdinli, Cuhudlar, Saatlı, Mamayı, Xoca Mərcanlı, Hamamarası və başqa müxtəlif adlı on altı məhəllədən ibarət olmuşdur (58, s.191). M.Baharlı isə «Əhvalati-Qarabağ» əsərində İbrahimxəlil xan dövründə qalanın on yeddi məhəllədən ibarət olduğunu və onun doqquzunun aşağı, səkkizinin yuxan məhəllə olduğunu yazmışdır (10, s.276). Şəhərin hər bir məhəlləsinin su quyusu, hamamı və məscidi də olmuşdur. Təkcə İbrahimxəlil xan dövründə şəhərdə iki cümə məscidi tikilmişdi (7, s.439).

Qarabağ xanlığının ərazisinin getdikcə genişlənməsi, qonşu xanlardan bir neçəsinin Pənah xana tabe olması və nəticədə yeni şəhərin də hərbi-strateji baxımdan sərfəli bir yüksəklikdə inşası, sözsüz ki, Azərbaycan güneyi və İranda hökmranlıq uğrunda mübarizə aparan qüvvələr tərəfindən qısqanclıqla izlənilirdi. Elə buna görə də, tikildikdən az sonra Şuşa hərbi basqınlara məruz qaldı. Tezliklə, Məhəmmədhəsən xan Qacar İraq və Azərbaycan vilayətlərinin əhalisindən toplanmış çoxlu qoşunla Qarabağ tərəfə, Şuşa qalası üzərinə hücum etdi. Pənahəli xanı özünə tabe etmək üçün Araz çayını keçib «Qalanın 4 fərsəxliyinə gəlib çıxdı» (55, s.116). Pənahəli xan da özünə tabe olan ellərdə, Taxtaqapının və başqa kəndlərin işgüzar və döyüşə qabiliyyəti olan kişilərini Şuşa qalasına toplayıb, düşmənə qarşı müqavimət göstərməyə və şəhərin müdafiəsinə hazırlaşdı. Məhəmmədhəsən xan da özünün çoxlu qoşunu ilə gəlib Şuşa şəhərinin ətrafındakı Xatın arxı yanında dayandı. Oradan yuxarı tərəfə hərəkət etməyə cəsarəti olmadı. O, Pənahəli xanı tutmaq üçün müxtəlif hiylələrə əl atdısa da, buna nail ola bilmədi. O biri tərəfdən də Qarabağ əhalisi, xanlığın

qoşunları və başqa dəstələr düşmənin «mal-dövlətini əlindən alıb, zərər vurdular, hətta əsgərlərin də atlarını əllərindən alıb, var-yoxunu qarət etdilər. Bunlar üçün azuqə gətirənlərin yolunu kəsirdilər». Bu zaman Kərim xanın qələbələr, onun İrandaxili yürüşü barəsində xəbərlər Məhəmmədhəsən xanın qulağına çatmışdı. O, bu yerləri tutmaq niyyətindən əl çəkərək güneyə doğru geri çəkilmişdi.

Qarabağ Məhəmmədhəsən xandan sonra Azərbaycanın güneyi və Farsda ali hakimiyyət uğrunda mübarizənin fəal iştirakçısı olan Fətəli xan Əfşarın hərbi yürüşünə məruz qalmışdı. Fətəli xan öz qüvvələrini səfərbər edərək 1759-cu ildə Gəncə və Qarabağa hücum etdi. Fətəli xan Əfşar Qarabağ xanlığının ayrı-ayrı mahallarını tutaraq, onun paytaxtı Şuşaya yaxınlaşdı və şəhəri mühasirəyə aldı (15, s.117).

Pənahəli xanın müdafiəyə hazırlaşması və Şuşa şəhərinin qalın qala divarları ilə əhatə edilməsi onun qısa müddətdə alınması işini çətinləşdirdi. Bunu nəzərə alan Fətəli xan Əfşar şəhərin altı kilometrliyində (Ballıca çayı ilə Xocalı çayı arasında - Y.H.) müdafiə əhəmiyyəti olan istehkamların salınmasını əmr etdi (15, s.117).

Fətəli xan Əfşarın Şuşaya hücumu haqqında «Qarabağnamələr»in hamısında verilmiş məlumatlar demək olar ki, bir-birini təkrar edir. Mirzə Camal yazır: - Fətəli xan Əfşar «Mərhum Pənah xanın yanına mahir elçilər göndərib, onu itaətə və ittifaqa dəvət etdi. Lakin Pənah xan belə sərdarlara itaət etməyi haqlı olaraq, özü üçün əskiklik və ar bilib, elçiləri kobud cavablarla geri qaytardı» (55, s.117).

Daha sonra Mirzə Camal qeyd edirdi ki, - «gizlində mərhum Pənah xana ədavət bəsləyən Çiləbörd və Talış mahallarının məlikləri Fətəli xanın yanına getdilər. Onlar altı ay qalanın yaxınlığında oturdular. Hər neçə gündən bir, mərhum Pənah xanın qoşunu ilə Fətəli xan ordusu arasında vuruşma üz verir və hər dəfə mərhum Pənah xanın qoşunu Qızılbaş ordusuna qalib gəlirdi. Bu müddətdə bir iş görə bilməyən Fətəli xan (vəziyyətinin) gündən-günə çətinləşdiyini və

məğlubiyyətinin (artdığını) müşahidə edirdi. Lakin buna baxmayaraq Fətəli xan hücuma keçib Şuşa çayından keçərək, qalanın yarım verstliyinə çatdı. Döyüşdə Fətəli xanın, təxminən iki min nəfər piyada və süvarisi öldürüldü və əsir düşdü. Məğlub olan düşmən sonsuz pərişanlıq və peşimanlıqla öz düşərgəsinə qayıtdı. Pənah xan isə əsirləri və ələ keçən qəniməti götürüb, qələbə və zəfərlə qalaya gəldi» (55, s.117).

Mirzə Camal sözünə davam edərək bildirirdi ki, «bu hadisədən sonra Fətəli xan Əfşar, qoşunun məğlub olması və qış fəslinin yaxınlaşmasına görə, sülh və barışıq təklif etdi. Mahir elçilər göndərib, and-aman edərək belə bir vədə verdi: - «Əgər Pənah xan, qoşunumdan aldığı əsirləri geri qaytarsa, mənlə ittifaq və dostluq etsə, qızımın kəbinin onun böyük oğlu İbrahimxəlil ağaya kəsdirəcəyəm. (Beləliklə də) biz əbədi qohum və dost olacağıq. Bir şərtlə ki, İbarahimxəlil ağanı mənim yanıma göndərsin. O, isə orduda şirni içilib kəbin kəsildikdən və iki-üç gün burada (qonaq) qaldıqdan sonra geri qayıtsın» (55, s.117-118).

Fətəli xan Əfşar həmçinin Pənahəli xanı xatircəm etmək üçün İbrahimxəlil ağa qayıdana qədər özünün uşaqlarından birini və qohumlarından üç nəfər adlı-sanlı şəxsi girov kimi saxlanılmaq üçün Qarabağ hökmdarının yanına göndərmişdi. «Mərhum Pənah xan Fətəli xanın and-amanına, övladını və qohumlarını göndərmələrinə inanıb, İbrahimxəlil ağanı bir neçə kəndxuda ilə Fətəli xanın ordusuna yola saldı. Fətəli xan bu xəbəri eşidcək sevindi. Övladından bir neçə nəfəri onu qarşılamaq üçün göndərdi. İbrahimxəlil ağanı hörmət, təntənə və çalğı ilə gətirdilər... İbrahimxəlil ağanı iki-üç gün ordugahda, kef məclisində saxladılar. Bu müddət içərisində qalaya, Pənah xanın yanına dəfələrlə etimadlı, şirindilli adamlar göndərib, adətləri üzrə adam aldatmaq və öz işlərini düzəltmək üçün bütün fırıldaqları və lazım olan rəsmi mərasimi əmələ gətirdilər. O, iki-üç gün içərisində əsir və dustaqlarını xilas etdi. Üçüncü günü isə İbrahimxəlil ağanı və kəndxudaları dustaq kimi, özlərilə bərabər götürüb getdilər və Urmiya qalasına çatana qədər heç

bir yerdə dayanmadılar» (53, s.122-123).

Həmin hadisələri A.A.Bakıxanov belə təsvir edir: «Padşahlıq iddiasında olan və Azərbaycanı ələ keçirən Nadir şahın böyük sərkərdələrindən biri olan Fətəli xan Əfşar Gəncə və Qarabağa tərəf hərəkət etdi. Pənahəli xan ona zahirən itaət etdi və sazişə gəldi, oğlu İbrahimxəlil ağanı girov verdi» (1, s.366).

«Qarabağnamə»lərdə Pənahəli xanla Fətəli xan arasında baş vermiş hadisələrlə bağlı olan materialları təhlil edən H.Ə.Dəlili yazırdı: «...Fətəli xanla Pənahəli xan arasında baş verən hadisələr haqqında həmin dövrün ilk mənbələrində geniş və aydın məlumatın olmasına baxmayaraq biri digərini təkrar edən «Qarabağnamə»lərin müəllifləri, o cümlədən Mirzə Camal Cavanşir bu hadisələr haqqında əsası olmayan fikir irəli sürmüşdür. Onun yazdığına görə, guya Şuşa ətrafında uzun müddət döyüşən Fətəli xan qalanın alınmasından naümüd olaraq hiyləyə əl atdı və öz qızını Pənahəli xanın oğluna təklif etdi. Guya həmin təklifi qəbul edən Pənahəli xan oğlu İbrahimxəlil ağanı düşmən düşərgəsinə göndərdi. Fətəli xan isə xəyanət edərək onu tutdu və girov elan edib Urmiya qalasına çəkildi» (15, s.118-119). Mirzə Camalın məlumatlarını təkzib edən tədqiqatçı sözünə davam edərək bildirir: - «Şəhər süqut etmək təhlükəsi qarşısında idi. Yaranmış vəziyyətlə əlaqədar olaraq Pənahəli xan Fətəli xanla zahiri olsa da sazişə gəlməyə məcbur oldu. O, tabeçilik əlaməti olaraq oğlu İbrahimxəlil xanı girov olaraq Urmiyaya göndərdi» (13, s.45-46).

Ancaq qeyd etmək lazımdır ki, «Qarabağnamə»lər istisna olmaqla, dövrün başqa mənbələrində 1759-cu ildə Pənahəli xanla Fətəli xan arasındakı savaş və diplomatik danışıqlar haqqında müfəssəl məlumatlar olmadığına görə «Qarabağnamə»lər bu tarixi hadisəni təfərrüatı ilə özündə əks etdirən mötəbər mənbələr kimi qəbul olunmalıdır. Çünki, əvvəla, onların müəllifləri bu hadisələrin baş verdiyi ərazinin sakinləri, o dövrkü lap yaxınlığındakı tarixi dövrün şəxsiyyətləri olmuş, onlardan bəziləri Qarabağ xanlığı və rus dövlət

idarələrində çalışan məmurlar kimi müxtəlif tarixi sənəd və məlumatlarla yaxından tanış olmuş, əsərlərini isə xanlıq yox, məhz Rusiya əsarəti dövründə yazmışdılar, yəni heç nə onları Pənahəlini tərifləməyə məcbur etmirdi. Fikrimizcə, həmin hadisələrin təsvirində bu qaynaqlar «yalan danışmır» «Qarabağnamə»lərdə göstərildiyi kimi, Fətəli xan Şuşa ətrafında ciddi təhlükə ilə üzləşmiş, çoxlu itki vermiş, vəziyyətdən çıxmaq və gələcəkdə Qarabağ xanlığını özündən asılı etmək üçün hiyləyə - uğursuz nikah diplomatiyasına əl ataraq, güneyə dönmək zorunda qalmışdır (58, s.44-46; 53, s. 117-119).

Fətəli xan Əfşar Qarabağ xanlığını özündən bu yolla asılı vəziyyətə saldıqdan sonra, tabe olmayan digər xanlıqlara qarşı lazımi tədbirlər həyata keçirmək niyyətində idi. Lakin İran və Güney Azərbaycanda gedən sonrakı proseslər ona öz planını həyata keçirməyə imkan vermədi (15, s.119).

Qarabağ salnaməçiləri qeyd edirlər ki, Fətəli xandan intiqam almaq arzusunda olan Kərim xan Zənd Pənahəli xanın yanına elçilər göndərib əfşarlara qarşı müharibədə ona müttəfiq olmağı təklif etdi. Onun Pənahəli xana göndərdiyi məktubda deyilirdi: - «Fətəli xan bizim nəinki təkcə düşmənimiz, hətta qanlımızdır. Sizə qarşı da olduqca yaramaz işlər görmüş, andını, peymanını pozmuşdur. Sənin oğlunu məkr və hiylə ilə aparıb məhbus etmişdir. İndi var qüvvə ilə bizə kömək etməli və bu işdə heç şeydən müzayiqə etməməlisən. Çünki intiqam alsaq və oğlunu xilas etsək, siz sevindiyiniz kimi biz də arzumuza çatmış olacağıq» (55, s.119).

Mirzə Adıgözəl bəy bu məsələyə belə açıqlıq gətirir: «Fitnə fəsad sahibi olan Fətəli xan indi bizimlə qan düşməni olmuşdur. Sizinlə də pis xasiyyətli düşməndir. Verdiyi söz və içdiyi andın əksinə olaraq hərəkət etmişdir. İbrahimxəlil ağanı apararaq, sizi dərd və qüssəyə salmışdır. Hər an bir fikirdə və hər gündə bir əmrlə hərb etməkdədir. Mən də «...Ey ağıl sahibləri, sizin üçün qisas almaqda həyat vardır» ayəsinin məzmununa əsasən intiqam almağı və ədavət qılıncını qınından çəkib hərbə girişməyi qərara almışam. Buna görə cənabınızdan

bir dost kimi xahiş edirəm ki, təcili surətdə durmadan və təxir etmədən yoldaşlıq edəsiniz. Çünki əsas məqsədim və günəş kimi işıqlı olan fikrim budur ki, həm sizin oğlunuzu xilas edim, həm də öz qardaşımın qanını alım» (54, s.46).

Sözsüz ki, Fətəli xandan yaxa qurtarmaqda Pənahəli xanın böyük marağı var idi. Məhz ona görə də o, Kərim xanın təklifini tərəddüdsüz qəbul etdi. Pənahəli xan vaxt itirmədən seçmə döyüşçüləri ilə Arazı keçib Kərim xanın qoşunları ilə birləşdi (6, s.65). «Pənahəli xan. Qarabağın adlı-sanlı süvarilərilə Azərbaycan torpağında Kərim xanla görüşdü. Kərim xan ona qarşı böyük izzət və ehtiram göstərib, ənamlar bəxş etdikdən sonra, Fətəli xanı birlikdə dəf etmək üçün Urmiya vilayətinə tərəf yola düşdülər» (55, s.119).

Mirzə Adıgözəl bəy isə bu hadisəni aşağıdakı kimi təsvir edir: - «Kərim xan Zəndin məktubundan sonra Pənahəli xan saysız-hesabsız süvari dəstəsi və çoxlu qoşunla, Kərim xanın köməyinə getdi. Azərbaycan torpağında Kərim xana yetişdi. Kərim xan da ona qarşı lazımi hörmət və izzət şəraitini yerinə yetirdi. Hər ikisi düşmənləri olan Fətəli xana qarşı ittifaq bağladılar. Köçmək təbilini çalıb Urmiya ətrafına yaxınlaşdılar. Şəhərin ətrafında fələklər qədər əzəmətli olan çadırlarını qurdular» (54, s.47).

Əhməd bəy Cavanşir isə Pənahəli xanla Kərim xan Zənd arasında Fətəli xan Əfşara qarşı yaranan ittifaqı belə qələmə almışdır: - «O zaman İranda Fətəli xandan başqa bir də Kərim xan Zənd məşhur idi. O, (Fətəli - Y.H.), hakimiyyət arzusunda olmaqdan başqa, həm də döyüşdə onun (Kərimin - Y.H.) qardaşını öldürmüşdü. Kərim xan ona ədavət bəsləyirdi. Pənah xan bu ədavətdən istifadə edib, onun yanına qasidlər göndərib, birgə hərəkətləri barədə razılığa gəlib, hər iki tərəfdən Fətəli xanın üzərinə hücuma keçdilər və onu məğlub edib, özünü əsir aldılar və İbrahim xanı da sağ-salamat geri qaytardılar» (17, s.162).

Mirzə Camalla Mirzə Adıgözəl bəydə də bu hadisələrin təsviri eyni şəkildədir. Əhməd bəy Cavanşir isə ümumi düşmənə qarşı ittifaq bağlamağın təşəbbüsçüsü kimi Pənahəli xanı

göstərir. Əhməd bəy Cavanşirin bu fikrinə heç bir salnamədə rast gəlinmir.

Fətəli xan Əfşarla döyüşdə müttəfiqlər qələbə qazandılar. Əsasən, Qacar və Əfşar qəbilələrindən olan Urmiya qoşununa qalib gəldikdən sonra Kərim xan Zənd əslində bütün İranda və Quzey Azərbaycanda hakimiyyəti ələ almış oldu. O, öz dövrünün başqa hakimlərdən fərqli olaraq özünü «şah» deyil, «vəkil» adlandırmışdı. Bu münasibətlə Mirzə Adıgözəlbəy yazırdı: - «Kərim xan vəkil, İranda müstəqil bir padşah olmadığından özünə padşah-vəkil adı vermiş və şahlıq adını qəbul etmək istəməmişdir. O, İbrahimxəlil ağanı Urmiyadan hüzuruna gətirtdi. Ona qiymətli xələt, cəvahiratla bəzədilmiş bir qızıl yəhər və yaraqlı bir at bağışladı, xanlıq fərmanı və hökmranlıq verib Qarabağa yola saldı. Sonra Pənah xana təklif edib ondan xahiş etdi ki, bir neçə gün onunla birlikdə Şiraza səyahət etsin. Pənah xan da bu təklifi qəbul etdi» (54, s.47).

Kərim xan Zəndin Pənahəli xana göstərdiyi münasibəti Mirzə Camal və digər salnaməçilər də təxminən eyni tərzdə qələmə almışlar. Lakin onlar Kərim xan Zəndin məharətlə pərdələnmiş məkrli niyyətini hərtərəfli açıb göstərmirlər. Kərim xan yaxşı dərk edirdi ki, Pənahəli kimi fərasətli, diribaş, möhkəm iradəli mahir bir sərkərdə və siyasətçinin Qarabağda hakimiyyət başında qalması onun istilaçılıq və hökmranlıq planlarının reallaşdırılması yolunda ciddi maneədir. Ona görə də o, Pənahəli xanın fəal köməyi ilə əsas rəqibi olan Fətəli xan Əfşarı aradan götürdükdən sonra, Pənahəli xanı yalan vədlərlə özü ilə bərabər, Şiraza apardı. «Qarabağnamə» müəllifləri iddia edirlər ki, guya Kərim xan Zənd xüsusi fərman verib İbrahimxəlil xanı Qarabağa hakim təyin edib, onu vətənə göndərdi. Əvvəla onu deyək ki, Kərim xan Zənd belə bir fərman verməyə səlahiyyətli deyildi, o, etiraf edirdi ki, İranda müstəqil padşah olmadığından mən vəkiləm. «Bir padşah aralığa çıxıb taxta oturmayınca mən padşahın vəkiliyəm» (55, s.119).

Hadisələrin təhlili göstərir ki, İbrahimxəlil ağanın əsirlikdən azad edilib Qarabağa göndərilməsi, o dövrün

qanunlarına əsasən böyük övladın hakimiyyətə sahib olması, əslində Pənahəli xanın hakimiyyətinin süqutu demək idi. Pənahəli xan, Kərim xan tərəfindən aldanıldığını, əlbəttə, başa düşməyə bilməzdi. Onun namərdliyi, kişiliyə yaraşmayan əməlləri Pənahəli xana fiziki və mənəvi cəhətdən təsir göstərməyə bilməzdi. Kərim xan Zənd tərəfindən aldadılanlar arasında Pənahəli xanla birlikdə «qaradağlı Kərim xan, xoylu Şahbaz xan, Nəcəfqulu xanın böyük oğlu Fəzləli bəy, qardaşı Əhməd xanın bütün ailəsi, marağalı Hacı Əlməmməd xan, naxçıvanlı Hacı xan Kəngərli, irəvanlı Hüseynəli xanın qardaşları, gəncəli Ziyadoğlu Şahverdi xanın qardaşı Rzaqulu xan, nüfuzlu Əfşarlardan Əmirgünə xan, sərablı Əli Şəqqaqi və başqaları var idi» (15, s.125). Göründüyü kimi, Kərim xan Zənd düşməninə qalib gəlmək üçün kifayət qədər güclü ittifaq - koalisiya yarada bilmişdi.

Mirzə Camal yazırdı: - «Mərhum Pənah xan az bir müddət Kərim xanın paytaxtı olan Şirazda qaldıqdan sonra əcəli çatıb, Şirazda Allahın rəhmətinə getdi. Cənazəsini böyük hörmətlə Qarabağa gətirib, indi Ağdam adı ilə məşhur olan, özünün satın aldığı halal mülkündə dəfn etdilər. Allah ona rəhmət eləsin» (55, s.120).

Əhməd bəy Cavanşir Pənahəli xanın vəfatını belə təsvir edir: - «Hicri 1174-cü ildə İbrahimxəlil xan Şuşaya qayıtdı, bundan iki ay sonra Şirazdan mərhum Pənah xanın cənazəsi gətirildi». Burada Pənah xanın ölümü dəqiq verilməmişdir. Mirzə Camal Cavanşir Qarabaği də İbrahimxəlil xanın hicri 1174-cü ildə xanlığa keçdiyini yazır. Deməli, Pənahəli xan 1760-cı ildə vəfat etmişdir. Ancaq Ağdam şəhəri ərazisindəki Qarabağ xanlarına məxsus olan İmarət adlı yerdəki xanlıq qəbiristanlığında Pənah xanın qəbrinin başdaşı üzərindəki mərmər kitabəsinin Ə.Ələsgərzadə tərəfindən oxunmuş mətnində Pənah xanın hicri 1172-ci ildə, yəni miladi tarixi ilə 1758/1759-cu ildə vəfat etdiyi yazılmışdır (54, s.40).

Qarabağ xanlığının paytaxtı Şuşaya gələn İbrahimxəlil xan qardaşı Mehrəli bəyi saraydan uzaqlaşdırıb özü müstəqil

hökmdar kimi Qarabağ xanlığını idarə etməyə başladı.

A.A.Bakıxanov qeyd edir ki, «Vəkil (Kərim xan Zənd nəzərdə tutulur - Y.H.) Pənah xanın oğlu İbrahimxəlil ağanı xanlıq ləqəbilə Qarabağa göndərdi, özünü isə həmişəlik yanında saxladı. Pənah xan Şirazda vəfat etdi, nəşi də Qarabağa göndərildi» (1, s.366).

Mirzə Camal Cavanşir göstərilən əsərinin beşinci fəslinə belə bir sərlövhə vermişdir: **«Mərhum İbrahim xanın hakimiyyəti və o zamanın qaydaları və hadisələri haqqında».** O, qeyd edirdi ki, «mərhum İbrahim» xan müsəlman tarixi ilə 1174-cü ildən, xristian tarixi ilə 1760-cı ildən 1221 (1806)-ci ilə qədər Qarabağ hökuməti taxtında oturmuş, İran və Rum padşahlarına itaət etmədən və boyun əymədən müstəqil hökmranlıq etmişdir. Onun hökmü və fərmanı Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil vilayətləri, hətta Marağa, İraq və Azərbaycan sərhədi olan Qaplankuhda belə işlərdi. Vilayətlərin xanları mərhum İbrahim xanın hökmü və əmri ilə təyin edilər və ya vəzifədən götürülərdi» (55, s. 120-121).

Bu fikir demək olar ki, kiçik fərqlərlə eyni ilə də Mirzə Adıgözəl bəydə də təkrarlanır. Mirzə Adıgözəl bəy yazırdı ki, «İbrahimxəlil xan Qarabağda hakimiyyətə hicri 1173-cü (1759) ildə başlamışdır» (54, s.48). Fikrimizcə, Mirzə Adıgözəl bəy İbrahimxəlil xanın hakimiyyətə başlamasını daha dəqiq göstərir. Tarixi mənbələr göstərir ki, həqiqətən İbrahimxəlil xan 1759-cu ildə (bəzi mənbələrdə isə bu rəqəm 1760-cı il kimi göstərilir) Şuşaya qayıtmış və xanlığı idarə etməyə başlamışdır. Demək olar ki, «Qarabağnamələr»in müəlliflərinin hamısı İbrahimxəlil xanın hakimiyyət dairəsini çox şişirdirlər. Təbriz, Xoy, Marağa, İrəvan və sair xanlıqların Qarabağ xanlığından asılı olmaları, həmin xanlıqlara xanların İbrahim xanın fərmanları ilə təyin edilməsi və ya azad olunmalarını təsdiq edən sənəd indiyədək əldə edilməmişdir. Bununla yanaşı tarixi mənbələrdə belə bir məlumat da var ki, İbrahim xan müvəqqəti də olsa Naxçıvan, Gəncə, Təbriz xanlıqlarına təsir göstərə bilmişdir. Eyni zamanda

İbrahimxəlil xan bir sıra qonşu feodal hakimlərilə qohumluq əlaqəsi yaratmış, bu yolla da həmin xanlıqların daxili və xarici həyatına nüfuz etməyə çalışmışdı.

Bu barədə Mirzə Camalın yazdıqları bütün salnamələrdə deyilənləri ümumiləşdirir, dəqiq təsəvvür yaradır. O, yazır: «O, (İbrahimxəlil xan - Y.H.) Dağıstanın Avar vilayəti valisi Nüsal xanın oğlu Ümmə xanın bacısı ilə evləndi. Zərurət zamanı İbrahim xan Dağıstan və ləzgi vilayətlərindən qoşun istəyərək, onu Ümmə xan və başqa sərkərdələrlə birlikdə Qarabağ vilayətinə gətirib öz övladı, sərkərdələri və Qarabağ qoşunu ilə lazım gələn yerlərə göndərir, istədiyi adamı tənbeh edər və itaət altına alardı» (55, s.121).

İbrahimxəlil xan atası Pənahəli xanın yolunu məharətlə davam etdirirdi. Xanlığın müdafiə qabiliyyətini bir an da olsun nəzərdən qaçırmır, xəmsə məliklərinin hərəkətlərinin qarşısını xan qətiyyətlə alırdı. Məliklərin müstəqilliyinə son qoyulması, xanlığın müdafiə qabiliyyətinin gücləndirilməsi nəticəsində XVIII əsrin 60-80-ci illərində İbrahimxəlil xan Qarabağ xanlığının daxili həyatında nisbi sabitlik yaratmağa, əhalinin dinc əməklə məşğul olmasına şərait yarada və bölgənin beynəlxalq hərbi-siyasi həyatında öz dövlətinə böyük nüfuz qazandıra bilmişdir (6, s.70).

Bütün bunlar xanlığın banisi Pənahəli xanın və onun oğlu İbrahimxəlil xanın apardıqları geniş, çoxtərəfli işin bilavasitə nəticələri idi. İbrahimxəlil xanın hakimiyyəti illərində Qarabağ xanlığı siyasi, iqtisadi və mədəni cəhətdən xüsusilə qüvvətlənmişdi.

Mirzə Camal Cavanşir yazır: «Padşah adı daşımadığına baxmayaraq, İbrahim xanın dövlət və cəlalı İran padşahlarının cah-cəlalından əskik deyildi» (55, s.121). Bu fikir Mirzə Adıgözəl bəy tərəfindən də eynilə təkrar olunur (54, s.49).

Başqa salnaməçilər də İbrahimxəlil xanın hökmranlıq dövrünə, onun hakimiyyətinin nüfuzuna yüksək qiymət verirlər.

Salnamə müəllifləri yazırlar ki, bu vəziyyət Şirazda girov saxlanılan Ağa Məhəmməd xan Məhəmmədhəsən oğlu Qacarın,

Kərim xanın vəfatından sonra o, şəhərdən qaçdığı günlərə qədər davam etmişdi. «Səltənət iddiasında olan Ağa Məhəmməd xan bir neçə il çalışdıqdan sonra İraq və Farsı tutub, Tehran şəhərini paytaxt etdi. O, müsəlman tarixi ilə 1207 (1792-1793)-ci ildə Azərbaycan vilayətlərinə gəlib Arazın cənub tərəfində olan bütün vilayətləri aldı» (55, s.121).

Mirzə Adıgözəl bəy, Mirzə Camal, Əhməd bəy Cavanşir və digər Qarabağ salnaməçilərinin əsərlərində Pənahəli xana xanlıq rütbəsi verilməsi barədə Adil şahın fərmanından, İbrahimxəlil xana xan titulu verilməsi barədə Kərim xan Zəndin fərmanından söhbət açılır. İran tarixçiləri isə istər Pənahəli xanın, istərsə də İbrahimxəlil xanın İran hakimiyyətinə tabe olmamasını təsdiq edirlər. Göründüyü kimi xanlıq verilməsi barədə bu fərmanları tamamilə rəmzi məna daşımış, sırf formal bir şey olmuş və Qarabağ xanlarının istiqlalı və suverenliyini poza bilməmişdir. Mirmehdi Xəzaninin əsərində Qarabağ xanlığının statusu haqqında verilən bir məlumat bu mülahizəni birbaşa təsdiq edir. Həmin müəllif bu barədə yazır: «Mərhum İbrahim xanın ... əgərçi adı xan olub, amma balaca padşahlar kimi əsası və cəlalı və ixtiyari-kamil olub, əyyami-hökumətində heç bir padşaha itaət etməyib, xərac verməyib, istiqlal və ixtiyari-təmam ilə hökumət qılıbdır» (53, s.199).

Qarabağ salnamələrinin hamısının bu xanlığın artıq çoxdan bəri tarix səhnəsində olmadığı bir dövrdə yazıldığından, bu müəllifləri fərziyyəçilikdə təqsirləndirmək qeyri-mümkündür. Fikrimizcə, bu salnaməçinin dedikləri həqiqətdən o qədər də uzaq deyildir.

Mirzə Camal «Qarabağ tarixi» salnaməsinin bir fəslini **«İbrahim xanın nizam-intizamı və hakimiyyəti zamanında olan qaydalar haqqında»** adlandırır. Həmin bölmədə deyilir: «Qarabağın bütün elləri, adları dəftər və siyahıda yazılmış atlı qoşundan ibarət idi. Zərurət zamanında mahalların və kəndlərin piyada tüfənglilləri mahal məlikləri ilə birlikdə qoşun sıralarında hazır olurdular (55, s.144).

**Salnaməçilərin hamısı İbrahimxəlil xanın əliaçıqlığın-**

**dan və səxavətliliyindən bəhs edirlər. Məsələn, İbrahimxəlil xanın səxavət və mərhəmətindən danışan Mirzə Camal Cavanşir yazır: «Hər il Novruz bayramı günündə, mərhum xan, qoşunun bütün adlı-sanlı sərkərdələrinə və minbaşılarına xələt, ənam, at və qılınc bağışlardı. Azərbaycan vilayətləri, mahallar, habelə məliklər hər kəs öz rütbəsinə görə peşkəş gətirərdi» (55, s.144)**.

«Mərhum İbrahim xan səfərdə olduğu və ya bir düşərgə qurduğu zaman, xidmətində olan minbaşıların, yüzbaşıların, Azərbaycan bəyləri, ağaları və xanlarının səhər, günorta, axşam xörəyi və atlarının arpası, habelə qoşun əhlinin bir parasının, yasovulların, mirzələrin, eşik ağalarının və keşikçilərin bütün məxarici mərhum xanın xəzinəsindən verilərdi. Bir çox gecələr, minbaşılara və başqalarına buraxılan diri qoyunlardan başqa, qırx puda yaxın düyü və otuz qoyun sərf olunardı. Bu hesabla sərf olunan çörəyin, arpanın, yağın və şirniyyatın miqdarını təsəvvür etmək olar» (55, s.144).

Qarabağ xanlığında, dövlət ilk növbədə ali sosial təbəqənin mənafelərini müdafiə edirdi. Bütün xanlıqlarda olduğu kimi Qarabağ xanlığında da daxili və xarici siyasət hakim sinfin mənafeyinə tabe edilmişdir. Təəssüflə deməliyik ki, «Qarabağnamələr»də xanlıqda xanın hakimiyyəti, ona tabe olan idarəçilik orqanları və bu orqanlara təyin olunan şəxslərin fəaliyyəti barədə geniş məlumat verilmir.

Məlumdur ki, XVIII əsrin 40-cı illərində yaranmış xanlıqların hamısında olduğu kimi, Qarabağ xanlığında da idarəçilik sistemi feodal siyasi sisteminin səciyyəvi nümunəsi idi. Xanlar qeyri-məhdud hakimiyyətə malik idilər. Onların ixtiyarında geniş torpaq sahələri, taxıl zəmiləri, suvarma kanalları, meşələr və digər təbii sərvətlər var idi. Xanlıqların idarə orqanları, inzibati təşkilatları mövcud dövlət vəzifələri haqqında konkret və hərtərəfli məlumat verən ilk tarixi mənbələrin olmaması bunlar haqqında dəqiq və sistemli təsəvvürün yaradılmasına imkan vermir.

Mirzə Camal öz salnaməsinin bir fəslini **«Xanın evinin**

**əmələ və kargüzarları və dövlət işi ilə məşğul olan şəxsləri»** adlandırır. O, qeyd edir ki, «birincisi, Vaqif təxəllüslü mərhum Axund Molla Pənahdır ki, tədbirli və kamallı məşhur vəzir idi və İranda, Rumda olduqca şöhrət tapmışdır» (55, s.146).

**Rzaqulu bəy Mirzə Caml oğlu «Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri» salnaməsinin xüsusi bir fəslini «Mərhum İbrahim xanın karküzarları haqqında»** adlandırır. O, yazır: «Mərhum İbrahim xanın özü bəslədiyi çalışqanlıqları və rəşadətlərinə görə dövlət və rəiyyət sahibi etdiyi başqa bəylər və evində olan qulluqçular və dövlət işlərinə baxan adamları da məşhurdurlar. Əvvəl mərhum Axund Molla Pənah idi ki, o, əqli, tədbiri və kamalı ilə məşhurdur. İranda və Türkiyədə böyük şöhrət qazanmışdır. Təxəllüsü Vaqif idi. Onun türkcə yazdığı şerləri ağızlarda deyilir və dillər əzbəridir. Sair kargüzarları, eşikağaları, nazirləri və məmurları çox idi. Ağa Məhəmməd şah əhvalatından sonra, Qarabağ vilayətinin halı pərişan və camaatın dağınıq düşməsi ilə əlaqədar olaraq mərhum xanın məmur və kargüzarlarından elə adamlar qalmadı» (67, s.244-245).

İstər Mirzə Camal Cavanşir, istərsə də Rzaqulu bəy Mirzə Camal oğlu və ümumiyyətlə digər salnaməçilər Molla Pənah Vaqif istisna olmaqla Qarabağ xanlığında mövcud olan siyasi hakimiyyət strukturlarında çalışmış konkret məmurlardan söhbət açmırlar. Elə hakimiyyət strukturuna daxil olmuş orqanlar haqqında da konkret məlumatlar yox dərəcəsindədir. Salnaməçilər vəzifələri sadəcə olaraq sadalayırlar.

«Qarabağnamə»ləri diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, Azərbaycan xanlıqlarında siyasi hakimiyyət Səfəvi dövlət aparatının bir növ sadələşdirilmiş forması idi. Xanlıqları, o cümlədən də Qarabağ xanlığını idarə edən mərkəzi dövlət aparatına **«divanxana»** deyilirdi. Divanxanalara qeyri-məhdud hüquqa malik olan xanlar başda olmaqla yüksək vəzifəli şəxslər və xanın köməkçiləri rəhbərlik edirdilər. Qarabağ xanlığında da vəzir divanxanada mühüm rol oynayırdı. **Vəzir** adətən xanın ən sədaqətli və inanılmış adamlarından təyin edilirdi. Vəzir həm

savadlı, həm də geniş dünyagörüşünə malik olmalı idi. Belə şəxsiyyətlərə misal olaraq Qarabağ xanının vəziri Molla Pənah Vaqifi, Təbriz xanı Xudadat xanın vəziri Əbdürrəzzaq Dünbülünü göstərmək olar. Onlar xanlığın daxili və xarici siyasətinin ən mühüm məsələlərinin çözülməsində, həmin çətin problemlərin həllində xanların əvəzolunmaz məsləhətçiləri idilər (15, s.30).

Vəzir xanlığın xarici ölkələrlə diplomatik əlaqələrinin yaradılmasında yaxından iştirak edirdi. Mirzə Adıgözəl bəy «Qarabağnamə»sində yazır: «...Mərhum İbrahim xan oğlu Əbülfət xanı çoxlu hədiyyə və sovqatlarla böyük sərdar qraf Valerian Zubov cənablarının möhtərəm hüzurlarına göndərdi. Uca Rusiya dövlətinə ixlas və sədaqətini bildirdi... Mərhum İbrahim xanın ərizəsini Dərbənd və Qızlar yolu ilə ixtiyar sahibi padşahın fələklər qədər yüksək olan dərgahına göndərdi. Mərhum Pənah xan üçün də, (Görünür müəllif burada sırf texniki səhvə yol verir. Ona görə ki, Valerian Zubovun komandanlığı altında rus qoşunları Cənubi Qafqaza 1796-cı ildə gəlmişdir. Bu zaman Qarabağda xan Pənah xan deyil, İbrahim-xəlil xan xanlıq edirdi. Pənahəli xan çoxdan vəfat etmişdir. **Y.H.)** bir nəfər knyaz vasitəsilə çoxlu bəxşiş və töhfələr yolladı. Padşahın ona qarşı hədsiz lütf və mərhəmətli olduğunu bildirdi. Mövlana Molla Pənah Vaqifə də qiymətli daşlarla bəzədilmiş bir əsa göndərdi» (54, s.54-55).

Mirzə Yusif Qarabaği isə «Tarixi-safi» də yazırdı: «İbrahim xan öz oğlu Əbülfət xanı əlahəzrət imperator I Yekaterinaya yazdığı məktubla birlikdə qiymətli bəxşiş, hədiyyə və cins atlarla böyük sərdarın (V.Zubovun) yanına göndərdi. Əzəmətli və qüvvətli Rusiya dövlətinə özünün sədaqətini və itaətkarlığını bildirdi. Yüksək ailədən olan sərdar Əbülfət xana layiqli hörmət, ehtiram və mehribançılıq göstərdi və İbrahim xanın ərizəsini Dərbənd və Qızlar yolu ilə əlahəzrət imperator sarayına göndərdi. Sərdar öz adamlarından birinin vasitəsilə əlahəzrət imperatriçənin İbrahim xana hörmət və məhəbbətini bildirərək ona çoxlu hədiyyə, eyni zamanda həmsöhbəti və

məsləhətçisi Molla Pənaha da qaş-daşla bəzənmiş bir əsa göndərdi» (58, s.33). Salnamələrdə deyilir ki, İbrahim xanın ardınca Şəki, Şirvan, Gəncə, Qaradağ, Xoy, Lənkəran, Şahsevən, Təbriz xanları da V.Zubova ixlas göndərdilər.

Yuxarıda gətirilən iqtibaslar sübut edir ki, salnaməçilər bir-birini təkrar edərək, Qarabağ vəziri Molla Pənah şəxsiyyətinə yüksək qiymət verirlər.

Xanlıq divanxanasında yüksək vəzifə daşıyanlardan biri də **divanbəyi** idi. Başqa Azərbaycan xanlıqlarında olduğu kimi Qarabağ xanlığında da bu rütbəni müəyyən ruhanilər icra edirdilər. Belə divanbəyilər həm də qazı adlandırılırdılar. Qazı xanlıqda hüquqi məsələlər üzrə xanın məsləhətçisi hesab olunurdu. Günahkarların taleyi divanbəyilərin verdikləri fitvadan asılı idi. Bütün mübahisəli məsələlər İslam şəriəti əsasında həll edilirdi. Cəzaların verilməsində son söz, qəti olaraq xana məxsus idi. Cəzalar müxtəlif formalarda olurdu. Qarabağ xanlığında divanbəyilər ölkənin suverenliyinin və müstəqilliyinin qorunmasında fəal iştirak edirdilər.

Xanlıqda mühüm vəzifələrdən biri də **mirzəlik** idi. Mirzələr xanın şəxsi təsərrüfatını idarə edir, toplanan vergilər və xərclənən pul vəsaitini xüsusi kitablarda qeyd edirdilər (15, s.32).

Qarabağ xanlığında inzibati-ərazi cəhətdən **mahallara** bölünürdü. Qarabağ xanlığında **iyirmi bir** mahal var idi. Onlardan Çalbayırı, Kəbirlini, Cavanşiri, Zəngəzuru, Mehrini, Qafanı və başqalarını göstərmək olar (9, s.563). Mahal başçıları - naiblər, bəylər və başqaları xanın fərmanı ilə təyin olunurdular. Yüzbaşılar, qoşun başçıları da xanın fərmanlarına və göstərişlərinə əsasən vəzifəyə qoyulurdular (15, s.32-33).

«Qarabağnamələr» də Qarabağ xanlığının silki quruluşu haqqında da müfəssəl məlumatlara təsadüf edilmir. Ancaq 1832-ci ildə tərtib edilmiş təsvirlər bu məsələyə də aydınlıq gətirir. Beləki, 1832-ci ilin kameral təsvirində Qarabağ əhalisinin imtiyazlı zümrələri - əsilzadələr, ruhanilər, maaflar, habelə kəndlilər haqqında kəndbəkənd məlumat verilir (120, h. III,

s.268). Həmin məlumatlar xanlıq əhalisinin sosial silki quruluşu barəsində də təsəvvür yaratmağa imkan verir. **Bəylər** ali silk içərisində əsas yer tuturdu. Onlar irsi və şəxsi bəylərə bölünürdülər. Bəylər kəndlilər üzərində inzibati polis hakimiyyətinə malik idilər. Bəylərin başlıca vəzifəsi xanın qarşısında istənilən xidmətə hazır olmaq idi. Bəylər az da olsa, öz təsərrüfatlarını yaradırdılar. Bəylər həmçinin böyük siyasi qüvvə idilər. Xanın hakimiyyətinin möhkəmliyi xeyli dərəcədə onlardan asılı idi (9, s.561, 562).

Qarabağ xanlığı əhalisinin sosial strukturunda **ruhanilər** xüsusi yer tuturdular. Onlar vergi və mükəlləfiyyətlərdən azad olmaqla vəqflərin və dini rüsumların (zəkat, xums və s.) hesabına dolanırdılar (9, s.561).

Qarabağ xanlığında vergi və mükəlləfiyyətlərin əksəriyyətindən azad olunmuş təbəqə - **maaflar** xanlıqda xüsusi yer tuturdular. Onlar xanlıqda polis - mühafizə rolunu yerinə yetirirdilər. Eyni zamanda maaflar müharibə zamanı qoşunun əsasını təşkil edirdilər. Mirzə Camal Cavanşir yazırdı: «Adları nökər və qoşun dəftərində qeyd olunmayan ailələrin nökər və qoşun əhlindən, habelə adları dəftərdə qeyd olunmuş nökər və qoşun əhlindən heç bir şey alınmırdı. Onlar maaf idilər» (55, s.144). Maafların üzərinə qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsi üçün xan onlara iri torpaq sahələri bağışlayırdı. Maaflar vergi və ən ağır mükəlləfiyyətlərdən tamamilə azad idilər. Digər Azərbaycan xanlıqlarında olduğu kimi Qarabağ xanlığında da maaflıq irsən keçirdi, onun ömürlük olması haqda da məlumatlar var (9, s.561).

Qarabağ xanlığında da cəmiyyətin sosial silki strukturunun ən aşağı pilləsini **kəndlilər, rəiyyətlər, rəncbərlər və elatlar** təşkil edirdilər. Kəndlilər hüquqlarına və mülki vəziyyətlərinə görə öncə sadalanan həmin sosial təbəqələrə bölünürdülər.

Rəiyyət kənd icmasının xəzinə və ya ali silk torpaqlarında yerləşməsindən asılı olaraq **dövlət** və **sahibkar** rəiyyətlərinə bölünürdülər. Onların pay torpaqları, burada təsərrüfat qurmaq

və ya inkişaf etdirmək üçün əmək alətləri, iş heyvanları var idi. Xanlıqda rəiyyətlər müəyyən vergi və mükəlləfiyyətlər yerinə yetirirdilər. Qarabağ xanlığında bu mükəlləfiyyətlərin sayı iyirmiyə çatırdı. Onların içərisində **malcəhət, salyanə, darğalıq, bayramlıq, cütpulu və başqalarını göstərmək olar** (9, s.561). Azərbaycanın başqa xanlıqlarında da belə mükəlləfiyyətlər mövcud olmuşdur.

Xəzinə rəiyyətlərinə nisbətən, sahibkar rəiyyətlərinin sosial-iqtisadi vəziyyətləri daha ağır idi. Ona görə ki, onlar həm xəzinə, həm də sahibkar qarşısında mükəlləfiyyətlər daşıyır və onlar tərəfindən istismar olunurdular.

Qarabağ xanlığında təsərrüfatı olmayan kəndlilər **rəncbər** adlanırdı. Rəncbərlər sahibkardan təsərrüfat işləri üçün lazım olan iş heyvanları, əmək alətləri, toxum və sair alırdılar. Qarabağ xanlığında da əsasən köçmə maldarlıqla məşğul olan əhali **elat** adlanırdı. Elata daxil olan maldar kəndlilər bəyin sürüsünü otarır, qoyunlarını qırxır və başqa mükəlləfiyyətləri yerinə yetirirdilər. Elatın vəziyyəti rəiyyətə və rəncbərə nisbətən yüngül idi. Bu, bir tərəfdən hakim təbəqənin əsas gəlirini əkinçi əhalidən toplanılması, digər tərəfdən elatın xan qoşunu üçün əsgər verməsi ilə bağlı idi. Azərbaycanda kəndlilər hüquqi cəhətdən sahibkarlardan şəxsən asılı deyildi, burada təhkimçilik münasibətləri yox idi. Sahibkarla kəndli arasındakı münasibət kəndlinin onun torpağından istifadə etməsilə müəyyən olunurdu (9, s.562).

Xanlıqlar dövründə Qarabağ xanlığında da torpaq üzərində mülkiyyətin beş forması mövcud idi. **Bunlar dövlət (divan) torpaqları, xalisə, mülk, vəqf və icma torpaqları idi**. Qarabağ salnaməçiləri öz əsərlərində torpaq üzərində müxtəlif mülkiyyət formalarına geniş yer vermirlər. Onlar sadəcə olaraq bu barədə ümumi sözlərlə kifayətlənirlər. Biz isə yuxarıda göstərilən torpaq mülkiyyətləri barədə bir qədər geniş və ətraflı danışmağı lazım bilirik.

Qeyd edək ki, Azərbaycanda mövcud olan feodal münasibətləri, torpaq mülkiyyət formaları, kəndli kateqoriyaları,

vergi sistemi və mükəlləfiyyətlər professor, tarix elmləri doktoru İlya Pavloviç Petruşevski tərəfindən hərtərəfli təhlil edilmişdir (123, s.222-247).

**Divan torpaqları** - dövlət xəzinəsinə mənsub olan torpaqlar idi. XVIII əsrin ikinci yarısında bu torpaqlar **xalisə** torpaqları ilə birləşmiş, onların arasında fərq aradan qalxmışdır.

**Mülk** - ata-babadan irsən qalmış, qeyri-şərti torpaq mülkiyyətinə deyilirdi. Buraya eyni zamanda su kanalları, meşələr, otlaqlar və s. daxil idi. Mülk torpaqlarının sahibləri mülkədar adlandırılırdılar. Onlar öz malikanələrində qeyri-məhdud iqtisadi və sosial hüquqlara malik idilər.

**Xalisə** - xassə torpaqları. Orta əsrlərdə Yaxın və Orta Şərqdə şah və onun ailəsinə mənsub olan torpaq sahələrinə xas (yəni «məxsus» və «xüsusi» mənalarını verən ərəb sözüdür) deyilirdi. Bu torpaq sahələrində əldə edilən məhsuldan heç bir vergi alınmırdı. Ona görə də vergi dəftərlərində belə torpaqları həm də xalisə kimi qeyd edirdilər.

**Vəqf torpaqları** - ziyarətgahlara, müqəddəs yerlərə, pirlərə xeyriyyə idarələrinə və habelə yüksək dərəcəli ruhanilərə bağışlanan torpaq sahələrinə deyilirdi. Buraya ayrı-ayrı kəndlər, torpaq sahələri, bağlar, evlər, dükanlar, karvansaralar, hamamlar, bazarlardan gələn gəlirlərin bir hissəsi daxil idi. Xanlıqlar dövründə, o cümlədən də Qarabağ xanlığında vəqf torpaqları geniş yayılmışdır.

«Qarabağnamələr» də vəqf yerləri və onların vəqfnamələri (vəqflərin bağışlanılması haqqında sənədlərin - Y.H.) ilə bağlı məlumatlara təsadüf edilmir. **Ancaq Həsən İxfa Əlizadənin «Şuşa şəhərinin tarixi»** adlı əsərində İbrahim xan tərəfindən 1768/69-cu illərdə Şuşada inşa olunmuş və 1866-cı ildə isə onun qızı Gövhər ağanın vəsaiti hesabına əsaslı şəkildə təmir edilmiş cümə məscidinin girəcəyindəki vəqfnamə haqqında müfəssəl məlumat vardır. Müəllifin qeydlərindən aydın olur ki, bu məscidin inşa olunduğu dövrdən vəqf yerləri olmuş, onların gəlirləri məscidə çatmış və Gövhər Ağa da onu elə həm də vəqfin gəliri hesabına təmir etdirmişdir. Gövhər Ağa

tərəfindən bərpa edilmiş yuxarı məscid adı ilə məlum cümə məscidi ilə yanaşı, digər bir məscidin də vəqfləri olmuş və həmin vəqflərin gəliri hesabına maliyyələşdirilmişdir. Cümə məscidindəki Göhvər Ağanın vəqfnaməsində məscidin dükanları, kəndləri, əkin sahələri, bağları və dəyirmanlarının sayı öz əksini tapmış və eyni zamanda hər iki məscidin vəqf gəlirlərinin necə bölünüb sərf olunması da göstərilmişdir. Vəqfnamədə qeyd olunur: «... Göhəriyyənin iki məscid və iki mədrəsəsinin mövqüfatını xərcləyən müvəkkillər vəqf gəlirini hər il üç yerə bölsünlər...» Belə ki, qeyd olunan gəlirin üçdə biri yığılıb saxlanılmalı və lazım olduqda bərpa işlərinə sərf olunmalı idi. Gəlirin iki hissəsinin isə cari təmir işlərinə, məscid və mədrəsələrin işıq və yanacağına, məscid və mədrəsələrdə çalışan işçilərin, din xadimlərinin məvaciblərinə sərf olunması nəzərdə tutulmuşdu. O cümlədən vəqfin gəlirinin hesabına Aşura, Ramazan ayı və bayramı, mədrəsə tələbələrinin xərcləri ödənilməli və imkansız adamlara da müəyyən məbləğdə pul verilməli idi. Məscidin birinin nəzdində kasıblar, qəriblər üçün xəstəxana açılmalı və bu xəstəxana vəqfin gəliri hesabına maliyyələşdirilməli idi (27, s.342-345).

Tarixçi - tədqiqatçı M.S.Nemətova Şuşa şəhərindəki came məscidində Gövhər Ağanın vəqfnaməsi həkk olunmuş kitabələri oxuyub, məscidin Gövhər Ağa tərəfindən bərpası və onun giriş qapıları üzərinə həkk olunmuş kitabələrin tarixini dəqiqləşdirmişdir (64, s.47). Müəllifin təhlillərindən aydın olur ki, bu idarə quruluşuna görə şəri vəqf olur ki, bu idarə quruluşuna görə həm vəqfi ammə, həm də vəqfi xassə xüsusiyyətinə malik olmuşdur.

**Camaat torpaqları** - bu icma torpaqları idi. Həmin torpaq sahələri camaatın tam mülkiyyəti kimi, onların ixtiyarında idi.

«Qarabağnamə» müəllifləri xanlıqda torpaq və digər vergilərə olduqca az yer verirlər. Mirzə Camal Cavanşir yazır: «Qarabağ ellərindən tövcü pulu və məhsuldan **malcəhət** alınmazdı. Lakin mahallardan və kəndlərdən hər il malcəhət və

**tövcü** yığılırdı. Hərdən bir Dağıstandan ləzgi qoşunu gətirildikdə ləzgi qoşununun məvacibini ödəmək və ləzginin itmiş və ya ölmüş atının pulunu vermək üçün evlərdən də tövcü pulu, sürsat, taxıl, qoyun və mal alınardı" (55, s.144).

Qarabağ xanlığının vergi və gəlirlərindən bəhs etmiş, bütün salnamə müəllifləri də, yuxarıda deyilənləri təkrar edirlər.

Qarabağ xanlığına aid bir sıra tarixi mənbələrdə isə vergi məsələlərinə geniş yer verilir: «Qarabağ xanlığında kəndlilər bəylərə məhsulun 2/3-dən 4/5-nə qədərini **malcəhət** kimi verirdilər. Malcəhətın miqdarı başqa şərtlərlə də bağlı idi. Məsələn, sahibkar rəiyyət ilə könüllü prinsip əsasında razılığa gələrək ona kənd təsərrüfatı alətləri, mal-qara, tut və ya üzüm bağları salmaq üçün torpaq və sair verdikdə, məhsulun yarısını, yaxud üçdə birini alırdı. Malcəhət vergisini sahibkarın müəyyən etdiyi yerə 3-15 gün müddətinə həmin rəiyyətin özü daşımalı idi» (102, c.II, s.55).

Qarabağ xanlığında vergi və mükəlləfiyyətlərin öyrənilməsində **«Qarabağ əyalətinin təsviri»** çox qiymətli mənbədir. «Təsvir»də dövlət kəndləri ilə yanaşı, xan və bəy mülkləri də öz əksini tapmışdı. «Təsvir»də qeyd olunan materiallardan göründüyü kimi Qarabağ əyalətində 521 oba və kənd olmuşdu. Onlardan alınan malcəhət vergisi, ayrı-ayrı məhsullar üzrə alınan verginin miqdarı qeyd olunmuşdur. «Təsvir»də Qarabağ xanlığında olan 521 kənddən 189-u üzrə verilmiş məlumatdan göründüyü kimi, həmin kəndlərdən 6139,5 çətvərt buğda, 163 kənddən 2856,5 çuval arpa, 14 kənddən 6,5 batman barama, 4 kənddən 82 çuval düyü, 271 çuval darı ilə malcəhət vergisi kimi toplanırdı. Bir çətvərtin 9,5 pud, bir çuvalın isə 7,5 puda bərabər götürsən onda hər il əyalətdən təxminən 60000 pud buğdaya, 22000 pud arpaya bərabər olar ki, bu da malcəhət vergisi demək idi» (122, səh. 116-117).

Qarabağ xanlığında xan xəzinəsinə verilən malcəhət vergisi Salyana adlanırdı. Malcəhət əkinçilik təsərrüfatından ödənilən əsas vergi olub, torpağın dövlət, yaxud da mülkədara aid olmasından asılı olaraq, bütövlükdə dövlətə (divan) ya da

sahibkara ödənilir, ya da onların arasında müvafiq nisbətdə bölünürdü. Bu vergi bir qayda olaraq məhsulla ödənilirdi. Malcəhət bəzi hallarda və yerlərdə bəhrə adlanırdı. XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəllərində Qarabağ xanlığında malcəhətin divana, xanlıq xəzinəsinə ödənilən hissəsinə **«Salyana»** adlanırdı (123, s.266, 267,272).

Qarabağ xanlığında daha geniş yayılmış vergilər içərisində aşağıdakılar da var idi.

**Çöpbaşı** - xanlıqda yaylaqdan və qışlaqdan istifadəyə, mal-qaranı otarmağa görə toplanan vergi idi. Bu vergi mal-qaranın sayına (baş) müvafiq olaraq alınırdı. Bu və ya digər mülkədarın mülkündə pay torpaqları olan kəndli, 20 başdan artıq qoyun-keçisi, 10 baş qaramal və 5 başdan artıq mal-qarası olduqda yaylaq və qışlaq sahibinə çöpbaşı vergisi ödəməli idi (102, c.II, s.429).

**Atarpası** - xan qoşununun atları üçün ödənilən arpa vergisi idi. Qarabağ xanlığında daha geniş yayılmışdır.

**Kələntərlik** - Qarabağ xanlığında ali inzibati məmurları, naibləri və başqa xidmətçiləri saxlamaq üçün toplanırdı (102, c.II, s.429).

**Toy pulu** - Qarabağ xanlığında 6 manat 40 qəpikdən 10 xan manatına qədər idi (92, v.58).

Qarabağ xanlığında məlikarxadlı sahəni becərmək üçün rəiyyətlər hər il dörd günlüyə 500 xış, 1809 biçinçi, yığılmış məhsulu xan anbarlarına daşımaq üçün isə 1812 öküz verməli idilər (90, s.1143).

Xan hakimiyyətinin əsasını **ordu** təşkil edirdi. Qoşunun əsas hissəsi maaflar və elatlardan toplanılmış süvarilərdən ibarət idi. Müharibələr və ya böyük döyüşlər zamanı qoşunun daimi hissəsi yeni silahlı qüvvələr hesabına artırılırdı. Döyüşçülərin silahlandırılması və bütün digər xərcləri əhalinin hesabına idi (9, s.563). Yaxşı silahlanmamış, yüksək ruhlu və bacarıqlı döyüşçülərə malik olmayan xanlıq, şübhəsiz ki, uzun müddət öz istiqlaliyyətini qoruyub saxlaya bilməzdi. Məlum olduğu kimi, hərbi dəstələr, yalnız xarici hücumların qarşısını almaq üçün

deyil, eyni zamanda da daxili asayişi qorumaqda da mühüm əhəmiyyətə malik idi. Ona görə də hərbi qüvvələrə qayğı xanlıqlarda əsas yer tuturdu (109, s.40).

Xanlıqların əzəməti və onların biri digərindən üstün olması əsasən iki amillə müəyyən edilirdi: - **birincisi**, vergi verən əhalinin sayına görə, **digəri** isə mükəmməl təlim görmüş, yaxşı silahlanmış güclü döyüşçü dəstələrinin olmasına görə. Qarabağ xanlığında da silahlı qüvvələrə xüsusi fikir verilirdi.

Rus diplomatı, polkovnik, hərbi mühəndis və kartoqraf Stepan Daniloviç Burnaşev qeyd edirdi ki: «Qarabağ xanı İbrahim xanın sərəncamında 7000 nəfər güclü qoşunu vardır» (94, s.6). Lakin müəllif **«İrandakı Azərbaycan torpaqlarının təsviri və onların siyasi vəziyyəti»** əsərində Qarabağ xanlığının silahlı qüvvələrinin qoşun növlərinə görə bölgüsünü vermir. Ona görə də Qarabağ xanlığının silahlı qüvvələri haqqında hərtərəfli fikir söyləmək xeyli müşküldür. «Qarabağnamə» müəllifləri də bu məsələyə, demək olar ki, toxunmamışdılar. Yalnız Mirmehdi Xəzaninin əsərində Qarabağ xanın qoşununun sayı haqqında az da olsa məlumat vardır. O, bu haqda yazır: «On iki minədək dəftəri-məxsusi qoşun var idi ki, həmişə zira-hökmündə və adları siyahı və dəftərdə yazılmış qoşun idi. Amma zərurət vaxtı öylə rəşid adamlar, çerik və tüfəngçi hazır olardılar» (53, s.199).

## 2.2. QARABAĞ XANLIĞININ COĞRAFİ MÖVQEYİ, TƏBİİ ŞƏRAİTİ, SƏRHƏDLƏRİ VƏ ƏHALİSİ

«Qarabağnamələr»in müəllifləri qısa şəkildə də olsa Qarabağ xanlığının təbii-coğrafi mövqeyi haqqında məlumat verirlər. Ancaq onlar bu sahədə bir-birini təkrar edirlər. Qarabağ xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra buranın demoqrafik vəziyyəti, iqtisadi coğrafiyası hərtərəfli tədqiq edilmişdir. Salnamələrdə deyildiyi kimi Qarabağ xanlığında torpaqlar, fərmanlar vasitəsilə ayrı-ayrı bəylərə və ağalara

təhkim olunurdu. İbrahimxəlil xanın dövründə onun fərmanlarında həmin torpaqların satılması, dəyişdirilməsi və ya bağışlanılmasına yol verilmirdi (6, s.154).

Kiçik Qafqazın cənub-şərq çıxıntısında, əsasən Kür və Araz çayları arasında yerləşən Qarabağ xanlığı Azərbaycan ərazisinin ən mühüm, məhsuldar torpaq sahələrinin xeyli hissəsini əhatə edirdi. Qarabağ xanlığı Səfəvilər dövləti dövründə Gəncə-Qarabağ bəylərbəyliyinin bir hissəsində meydana gəlmişdi. V.Minorskiyə görə, Qarabağ istilahına yazılı qaynaqlardan ilk dəfə Həmdullah Mustoufinin «Nüzhət əl-qülub» adlı əsərində təsadüf olunur. Ehtimal ki, «Qarabağ» adı bu gün izi mövcud olmayan hansısa bir türk elinin adı ilə bağlıdır. Mərkəzi Şuşa olan Qarabağ Arazla Kür çayı arasında yerləşirdi (143, s. 192). H.Məmmədov (Qaramanlı) «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri» adlı qaynağa yazdığı ön sözdə tarixi qaynaqlara istinad edərək qeyd edir: - "İstər XVI əsrin sonunda, istərsə də XVIII əsrin əvvəllərində Gəncə-Qarabağ əyalətinin ərazisi əsasən, dəyişməz olmuşdur. Əyalətin sərhədləri şimalda Kür çayı boyunca davam etmiş, Kürün Araz çayı ilə birləşdiyi yerdən Araz çayı boyunca qərbə doğru Bərgüşad divasına və buradan şimal istiqamətində, Göyçə gölünün şərq hissəsindən keçərək yenə də şimala doğru, Tiflis əyalətinə daxil olmuş Borçalının cənub hissəsi və Taşır nahiyəsi ilə həmsərhəd olan Lori qəzasına qədər uzanırdı» (23, s.7). Ancaq Gəncə-Qarabağ bəylərbəyiliyinin ərazisində meydana çıxmış Qarabağ xanlığının coğrafi-siyasi sərhədlərinin «Qarabağnamələr» əsasında müəyyənləşdirilməsi, bu mənbələrdə qeyd olunan məsələ ilə bağlı məlumat qıtlığı və pərakəndəliyi olduğuna görə, o qədər də asan deyildir. Mirzə Adıgözəl bəyin əsərində göstərilir ki, Şuşa xanlığın mərkəzi olduqdan sonra, xan «Mehri, Güney mahallarını Bərgüşada qədər Qaradağ hakimindən alıb özünə tabe etdi. Tatev və Sisyan mahallarını Naxçıvan hakimindən, Zəngəzur və Qapan mahallarını Təbriz bəylərbəyindən aldı. Kolanıların məskəni olub Uşacıq kəndindən Göyçə sərhədinə qədər uzanan Tərtər

çayı sahilindəki yerləri İrəvan hakimindən aldı. Gəncə hakimlərinə aid və Xudafərin körpüsündən Kürək çayına qədər olan yerləri də öz əlinə keçirdi» (54, s.35-36). Göründüyü kimi Mirzə Adıgözəl bəyin məlumatları xanlığın tarixi-coğrafi mövqeyi haqqında təsəvvür yaratsa da, ancaq bu o material əsasında xanlığın bütün istiqamətlərdən sərhədlərini dəqiq təyin etmək mümkün deyildir. Ancaq Mirzə Adıgözəl bəydən fərqli olaraq, Mirzə Camal Cavanşirin «Qarabağnamə»si xanlığın ərazisini, sərhədlərinin coğrafi hüdudlarının müəyyənləşdirilməsi baxımından xüsusi elmi əhəmiyyət kəsb edir.

Müəllif xanlığın siyasi sərhədləri haqqında yazır:- «... Cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər - Araz çayıdır. Şərq tərəfdən Kür çayıdır... Şimal tərəfdən Qarabağın Yelizavetopolla sərhədi Goran çayıdır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır...». Zəngəzur, Qapan, Qarabağın Çuldur, Mehri mahalları da xanlığa daxil idi (55, s.107-108, 113, 114; 67, s.206).

Qarabağ xanlığının tarixinə dair salnamələrdəki materialların təhlili onları sinxron ədəbiyyatlar olduğunu, bir-birindən o qədər də fərqlənmədiklərini göstərir. Məsələn, Mirzə Adıgözəl bəy və Mirzə Camalın Qarabağ xanlığının coğrafi sərhədlər haqqındakı məlumatları eynilə Rzaqulu bəy Mirzə Camal oğlunun da əsərində təkrarlanır (67, s.206).

Xanlıq Kürəkçay və Qaraçay çayları boyunca şimal-qərbdə Gəncə, cənub-qərbdə Naxçıvan, qərbdə İrəvan, şimal-qərbdə Şəki (Kür çayı boyunca), həmçinin Kür çayı boyunca Şirvan xanlıqları ilə həmsərhəd idi. Bunlardan əlavə Qarabağ xanlığının cənub-şərqində Təbriz və Ərdəbil xanlıqları yerləşirdi. Müxtəlif qaynaqların müqayisəli təhlili göstərir ki, xanlığın sərhədləri haqqında danışarkən salnamə müəlliflərinin göstərdikləri sərhədləri əsas götürmək mümkündür.

«Qarabağnamə»lərdə Qarabağ xanlığının əhalisinin milli və sosial tərkibi haqqında dəqiq rəqəmlərlə göstərilmiş məlumatlar yoxdur. Ancaq xanlığın meydana gəlməsi ərəfəsində qısa zaman kəsiyinin tarixi hadisələrini özündə əks etdirən

«Gəncə-Qarabağ» əyalətinin müfəssəl dəftəri əyalətin demoqrafik vəziyyəti və əhalisinin etnik tərkibi barədə verdiyi məlumatlar dolğunluğu ilə seçilir.

H.Məmmədov «Müfəssəl dəftər» materialları əsasında təhlillər aparmış, əyalətin əhalisinin sayı və etnik tərkibinə aid qiymətli nəticələr əldə edə bilmişdir. Onun hesablamalarına görə, Qarabağ əyalətində 19.395 mükəlləfiyyətli ailə başçısı və hər ailə isə orta hesabla beş nəfərdən götürüldükdə, əhalinin ümumi sayı təxminən 96.975 nəfərdən ibarət olmuşdur. Bu müəllif belə hesab edir ki, «Müfəssəl dəftər»də məlumatlar vergi mükəlləfiyyəti daşıyanları əhatə etdiyinə, hərbçilər, ruhanilər və onların ailə üzvləri nəzərə alınmadığına görə yuxarıda əhalinin sayı haqqında verilmiş rəqəm minimumdur, həqiqətdə isə əhalinin ümumi sayı 100 mindən çox olardı (23, s. 12-13). Bizə elə gəlir ki, möhtərəm H.Məmmədovun hesabladığı bu yekun rəqəmi də çox azdır. Belə ki, burada söhbət təkcə az sonra meydana çıxmış Qarabağ xanlığının yox, bütün Qarabağ bəylərbəyliyinin əhalisindən gedir. Digər tərəfdən hər ailə 5 yox, ən azı 5,5-5,6 nəfərdən götürülməlidir və nəhayət, üçüncüsü, müsəlman şərqində, o cümlədən Azərbaycanda vergi verən və vergidən azad əhalinin nisbəti 3:1 ilə 5:1-ə nisbəti «Müfəssəl dəftər»də yalnız Şəmkürbasan və Böyük Kürəkbasan nahiyələrində 25 kəndin qeyri-müsəlman kəndi olduğu göstərilir. Qeyri-müsəlmanların çox böyük əksəriyyətini isə XVIII əsrdə də albanlığını unutmamış xristian əhalisi təşkil edirdi (23, s.13).

Çarizmin idarəçiliyi dövründə yazılmış və onun ideologiyası ilə səsləşən «Qarabağnamələr»də isə Qarabağ xanlığında demoqrafik proseslər, xüsusilə əhalinin sayı öz əksini tapmamış, ancaq əhalinin etnik tərkibi ilə bağlı fraqmentar xarakterli məlumatlara təsadüf edilir ki, bunların təhlili əsasında əhalinin etnik tərkibi və etnik tərkibdə müəyyən hərbi-siyasi tarixi hadisələrlə bağlı baş vermiş dəyişiklikləri qismən də olsa izləmək mümkündür.

Nadir şahın dövründə Qarabağ əyalətində əhalinin etnik tərkibində baş vermiş dəyişikliklər «Qarabağnamələr»də təsviri səpkidə öz əksini tapmışdır. Bu barədə Mirzə Adıgözəl bəy yazır ki, Nadir şah «Qazax və Borçalı ellərini öz xanları ilə bərabər Gürcüstan əmirlərinə və uca mərtəbəli valinin hökmünə tabe etdi. Cavanşir, Otuziki və Kəbirlidən ibarət olan Qarabağ elləri haqqında da, icrası vacib olan fərman çıxdı ki, onları köçürüb Xorasanın Sərəxs torpağına aparsınlar... Xəmsə məliklərinə də əmr verdi ki, özünüzü tam azad sayın» (54, s.30). Nadir şahın əmrinə əsasən həyata keçirilmiş məcburi köçürmələr Qarabağ bölgəsi əhalisinin etnik tərkibinə qısa müddətə və qismən də olsa, öz təsirini göstərmişdi. Ancaq Qarabağ xanlığı meydana gəldikdən və onun qonşu dövlət qurumları ilə apardığı uğurlu savaşlardan sonra xanlığın əhalisinin etnik tərkibi, salnamədə qeyd olunduğu kimi, bura köçən yeni ellərin hesabına tam dəyişir. Belə ki, Naxçıvandan Kəngərli eli, Borçalıdan Dəmirçihəsənli və Cinlilərinin eli köçüb (54, s.36) Qarabağda yerləşməsi etnik strukturun güclü şəkildə türk-müsəlman əhalisinin xeyrinə dəyişməsinə səbəb olmuşdur. Dövrün sinxron salnamələrində hərbi-siyasi proseslərdəki miqrasiyalarla yanaşı Qarabağda lap qədim dövrlərdən yaşayan yerli əhali haqqında bir-birini tamamlayan və ya təkrarlayan materiallar az deyildir. Mirzə Adıgözəl bəy «Qarabağ vilayətinin əsl elatı, kənd əhalisindən başqa Cavanşir, Otuziki və Kəbirlilərdir» (54, s.36) dedikdə, sözsüz ki, burada o, «kənd əhalisi» adlandırdığı türk-müsəlmanların oturaq əkinçilər olmasını nəzərdə tutur ki, bu da heç bir şübhə doğura bilməz. Ona görə ki, onun əsərində albanlardan ibarət olan qeyri-müsəlmanlar haqqında ayrıca bəhs edilir (54, s.36, 37). Adları qeyd olunan ellərlə yanaşı, salnamədə Qarabağda məskun olan Qaraqoyunlu obasının (54, s.92) da adı çəkilmişdir ki, onların, yəni qaraqoyunluların Qaramanlı və Alpout ellərinin əski çağlardan Qarabağın yerli əhalisi olması bəlli bir həqiqətdir. F.Sümər haqlı olaraq yazır ki, bu gün Quzey Azərbaycanda, xüsusilə Gəncə və Bərdə bölgələrindəki Qaraman və Qaramanlı yer adları bu oymağa aid

xatirələrdir (78, c.I, s.27).

Pənah xanın Bayat, Şahbulaq və Şuşa qalalarını inşa etdirməsi və xanlıq dövründəki hərbi-siyasi hadisələr demoqrafik proseslərə təsirsiz qalmamışdır. Belə ki, bu sayaq irimiqyaslı və çoxsaylı tikinti bərpa işləri əhali artımı və hərbi-siyasi hadisələr isə bir qayda olaraq məcburi miqrasiyalarla müşayiət olunur. Məsələn, Bayat qalası inşa olunduqda, Mirzə Camalın yazdığı kimi, bura Təbriz və Ərdəbil vilayətlərindən xeyli rəiyyət və sənətkar ailələri ilə gəlib yerləşmişdilər (53, s.112, 116).

Mirmehdi Xəzaninin əsərində Qarabağ xanlığındakı evlərin (ailə təsərrüfatlarının) sayı haqqında məlumatda göstərilir: - «İbrahim xan mərhumun Qarabağda və sair vilayətlərin müti olanlarından əlavə, 35 minədək ev itaətində olub, 12 minədək dəftəri-məxsusi qoşunu var idi...» (53, s.199). Ancaq «Qarabağnamə»lərdə və dövrün digər mənbələrində, hələlik əhalinin sayımının keçirilməsi haqqında məlumatlara rast gəlmədiyimizə görə, müqayisəli təhlillərin aparılması mümkün olmamışdır. Mirmehdi Xəzaninin qeyd etdiyi 35 min evin (ailə - Y.H.) hər birinin orta hesabla beş nəfərdən ibarət olduğunu qəbul etsək, İbrahim xan dövründə Qarabağ xanlığında 175000 əhalinin olduğunu müəyyən etmiş oluruq. Fikrimizcə burada salnaməçi tərəfindən ya ixtiyarı mübahisəyə yol verilmiş, ya da qeyri ixtiyarı yanlışlıq edilmişdir. Ancaq onu da qeyd etmək lazımdır ki, XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərindəki hərbi-siyasi hadisələr, sözsüz ki, miqrasiyalara səbəb olmuşdur ki, nəticədə qısa zaman kəsiyində baş vermiş bu proseslər əhalinin sayına təsir etməyə bilməzdi. 1816-cı ildə İbrahimxəlil xanın oğlu Əbülfət ağa ilə 4 min ailə Qarabağı tərk etmişdir (103, s.112). «Qarabağnamələr»də rəsmi sayımların aparılması haqqında məlumatlar olmadığına görə, Qarabağ xanlığı əhalisinin XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərindən etnik strukturunun dəqiq müəyyənləşdirilməsi mümkün deyildir. Ancaq 1822-ci ildə Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən ləğv edilib, onun əyalətlərindən birinə

çevrilməsindən sonra əhali siyahıya alınmışdır. 1823-cü il siyahıyaalınmasına görə Qarabağ xanlığında əhalinin ümumi sayı 90.000 nəfər idi. Şəhər və kəndlərdə 18.563 ev vardı (114, s.22). Onun 17 mindən çoxunu isə Azərbaycan türk ailələri təşkil edirdi (103, s.112). Türkmənçay sülh müqaviləsindən sonra, məlum olduğu kimi, xaricdən Qarabağa ermənilərin kütləvi şəkildə köçürülüb yerləşdirilməsi və müharibələr zamanı Qarabağı tərk etmiş müsəlman-türk əhalisi öz doğma yurd yerlərinə dönmələri nəticəsində burada əhali artırdı. 1832-ci ilin kameral təsvirində Şuşada və Qarabağın 741 kəndi və obasında 20.546 ailə qeydiyyata alınmışdır. Bunun 13.965 ailəsi müsəlmanların, 6.491 ailəsi isə ermənilərin, çox cüzi hissəsi isə qaraçıların payına düşürdü (120, h.III, s.267).

Qarabağ xanlığının çox zəngin təbii-coğrafi şəraiti əhalinin təsərrüfat fəaliyyətinin çoxsahəliyinə geniş şərait yaradırdı. Lakin məhsuldar qüvvələrin və istehsal vasitələrinin istənilən səviyyədə inkişaf etməməsi təsərrüfat sahələrinin yüksələn xəttə artımını ləngidirdi. Bu isə orta əsrlər üçün təbii idi. Bütün bunlara baxmayaraq xanlıqda məhsuldar qüvvələr, ləng də olsa, inkişaf edirdi.

Qeyd olunduğu kimi, «Qarabağnamələr» faktiki materiallar və qiymətli məlumatlarla zəngin olub, Qarabağ xanlığının tarixinin öyrənilməsi üçün əvəzolunmaz əsərlərdir. Ancaq Rzaqulu bəy Mirzə Camal oğlunun əsəri istisna olmaqla qalan «Qarabağnamələr»də Qarabağın təbii-coğrafi şəraiti haqqında müfəssəl məlumatlara təsadüf edilmir. Dövrün ədəbiyyatlarında, Qarabağın təbii-coğrafi şəraiti haqqındakı pərakəndə və müxtəsər məlumatları ümumiləşdirərək təhlil edən M.M.Mustafayev yazır ki, "Qarabağ xanlığında cənub-qərbdən şimal-şərqə qədər çoxlu dərin və dayaz dərələr vardır. Dərələrin bəziləri sıldırım olduğuna görə təsərrüfat üçün yararlı deyildi. Ərazinin dağlıq və aran hissəsinin iqlim şəraiti imkan yaradırdı ki, əhalinin əksəriyyəti taxılçılıq, əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq, üzümçülük, baramaçılıq və digər təsərrüfat sahələri ilə məşğul olsun" (114, s.23).

Xanlığın üçüncü hissəsi (Aran) düzənlikdən və çöl sahələrindən ibarət idi. Dəniz səviyyəsindən 150-300 metr hündürlükdə yerləşən bu hissə əsasən, taxılçılıq, baramaçılıq və bağçılıq rayonu idi. Mil düzünü əhatə edən bu zonada iqlim quru idi. Deməli, burada təsərrüfatın inkişafı süni suvarma ilə sıx bağlı idi. Rzaqulu bəy Mirzə Camal oğlu yazır: «Qarabağın səhralarına gəldikdə demək olar ki, dağın ətəyindən, Arazın Xudafərin körpüsündən başlayaraq, Gəncə sərhədi və Cavad kəndinə qədər olan yerlərin hamısı Arazdan çəkilən arxların suyu ilə suvarılırdı» (67, s.246).

Xanlığın dağlıq bölgələri çoxlu böyüklü-kiçikli çaylar və təbii bulaqların olması ilə fərqlənirdi. "Xanlığın təsərrüfat həyatında Arazla yanaşı Tərtər çayının əhəmiyyəti böyük idi. Tərtər çayı uzun bir məsafədə Mirovdağ dağ silsiləsinin qollarından başlayaraq ona qovuşan kiçik çaylar hesabına gurlaşır, dərin dərələrlə sürətlə, düzən yerlərdə isə aramla axaraq Kür çayına tökülür. Xanlığın Aran zonasında Tərtər çayının suyu ilə 140-a qədər kəndin əkin sahələri suvarılırdı. Bərgüşad çayı Qarabağ dağ silsiləsinin qərb yamacları boyunca dərin dərələrlə axır və Araz çayına tökülür. Bu çay 33 kəndin torpaqlarını suvarırdı.

Xanlığın təsərrüfat həyatında Xaçın çayının əhəmiyyəti də böyük idi. Bu çay öz başlanğıcını Taxtabaşıdan götürür. 42 kəndin əkin sahələrini suvaran Qarqar, 22 kəndin sahələrini suvaran Bazarçay, 12 kəndin sahələrini suvaran Qapançay, 7 kəndin sahələrini suvaran Köndələnçay çayları da təsərrüfat üçün böyük əhəmiyyətə malik idi" (114, s.25).

Əksər yerlərdə Kür çayı hündür sıldırımlı sahillər, Araz çayı isə hündür qayalar arası ilə ensiz yataqla axır. Bu çayların suyu ilin fəsillərinə əsasən artır və azalır. Yazda Kür, Araz, Tərtər, Xaçın, Qaraqar, Bazarçay və başqa çayların suları artırdı ki, bu da ətraf kəndlər və digər yaşayış məntəqələri üçün təhlükə yaradırdı. Bu çaylar, xüsusilə də Kür və Araz çayları insanlar və əkin sahələri üçün böyük təhlükəyə çevrilirdi.

Qeyd edək ki, "Kür, Araz, Xaçın çayları balıqçılıq üçün

olduqca faydalı idi. Həkəri və Bərgüşad çaylarının mənsəblərində qızıl balıq, eyni zamanda su samuruna təsadüf olunurdu" (114, s.25).

Əkin sahələrini, bostan və bağları suvarmaqdan əlavə Qarabağ xanlığının su ehtiyatlarından, yəni iri və kiçik çayların sularından taxıl üyütmək üçün dəyirmanların işlədilməsində də geniş istifadə olunurdu. Şuşa şəhərinin yaxınlığında yerləşən Daşaltı və Şüşü kəndlərinin ətrafından axan Daşaltı çayının sol sahilində 8 su dəyirmanı fəaliyyət göstərirdi. Bu su dəyirmanları aşağıdan hərəkətə gətirilən çarxlar vasitəsi ilə işləyirdi. Xanlığın ərazisi çoxlu kəhrizlər, müalicəvi əhəmiyyətə malik olan İstisu və Turşsu mineral təbii bulaqlar da məşhurdur (114, s.25).

Xanlığın yerləşdiyi ərazinin relyefinin, topoqrafik və iqlim şəraitinin rəngarəngliyi torpaq, bitki və heyvanlar aləminin müxtəlifliyinə böyük təsir göstərmişdir.

Qarabağ xanlığının torpaq fondu müxtəlif idi. Xanlığın Aran ərazisində torpaq olduqca münbit idi. Bu ərazidə suvarma mühüm əhəmiyyət kəsb edirdi. Qaratorpaq sahələr suvarılmayan zonalarla əhatə olunmuşdu. Bu sahələr əvvəllər qalın meşəliklər olmuşdu. İqlimin mülayimliyinə görə bu ərazidə payızlıq buğda, arpa, pərinc, kətan və darı əkilib becərilirdi.

Qarabağ xanlığının bəzi rayonları sıx meşələrin geniş massivləri və məhsuldar bağlarla örtülü idi. Qarabağ xanlığının meşələri qiymətli və nadir ağac növləri ilə zəngin idi. Palıd, vələs, fısdıq, qovaq, sərv, şam, cökə, ağcaqayın, qarağac, qaraçöhrə və sair ağac növləri geniş yayılmışdı. Meşələrdə cır alma, armud, əla növ zoğal və digər meyvə ağacları da var idi. Meşələr həm də tikinti üçün əla material verirdi. Əhali meşələrdən yanacaq üçün də istifadə edirdi. Xanlığın sənətkarları meşə ağaclarından müxtəlif əşyalar düzəldirdilər (114, s.26) "Xanlığın florası kimi faunası da müxtəlif və zəngin idi. Zəngin meşələrin və çoxlu dağların olması, təbii yem ehtiyatların bolluğu burada heyvan və quşların yaşamasına şərait yaradırdı. Meşə və dağlarda çoxlu Qafqaz maralına, sığına, cüyürə, dağkeçisinə, ayıya, canavara, vəhşi qabana, çaqqala,

tülkiyə, bəbirə, dovşana və başqalarına rast gəlmək mümkün idi. Quşlardan qartal, qırqovul, çalağan, kəklik və digər növlər geniş yayılmışdı" (114, s.26). Ən nadir quş növü Qarabağ bülbülü idi. İndi onun nəsli kəsilmək üzrədir. Qırqovul, şanapipik və başqa quşlar da böyük dəstələrlə Qarabağın meşələri və çöllərində yaşayırdı. Yuxarıda göstərilən heyvan növlərindən əlavə xanlığın ərazisində süleysin, meşə pişiyi və kirpi də yaşayırdı.

Xanlığın yeraltı zəngin təbii sərvətləri uzun müddət istifadəsiz qalmışdı. Mis kolçedanı, əhəng daşı, mərmər və digər ehtiyatları, dulusçuluq üçün gil, qılınc və xəncər düzəltmək üçün işlədilən zəy burada hələ işğal dövründən əvvəl məlum idi (114, s.26). Tərtər ərazisində neft, Zod qızıl mədəni, qurğuşun yataqları öyrənilməmişdi. Qarabağ göllərindən şor duz hasil olunurdu ki, bundan da mal-qara üçün, habelə dabbaqxanalarda istifadə olunurdu. Çaylardan və göllərdən tutulan balıqları duzlamaq üçün Naxçıvandan gətirilən duzdan istifadə olunurdu.

Qarabağ xanlığının nəqliyyat yollarının vəziyyəti olduqca bərbad idi. Bu sahədə Qarabağ xanlığı Azərbaycanda, bəlkə də axırıncı yeri tuturdu. Ərazinin dağlıq xarakteri yolların çəkilişini çətinləşdirirdi (114, s.27). Texnikanın yoxluğu bu işi daha da mürəkkəbləşdirirdi. Mövcud yollar təmir olunmurdu. Onlar dar, əyri-üyrü və eniş-yoxuşlu idi. Yollar hərəkət üçün olduqca təhlükəli idi. Qış və yazda, habelə payızın yağışlı aylarında karvanlar yollarda olduqca çətin hərəkət edirdilər. Yollar torpaq olduğu üçün palçıq və su ilə dolan çalalarda hərəkət etmək olmurdu. Şuşa qalası və kəndlər bir-biri ilə çox vaxt əlaqə saxlaya bilmirdi. Bu səbəbdən də əmtəə-pul münasibətləri də zəif inkişaf edirdi. Daxili nəqliyyat xanlıq dövründə belə idi (120, h.III, s.265, 266).

Qarabağ xanlığında gediş-gəliş üçün cəmisi üç rahat yol var idi. Onlar barədə salnamə müəllifləri qısa da olsa məlumat vermirlər. Bu barədə M.M.Mustafayevin göstərilən dissertasiyasında da qeyd olunur (114, s. 26-27). Yollardan biri Gəncədən Şuşaya, digəri Şuşa qalasından Nuxaya, üçüncüsü isə Şuşadan Araz çayı vasitəsilə Xudafərin körpüsündən Güney

Azərbaycana və İrana gedirdi. 14 may 1805-ci il Kürəkçay müqaviləsinin 6-cı maddəsinə əsasən Rusiya imperiyası Gəncədən Şuşaya gedən yolun təmir olunmasını öz üzərinə götürmüşdü. Həsən bəy İxfa Əlizadə yazır: «Gəncədən Şuşaya gedən yol arabaların rahat getməsi üçün təmir olunmalıdır». O cümlədən «Cavad tərəfə yol lazım olsa, xan ücrəti ödənilməklə işçi verməli idi» (67, s.245).

Xanlıqda əsas nəqliyyat vasitələri eşşək, qatır, at və dəvə idi. Onların vasitəsilə xanlığın daxili və xarici əlaqələri, ticarəti həyata keçirilirdi.

Beləliklə, Qarabağ torpaqlarımız çox zəngin təbiətə, rəngarəng bitki örtüyünə, heyvanat aləminə malik idi. Etiraf olunmalıdır ki, bunlar, habelə xanlığın demoqrafik durumu salnamələrdə çox zəif əks olunmuşdur.

## 2.3. KƏND TƏSƏRRÜFATI, SƏNƏTKARLIQ VƏ TİCARƏT

Qarabağ xanlığının iqtisadiyyatında əkinçilik, maldarlıq və sənətkarlıq sahələri mühüm yer tuturdu. «Qarabağnamə» müəlliflərindən biri olan Rzaqulu bəy Mirzə Camal oğlu öz əsərinin **«Qarabağ vilayətinin torpağı və əyaləti haqqında»** fəslində Qarabağın təbii-coğrafi şəraitini təsvir etmiş, suvarma sistemi, əkinçilik və kənd təsərrüfatı məhsullarının becərilməsi haqqında da məlumatlar vermişdir. Bu diyarın məhsuldar torpaqları, bolsulu çayları, təbii sərvətləri, əvəzsiz ab-havası Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir Qarabağinin də diqqətini cəlb etmişdir.

Rzaqulu bəy Mirzə Camal oğlu yazırdı: «Doğrudan da Qarabağ vilayəti hər cəhətdən yer üzünün behiştidir. Qarabağ torpağının ab-havası, məhsulu və genişliyi gərək ki, yer ölçənlərin hesabı ilə yüksək Rusiya dövləti başçılarına

məlumdur. Qarabağın dağlıq yerləri və yaylaqları Göyçə sərhədlərindən tutmuş Ordubada qədər başdan-başa cənnətə bənzər çəmənlikdir. Yaylaq olmasına baxmayaraq burada qışda da mal-qara, qoyun saxlamaq olur... Rəiyyətlər qışda və yayda mal-qara və qoyun saxlayır və taxıl əkirdilər. Çox xoş dolanırdılar» (67, s.266; 120, s.265, 266). Müəllif Qarabağın dağətəyi və düzən ərazilərində suvarma sistemi haqqında müfəssəl məlumat verərək yazır: «Arazın Xudafərin körpüsündən başlayaraq Gəncə sərhədi və Cavad kəndinə qədər olan yerlərin hamısı Arazdan çəkilən arxların suyu ilə suvarılırdı. Bir tərəfdən Qarqar çayı, başqa tərəfdən isə Köndələn çayı axır. Köndələn çayından Qarqar çayının kənarında olan Qala təpəsinə qədər böyük bir arx vardır ki, su gəlib Qarqar çayına tökülür. Bu arxdan Cavad kəndinə qədər olan məsafə təxminən altı ağacdır ki, bu da 42 verst edir. Qarabağ torpağı çox mənfəətli və bərəkətlidir. Heç bir iqlim və məmləkətdə bu cür torpağın olduğunu eşitməmişəm» (67, s.246). Rzaqulu bəy Mirzə Camal oğlu yuxarıda adı çəkilən bölmədə 1801-1828-ci illərin işğalları nəticəsində Rusiya imperiyasının müstəmləkəsinə çevrilmiş Şimali Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ xanlığında iqtisadi inkişafa da diqqət yetirmişdir (67, s.246).

Qarabağ xanlığının iqtisadiyyatında əsas yeri kənd təsərrüfatı tuturdu. Onun aparıcı sahələri isə əkinçilik və heyvandarlıq idi. Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən istila edildiyi dövrdə xanlığın ümumi torpaq fondu təxminən 1.354.000, əkinəyararlı torpaq sahəsi isə 100.000 desyatinə bərabər idi. Qarabağ xanlığında adambaşına orta hesabla 1,1 desyatinə qədər əkinəyararlı torpaq sahəsi düşürdü (114, s.45). Belə qənaətə gəlmək olar ki, xanlıqda ümumi torpaq fondu ilə müqayisədə əkin üçün yararlı torpaq sahəsinin azlığı bir sıra obyektiv səbəblərlə bağlı idi. Əvvəla, xanlıq ərazisinin xeyli hissəsi meşə və kolluqlarla örtülmüş dağlardan və sıx qamışlıqlar basmış çöllərdən ibarət idi. Digər tərəfdən, bəzi əski su arxları bərpa olunmadığına və su bölgüsündəki çətinliklərə

görə əkinə yararlı olan torpaqların xeyli hissəsi istifadə olunmamış qalırdı. Onu da qeyd etmək lazımdır ki, xeyli hissəsi tərəkəmə-yaylaq-qışlaq həyat tərzi keçirən əhalinin əksəriyyəti əkinçiliyə, şumluq torpaq sahələrinin genişləndirilməsinə az maraq göstərirdilər.

Qarabağ xanlığı kəndliləri içərisində mövcud olmuş sosial-iqtisadi şəraitə gəldikdə isə qeyd olunmalıdır ki, xanlıqda aztorpaqlılıq geniş yayılmışdı. Əsas istehsal vasitəsi olan torpağın çox böyük əksəriyyəti kübar və ruhani feodalların ixtiyarında idi. İri torpaq sahibləri olan feodallar kəndlilər üzərinə ağır vergilər qoyur, onları ağır mükəlləfiyyətləri yerinə yetirilməyə məcbur edir, bununla da kəndli üçün gərgin, bəzən hətta çıxılmaz şərait yaradırdılar. Dağlıq ərazidə kəndli əməyi daha çətin idi. Adicə yeri şumlamaq böyük problem yaradırdı. Bu vəziyyətdən yaxa qurtarmaq məqsədilə kəndlilər yumşaq torpaq sahələrinə daha çox can atırdılar. Ona görə ki, xış, kotan, bel və digər sadə kənd təsərrüfatı alətləri ilə yumşaq torpaq sahələrini dağlıq sahələrdə yerləşən torpaqlara nisbətən, daha asan şumlamaq və becərmək olardı. Düzənliklərdə isə suvarma suyunun çatışmaması problem yaradırdı. "Məhsuldarlıq üçün yalnız torpağın münbitliyi yox, onun suvarılması mühüm yer tuturdu. Xanlığın ərazisindəki çayların çoxu dərin dərələrlə axdığından onlardan suvarma məqsədi ilə istifadə çox müşkül iş idi. Yuxarılarda, dağ yamaclarında və düzən yerlərdə yerləşən əkin sahələrinə suvarma kanalları çəkmək olduqca çətin idi. Bir sıra kanallar - Əlif arxı, Xan arxı, Rəkkar, Hüseynli, Taleh və başqa arxlar yerli torpaq sahiblərindən olan Rüstəm bəy tərəfindən alınaraq xüsusi mülkiyyətə çevrilmişdi" (114, s.46,47). Qarabağ feodalları Qarabağ düzündən keçən Govur arxını bərpa edə bilmirdilər. Quraqlıq dövründə su oğurluğu su növbəsi üstündə toqquşmalar (bəzən qanlı) geniş yayılmışdı.

Əkinçilərin istifadə etdikləri əmək alətləri sadə və primitiv alətlər olub xış, kotan, kətmən, dırmıq, oraq, dəryaz və sairədən ibarət idi. Dağlıq ərazidə torpağı şumlamaq olduqca çətin idi. Dəmir kotan əsasən iri feodal təsərrüfatlarında tətbiq

olunurdu. Texniki gerilik, torpağın istənilən səviyyədə əkilib-becərilməməsi, quraqlıq, çəyirtgə, baş verən müharibələr əkinci üçün ciddi problemlər yaradırdı. 1832-ci il məlumatına görə, bir gün ərzində əkinçi kotanla düzənlikdə 0,5 desyatin, dağlıq yerlərdə 0,5 desyatindən az torpaq şumlaya bilirdi. Xışla əkilən ərazilərdə məhsuldarlıq daha az idi. 1 desyatin (bir desyatin - 1,092 hektara bərabərdir - Y.H.) becərilən torpağı xışla 2-3 günə şumlamaq olardı. Torpağı şumlamaq üçün kotana bəzən 6 cüt camış, ya da 2 cüt camış və 6 cüt öküz qoşulurdu. İş heyvanlarını idarə etmək, kotanı palçıqdan təmizləmək, onu təmir etmək, iş heyvanlarını otarmaq üçün 7-8 adam tələb olunurdu. Xışla torpağı şumlamaq üçün 1 camış - kəl, ya 2 cüt öküz və ya da 1-2 adam tələb olunurdu (114, s.46-47).

Torpaq şumlandıqdan sonra ağır dırmıq ilə əkin sahəsi malalanırdı. Biçilmiş taxıl alt hissəsinə çaxmaq daşları bərkidilmiş 2-3 vəllə xırmanda döyülürdü. Vəllərin üstünə ağır daş qoyulurdu. Vəllə taxıl döyülən zaman vələ at, öküz və ya ulaq qoşulurdu. Vəli, adətən, oğlan uşağı idarə edirdi. Biçinçilər taxıl zəmilərini çin və ya oraqla biçirdilər. 1 desyatin taxıl sahəsini 2 biçinçi 2-3 günə biçə bilirdi. Ot biçilən zaman biçinçilər dəryazdan istifadə edirdilər (114, s.47-48).

Mirzə Camal bəy öz əsərində Qarabağ xanlığında suvarma arxlarının təsərrüfat həyatında oynadığı roldan geniş bəhs edir. O, Bərlas arxının təsərrüfatda əhəmiyyətindən danışarkən yazırdı: - «Doğrudan da bu, böyük faydalı bir arxdır. Bu arxın suyu ilə suvarılan əkin yerlərində taxıl, çəltik, pambıq, ipək bağları və başqa hər cür bitki əkilərsə, bol məhsul əldə etmək olar. Belə ki, bir çətvər buğdadan iyirmi çətvər, hətta ondan daha artıq məhsul yığmaq olar. Xüsusilə buranın çəltiyi və darısı bol olur. Əgər bu bitkilərdən bir çətvər əkilərsə, təxminən əlli çərtvər, hətta ondan daha artıq məhsul əldə etmək olar. Bitkilərin əkilməsi də asandır. Belə ki, bu işi iki baş öküzlə asanlıqla görmək olar. Əgər bu arxdan lazımi qayda ilə istifadə olunsa, onun ətrafında beş-altı min ailəlik kəndlər salıb, rahatlıqla yaşamaq olar. Bu böyük arxdan başqa, Araz çayından

çəkilmiş daha bir neçə arx vardır. Əgər hər arxın ətrafında yüz-iki yüz ailəlik böyük kəndlər salınarsa, əhali taxıl, çəltik və pambıqdan bol məhsul götürüb yaşaya bilər. Pənah xan və İbrahim xanın hökmranlığının ilk illərində bu arxlardan istifadə olunur və xanlar onların gəlirlərindən xeyli mənfəət əldə edirdilər. Arxların adları belədir: - **«Kürək arxı, Luvar arxı, Meymənə arxı, Gəmiçi arxı, Sarı arxı, Ayaz arxı, Taşqay arxı, Xan arxı»** (114, s.108,109). Beləliklə, salnaməçi sonuncu ikicə cümlə ilə Qarabağ xanlığında suvarma sisteminin canını təşkil etmiş arxları və qısaca onların xanlığın sosial-iqtisadi həyatında oynadıqları rolu çox dəqiq təsvir etmişdir.

Mirmehdi Xəzani və Rzaqulu bəyin əsərlərində Qarabağ xanlığının dağətəyi və düzənlik ərazilərində əkinçilik təsərrüfatının başlıca özülü olmuş su arxları haqqındakı materiallar məzmununa görə, Mirzə Camalın bu barədə verdiyi məlumatlardan ciddi şəkildə fərqlənmir (53, s.102; 67, s.206). Rzaqulu bəyin yazdığına görə, hələ VI əsrdə Araz çayından çəkilmiş və qədim tarixlərdə Barlas, sonra isə Govurarx adı ilə məşhur olan bu böyük arxla «altı ağaclıq» məsafədə ərazi suvarılmış, bu arx «monqolların Azərbaycan yürüşlərinə qədər abad» olmuşdur. Müəllifin qeydlərindən belə məlum olur ki, xanlıq dövründə Govurarx dağılmış, ancaq Araz və Qarqardan çəkilmiş digər kiçik arxlar fəaliyyət göstərmişdir (67, s.206, 207).

Lakin yuxarıda adları çəkilən arxlar, Rusiya-İran müharibələri zamanı hərbi əməliyyatlar nəticəsində və baxımsızlıq üzündən yararsız hala düşmüş, təsərrüfat əhəmiyyətini itirmişdilər.

Qarabağda xanlıq dövründə 20.546 ev, 4000 xış və kotan, var idi (114, s.48). Əkinçiliklə məşğul olmayanların sayı az olsa da (tərəkəmə maldarlığı ilə məşğul olanların müəyyən hissəsi, tacirlər, sənətkarlar, ruhanilər), bu işlə məşğul olanlar mükəmməl kənd təsərrüfatı alətləri və lazımi cins taxıl toxumları ilə təmin olunmamışdılar. İş heyvanı və əmək alətləri olmayan kasıb kəndli varlı qonşusundan məhsulun şərtləşdikləri hissəsini ona vermək hesabına (işləyib ödəmə yolu) ondan

torpaq, iş heyvanı və əmək alətlərini icarəyə götürürdü. Qarabağ xanlığında yardarlığın müxtəlif növləri inkişaf edirdi. İmkanı olmayanlar öz torpaqlarını icarəyə verir, ailələrini, ev-eşiklərini tərk edərək, qazanc dalınca başqa yerlərə kəsbkarlığa gedirdilər. Mövsümü iş və yoxsulluq artırdı. Xanlıqda aqronomiya elmi də zəif idi. Kənd təsərrüfatının təşkilində elmi yeniliklərin tətbiqindən söhbət belə gedə bilməzdi. Bu sistemdə də sadə üsullardan istifadə olunurdu. Torpağa verilən gübrə kül və heyvan peyinlərindən ibarət idi. Torpağı qüvvətləndirmək, məhsuldarlığı artırmaq üçün əkilən torpaq sahələrinin müəyyən hissəsi dincə də qoyulurdu. Dincə qoyulan torpaq sahələrindən otlaq, biçənək üçün istifadə olunurdu.

Qarabağ xanlığının tarixində saysız-hesabsız kütləvi fəlakətlər - müharibələri, yoluxucu xəstəliklər, soyğunçuluq, quraqlıq, çəyirtkələrin basqınları və sair iqtisadi inkişafa ağır təsir göstərirdi. Xırda kəndli təsərrüfatı sahibindən gərgin əmək tələb edirdi. Xanlığın Aran hissəsində quraqlıq, bəzən fasiləsiz yağan yağışlar, habelə güclü dolu, dağlıq hissədə isə çəyirtkə ilə mübarizə əhalini təngə gətirirdi.

Mirzə Camal yazır ki, üç il dalbadal Qarabağda taxıl və sairə əmələ gəlmədi, tam qıtlıq, bahalıq baş verdi; hətta o vaxtın pulu ilə bir çətvər buğdanın qiyməti 45 manata qalxmışdı (55, s.126).

Qarabağ xanlığında xanın özünün də geniş əkin sahələri var idi. Bu torpaqların bir hissəsi xanın qoşqu heyvanları və rəncbərlərin əməyi ilə becərilirdi. Xanın Məlikarx sahəsi ildə 15 min pud taxıl verirdi (90, c.VI, s.2). Lakin bu heç də həmişə belə olmurdu. Təbii fəlakətlər, xüsusilə də müharibələr əkin sahələrini məhv edirdi. Xanlıq Rusiya imperiyası tərəfindən istila edildikdən bir il sonra, 1806-cı ildə buradan cəmi 800 pud taxıl yığılmışdır ki, bu da işğaldan əvvəlki illərə nisbətən təxminən 20 dəfə az idi. Qarabağda təsərrüfat tənəzzülünün səbəblərinə diqqət yetirmiş rus generallarından biri bu vəziyyətlə əlaqədar olaraq 1812-ci ildə yazırdı: «Qarabağda düşmənlər o qədər talan və dağıntılar törətmişdilər ki, burada

çox az adam qalmışdır» (89, c.V, s. 116).

Qarabağ xanlığı üzrə taxıl yığımı haqqında məlumatımızın bir hissəsi XIX əsrin əvvəllərində «Qarabağ xanlığının təsviri» külliyyatına əsaslanır. Bu məlumatlar nə «Qarabağnamə»lərdə, nə də M.M.Mustafayevin göstərilən dissertasiyasında yoxdur.

Xanlığın işğalından sonrakı dövrdə Qarabağ xanlığında bir ildə təxminən «180 min çətvər buğda və 135 min çətvər arpa» məhsulu əldə edilirdi. (120, h.III, s.23, 24).

XIX əsrin 20-ci illərinin sonunda keçmiş Qarabağ xanlığının ərazisində hər il 1650000 pud buğda, 1072000 pud arpa, 253325 pud çəltik, 135 min pud darı yığılırdı (120, h.III, s.282-284).

Yuxarıda göstərilən rəqəmlər Qarabağ xanlığında taxılçılığın müxtəlif sahələrinin inkişaf miqyası haqqında təsəvvür yaratmağa kömək edir, kənd təsərrüfatının kifayət qədər yüksək dərəcədə inkişaf etdiyini göstərir. Hesablamalar göstərir ki, bu dövrdə hər il adambaşına düşən müxtəlif taxıl məhsulunun ümumi çəkisi 18-20 pud arasında tərəddüd edirdi ki, bu da həmin tarixi mərhələ üçün kifayət qədər yüksək göstərici hesab olunmalıdır. Qarabağ xanlığında yetişdirilən məhsulu yığmaq üçün əlavə işçi qüvvəsi tələb olunurdu. Məhsulu itirməmək üçün əlavə muzdlu biçinçilər tutmaq, bu isə əlavə rəncbərlər cəlb etmək lazım gəlirdi.

Bütün bu məsələlər barədə tarixi mənbələrdə çoxsaylı məlumatlar var. Muzdla tutulmuş biçinçi biçdiyi çəltiyin 1/15-ni, buğda, arpa və darı məhsulunun isə 1/10-ni alırdı. Taxıl biçini, pambıq yığımı dövründə Qarabağda çox adam kəsbkarlıq edir, dağ və dağətəyi kəndlərin yoxsulları qazanc dalınca aran bölgələrinə enirdilər. Bundan əlavə Cənubi Azərbaycanın sərhəd rayonlarından, Qaradağ kəndlərinə çoxsaylı kəsbkar axışırdı.

Mirzə Camal Qarabaği, Mirmehdi Xəzani, Rzaqulu bəy əsərlərində əkinçilik təsərrüfatında əmək məhsuldarlığının süni suvarma sistemi ilə bağlılığını xüsusi qeyd edərək bildirirlər ki, su arxları bərpa edilib taxıl, darı, çəltik, maş, pambıq, bostan

bitkiləri, küncüt, tut ağacları əkilərsə, bol məhsul əldə etmək olar (55, s.109; 53, 101; 67,207). «Qarabağnamə»lərdəki bu mülahizələr əsasında Qarabağda əski çağlardan bəri əkilib becərilən kənd təsərrüfatı bitkilərinin çeşidləri haqqında müfəssəl məlumat əldə etmək olar. M.M.Mustafayev «Qarabağnamə»lərdəki bu məlumatları dövrün mötəbər ədəbiyyatlarındakı faktiki materiallarla müqayisəli şəkildə təhlil edərək yazır ki, Qarabağ xanlığında dənli bitkilər (buğda, arpa, çəltik, darı və pərinc), lifli (pambıq və kətan) və yağlı bitkilər (kətan, küncüt və gənəgərçək) əsas əkinçilik bitkiləri idi. Xanlığın kənd təsərrüfatında texniki bitkilərdən tütünün becərilməsi də mühüm yer tuturdu (114, s.50; 120, h.III, s.281, 282).

1822-ci ilin məlumatına görə, Qarabağ xanlığında hər il orta hesabla təxminən 2200 çətvər buğda, 11000 çətvər arpa, 2250 çətvər çəltik, 400 çətvər darı, 250 çətvər pərinc, 550 çətvər pambıq, 50 çətvər kətan, 5 çətvər küncüt 7 batman gənəgərçək əkilirdi. Təxmini hesablamalara görə xanlığın orta illik məhsul yığımını 220000 çətvər buğda, 143000 çətvər arpa, 33750 çətvər çəltik, 26000 çətvər darı, 1750 çətvər pərinc, 400 çətvər kətan, 1100 çətvər pambıq, 50 çətvər küncüt təşkil edirdi. Burada həmçinin ildə təxminən 3200 pud mahlıc, 450 pud tütün, 56 pud gənəgərçək yağı istehsal olunurdu (114, s.50).

Yuxarıda adları qeyd olunan kənd təsərrüfatı bitkilərinin becərilməsi başlıca gəlir mənbələrini və xanlığın iqtisadiyyatının əsasını təşkil edirdi. Qarabağ tarixini qələmə almış müəlliflər xanlığın iqtisadi həyatını təsvir edərkən faktlara sistemli statistik məlumatlara deyil, daha çox şəxsi müşahidələrə, gördükləri, dinlədikləri müşahidələrinin söhbətlərinə, ümumi təsvirlərə arxalanmışdılar. Elə buna görə də «Qarabağnamə»lərdəki məlumatlarla xanlığının iqtisadi həyatının hərtərəfli araşdırılıb öyrənilməsi mümkün deyildir. Bu problemin öyrənilməsində XIX əsrin əvvəllərinin statistik və digər mənbələri xüsusi əhəmiyyət kəsb edir. Lakin çox təəssüf ki, Qarabağ xanlığı haqqında yazılan bir çox əsərlərdə də bu mənbələrdən kifayət qədər istifadə olunmamışdır.

Qarabağ xanlığının iqtisadiyyatında ipəkçilik təsərrüfatı da böyük rol oynayırdı. 1832-ci il məlumatlarına görə keçmiş Qarabağ xanlığı ərazisində 1600-ə qədər çəkillik var idi. Bu bağların çoxu xanlıqda hakim zümrəyə məxsus idi. Məsələn, İbrahimxəlil xana Hindarxında 26, Doyran kəndində Cəfərqulu ağaya 12 çəkillik məxsus idi. Ümumi barama məhsulu Qarabağ xanlığında ildə təxminən 1700 pud təşkil edirdi (114, s.51; 120, h.III, s.291, 292).

Qarabağ əyalətinin təsvirindəki müvafiq cədvəllərdə göstərildiyi kimi, əsas baramaçılıq kəndləri Mehri, Güney, Çaundur, Bərguşad, Dizax, Cəbrayıl, Arasara, Vərəndə, Otuziki, Kəbirli, Cavanşir, İyirmidörd, Ciləbirt idi. Xanlığın lazımi qədər barama qurdu ilə təchiz olunmuş hər bağı ildə 6 batman, bəzən isə dörd və daha az - iki batman barama verirdi. XIX əsrin əvvəllərində xanlıqda iki yüzə qədər toxmacar bağı var idi və orta illik barama istehsalı 1700 puda bərabər idi (122, s.51).

Xanlıqda əksəriyyəti aran hissədə yerləşən yüzə qədər iri meyvə bağı var idi. Qarabağ xanlığının bağlarında əsasən tut, armud, ərik, şaftalı, nar, heyva, əncir, gilənar və zoğal ağaclarından becərilirdi. Xanlığın ərazisində gavalı, alça, qoz, fındıq da yetişirdi. Külək tutmayan yerlərdə gilas yetişdirilirdi (122, s.51).

1832-ci ildə keçmiş Qarabağ xanlığında ərazisində həm də əksəriyyəti kiçik olan 3080 üzüm bağı var idi (114, s.52; 120, h.III, s.295).

Qarabağ xanlığında bostançılıq da kifayət qədər geniş intişar tapmışdır. Bostanlarda qarpız, yemiş, xiyar, balqabaq, qarğıdalı, günəbaxan, noxud, istiot, soğan, sarımsaq, kələm və sair yetişdirilirdi. Tərəvəzçilik də geniş yer tuturdu. Hər il Qarabağ xanlığında bostan məhsulları becərmək üçün 200-220 desyatin torpaq sahəsi ayrılırdı (122, s.51).

Qarabağ xanlığında iri meyvə bağları xana, xan nəslindən olanlara və bəylərə məxsus idi. Ağdamda Qarabağ xanına yeddi bağ - Güllü bağ, Ərikli bağ, Kətan bağı, Çirayuş bağı, Bala bağ, Barlı bağ və Narlı bağ məxsus idi. Sonuncu iki bağ istisna

olmaqla qalanları xan tərəfindən iltizama verilirdi. Xanların ata-babalarının dəfn olunduqları Barlı bağ və Narlı bağın bütün məhsulu Pənahəli xanın vəsiyyəti üzrə satılmır, xeyrat, ehsan kimi havayı camaata paylanılırdı. Bağbanlar kəndindəki iri meyvə bağları da xana məxsus idi. Kəndin adamları bu bağları becərməyə, qorumağa və səliqəli saxlamağa borclu idilər. Bağbanlar kəndində xan sarayı, at tövləsi, hamam, buzxana və başqa tikililər var idi. Feodalların bostanları da kəndlilər tərəfindən becərilir və qorunurdu. İbrahimxəlil xana məxsus olan Hindarxı kəndindəki bostanlardan kəndin sakinləri hər il xana 50 tay qovun-qarpız gətirirdilər.

Qarabağın təbii-coğrafi şəraitindən asılı olaraq əkinçilik və maldarlıq bir-birini tamamlayan, biri digəri üçün baza olan təsərrüfat sahələri rolunu oynayırdı. Xanlıq dövründə Qarabağın elat adlanan əhalisinin hərbi mükəlləfiyyəti ilə əlaqədar vergilərdən azad edilməsi, bu əhalinin müəyyən təsərrüfat sərbəstliyinə malik olması, burada maldarlığın inkişafına çox böyük zəmin yaratmışdı (34, s.22, 25). Təəssüflər olsun ki, «Qarabağnamə»lərdə xanlıq ərazisindəki mal-qaranın sayı haqqında müfəssəl məlumatlar yoxdur. Doğrudur, Mirzə Camal yazır: «Xanın yaxşı atları, heyvanları və çoxlu ilxısı vardı... İbrahim xanın atlarının çoxu mərhum Nadir şahın atları və ilxılar cinsindən idi. Təqribən üç-dörd min və bəlkə daha çox balalayan madyanı, xüsusi cins ayğırları vardı. Xüsusi qoyun sürüləri, malı, camışı o qədər çox idi ki, saymaqla qurtarmırdı» (55, s.145). Bu məlumatlar o qədər də sistemli göstəriş olmasa da hər halda xanlıqda heyvandarlıq təsərrüfatının ümumi vəziyyəti haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Rzaqulu bəy Mirzə Camal oğlu da Qarabağ atlarının İran, Türkiyədə şöhrət tapdığını, xanın ilxısının sayının ayğırlardan savayı, 3500-dən çox doğar madyandan ibarət olduğunu qeyd etmiş (67, s.243), ancaq onun mal-qara və qoyunun sayı haqqında məlumat verməmiş, çox olduğunu bildirməklə kifayətlənmişdir.

«Qarabağnamə»lərdə atçılıq təsərrüfatının bəzi məsələ-

lərinə ətraflı şəkildə toxunulur. Bu qaynaqlara əsasən iddia etmək olar ki, xanlıqda atçılıq təsərrüfatın mühüm sahələrdən biri idi. Bütün Cənubi Qafqazda Qarabağ atları cinsi, yaraşığı, dözümlülüyü, yüngüllüyü və qaçışı ilə şöhrət qazanmışdır. İngilislər bu atları hind süvari qoşunu üçün alırdılar. Qarabağ atları qızılı rəngi və gözəl forması ilə fərqlənirdi (114, s.53).

Məlumdur ki, at bütün dövrlər üçün sərfəli nəqliyyat növüdür. Fasiləsiz feodal müharibələri və basqınları zamanı at minik vasitəsi kimi döyüşlərdə əvəzedilməz rol oynayırdı. Atdan Qarabağ xanlığında nadir hallarda (əsasən xırmanlarda dərzlər döyülərkən - Y.H.) kənd təsərrüfatı işlərində istifadə olunurdu.

1832-ci ildə Qarabağ əyalətində 250 ayğırı və 1400 madyanı olan 11 atçılıq zavodu var idi. Satış üçün atların yetişdirilməsi ilə iri feodallar məşğul olurdular. Onlar çoxlu sayda madyan yetişdirir və onlardan alınan balaları satışa verirdilər. 1831-ci ildə Qarabağda bir atın qiyməti 30 çervondan 300 çervona qədər idi (120, h.III, s.296) ki, bu da öz dövrü üçün kifayət qədər böyük məbləğ idi.

1832-ci ilin məlumatına görə Qarabağ əyalətində iribuynuzlu mal-qaranın sayı 100 min, xırdabuynuzlu (qoyun və keçi) mal-qaranın sayı isə 300 min baş idi. Bunlardan başqa burada 20.000 at, 2200 eşşək, 100 dəvə var idi. Donuzçuluqla xristian əhali məşğul olurdu. Mal-qaranın çox hissəsi xana, bəylərə, ağalara, varlı kəndlilərə və sadə elat camaatına məxsus idi (114, s.52). Ayrı-ayrı kəndli ailələrinin də mal-qarası var idi. Mal-qara əsasən qışlaq və yaylaq şəraitində bəslənilirdi.

Dəvəçilik xanlıqda o qədər də geniş yayılmamışdı. Xanlıqda həmçinin müəyyən qədər qatır var idi (114, s.54).

Yaylağa gedərkən və geri qayıdarkən mal-qara, otlaqlarda olduğu kimi, cinsinə və yaşına görə dörd sürüyə bölünürdü. Naxır adlandırılan hər bir yaşlı və cavan iribuynuzlu mal-qara sürüsü 250-400 baş heyvandan ibarət idi. Onları «naxırçı» adlandırılan iki nəfər çoban otarırdı. At, dəvə, eşşək və qatır ayrıca, ya da iribuynuzlu mal-qara ilə birlikdə otarılırdı. İkinci

sürü, 70-100 baş inək və camış balalarından (dana, buzov və balaq) ibarət idi. Onları «buzovçu» adlandırılan iki çoban otarırdı. Üçüncü, «sürü» adlanan yaşlı və cavan xırdabuynuzlu heyvan sürüsü 400-600 başdan ibarət idi və onu iki çoban otarırdı. Nəhayət, sonuncu, 200-400 başdan ibarət olan quzu sürüsünü iki çoban-quzuçu bəsləyirdi (114, s.55).

İribuynuzlu və xırdabuynuzlu mal-qaranın südündən yağ, pendir, qaymaq və şor istehsal olunurdu. Qoyun yunundan ip əyirilir, gəbə, xalı, palaz, cecim, məfrəş, xurcun və başqa şeylər toxunur, keçə düzəldilirdi. Quzu yunundan şal toxunur, keçi dərisindən isə yük heyvanlarına palan tikmək üçün qalın meşin ip düzəldilirdi.

Qarabağ xanlığında quşçuluq və arıçılıq da xeyli yayılmışdı. Arıçılıq üçün Qarabağda son dərəcə əlverişli şərait var idi. Ancaq arıçılıqla az adam məşğul olurdu. Bu isə həmin məhsul üçün daxili bazarın olmaması ilə izah olunmalıdır. Bundan başqa, böyük qayğı tələb edən arıçılıq təsərrüfatı ilə məşğul olmağa əkinçi və maldar kəndlinin vaxtı olmurdu. 1832-ci ildə Qarabağ əyalətində 2500-ə qədər arı pətəyi var idi. İllik arıçılıq məhsulu təxminən 600 pud bal və 200 pud mum təşkil edirdi (114, s.56). Bu rəqəmlər varlığına cəmisi 10 il bundan öncə qəti son qoyulmuş xanlıqda bu təsərrüfat sahəsinin miqyası barəsində təsəvvür yaratmağa imkan verir.

Qarabağ xanlığında mövcud olan kəndlər sırf orta əsr kəndləri idi. Bütün tikililər kəndlərin hamısında təxminən eyni üslubda inşa edilirdi. Tərəkəmə maldarlar yaylaqlarda müvəqqəti mənzillərinin - alaçıqların üstünü keçə ilə örtürdülər. Qamış damlar çöl hissədən gillə, bəzən də palçıqla və peyinlə suvanırdı. Onların içəri hissəsi və oturacaq kecə, palaz, xalça, gəbə, heyvan dərisi ilə döşənirdi.

«Qarabağnamə»lərdə sənətkarlıq, onun sahələri, sənətkarların məskunlaşması, xan hakimiyyətinin bu sahəyə münasibəti və sair məsələlər barəsində xeyli məlumat var.

Rzaqulu bəy Mirzə Camal oğlu ətraf vilayətlərdən «... çoxlu sənət sahiblərinin öz ailələri ilə birlikdə gəlib...»

Bayat qalasında yerləşdiklərini, Mirzə Adıgözəl bəy isə burada «... hünərli ustalar, sənət sahibi və iş bilən memarların barı, hasar, burc və divar çəkdiklərini...» yazmış və Mirzə Camal Cavanşir də bu sənətkarların xanın yaxın adamları ilə birlikdə Şahbulaq qalasına köçürüldüyünü qeyd etmişdir (54, s.40; 55, s.113; 67, s.210). XVIII əsrin ikinci yarısında Qarabağ xanlığında kustar sənətkarlıq şəhər iqtisadiyyatı və məişətinin tərkib hissəsi kimi, əsasən xanlığın mərkəzi Şuşa şəhərində cəmləşmişdi. Şuşada daxili bazarın və ticarətin inkişafı bir-biri ilə qarşılıqlı surətdə bağlı idi. Çoxsaylı və mahir şəhər sənətkarları ilə yanaşı azsaylı kənd sənətkarları da kənd iqtisadiyyatında əvəzsiz rol oynayırdılar.

Qarabağ xanlığında kəndli ailələri taxıl üyüdür, çörək bişirir, barama qurdu bəsləyir, ipək əyirir, yun darayır, kətan və yundan müxtəlif parçalar toxuyur, tikinti materialları hazırlayır, tikinti işləri aparır, dəri aşılayır, şərabçılıqla, dulusçuluqla, dülgərliklə, dərziliklə, papaqçılıqla, dəmirçiliklə məşğul olur, əmək alətləri hazırlayır, iş heyvanları üçün müxtəlif əşyalar hazırlayırdı (114, s.60).

Qarabağ xanlığında toxuculuq geniş inkişaf etmişdi. Az qala hər bir kəndli ailəsində əyirici və toxucu dəzgahı var idi. Toxuculuq məhsulları əsasən ailənin özünün ehtiyacını ödəyirdi. Onlar xalça, palaz, cecim, məfrəş, yundan müxtəlif parçalar toxuyur, paltar tikir, yol üçün xurcun, çuval hazırlayırdılar. Yun corab, örkən toxunur və palan düzəldilirdi. Bunlarla bütün xanlıq kəndləri məşğul olurdu. Əsas xammal yun idi. 1832-ci ilin məlumatında deyilir ki, Qarabağ kəndlərində bu işlə 1200 adam məşğul olurdu. Həmin məhsulların bir qismi mübadilə olunurdu (114, s.61; 120, h.III, s.296), daxili və xarici bazarlara çıxarılırdı.

Qarabağ xanlığında istər ev və istərsə də kustar sənətkarlığın ən mühüm bölməsi xalçaçılıq idi. Xalçaçılıq Qarabağ xanlığının şərəfi və iftixarı sayılırdı. Bu bənzərsiz və yüksək keyfiyyətli Qarabağ xalçaları təkcə xanlığın ərazisində deyil, Azərbaycanın digər bölgələri və xaricdə də məşhur idi.

Qarabağ xalçaları naxışlarının gözəlliyi və əlvanlığı ilə bütün Cənubi Qafqazda ən qabaqcıl yerlərdən birini tuturdu. Xalçalar həm şəxsi ehtiyac, həm də satış üçün toxunurdu. Cehiz üçün isə xüsusi xalçalar toxunurdu.

Xalçaçılıq Şuşanın gənc şəhər kimi şöhrətlənməsində mühüm yer tuturdu. Şuşa xalçaları dünyada məşhur idi. Şuşa xalçaları bir qayda olaraq, azad bazar üçün, bəzən də sifarişlə toxunurdu. Şuşada ipək toxuculuğu da inkişaf etmişdi. 1832-ci ildə Şuşada 324 usta və fəhləsi, 132 dəzgahı olan 42 ipək toxuculuq müəssisəsi vardı. Bu müəssisələrdə dəsmal, örpək, dama-dama çadralar, şalvar və köynək tikmək üçün qırmızı parçalar toxunurdu (114, s.65).

1829-cu ildə Şuşa ipək toxuculuq müəssisələrinin illik istehsalı 740 ədəd dəsmal, 6100 metr qırmızı parça və 360 ədəd müxtəlif material təşkil edirdi. Şuşada ipək açmaq və çillə hazırlamaq üçün 16 işçisi olan 7 kələfaçan dəzgah var idi. Şuşada keyfiyyətli corab toxunurdu. Bu corablar Tiflisə də aparılırdı. Şuşada yaxşı papaqlar da hazırlanırdı. Dərisi Buxara, Şiraz və yerli dəridən olan papaqlar daha baha qiymətə satılırdı (114, s.65).

Şuşada pambıq parçalardan yalnız bez hazırlanırdı. Bu məqsdlə burada 80-ə qədər dəzgahı olan 28 sənətkarlıq müəssisəsi fəaliyyət göstərirdi. Həmin müəssisələrin illik məhsulu orta hesabla 80.000 xan arşını təşkil edirdi. (Qarabağ xan arşını 1,5 rus arşınına bərabər idi).

Qarabağ xanlığında boyaqçılığa da xüsusi əhəmiyyət verilirdi. Bu mürəkkəb və əziyyətli sənət sahəsi bir çox sənət və iqtisadiyyat sahələri ilə sıx bağlı idi. Yundan əyrilən iplərin, müxtəlif əşyaların və liflərin boyanması xüsusi xalq texnologiyasına əsaslanırdı. Bunun üçün müxtəlif bitkilərdən istifadə edilirdi. Boyalar bitkiləri qaynatma yolu ilə alınırdı. Məsələn, qoz ağacının yarpaqlarının və onun kal meyvələrinin, palıd qabığının, eyni zamanda gicitkən yarpaqlarının həlimi qara rəng, çəyirtkə kolunun üyüdülmüşü sarı rəng, nar qabığı tünd qəhvəyi, yabanı fındığın qabığı qəhvəyi, alma ağacının cavan

budağının qabığı açıq narıncı və sair rənglər verirdi. Boyaların alınma üsullarını sənətkarlar sirr kimi saxlayırdılar (114, s.61).

Qarabağ xanlığının bir sıra kəndlərində misgərlər və bənnalar geniş fəaliyyət göstərirdilər. Xanlığın soyuq silahlara olan ehtiyacının böyük bir hissəsini yerli sənətkarlar hazırlayırdılar. Misgərlər isə soyuq silahla yanaşı bəzi odlu silahlarda hazırlayırdılar. Tüfəng və tapança lülələri hazırlamaq işi ilə Çiləbörddə 1 usta, tüfəng süngülərinin hazırlanması ilə Vəng və Şişkirt kəndlərinin hərəsində 1 usta məşğul olurdu.

Kəndlərdə ustalar habelə dəryaz, oraq, çin, bel, balta, bıçaq, nal, mismar və başqa əşyalar hazırlayırdılar (114, s.62).

Qarabağ xanlığında dəri aşılanması da mühüm yer tuturdu. Bu işlə dabbaqlar məşğul olurdular. At dərisindən heç yerdə istifadə olunmurdu. Camış, öküz, inək dərilərindən çarıq, çəkmə, qoyun dərisindən papaq və kürk hazırlanırdı (120, h.III, s.296).

Xanlıqda olan 19 dabbaq emalatxanasında 40 nəfər fəhlə işləyirdi. Bu emalatxanalarda ildə çarıq üçün 2000 gön, 1600 qoyun, 1400 keçi dərisi aşılanırdı. Pambıq ipliyin, ipəyin və yunun boyanması üçün Şuşada cəmi 6 nəfər işçisi olan 3 boyaqxana var idi. Rəqabət olmasın deyə, onların birində göy rəngdə, qalan ikisində isə müxtəlif rənglərdə parçalar boyanırdı. Şuşada 40 adam işləyən 19 dəri zavodu fəaliyyət göstərirdi. Zavodların illik məhsulu 2000 altlıq gön, 1400-ə qədər keçi və təxminən 1600 qoyun dərisi təşkil edirdi. Şuşada yəhər-sərraclıq işləri daha yüksək səviyyədə təşkil olunmuşdu.

Dulusçuluq Qarabağ kustar sənətkarlığının ən qədim sahələrindən biri idi. Sakinlər süd, yağ, çaxır və digər ərzaq məhsulları saxlamaq üçün gildən küplər, kuzələr, bardaqlar və s. düzəldir, digər məişət əşyaları hazırlayırdılar. Kəndlərdə isə otaqları işıqlandırmaq məqsədilə gildən çıraqlar hazırlanırdı (114, s.62-63).

Qarabağ xanlığında ağac emalı sənəti olduqca geniş inkişaf etmişdi. Çanaxçı kəndi, hətta öz adını burada ağacdan hazırlanan qabın - çanağın adından götürmüşdü. Ağac emalı

üçün əsas xammal mənbəyi zəngin meşələrin olması idi. Ağacdan məişət və təsərrüfat ehtiyacları üçün lazım olan müxtəlif əşyalar - yaba, cəhrə, kürək, qaşıq, təknə, tabaq və digər şeylər düzəldilirdi. Eyni zamanda ağaclardan yüksək keyfiyyətli kömür də hazırlanırdı. Kömür satış üçün də hazırlanırdı (114, s.62-63).

Qarabağ xanlığında 470-dən artıq su dəyirmanı vardı. Yay və qış aylarında su çatışmadığı üçün bəzi dəyirmanların işi dayandırılırdı. Buna görə də yaz və payız yağışları dövründə əvvəlcədən un ehtiyatı hazırlanırdı. Üyüdülmə zamanı dəyirman sahibləri unun iyirmidə bir hissəsini alırdılar (114, s.63).

Qarabağ xanlığında 10 yağ zavodu, yaxud onların adlandırıldıqları kimi bəzirxana vardı. Sahibkarlar bu zavodlarda istehsal olunan yağın iyirmidə bir hissəsini alırdılar (114, s.63).

Qarabağ xanlığında iqtisadi həyatın mühüm sahələrindən biri də şərabçılıq idi. Şərabçılıqla bir para xristian kəndləri məşğul olurdu. Ona görə ki, İslam dini müsəlmanlara bu işlə məşğul olmağı qadağan edir. Müsəlmanlar şərab əvəzinə bəhməz və riçal istehsal edirdilər. 1832-ci ildə Qarabağda illik şərab istehsalı 70.000 vedrə, araq 3400 vedrə, bəhməz 4800 puda qədər təşkil edirdi. Şərab məhsulları və bəhməz Şuşaya da gətirilirdi (114, s.63).

Sabunbişirmə xanlığın əhalisinin kustar sənətkarlığında mühüm yer tuturdu. Bu işlə ev şəraitində qadınlar məşğul olurdular. Bişirilən sabun təsərrüfatın daxili ehtiyacına sərf edilir, nadir hallarda mübadilə olunurdu. Sabunbişirmə üçün əsas xammal iribuynuzlu heyvanın piyi, fısdıq tortası, ya da sabun daşı - «qara qan» idi. «Qara qandan», əhəngdən və sudan sabun bişirməzdən 6-8 gün əvvəl torta hazırlayırdılar. Sabun çuğun qazanlarda bişirilirdi. Xanlığın bütün əhalisinin tələbatı yerli kustar sənətkarlıq məhsulları hesabına ödənilirdi (114, s.64). Şuşada da sabunbişirmə orta səviyyədə təşkil olunmuşdu. Bu məhsulla həm şəhər və həm də ətraf kəndlərin sakinləri təmin olunurdular (114, s.65).

Qarabağın kustar sənətkarlıq istehsalının məhsullarına xanlıqda böyük ehtiyac var idi. Elə təkcə keçmiş xanlığın mərkəzi olan Şuşada 1823-cü ildə 1532, 1832-ci ildə isə 1698 ev (ailə) var idi. 1832-ci ildə Şuşada 5079 kişi cinsindən adam qeydiyyata alınmışdır. Şuşada müxtəlif millətlərin nümayəndələri yaşayırdı. Şəhərdəki ailələrin 80-85 faizi Azərbaycan ailəsi idi. Şəhərdə 56 bəy, 64 molla və seyid ailəsi var idi. 1823-cü ilin kameral təsvirinin məlumatına görə Şuşada 28 molla və seyid ailəsi, 9 xristian ruhani ailəsi var idi. XVIII əsrin sonunda isə Şuşa şəhərində 10 min əhali və əsrin sonunda isə 3073 ev 13957 nəfər əhali var idi (114, s.64). Bütün şəhər və kənd əhalisinin sənətkarlıq məhsullarına olan ehtiyacının çox böyük hissəsi yerli məhsullar hesabına ödənilirdi.

Şuşa şəhərində habelə 22 adamın işlədiyi 2 kərpic zavodu fəaliyyət göstərirdi. Hər min kərpic gümüş pulla 10 manat idi. Hər min kərpicə görə isə fəhlə sahibkardan gümüş pulla 70 qəpik alırdı (114, s.65).

Şuşa şəhərində barıt da hazırlanırdı. 1826-cı ildə Şuşa İran qoşunları tərəfindən mühasirə edildiyi vaxt bir gün ərzində 27 girvənkədən çox barıt hazırlanaraq müdafiəçilərə çatdırılmışdı.

Şuşada qızıl və gümüşdən zərgərlər bilərzik, toqqa, bəzək sancaqları, kəmər, sancaq, sırğa, tana, paltar üçün bəzək əşyaları düzəldirdilər. Mirzə Yusif Qarabağinin yazdığına görə, Pənah xan Şuşada sikkəxana tikdirmiş və bu sikkəxanada «pənahabad» adı ilə bir misqal vəznində sikkə zərb olunmuşdu. Bu sikkələrin bir üzündə Pənahabad, o biri üzündə «La ilahə illəllah və Muhəmmədun rəsulullah» sözləri yazılmışdı. «Pənahabad»ın altısı bir manat, səkkizi isə bir Qarabağ tüməni hesab olunurdu (58, s.18, 19).

Metal, ağac və daş üzərində döymə və naxışlar vuran usta və sənətkarlar öz işləri ilə şöhrət tapmışdılar.

Hər məhəllədə və evlərin həyətlərində çörək bişirmək üçün təndir var idi.

Şəhərin böyüməsi ilə əlaqədar olaraq xırda ticarət də

inkişaf edirdi, gözəl arxitekturaya malik olan bir çox tacir dükanları tikilmişdi. Ərzaq ehtiyatı, səbzəvat ticarəti ilə 44, dərman və boyaq ticarəti ilə 30 adam məşğul idi. Şəhərdə irimiqyaslı ticarətlə məşğul olan peşəkar tacirlər var idi. Şuşa şəhərinin ticarəti və sənətkarlığı haqqında aşağıdakı cədvəldə verilmiş məlumatlar bu barədə müəyyən təsəvvür yaradılmasına imkan verir (114, s. 66-67):

| Sıra № | Peşə sahələrinin adları | Hər bir sahədə çalışanların sayı | |
|---|---|---|---|
| | | İllər | |
| | | 1823 | 1832 |
| 1. | **DÜKANÇILAR (XIRDA TİCARƏT)** | 13 | - |
| 2. | Rəngsazlıq malları ticarətçiləri | 3 | - |
| 3. | Meyvəsatanlar | 16 | - |
| 4. | Çörək satanlar | 4 | 6 |
| 5. | Manufakturaçılar | 15 | 94 |
| 6. | Keçəçilər | 3 | 2 |
| 7. | Bənnalar-inşaatçılar | 8 | - |
| 8. | Kərpickəsənlər | 1 | - |
| 9. | Dabbaqlar | 6 | 9 |
| 10. | Boyaqçılar: | | |
| 11. | a) bez və qumaş boyayanlar | 5 | - |
| 12. | b) gödəkçə | 3 | - |
| 13. | c) göy və yaşıl rəng boyaqçılar | 2 | - |
| 14. | Dəmirçilər | 5 | 25 |
| 15. | Əllaflar | 4 | - |
| 16. | Yamaqçılar | 1 | - |
| 17. | Metaltökənlər | 1 | - |
| 18. | Qalayçılar | 4 | 3 |
| 19. | Rəngsazlar | 1 | - |

| Sıra № | Peşə sahələrinin adları | Hər bir sahədə çalışanların sayı | |
|---|---|---|---|
| | | İllər | |
| | | 1823 | 1832 |
| 20. | Musiqiçilər: | | |
| 21. | a) zurnaçılar | 1 | - |
| 22. | b) sazəndələr (simli alət) | 3 | - |
| 23. | Misgərlər | 9 | 6 |
| 24. | Qəssablar | 5 | - |
| 25. | Bıçaqdüzəldənlər | 3 | - |
| 26. | Silahqayıranlar: | | |
| 27. | a) soyuq silah (xəncər və qılınc) qayıranlar | 4 | 10 |
| 28. | b) odlu silah (lülə, sürgü, qundaq) qayıranlar | 5 | 12 |
| 29. | Mətnköçürənlər (xəttatlar) | 5 | 4 |
| 30. | Dülgərlər | 10 | 4 |
| 31. | Nalbəndlər | 4 | - |
| 32. | Çuldüzəldənlər | - | 1 |
| 33. | Dərzilər | 16 | 30 |
| 34. | Çəkməçilər: | 22 | |
| 35. | a) başmaq, çust və çarıq tikənlər | 1 | - |
| 36. | b) çəkmə və uzunboğaz çəkmə tikənlər | 21 | 44 |
| 37. | c) səndəl tikənlər | - | 2 |
| 38. | Zərgərlər | 7 | 12 |
| 39. | Sərraflar | 4 | - |
| 40. | Xarratlar | 4 | |
| 41. | Sərraclar: | 10 | |
| 42. | a) adi yəhər düzəldənlər | 7 | 10 |
| 43. | b) yük yəhəri düzəldənlər | 3 | 10 |
| 44. | Kababçılar: | | |

| Sıra № | Peşə sahələrinin adları | Hər bir sahədə çalışanların sayı | |
|---|---|---|---|
| | | İllər | |
| | | 1823 | 1832 |
| 45. | a) duru yemək hazırlayanlar (pitiçilər) | 1 | - |
| 46. | b) kabab hazırlayanlar (kababçılar) | 2 | - |
| 47. | c) Xaş hazırlayanlar | 2 | - |
| 48. | Dəlləklər | 14 | 3 |
| 49. | Saatsazlar | 1 | - |
| 50. | Papaqçılar | 17 | 24 |
| 51. | Təkləçi | 1 | - |
| 52. | Kürktikənlər | 1 | - |
| 53. | Zərgərlər | 1 | - |

Qarabağ xanlığında kustar sənətkarlıq sahəsinin istehsal texnikası və alətləri bütövlükdə inkişafın aşağı pilləsində idi. Bunlara baxmayaraq şəhər sənətkarlığı texniki-iqtisadi baxımdan kənd sənətkarlığından xeyli yüksəkdə dayanırdı. Kənd sənətkarlığı qapalı, natural xarakter, şəhər sənətkarlığı isə əksinə, əmtəə xarakteri daşıyırdı.

Şuşa kustar-sənətkarlıq müəssisələrinin həcmi nisbətən kiçik, bunlarda əmək məhsuldarlığı aşağı, istehsal texnikası primitiv, fəhlələrin sayı az (hər belə bir müəssisədə orta hesabla 3-4 nəfər çalışırdı) idi. Şuşada fəhlələr məvacibi natura, ya da pulla alaraq səhərdən axşama kimi çalışır, şagirdlər cüzi yemək üçün pulsuz işləyirdilər.

Qarabağ tarixinə həsr olunmuş 10-a qədər salnamənin heç birində Qarabağ xanlığının iqtisadi, sosial və mədəni həyatı istənilən səviyyədə əks etdirilməmişdir. Mirzə Adıgözəl bəy, Mirzə Camal bəy Cavanşir, Mirzə Yusif Qarabaği, Rzaqulu bəy Mirzə Camal oğlu, Əhməd bəy Cavanşir öz əsərlərinin əsas hissəsini Rusiya-İran müharibələrinin başlanmasına və gedişinə

həsr etməklə, digər mühüm iqtisadi və mədəni inkişaf sahələrini diqqətdən qaçırmışlar.

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Qarabağ xanlığında təsərrüfat əmtəə-pul xarakteri daşıyırdı. İstehsal olunan yeyinti məhsulları, geyim əşyaları yalnız daxili ehtiyacı ödəyirdi. Nadir hallarda istehsal artdıqda mübadilə olunurdu. Qarabağ xanlığının coğrafi şəraiti də daxili ticarətin inkişafına əngəl törədirdi. Yəni ərazinin xeyli hissəsinin dağlıq olması, rahat yolları və əlverişli nəqliyyat vasitələrinin az qala, demək olar ki, yoxluğu da ticarətin inkişafını ləngidirdi.

Şuşada ticarət münasibətlərinin inkişafı varlı adamların sayının tədricən artmasına böyük təsir göstərirdi. Xanlığın kəndlərində mübadilə ticarəti, binəkdarlıq əsas yer tuturdu. Heyvandarlıq, əkinçilik, bağçılıq və sənətkarlıq məhsulları əsas mübadilə malları idi. Kəndlərdə vergi və rüsum toplanılarkan möhtəkirlər və xırda tacirlər böyük fəallıq göstərirdilər. Xanlığın kəndlərində və köç yerlərində (yaylaq və qışlaqlarda) onlar parçanı, ipəkqurdu toxumlarını, duzu, meyvəni və sairəni ipəyə, xalçaya, mal-qaraya, əkinçilik və heyvandarlıq məhsullarına, dulusçuluq məmulatlarına dəyişirdilər. Möhtəkirlər və alverçilər çəkillikləri, üzümlükləri və başqa xammal qaynaqlarını öz əllərinə almağa çalışırdılar. Onlar lazım gəldikdə istər kəndlilərə, istərsə də feodallara borc mal və ya pul verirdilər.

Yuxarıda dediyimiz kimi, Qarabağ xanlığında daxili və xarici ticarətin mərkəzi, daha dəqiq desək, əsas dayaq nöqtəsi Şuşa şəhəri idi. «Qarabağnamə»lərdə Qarabağ xanlığının daxili və xarici iqtisadi əlaqələrinə o qədər də diqqət verilməsə də, Rzaqulu bəy Mirzə Camal oğlunun Şuşanın bazarının «xüsusilə Rusiya imperatorunun əbədi dövlətinin sayəsində həddindən ziyadə genişlənməsi» haqqındakı fikirləri (67, s.208) şəhərin vaxtilə xanlıq dövründə bütün Quzey Azərbaycan və Cənubi Qafqazda çox önəmli bir iqtisadi ticarət mərkəzi olmasından xəbər verir.

Bazar günlərində xanlığın Şuşaya yaxın olan kəndlərinin sakinləri öz istehsal etdikləri məhsulları satmaq və lazımi mallar

almaq məqsədilə Şuşaya axışırdılar. Bazarlar şəhərin daxilində və qala darvazalarının yanında təşkil olunurdu (114, s.71).

Şəhər ticarətində sənətkarlar, tacirlər, kəndlilər, feodallar, eyni zamanda da kənardan gələnlər iştirak edirdilər. Şuşada kənd təsərrüfatı, kustar sənətkarlıq məhsulları, mal-qara satılırdı. Şəhərin bazarlarında at, xırda və iribuynuzlu mal-qara, heyvandarlıq məhsulları, buğda, arpa, kərpic, düyü, ipək, kətan, pambıq, zəfəran, tütün, küncüt, xalça, müxtəlif parçalar, arşınmalı, baş geyimləri, ayaqqabı, odlu və soyuq silah, dulusçuluq, sərraclıq, dəri və zərgərlik məmulatları, sabun, neft, duz və sair satılıb-alınırdı. Şuşada kəndlilər həm də ağac kömürü, odun, meyvə, giləmeyvə, qarpız, qovun, tərəvəz, ev quşları və onların məhsullarını satırdılar. Qiymətli malları əsasən varlı adamlar alırdılar.

Şuşa tacirləri əzmkarlıqları və əməksevərlikləri ilə də fərqlənirdilər. Bu tacirlərin bəziləri az müddət ərzində külli miqdarda sərvət və pul toplaya bilmişdilər. Onlar ehtiyacı olan kəndlilərdən məhsulları ucuz qiymətə alır və baha satırdılar.

Şəhərdə ticarət üzərinə ciddi nəzarət qoyulurdu. Ticarət xan xəzinəsinin ən mühüm gəlir qaynaqlarından biri idi. Xanın xeyrinə ticarət və tacirlər üzərinə vergi və rüsumlar qoyulurdu. Eyni zamanda İbrahimxəlil xan bazar müdiriyyətinin, bazarbaşının, qapançının və başqa xidmət işçilərinin saxlanılmasının bütün xərclərini də ticarətlə məşğul olanların üzərinə qoymuşdu. Bu qərar 1822-ci ilə qədər, yəni Qarabağ xanlığının ləğvinə kimi qüvvədə olmuşdu.

Məhsulların qiymətlərinə gəldikdə isə 1823-cü ildə xan pulu (6 manat 50 qəpik xan pulu, 1 rus gümüş (manatına bərabər idi) ilə bir çətvər buğda 18 manat 90 qəpik, bir çuval arpa 6 manat 30 qəpik, bir çuval darı 5 manat, bir batman yağ 15 manat, quzu dərisi 10 manat, bir girvənkə ipək 4 manat, bir batman yun sap 15 manat, kilim 10 manat, öküz isə 40-70 manat idi (114, s.72).

1822-ci ildə Qarabağ xanlığı ləğv edilib, Rusiya imperiyasının əyalətinə çevrildikdən bir müddət sonra - 1832-ci

ildə Qarabağda orta hesabla bir çətvər buğda 3 rus pulu ilə (gümüş) - 4 manat, arpa 2,5 manat, darı 1,4 manat, pərinc 2 manat, çəltik 1,5 manatdan 2 manata qədər, darı yarması 4-5 manat, bir pud pambıq 3-4 manat, kətan yağı 4-4,5 manat, Naxçıvanda 10 qəpiyə alınan bir batman duz Qarabağda 40 qəpik idi. Qarabağdan Gürcüstana aparılan donuzun biri gümüş pulla 3-4 manata satılırdı (114, s.72).

Adətə görə, xanlığa kənardan gətirilən malların 15 faizdən az olmayaraq bir hissəsinin güzəştlə satılmasına icazə verilirdi. Şuşada bazarın izdihamlı xarakter alması əmtəə-pul münasibətlərinin inkişafına, alıcılar və satıcılar arasında ünsiyyətin formalaşmasına və bütövlükdə ticarət mədəniyyətinin inkişafına güclü təkan verirdi.

Daxili ticarətlə müqayisədə, Qarabağ xanlığında xarici ticarət xeyli inkişaf etmişdi. Bir sıra qaynaqların çox saylı məlumatlarının tutuşdurulması göstərir ki, artıq XVIII əsrin sonu - XX əsrin əvvəllərində Şuşa şəhəri ticarət mərkəzi kimi, Cənubi Qafqazda Tiflisdən sonra ikinci yerdə dayanırdı.

Şuşadan ticarət karvanları Azərbaycan xanlıqlarının mərkəzlərinə və xarici ölkələrə gedirdi. Xarici ticarətdə Rusiya və İran əhəmiyyətli yer tuturdu. Tiflisdən Şuşaya çit, güllü, naxışlı paltarlar, mahud, müxtəlif rəngli kolenkor (pambıq parça növü - Y.H.), nankalar (sarı rəngli pambıq parçalar - Y.H.), qırmızı boyaq, çay, rəng, rom (tünd içki növü - Y.H.) və başqa məhsullar gətirilirdi. Bakı xanlığından dəmir, yazı kağızı, saxsı qablar, zəfəran və mazut gətirilirdi. Mazut əsasən dəvələrdə gətirilirdi. Mazutdan otaqları işıqlandırmaq üçün istifadə olunurdu. Dərbənddən Qarabağ xanlığına qızıl boya, Şəki xanlığından tüfəng, evdə toxunmuş mahud şal, yapıncı, xalça, Gəncə xanlığından zəy, Naxçıvan xanlığından qalın pambıq kətan və duz, Ərdəbil xanlığından naxışlı burmet parçalar, Təbrizdən müxtəlif parçalar, istiot, darçın, mixək, badam, qurudulmuş meyvə, İran qəndi, tumac, Şiraz tütünü, Xoydan və Urmiyadan qumaş, bez, müxtəlif çit və başqa məhsullar, Ərdəbildən isə qalın pambıq parça gətirilirdi.

Şəki, Şirvan, Bakı, Gəncə, Naxçıvan və İrəvan xanlıqlarından, eyni zamanda da Tiflis və Dərbənddən Qarabağ xanlığı rus pulu ilə 90000 manat dəyərində mal alırdısa, Təbriz, Ərdəbil, Xoy, Urmiya xanlıqlarından (İran da daxil olmaqla) buraya rus pulu (gümüş) ilə 140000 manatlıq mal ixrac edirdi. Qarabağ xanlığının xarici ticarətində əsas yeri Təbriz şəhəri tuturdu (114, s.73).

Şuşa şəhərinə İrandan - İsfahandan qalın pambıq parçalar, zərbafta, qara ipək baş örtükləri, pambıqdan toxunmuş ağ və mavi rəngli çadralar, qənd; Yəzddən: müxtəlif ipək materiallar və pambıq örtüklər; Xorasandan: Xorasan xurcunları, Xoydan və Urmiyadan bez, müxtəlif çitlər gətirilirdi. Mənbələrin birində qeyd edilir ki, İrandan Qarabağa gətirilən malların illik ümumi dəyəri 140 min gümüş rus manatına bərabər idi (120, h.III, s.314-315).

Qarabağ xanlığına Osmanlı imperiyası ərazisindən meyvə qurusu, müxtəlif örtüklər, ipək mallar və kofe; Tiflisdən - müxtəlif parçalar, mahud, çay, qənd, rom gətirilirdi (120, h.III, s.314-315).

Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra, Rusiya ilə onun iqtisadi əlaqələri daha da gücləndi. Bu əlaqələr 14 may 1805-ci il Kürəkçay və 12 oktyabr 1813-cü il Gülüstan müqavilələrindən sonra yeni inkişaf mərhələsinə daxil olmuşdu. Şuşa tacirləri pambıqdan hazırlanan müxtəlif parça, geyim əşyaları və digər materiallar almaq məqsədilə Moskvaya və Nijni-Novqorod yarmarkalarına gedirdilər.

Rus işğalından sonra xanlığın Osmanlı Türkiyəsi ilə ticarət əlaqələri yolunda ciddi maneələr yaradılmışdı. Adətən, Türkiyə məhsullarını Ərəbistana ziyarətə gedən Şuşa tacirləri alıb gətirirdilər. Elə ona görə də Osmanlı Türkiyəsi ilə illik ticarətin dəyəri cəmisi 3 min manat rus pulu həcmində idi. Zəvvarlar Məkkə və Kərbəla ziyarətindən qayıdarkan, Bağdad şəhərindən meyvə qurusu, ədviyyat, indiqo, atlaz, kolenkor və örtük, Şam şəhərindən müxtəlif ipək materiallar, qırmızı boyaq

və kofe gətirirdilər (114, s.74).

İpək Qarabağ xanlığının xarici ticarətində başlıca yer tuturdu. Şuşa tacirləri Qarabağ, Şəki, Şirvan, Gəncə xanlıqlarında, Car-Balakəndə, qismən də Gürcüstan və İrandan Rusiyaya göndərmək üçün ipək alınıb-satılması işinin də əsas mövqelərini öz əllərinə almışdılar.

Qarabağ xanlığının ixracatında ipəkdən başqa məşhur Qarabağ xalçaları, Qarabağ atları, müxtəlif parçalar, iri və xırdabuynuzlu mal-qara, əkinçilik məhsulları da az rol oynamırdı. Xarici ticarət bir çox obyektiv çətinliklərlə qarşılaşırdı. Bu, hər şeydən əvvəl, bir xanlığın ərazisinə keçərkən alınan daxili gömrük haqqı idi. Orta əsrlərdə bu vergi rahdar adlanırdı. Rahdar vergisi dini əlamətlərdə də özünü göstərirdi. Təbrizdə, Xoyda, Urmiyada və Ərdəbildə ticarət işləri ilə məşğul olan Şuşa tacirlərindən bir manat, ermənilərdən isə 3 manat rahdar vergisi alınırdı. Osmanlı Türkiyəsində Şuşa tacirləri bütün vergi rüsumlarından azad edilmişdilər (114, s.74).

Qarabağ xanlığında şəhər, kəndlər və digər yaşayış yerləri arasında iqtisadi əlaqələrin zəifliyi vahid çəki və ölçü vahidlərinin olmaması daxili və xarici ticarətin inkişafına əngəl törədən amillərdən idi. Xanlıqda müxtəlif çanaq ölçüləri mövcud idi. Buğda, arpa, darı və başqa dənli və paxlalı məhsullar çanaqla ölçülürdü. Şuşanın özündə üç çanaq növü var idi. Birinci növ çanaq 31 girvənkə, ikinci növ çanaq 12 girvənkə 31 misqal, üçüncü növ çanaq 11 girvənkə 88 misqal buğda tuturdu. Kənd yerlərində bəzən çəki gözəyarı müəyyən olunurdu.

Məlum məsələdir ki, ticarətdə pul əsas meyardır. Ona görə də dövriyyədə olan pulların tərkibi maraq doğurmaya bilməz. Qarabağ xanlığında hələ xanlıq yaranmamışdan əvvəl, Gürcüstan, Şirvan, Şamaxı, Gəncə abbasılarından istifadə edilirdi. «Qarabağnamə»lərdə Qarabağ xanlığında sikkə zərbi, tədavüldə olan sikkələrlə bağlı məsələlər diqqətdən kənarda qalmışdır. Yalnız Əhməd bəy Cavanşir və Mirmehdi Xəzaninin əsərlərində xanlıq dövründəki sikkələr haqqında bir qədər geniş məlumatlara təsadüf edilir. Əhməd bəy Cavanşir yazır ki, Şuşa

şəhərinin bina olunmasından sonra Pənahəli xan 15 qəpik dəyərində olan «pənahabad» adlı gümüş pul kəsdirməyə başladı (17, s.161; 53, s.117,197). «Pənahabad» Pənahəli xanın öz adını verdiyi Şuşa qalasının ilk adından götürülmüşdü. Qarabağ «pənahabadı» xanlığın daxilində və xaricində dövriyyədə idi. Qarabağ xanlığında yerli sikkə - mis yarım şahılıq da dövriyyədə idi.

Ağa Məhəmməd şah Qacarın Şuşada qətlindən sonra isə İbrahimxəlil xan İranla münasibətləri qaydaya salmaq üçün guya ki, mərhum şahın şərəfinə «sahibqran» adlı - 35,5 qəpik dəyərində gümüş pul kəsdirməyə başladı. Bu barədə Əhməd bəy Cavanşir yazır ki, Ağa Məhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra, İbrahim xan Tehranda hakimiyyətə keçmiş Fətəli şaha itaətkarlıq göstərmək əlaməti olaraq, Şuşada onun adına 30 qəpik qiymətində olan gümüş pul (sahibqran) kəsilməsi üçün göstəriş vermişdir (17, s.180).

Qarabağ xanlığında xan pulları ilə yanaşı İran şahlarının tümən (gümüş pulla 4 manat), rial (45,5 qəpik) adlı pulları da dövriyyədə idi.

Qarabağ xanlığında borc münasibətləri, sələmçilik də inkişaf edirdi. Halbuki, İslam şəriəti sələmlə pul borc verilməsini haram buyurur. Pula ehtiyacı olan kasıb şəhərli və ya kəndli varlı qonşusuna müraciət edirdi. Kəndli borcu iki formada - natura və nəqd pulla alırdı. Ödəmə də həmin qayda üzrə ödənilirdi. Qarabağ xanlığında borc faizi, yəni sələm bəzən 60-70 faizə çatırdı. Sələmçilik Qarabağ xanlığında XVIII əsrin sonu - XIX əsrin əvvəllərində, yəni daxili və xarici müharibələr genişləndiyi dövrdə daha çox yayılmışdı. Şuşada sələmçiliklə tacirlər, ağalar, bəylər və eyni zamanda da bir sıra varlı adamlar məşğul olurdular (114, s.69-76).

Beləliklə, yuxarıda gətirilmiş misallar, onların təhlili göstərir ki, Qarabağ salnamələri bu xanlığın təbii-coğrafi şəraiti, ərazisi, sosial-ictimai və iqtisadi həyatını, burada mövcud olmuş sosial-iqtisadi münasibətlərin inkişaf səviyyəsi və xüsusiyyət-lərini öyrənmək üçün çox qiymətli qaynaqlardır.

# III F Ə S İ L

# QARABAĞ XANLIĞININ XARİCİ SİYASƏTİ

## 3.1. OSMANLI TÜRKİYƏSİ VƏ GÜRCÜSTANLA ƏLAQƏLƏR

XVIII əsrin 40-cı illərində Əfşarlar səltənətinin süqutu ilə Azərbaycanın ictimai-siyasi həyatında böyük dəyişikliklər baş vermiş və nəticədə burada iyirmiyə yaxın xanlıq meydana gəlmişdir. Məlum olduğu kimi, Pənah bəy Qarabağlı hələ Nadir şahın sağlığında ona qulluqdan boyun qaçırıb Qarabağa qaçmış və şah öldürüldükdən sonra burada müstəqil dövlətin bütün atributlarına malik olan Qarabağ xanlığı yaranmışdı (9, s.510, 511; 54, s.17).

Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Qarabağı, Əhməd bəy Cavanşir, Mirzə Yusif Qarabaği, Mirmehdi Xəzani, Rzaqulu bəy Mirzə Camal oğlunun salnamələrində Pənah xanın yerli müsəlman-türk tayfalarını və alban xristian məliklərini gərgin mübarizədə özünə tabe etməsi, möhkəmləndirilmiş qalaların inşası, Məhəmmədhəsən xan Qacar və urmiyalı Fətəli xan Əfşarın qoşunlarının gənc Qarabağ xanlığına hücumlarına qarşı uğurlu mübarizə, xanlığın ərazisinin genişləndirilməsi və başqa məsələlər müfəssəl surətdə təsvir olunmuşdur. Bu salnamələrdə Qarabağda İbrahim xanın da xanlığın ərazisini genişləndirmək, təbəələrinin sayını artırmaq yolu ilə hakimiyyətini möhkəmləndirmək uğrunda mübarizəsinə geniş yer verilmişdir. Salnamələrin çoxunda İbrahimxəlil xan Cavanşirin cah-cəlalı, nüfuz dairəsi, hakimiyyət imkanları bir qədər

mübaliğəli şəkildə verilsə də (54, s.48, 50; 55, s.120, 121; 17, s. 164), tarixi gerçəkliklərlə səsləşməsə də hər halda Qarabağ xanlığı bir çox qonşu xanlıqlarla müqayisədə hərbi-siyasi cəhətdən daha güclü idi. İbrahimxəlil xan isə mövcud siyasi vəziyyətdən istifadə edərək Qarabağ xanlığının siyasi-hərbi və iqtisadi qüdrətini artırmaq uğrunda fəal mübarizə aparırdı (9, s.543).

Qarabağ xanlığının xarici siyasəti ilk növbədə xanlığın hakim siyasi mövqelərini qoruyub saxlamaq idisə də, güneyli şahlar, Türkiyə və Rusiya ilə münasibətlərində bəzən başqa xanlar kimi çıxılmaz vəziyyətdə qalmışdı. «Qarabağnamə»lər də XVIII əsrin 70-80-ci illərində beynəlxalq siyasi vəziyyət, Qarabağ xanlığının xarici siyasətinin əsas istiqamətləri, xüsusilə Osmanlı dövlətinin xarici siyasətində Qarabağ məsələsi və digər problemlər ətraflı və dərin şəkildə təhlil olunmuşdur. Sözsüz ki, bu əsərlərin rus müstəmləkə rejimi dövründə, rus müstəmləkə əsarətinin mövcud olduğu torpaqlarda yazılması, salnamə müəlliflərinin əksəriyyətinin rus dövlətinin müxtəlif idarələrində xidmət etməsi, fəaliyyətləri, onların siyasi hadisələri işıqlandırmalarına və ona münasibətlərinə təsirlər göstərməyə bilməzdi.

G.C.Quliyevanın yazdığı kimi, XVIII əsrin II yarısında Azərbaycanın beynəlxalq vəziyyəti çar Rusiyası və Osmanlı Türkiyəsinin mövqeyi ilə sıx bağlı olmuşdur. Belə ki, bu dövrdə Azərbaycanın şimal-şərqindəki xanlıqlar Rusiya ilə, qərb və cənub-qərb hissəsində yerləşən xanlıqlar isə çox zaman Osmanlı Türkiyəsi ilə daha sıx təmasda olurdular. Ancaq Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə qarşılıqlı münasibətləri beynəlxalq vəziyyətin təsiri altında tənzimlənirdi (45, s.16,17).

Bu dövrdə Osmanlı imperiyası ilə Azərbaycan xanlıqları arasında əlaqələrin gücləndirilməsində Çıldır valisi Süleyman paşa böyük rol oynamışdı. O, II İraklinin Rusiya imperiyasının köməyi ilə Gəncə və İrəvan xanlıqlarını tutmaq istədiyini bildikdə Azərbaycan xanlıqlarını birliyə çağıraraq, Osmanlı sultanının göndərdiyi 1775-ci il tarixli fərman və hədiyyələrini onlara çatdırmışdır. Bu çağırışa Qarabağ xanı İbrahimxəlil xan,

Naxçıvan xanı Cəfərqulu xan cavab yazıb razılıqlarını bildirmişdilər (50, s.44; 45, s.18).

Kiçik Qaynarca (1774) müqaviləsinə əsasən Osmanlı dövləti Krımı itirdikdən sonra, itirilmiş mövqelərini bərpa etməyin ən mühüm istiqamətlərindən biri kimi Cənubi Qafqazda nəzarətini gücləndirməkdə görürdü. Elə buna görə də, Osmanlı dövləti ona yardım üçün müraciət edən Azərbaycan xanlıqları ilə əlaqələrin genişləndirilməsinə diqqətini daha da gücləndirir (45, s.19).

Gəncə və İrəvan xanlıqlarının əraziləri hesabına öz ərazisini genişləndirməyə çalışan Gürcüstan çarı II İraklinin Azərbaycan xanlıqlarına könüllü şəkildə ona və dolayısı ilə himayəsi altına girdiyi Rusiya imperiyasına itaət etməyəcəkləri halda onları ordu ilə hədələməyinə cavab olaraq Azərbaycan xanlıqları II İraklinin təklifini rədd etmiş, 1785-ci ildə Qarabağ xanı İbrahimxəlil xan, Şəki xanı Məhəmmədhəsən xan və Quba xanı Fətəli xan Osmanlı sultanına tabe olmaq niyyətini bildirmək üçün İstanbula elçilər göndərmişdilər (50, s.44).

XVIII əsrin 60-cı illərindən etibarən romanovlarla hərbi qarşıdurmada ağır məğlubiyyətə uğramış Osmanlı Türkiyəsi Rusiya imperiyası ilə aralarında olan gərginliyin artmasından ehtiyat edərək Azərbaycan xanlıqlarına konkret kömək göstərə bilmirdi. Xarici təzyiqlərin artdığı, hədələrin real şəkil almağa başladığı bir şəraitdə Qarabağ hökmdarı İbrahimxəlil xanın təşvişi günü-gündən artırdı. Onun 1786-cı ildə Osmanlı sultanı I Əbdülhəmidə (1754-1789) fars dilində yazmış olduğu məktubunda Quba xanı Fətəli xanın və Şəki xanı Məhəmmədhəsən xanın Rusiyaya itaət etdiklərini xəbər verirdi. Azərbaycan xanlıqlarına Osmanlı sultanından kömək gəlmədiyi təqdirdə onun da Quba və Şəki xanları kimi hərəkət etməkdən başqa çarəsi qalmayacağına işarə olunurdu (50, s.45).

Rusiyanın öz beynəlxalq təəhhüdlərinə növbəti dəfə xəyanət edib 1783-cü ildə Krım xanlığının varlığına son qoyması, Osmanlı-Rusiya münasibətlərini yenidən gərginləşdirmişdi. Artıq tərəflər müharibəyə ciddi şəkildə hazırlaşırdılar.

Osmanlı dövləti Rusiyaya qarşı müharibədə Azərbaycan xanlarının da hərbi qüvvəsindən istifadə etmək istəyirdi. Bu məqsədlə 1784-cü ildə qəbul olunmuş xətti-hümayunda «ləzgi əsgərləri və Azərbaycan xanlarının Dövləti-Aliyyəyə cəlb olunmasına səyin gərək» olduğu göstərilirdi (80, c.II, s.82).

Bu məqsədə nail olmaq üçün Osmanlı sultanı I Əbdül-həmid Qarabağ hökmdarı İbrahimxəlil xana məktub göndərir. Məktubda İbrahimxəlil xana Rusiya imperiyasına qarşı vuruşmağa hazır olmaq təklif olunurdu. Məktubda eyni zamanda ona Şəki xanı Məhəmmədhəsən xana, Təbriz xanı Xudadat xana, Ərdəbil xanı Əli xana, Quba xanı Fətəli xana və başqalarına müraciət edib, onların da bu işə qoşmağın zəruriliyi dönə-dönə xatırladılırdı (50, s.45).

Osmanlı imperiyasının Azərbaycan xanlıqlarından yardım gələcəyinə şübhə ilə baxmağa əsası var idi. Belə ki, bu dövrdə də Azərbaycan xanlıqları arasında kifayət qədər gərgin qarşılıqlı münasibətlər yaranmışdı. XVIII əsrin lap ortalarından yenicə meydana çıxmış Azərbaycan xanlıqları arasında demək olar ki, həmişə mövcud olmuş mürəkkəb münasibətlərin gərginliyi əsrin son rübündə xarici qüvvələr tərəfindən məxsusi olaraq qızışdırılırdı. 1787-ci ildə Qarabağ xanı İbrahimxəlil xanın məktubu əsasında Ərzurum və Çıldır valiləri, Qars mühafizə və Bəyazid mütəsərriflərinin adından İstanbula göndərilən məktubda xanlar arasındakı münasibətlərdən bəhs olunurdu. Məktubdakı məlumata görə II İrakli gürcü və ruslardan ibarət olan qoşunla İrəvan xanlığı üzərinə hücum etmiş, əhalisini özünə tabe edib, buradan da döyüşçülər yığaraq, Naxçıvan üzə-rinə hərəkət etmişdi. Naxçıvan xanlığında II İraklinin əsgərləri kütləvi qırğınlar törədib, qarətə keçmişdilər. Yenə həmin məktubda qeyd edilirdi ki, «Tiflis xanı İrakli xan ilə Qarabağ xanı İbrahimxəlil xan arasında düşmənçilik var. Avar hakimi Ümmi xan İbrahim xan ilə dost olduğundan topladığı ləzgi tayfası ilə Tiflis üzərinə hərəkətə keçmək istəyir» (50, s.45).

Xanlardan alınan məlumatlarla yanaşı osmanlılar xanlıqlardakı daxili vəziyyət haqqında hərtərəfli təsəvvür əldə

etmək üçün casuslar göndərirdilər. Bu casuslardan birinin Çıldır valisinə göndərdiyi məktubdan aydın olur ki, II İrakli Qarabağ xanlığına hücum etmək niyyətindədir və bu məqsədlə qubalı Fətəli xan ilə danışıqlar aparır. Həmin məktubda Qarabağ və İrəvan xanları arasındakı düşmənçiliyin olması da qeyd edilirdi. Qarabağ xanı ilə Osmanlı imperiyasına həmsərhəd olan İrəvan xanlığı arasındakı düşmənçilik osmanlıları çox narahat etdiyindən Bəyazid sancağının mütəsərrifi İshaq paşa onları birliyə çağırmalı olur (50, s.45).

1787-1791-ci illər Osmanlı-Rusiya müharibəsində Azərbaycan xanları ilə Osmanlı dövləti arasında qarşılıqlı münasibətlər tərəflərin bir-birinə təsirli hərbi-iqtisadi yardımına gətirib çıxarmasa da, onların ikitərəfli diplomatik əlaqələri davam etməkdə idi. Məsələn, 1789-cü ildə İbrahimxəlil xan tərəfindən sultan sarayına göndərilmiş elçilər - Mirzə Məhəmməd əfəndiyə üç yüz və Mirzəmməd bəyə 200 quruş yol xərci olmaqla cəmi beş yüz quruş ödənilməsi haqqında sultan tərəfindən xüsusi buyruq da verilmişdi (80, c.I, s.131).

Beynəlxalq münasibətlər gərginləşdikcə Osmanlı dövlətinin Azərbaycan xanlıqları ilə diplomatik danışıqları daha da güclənirdi. 1791-ci ildə Osmanlı sarayında İbrahimxəlil xan və Avar hakimi Ümmə xanın elçiləri yüksək ehtiramla qəbul olunmuşdu. Bu barədə sultana edilən məruzədə göstərilirdi: «Şövkətli, Kəramətli, Əzəmətli, Qüdrətli Vəliyyi-Nemətim, Əfəndim, Padşahım, Dağıstan xanlarından Ümmə xanla Şuşa xanı İbrahimxəlil xanın bu dəfə hərəsi bir nəfər adamıyla Əlahəzrət şahanələrinə məruzə və təqdim üçün ərəb və fars dillərində yazılmış qısa məruzələri və qulunuz tərəfindən də məruzə edilən (söylənilən) məktubları mövcud olmaqla bütünlüklə tərcümə etdirilib və rəsmi şəkildə məlumatları olan adamların da digər məlumatları yazılaraq yüksək mərtəbənizə təqdim edildi. Fərman mübarək istəyinə uyğun olaraq şövkətli, kəramətli, əzəmətli, qüdrətli, vəli nemətim əfəndim həzrətlərinindir» (80, c.I, s. 131).

Sultanın bu məruzəyə dərkənarı belə olunmuşdur:

«Dağıstanın rəsmi məlumatlarını gördüm. Adamlarına münasib hörmət edilsin və bunlara da lazım olan münasibət göstərilərək cavabları yazılsın, Tiflisi almaq istəyirlərsə alsınlar, bizə zərəri yoxdur» (80, c.I, s.131).

Vəziyyətinin kifayət qədər mürəkkəb olmasına baxmayaraq Osmanlı imperiyası Azərbaycan xanlıqları ilə əlaqələrini kəsmirdi. Qarabağ hökmdarı İbrahimxəlil xan 1794-cü ildə sultana göndərdiyi məktubda İranda hakimiyyəti ələ keçirmiş Ağa Məhəmməd xan Qacarın Azərbaycan xanlıqlarını tutmaq niyyətindən xəbər verir, xanlıqların bu təhlükəni sovuşdurmaqda Osmanlı sultanının yardımına ehtiyacları olduğunu qeyd edirdi (50, s.46).

Ağa Məhəmməd xan Qacarın uğurları, xüsusən İrəvan qalasını alıb Tiflisə qarşı hücuma başlaması və Azərbaycan xanlarının buna qarşı bir tədbir görülməsi barəsində xahişlərinə cavab olaraq Osmanlı imperiyası heç bir köməklik göstərməmiş və ya göstərə bilməmişdir. Bunun da bir neçə səbəbi var idi. Birincisi, 1787-1791-ci illər osmanlı-rus müharibəsində məğlubiyyətə uğrayan İstanbul hökuməti çox zəifləmişdi və Azərbaycan xanlarının himayədarı kimi Ağa Məhəmməd şahla müharibəyə başlayacağı halda onun zəfər çalacağı çox böyük şübhə altında idi; ikincisi isə Osmanlı hökuməti özünə düşmən olan Rusiya imperiyasının da Azərbaycanı ələ keçirmək niyyəti olduğu üçün onun Ağa Məhəmməd şah Qacarla toqquşacağına və bunun nəticəsində Rusiya imperiyasının məğlub ola biləcəyinə və ya heç olmasa bərk zəifləyəcəyinə ümid bəsləyirdi.

Azərbaycan xanlarından, xüsusilə Qarabağ xanı İbrahimxəlil xandan, gələn məktublarda onlar, özlərinin Osmanlı sultanının himayəsi altında olduqlarını dəfələrlə qeyd edirdilərsə də, yuxarıda göstərdiyimiz səbəblərə görə Qarabağ xanlığı, mənəvi dəstək çıxılmaqla, Osmanlı imperiyasından heç bir kömək ala bilmədi. Osmanlı imperiyası yaranmış vəziyyətdən faydalanmaq niyyətini Qarabağ xanından gizlədə-

rək, ona «İranla Dövləti-Aliyyə arasında sülh olduğundan, Ağa Məhəmməd şah Qacarın sülhü pozar bir hərəkəti görülmədikcə Osmanlı dövləti tərəfindən İran hövzəsinə əsgərlə müdaxilə edilməyəcək» cavabı vermişdi (50, s.46).

Beləliklə də Qarabağ xanlığı, real xarici müdaxilə qarşısında müttəfiqsiz, siyasi müstəqilliyini itirmə təhlükəsi önündə çıxılmaz bir vəziyyətdə qaldığı bir vaxtda, Ağa Məhəmməd şaha qarşı ittifaq yaratmış Quzey Azərbaycan xanları elçilərinin 9 may 1795-ci ildə İstanbulda rəsmi məlumatları dinlənilmişdir. Şuşa və Qarabağ xanı İbrahimxəlil xanın məktubunu gətirmiş Seyid Abdullah Çələbinin rəsmi məlumatlarında qeyd olunur. Bu sənədin nadirliyə və vacibliyini nəzərə alaraq onu geniş verməyi lazım bilirik: «Yuxarıda adı çəkilən İbrahimxəlil xan iyirmi beş ildən artıq Ali Dövlətə ərizə təqdimi ilə xidmət göstərmək və qulluq eyləməkdən başqa, Ali Dövlətə (Osmanlı) tərəfindən də dəfələrlə göndərilən ali əmrlərə nail olma lütfüylə şərəfləndirilmiş olmasına əvvəllər də yuxarıda adı çəkilən zat gecə və gündüz var olan şahanə dövlətinə və böyük şahanəyə dualarıyla vaxt keçirən, sidq ürəkdən və candan lazım gələn sürətlə başlamaqla bütün halını şahanə padşah mərtəbəsinə ərz və izah etməsi lazım olduğundan halını ifadə etmək üçün bu qullarının ərizəsiylə hüzuruna göndərir. İranda təkbaşına olmaq iddiasında olan adı çəkilən Ağa Məhəmməd xan yazılmış olduğu kimi bu əsnada ordu çəkərək Rəvan, Gəncə, Qarabağ, Şamaxı və Tiflis xanlıqlarını ələ keçirmək üçün bu Ramazanı şərifin son günlərində bəyan edilmiş Göycə yaylağına çataraq Qarabağ üzərinə hücum edəcəyini casus və qasidlər dəqiq xəbər verib. Sözügedən xanın bu hərəkəti lazım olan tədqiqat aparıldığından ərz olunan xanlar bir-birilərinə razılıq müqavləsiylə ittifaq quraraq tədarük görmək işinə başlamalarına, sözügedən xan Şuşa və Qarabağa hücum edərsə, Şuşa qalasının mətanət və rəşadətinə baxmayaraq, əgər Allahın kömək, lütfiylə və tacdarın (padşahın) sayəsində qələbə çalmayacağı gözlənilsə də, ancaq mühasirə vaxtı müttəfiq olan, istər

Rəvan (İrəvan) ərazi və əhalisinin və istərsə də Qarabağ əhalisinin qalaya almaq qüdrətində olmadığından və keçmişdə (əvvəllər) də belə edildiyi üçün müharibə zamanı Dövləti Aliyyənin sərhədi olan Qars və digər sərhədini keçmələrinin qarşısını almamaqları üçün əvvəlcədən mühafizə və təhlükəsizlik valilərinə əmr edərək tapşırıq və təkid edilməsi, digər yolla Dövləti Aliyyəyə şərəf göstərməsi istəkləri (niyazları) olduğunu, adı çəkilən İbrahimxəlil xan səmti və yaxınlığında olan xatırlanan Dağıstan xanları və qohumu olan Ümmə xan ilə yazılmış olduğu kimi, tərəfdar olaraq (birləşərək) cəmi otuz-qırx min əsgər toplayacağı şübhəsizdir. Bu qədər işə yarıyan əsgərə ehtiyac duyulduğu zaman xeyli iş görüləcəyi gözlənildiyi əgər aydın olub ancaq yazılmış Ağa Məhəmməd xan daima özüylə birlikdə qırx-əlli min əsgəri əskik etmədiyindən başqa belə etina ilə bir bölgəyə (əraziyə), ordu yeritdiyi zaman mövcud olandan iki-üç dəfə artıq əsgər hazır etmək qüdrətinin aşkar görülməsi səbəbiylə yuxarıda qeyd olunan xanların Dövləti Aliyyənin köməyinə ehtiyac duymaları olduqca çox olmaqla, vəziyyətlərini bu yolla Dövləti Aliyyəyi Osmaniyyənin padşahının hüzuruna ifadə edərək və mərhəmət istəyərək bundan sonra onların haqlarında hansı yolla əmr və iradə göstərərsə, necə lazım bilərsə elə də hərəkət edəcəklərini, Rum və Əcəm, yəni hər növ, bütün insanlarının taleyinin uğursuzluğunu və qismətlərini şahənşaha (Osmanlı padşahına) əmanət edənlərin əməlləri üzündən padşahın yardım qapılarının açılmış olduğundan, adı çəkilən zat da daxil olmaqla, bu istənilənlərə icazə verməmək yüksək şanlı və yüksək mərtəbəli Dövləti Aliyyəyə yaraşmadığından başqa həmsərhəd olan, bu gözdən qorunan bənzərləri haqqında mərhəmət işlənmiş, yalvarılmışkən nəticə və mühafizəyə əmr edilməmək ümid və əməllərinin əksinə olduğu açıq görülməkdən əvvəl, adı çəkilən xanlara təsəlli vermək və qüvvətləndirmələri üçün bir-birlərinə ittifaq qurmaqda təkidlə işə başlamaları üçün öz ətraflarına (əhatələrinə) və ehtiyac görülən zaman sərhədi keçərək əhalisinə mane olmamaq üçün, olduğu kimi yazılan mühafizin və

mühafizə əmirlərinin ali fərmanda (əmrə) çıxarılması (əks etdirilməsi) təmənnaları haqqında adı çəkilən Seyid Abdullah Çələbi rəsmi məruzə edir (80, c.I, s.143-144).

Doğrudur, Osmanlı imperiyası Azərbaycan xanlıqları ilə əlaqələrini kəsmirdi, ancaq buna baxmayaraq o, artıq real hərbi yardım göstərmək iqtidarında da deyildi. Elə buna görə də, Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən müdaxilə qarşısında faktiki olaraq müttəfiqsiz qalmışdı. İbrahimxəlil xan sultan III Səlimin (1789-1807) baş vəzirinə yazdığı məktubdakı **«...Sizdən ricamız budur ki, bizləri qoruyub, bizə kömək və inayətinizi əsirgəməyəsiniz...» deyə təvəqqəsinə baxmayaraq, Osmanlı hökuməti Qarabağ xanlığına hərbi yardım göstərə bilməmişdir** (59, s.46, 47).

«Qarabağnamə»lərin müəllifləri Gürcüstanla Qarabağ xanlığı arasında siyasi münasibətlərə qismən toxunmuşdular. Onlar bu barədə əsasən Gəncə xanlığı ilə bağlı məsələlərlə əlaqədar olaraq danışır, Qarabağ xanlığı ilə Gürcüstan arasında münasibətləri ötəri işıqlandırmaqla yanaşı, hadisələrin əksəriyyətinin səbəblərini də göstərmir, bu məsələdə də səhv təsvirçilik mövqelərində dayanırlar.

Hələ XVIII əsrin 50-ci illərində Şəki xanlığının güclü mövqeyi və onun getdikcə daha da möhkəmlənməsi Qarabağ, Gəncə xanlıqlarını və Kartli-Kaxet çarlığını rahatsız edirdi (9, s.517, s.518). Mirzə Adıgözəl bəy yazır: «... Pənah xan, qaradağlı Kazım xan, naxçıvanlı Heydərqulu xan məsləhət məclisi qurdular. Onlar belə bir qərara gəldilər ki, bütün Şirvan ölkəsinin hakimi, azad və həmişəlik sahibi-ixtiyarı olan Hacı Çəlibi onlarla hesablaşmır və dostluq yoluna düzlüklə getmir». Xanlar Hacı Çələbiyə qarşı birgə hərəkət etmək üçün aralarında razılığa gələrək bu barədə Gürcüstan çarına da məktub göndərdilər. Öz növbəsində İraklı xanlara yazdığı cavab məktubunda onlarla həmfikir olduğunu bildirmiş və onlara «tezliklə hərəkət edərək fürsəti itirmədən» Gəncəyə gəlməyi məsləhət görmüşdü. Lakin bu ləyaqətsiz çar müttəfiqlərinə xəyanət edərək xanların dördünü də Gəncə yaxınlığında

Qızılqaya adlı yerdə (21 mart 1752) həbs etdirib zindana atdırmışdı. Gəncəli Şahverdi xanın nökərindən bu hadisəni eşidən Hacı Çələbi Kür çayını keçərək Şeyx Nizami qəbri yanında baş vermiş döyüşdə İraklini məğlub edərək xanları azadlığa buraxmışdı (54, s.42,43).

Mənbələr sübut edir ki, Qarabağ xanlığı ilə Gürcüstan arasındakı münasibətlər kifayət qədər mürəkkəb xarakter daşımışdır.

Ş.P.Həmidovanın yazdığına görə, Qarabağ xanlığı ilə Gürcüstan arasında münasibətlər, müəyyən fasilələrlə, XVIII əsrin ikinci yarısı boyu davam etmişdir. «Qarabağ xanı İbrahimxəlil xan düşmənlərinə qarşı təklikdə mübarizə apara bilməyəcəyini yəqin edərək Gürcüstan çarı II İrakli ilə ittifaq bağladı. Qarabağ xanı İbrahimxəlil xanın əsas rəqibi qubalı Fətəli xan idi. Hər iki müttəfiq, Gəncənin Qubalı Fətəli xan tərəfindən tutulacağından ehtiyat edərək, 1780-ci ildə Gəncəni tutdular» (29, s.56).

Fikrimizcə, İrakli ilə yaxınlaşma təkcə düşmənlərdən müdafiə zərurətindən yox, həmçinin rəqiblərinə qalib gəlib nüfuz dairəsini genişləndirmək niyyətindən irəli gəlmişdir. O dövr üçün bu, təbii hal idi.

Mirzə Camal Cavanşir qeyd edir ki, «Qarabağ vilayətində üç il davam edən quraqlıq nəticəsində taxıl və başqa bitkilər məhsul vermədiyindən, şiddətli qəhətlik baş vermişdi. Taxılın qiyməti o qədər qalxmışdı ki, hətta bir çətvərt buğdanı o vaxtın pulu ilə 45 manata güclə almaq olurdu» (55, s.126).

1783-cü ildə Qarabağ xanı İbrahimxəlil xan Gürcüstan hökumətindən Qarabağa ərzaq göndərilməsini xahiş etmişdir. II İrakli azərbaycanlılara çörəyin girvənkəsini 15 qəpiyə, unun girvənkəsini 10 qəpiyə, arpanın girvənkəsini 9 qəpiyə və vələmirin girvənkəsini isə 6 qəpiyə satılması barədə əmr vermişdir (28, s.57).

Gürcü valisinin İbrahim xanla normal münasibətləri, yaxud onun məsləhətindən çıxmamasını Mirzə Camal İbrahim xanın böyük nüfuza malik olması ilə əlaqələndirir. O, yazır:

«Gürcüstan valisi ilə İbrahim xanın arası pozulduğu zaman Ümmə xan və başqa Dağıstan xanları İbrahim xanın göstərişi üzrə böyük qoşunla Gürcüstana gedib, çoxlu ziyanlar verirdilər» (55, s.125). Belə ki, çar Rusiyasının Qafqazda işğalçılıq siyasətini dəstəkləyən Kartli-Kaxetiya ilə Qarabağ xanlığı arasında 1783-1784-cü illərdə münasibətlər yenidən pozulduqda Ümmə xan İbrahim xanın göstərişi ilə Gürcüstana daxil olaraq, Sığnaq qalasını, Gümüşxananı tutub qışlamaq üçün Ahısqa vilayətinə Süleyman paşanın yanına getmişdi (55, s.125). Osmanlı imperiyası ilə əlaqələrin möhkəmləndirilməsində böyük rol oynayan Çıldır valisi Süleyman paşadan ənam və dəstək alan Ümmə xan yazda geri dönərkən knyaz Abaşidzenin yaşadığı Vaxan qalasını da tutub qarət etmişdi (55, s.125; 28, s.44). Bu dövrdə Gürcüstanın çar Rusiyasının öz işğalçılıq planlarının həyata keçirilməsində dayaq nöqtəsi olması İbrahimxəlil xana məlum idi. Onların Osmanlı dövləti ilə diplomatik əlaqələri genişləndirmələri, Kartli-Kaxetiyaya vaxtaşırı hərbi yürüşləri çar Rusiyasının Güney Qafqazda işğalçılıq planlarına ciddi maneə idi. Rusiya Qafqaz siyasətində bu amili nəzərə almaya bilməzdi.

Beləliklə, «Qarabağnamə»lərdə Qarabağ xanlığının Osmanlı imperiyası və Gürcüstanla əlaqələrinin əks olunmasında təsvirçilik əsas yer tutsa da burada gətirilmiş bir sıra məlumatlar XVIII əsr Qarabağ, Azərbaycan, Qafqaz və Ön Asiya tarixinin bir sıra məqamlarına aydınlıq gətirmək baxımından çox qiymətlidir.

## 3.2. QARABAĞ XANLIĞININ XVIII ƏSRİN SONU - XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QACARLARLA RUSİYA ARASINDA BEYNƏLXALQ ÇƏKİŞMƏ MEYDANINA ÇEVRİLMƏSİ

Pənah xandan sonra oğlu İbrahimxəlil xan atasının başladığı işi davam etdirərək, çəkişmələrdə mərkəzdənqaçma qüvvələrin qarşısını almağa müvəffəq oldu. O, öz nüfuzunu Naxçıvan, Gəncə və Təbriz xanlıqlarına da yaya bildi. Artıq güclü hərbi-siyasi qüvvəyə malik olan İbrahimxəlil xan müstəqil siyasət yürüdürdü (9, s.524, 533). Mirzə Adıgözəl bəy yazır: «Mərhum İbrahim xan padşah adlanmasa da, onun cah-calalı müasiri olan İran padşahlarından daha çox idi. Bu hal Ağa Məhəmməd xanın Tehranda taxta oturmasına qədər davam etdi» (54, s.49). Ağa Məhəmməd xan Qacar Kərim xan Zənd (1779-cu ildə - Y.H.) vəfat etdikdən sonra «İraq və Farsı tutub Darülxilafə-Tehranı özünə paytaxt etdikdən sonra, mərhum İbrahim xana xələt və qılınc göndərib onu öz tərəfinə çəkmək istəyirdi». Ancaq onların aralarında zahiri tanışlıqdan başqa bir şey yox idi. Salnaməçilər yazırlar ki, «Gürcüstan valisi İrakli, İrəvan hakimi Məhəmməd xan, Talış xanı Mir Mustafa xan İbrahim xanla aralarındakı anda görə» Ağa Məhəmmədə tabe olmamalı və lazım gəldikdə bir- birinə hərbi yardım göstərməli idilər (54, s.49, 50; 55, s.122).

Bu dövrdə Ağa Məhəmməd şah Qacara qarşı münasibətdə mövqelərinə görə Quzey Azərbaycan xanlıqlarını üç qrupa bölmək olar. Birinci qrupa onun tərəfini saxlayanlar: - gəncəli Cavad xan, şəkili Məhəmmədhəsən xan və qubalı Şeyxəli xan daxil idilər. İkinci qrupu Ağa Məhəmməd şah Qacara düşmən olan Qarabağ, Şamaxı və Talış xanlıqları təşkil edirdi (9, s.543).

Bakı xanı Hüseynqulu xan isə Ağa Məhəmməd şahın tərəfdarları ilə əleyhdarları arasında tərəddüd edirdi. Şimali Azərbaycan xanlıqlarının bu cür qruplaşması təsadüfü olmayıb

onlardan hər birinin hərbi-siyasi durumundan irəli gəlir və siyasi məqsədlərini ifadə edirdi. Məsələn, Gəncə xanı Cavad xan Ağa Məhəmməd şah Qacarın köməyi ilə qarabağlı İbrahimxəlil xanın təzyiqindən yaxa qurtarmaq istəyirdi. O, belə hesab edirdi ki, Qacarların köməyi ilə Qarabağ və Gürcüstan torpaqlarını ələ keçirib, orada möhkəmlənə bilər. Quba xanı Şeyxəli xan isə bu yolla Şirvan xanlığının torpaqlarında möhkəmlənəcəyinə ümid bəsləyirdi. Bakı xanlığının mövqeyi isə Şeyxəli xanın onun torpaqlarına iddiası ilə bağlı idi (9, s.543).

İbrahimxəlil xan Ağa Məhəmmədə qarşı müqavilə imzalamasına baxmayaraq Mirzə Camalın yazdığına görə, Ağa Məhəmməd xanın elçiləri Qarabağa gedib-gəlirdilər.

Hətta İbrahimxəlil xan şirindilli, bacarıqlı bir şəxs olan Mirzə Vəli Baharlı ilə birlikdə əmisi oğlu Əbdüssəməd bəyi də onun yanına girov göndərmişdi. «Şah da onlara olduqca hörmət edib, öz yanında saxlayırdı» (55, s.121). Daha sonra Mirzə Camalın salnaməsində deyilir ki, «bu arada Ağa Məhəmməd xan Kirmanda səltənət iddiasında olan düşməni, qoçaq və səxavətli Lütfəli xan Zəndə qalib gəlib, Kirman əhalisinin hamısını qırdı. İbrahim xanla Ağa Məhəmməd arasını poza biləcək bəzi işlər üz verdi. Əbdüssəməd bəy, Mirzə Vəli Baharlı və bir neçə nəfər nökəri ilə Kirmandan qaçdı. Bunların ardınca atlılar göndərildi. Çaparlar gecə-gündüz yol gedərək, onlardan qabağa düşüb, Sərcəm kəndinin əhalisinə xəbər verdilər. Atlı və piyadalar Qızılüzən çayının kənarında yolun üstünü kəsib Əbdüssəməd bəylə vuruşdular. Əbdüssəməd bəy güllə ilə dizindən yaralandı. Onu yoldaşları ilə bərabər tutdular. Mirzə Vəli də tutuldu. Əbdüssəməd bəy həmin yaradan orada vəfat etdi. Başqa dustaqları Mirzə Vəli ilə birlikdə şahın yanına aparıb, Tehran şəhərində həbs etdilər... Mirzə Vəli Ağa Məhəmməd şah Qacarın qəzəbinə gəldi, onu Tehranda topun ağzına bağlayıb atdılar. On nəfərdən ibarət olan başqa dustaqlardan da heç biri sağ qalmadı» (55, s.122).

Əhməd bəy Cavanşir İbrahimxəlil xanla İran hökmdarı Ağa Məhəmməd xan Qacar arasında baş verən münaqişəni belə

qələmə almışdır: «Bu dövrdə İbrahim xanın qüdrəti o qədər yüksəlmişdi ki, onun vassallarından bir çoxu ata-baba yolu ilə gedib, ona şahlıq təklif edirdilər. Lakin bu vaxtlar az qala bütün İranı istila etmiş Məhəmmədhəsən xanın oğlu Ağa Məhəmməd xan Qacarın qalibiyyətli yürüşlərindən təşvişə düşmüş İbrahim xanın gözünə şahlıq görünmürdü; ona görə ki, onun qarşısında vuruşmaq, ya da müəyyən şərtlərlə Qacara tabe olmaq dururdu. İbrahim xan dürüst məlumat topladıqdan sonra Ağa Məhəmməd xanın ilk təklifini rədd etməyə cəsarət etməyərək, öz qohumu Əbdüssəməd bəyi onun yanına əmanət göndərdi. Lakin bir neçə ildən sonra Əbdüssəməd bəy öldürüldü və Ağa Məhəmməd xan onun əvəzində başqasını tələb etdi. Bunun cavabında İbrahim xan ona bildirdi ki, onun bir nəfər əmanəti bütün əshabələri ilə birlikdə öldürüldüyünə görə, belə bir şərəfli işi kimə təklif edəcəyini bilmir» (17, s.164).

«Qarabağnamə» müəlliflərinin heç biri Ağa Məhəmməd xan Qacarın Azərbaycana geniş miqyaslı hərbi əməliyyatlara başlamasının səbəblərini hərtərəfli açıb göstərmirlər. Yuxarıda göstərilən iqtibaslar məzmunca bir-birini təkrar edir. İranda öz rəqibləri üzərində qələbə çalan Ağa Məhəmməd xan Qacar bildirirdi ki, o, Səfəvi dövlətinin sərhədlərini bərpa etməyi qarşısına məqsəd qoymuş və Cənubi Qafqaz ölkələrini tabe etdikdən sonra tacqoyma mərasimi keçirəcəkdir.

Qraf Voynoviç isə bir tərəfdən Rusiya imperiyasının Qafqazda müstəmləkəçilik siyasətini uğurla həyata keçirməyə çalışır, digər tərəfdən isə Ağa Məhəmməd Qacarla gizli danışıqlarda bildirirdi ki, əgər Qacar Azərbaycana hücum edərsə ruslar tərəfindən ona maneçilik olmayacaqdır. Qraf Voynoviç 1791-ci ilin aprel ayında **«Rusiyanın İranla qədim əlaqələrini bərpa etmək haqqında ittifaq yaratdı»**. Bu, rusların növbəti hiyləsi idi. Beləliklə də, Azərbaycanın tərəflər arasında qanlı müharibə meydanına çevrilməsi üçün təhlükəli zəmin təşəkkül tapırdı. Ağa Məhəmməd Qacarın yürüşü üçün şərait yaranırdı. Eyni zamanda Ağa Məhəmməd xan Qacar yaxşı bilirdi ki, **«ruslar üzdə dost, əməldə isə düşmən siyasəti yeridirlər»** (22,

s.8).

Mirzə Adıgözəl bəy yazır: «Ağa Məhəmməd xanla mərhum İbrahim xanın arası pozuldu. Onların məhəbbət və ittifaq məclisində solğunluq əmələ gəldi... 1209-cu (1795-ci) ildə çoxlu qoşunla Gürcüstan, İrəvan, Talış və Qarabağı almağa gəldi. Ağa Məhəmməd xan Qacar qardaşı, baş sərkərdə Əliqulu xanı başqa xanlarla birlikdə İrəvan qalasını almağa göndərdi. Özü isə İraq, Fars, Xorasan və Azərbaycan qoşunları ilə Şuşa qalasının üstünə gəlib qalanın bir ağaclığında ordugah qurdu» (54, s.50).

Ağa Məhəmməd xan 33 gün Şuşa qalasını mühasirədə saxladı. «Qalanın ətrafını əzəmətli qoşununa ordugah edərək, çadırlar qurdurub oturdu. O, elçilər göndərib, çalışdı ki, cürbəcür yollarla İbrahim xanı özünə tabe etsin və Qarabağ əhalisini itaətə gətirsin. Lakin mümkün olmadı» (54, s.50-51). Mirzə Camal da Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza yürüşünü təqribən belə qələmə almışdır: «İbrahim xanla Ağa Məhəmməd xanın münasibəti pozularaq aralarında inciklik əmələ gəldiyindən (şah) 1209-cu ildə Tiflis, İrəvan, Qarabağ və Talış vilayətlərini qəsb etmək üçün böyük ordu və çoxlu əsgərlə Azərbaycana tərəf hərəkət etdi. Əvvəlcə, sərkərdələrinin ən görkəmlisi olan Əliqulu xan Şahsevəni başqa xanlarla birlikdə İrəvan qalasının üstünə göndərdi. Özü isə bütün İraq, Fars, Azərbaycan və Xorasan qoşunları ilə Şuşa qalasının üstünə gəlib, qalanın bir fərsəxliyində, Gövaxan düşərgəsində ordusunu yerləşdirdi» (55, s.122).

«Qarabağnamə» müəlliflərindən biri olan Mirmehdi Xəzani Ağa Məhəmməd xan Qacarın Şuşa hücumunu daha müfəssəl qələmə alıb. O, da Şuşanın 33 günlük mühasirəsi barəsində Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşirin fikirlərinə istinad edir. «Ağa Məhəmməd şah 33 gün qala ətrafında qaldığına baxmayaraq, o qədər böyük qoşunla qalanın beş verstliyindən axan çaydan keçə bilmədi. Qarabağın atlı və piyada qoşunu, ellərin, kəndlilərin sərkərdələri, meşələrdə, yollar və keçidlərdə Qızılbaş qoşununu tutub qarət edirdilər. Hər

gün dəstə-dəstə at, qatır, dəvə və başqa tədarükatı, ordu üçün vilayətlərdən göndərilən taxıl karvanlarını qarət və əsir edərək mərhum İbrahim xanın yanına gətirirdilər. İstər gecə, istərsə gündüz, Qızılbaş qoşununu bir an belə rahat qoymurdular. Üç-dörd dəfə şah özü böyük qoşunla çayı keçmək və qalaya yaxınlaşmaq istədi. Bu tərəfdən piyadalar, qoçaq süvarilər, sərkərdələrlə birlikdə (şahın) qabağına çıxıb, qəhrəmancasına döyüşürdülər və onu məğlub edərək geri qayıdırdılar» (53, s.130).

Yeri gəlmişkən qeyd edək ki, Mirmehdi Xəzani də öz salnaməsində Ağa Məhəmməd xan Qacarın ordusuna qarşı Qarabağın müsəlman əhalisinin partizan müharibəsindən və bu müharibənin əhəmiyyətindən ətraflı söhbət açır.

Mirzə Adıgözəl bəy isə yazır ki, silah gücünə qarabağlıların müqavimətini qıra bilməyən Ağa Məhəmməd xan İbrahimxəlil xana sülh təklif etdi. «O, (Ağa Məhəmməd xan Qacar - Y.H.) elçi və məktublar göndərdi. Çalışdı ki, cürbəcür yollarla İbrahim xanı özünə tabe etsin və Qarabağ əhalisini itaətə gətirsin. Lakin mümkün olmadı» (54, s.51).

Sonralar Şuşanın bu müdafiəsini geniş təsvirini vermiş general Kişmişev yazırdı: «Şuşanın hasarları Qalanı qəfil hücumlardan qoruyurdu. Qalaya gedən yeganə yol susuz, kəskin yoxuş idi. Hücum edənlər Qala qapısına çatanadək daşlar və silahlardan açılan atəşə tuş gəlirdi. Qala müdafiəçilərinin döyüşkənliyində isə qüsur yox idi. Bu yol, Şuşanı tutmağa imkan vermirdi. Ağa Məhəmməd xan İbrahim xanı aldadıb Qaladan çıxarmaq və çöldə onunla vuruşmaq istəyirdi. Lakin Qarabağ hökmdarı asanlıqla aldadılanlardan deyildi. O, təkcə Qalanın müdafiəsi ilə kifayətlənməmiş, düşmənə hiss olunan zərbə endirmək üçün bütün tədbirləri görmüşdü. Tirana olan nifrətinə təbəələrinin də şərik olmasına inanan xan, xalq müharibəsi elan etdi... Sevimli xanın çağırışı ilə bütün əhali ayağa qalxdı və yerli bəylərin təşkil etdikləri könüllülər tezliklə Ağa Məhəmməd xanın arxasında zəhmli qüvvəyə çevrildilər» (101, s.177).

Nəhayət, Ağa Məhəmməd xan Şuşanı ala biləcəyinə inamını tamamilə itirdi və lüzumsuz itkilərdən ehtiyat edərək Aran Qarabağına çəkildi.

Əhməd bəy Cavanşir 1795-ci il iyul-avqust aylarında Şuşanın Ağa Məhəmməd xan Qacar tərəfindən mühasirə olunması və bu dövrdə baş verən hadisələrdən bəhs edərək yazır: «Həmin il yazın başlanğıcından yayın əvvəllərinədək iranlılar hücum etməyə cürət etməyib, şərqdə olan ümumi taktika üzrə şəhər qarnizonunu acından öldürmək üçün hər vasitə ilə şəhərin ətrafla əlaqəsini kəsməyə çalışırdılar. Lakin bu plan baş tutmadı; belə ki, şəhər hər tərəfdən keçilməz dağlarla əhatə olunmuşdu; onlar bu yerləri ancaq talan edə bildilər» (17, s.165).

Əhməd bəy sözünə davam edərək bildirirdi ki, «beləliklə, mühasirə davam edirdi. İran qoşunu üçün heç bir yerdən ərzaq gətirilmirdi, ordunun qoşqu heyvanları taqətdən düşmüş, süvarilər atsız qalmışdı. Ağa Məhəmməd xan yüksək bir dağın (Qızıl qayanın - Y.H.) üstündə durub qəzəbindən İbrahim xana küçə söyüşləri yağdırırdı; İbrahim xan da borclu qalmayıb, ona ağzına gələni deyir və onu «Axta-xan» adlandırırdı. Nəhayət, 100 min nəfərlik ordu ilə Şuşanın müdafiəsini davam etdirmək İran hökmdarına mümkün olmadı; o, mühasirədən əl çəkib Qarabağın düzənliklərinə çəkildi və burada gözətçi hissəsi qoyub, qalan qoşunla Gürcüstan üzərinə yeridi» (17, s.165-166).

Ağa Məhəmməd xan öz qoşunlarına Şuşanı tutmaq üçün dəfələrlə əmr verməsinə baxmayaraq, şəhərin müdafiəçiləri hər dəfə onları qəhrəmancasına dəf edərək, geri oturdurdular. Qala divarları üzərindən müdafiəçilər sərbazların üzərinə daş və od yağdırırdılar. Şuşanın 33 günlük müdafiəsində İbrahimxəlil xanın şəxsi xidmətləri də böyük idi. Xan özü şəxsən müdafiəçilər üçün nümunə rolu oynayırdı.

Son vaxtlar İranda nəşr olunan tarixi əsərlərdə Qarabağ xanı İbrahimxəlil xanın Ağa Məhəmməd şah Qacara təslim olmasına dair yalançı məlumatlar verilir. Məsələn, Əlirza Rahvər Diqvan və Pərviz Haze Şahmersi bu hadisəni belə təsvir

edirlər: Qacar döyüşlərin birində İbrahimxəlil xanın qardaşı uşaqları Məhəmməd bəy və Əsəd bəyi əsir götürmüşdü və onlardan istifadə edərək Qarabağ xanını təslim etməyə çalışırdı. Lakin İbrahimxəlil xanın köhnə dostlarından biri, Ağa Məhəmməd şah Qacarın sərkərdələrindən Pirqulu xan Qacar, Qacar xanını fikrindən daşındırdı. Şahdan icazə istədi ki, o, Şuşa qalasının içərisinə gedib danışıq aparsın. Qacar onun təklifini qəbul etdi. Pirqulu xan İbrahimxəlil xan ilə söhbətində bildirdi ki, əgər Qarabağ xanı Ağa Məhəmməd Qacara məktub yazıb və hədiyyələr göndərsə, Qacar Şuşa qalasının mühasirəsindən əl çəkəcəkdir. Yoxsa, o, Kirmanda törətdiyi faciələri Şuşa qalası əhalisinin başına gətirəcəkdir. İbrahimxəlil xan Pirqulu xanın təklifi ilə göstəriş verdi ki, Şuşanın iki nəfər məşhur din xadimi Pirqulu xanın yanına gəlsin. Pirqulu xan onlarla söhbət etdi. Bu vaxt artıq şiələrin əza günləri idi. Həmin iki nəfər din xadimi İbrahimxəlil xanın şəhər əhalisinin canlarını qorumasını Kərbəla şəhidləri ilə müqayisə edərək dedilər: **«Kərbəla şəhidləri din yolunda öz canlarını fəda etdilər. İndi İbrahimxəlil xan da mərd Şuşa camaatının can, mal və namusunu qorumaq üçün öz şərafət və heysiyyətini ayaq altında qoyur». Nəhayət, İbrahim xan Qacara məktub yazıb göndərir və ona tabe olduğunu bildirir. İbrahimxəlil xan məktubda qeyd edir ki, qoca və xəstə olduğu üçün Ağa Məhəmməd xanın yanına gələ bilməyəcəkdir.** Məhərrəm ayının 19-da İbrahimxəlil xan ağ kəfən geyib Şuşa qalası divarı üzərinə qalxıb, Azərbaycan dilində Qacarı öz məktubunun məzmunu ilə təkrar tanış etdi. Tərcüməçilər İbrahimxəlil xanın sözlərini fars dilində orada olan fars mazandaranlı, gilanlı əsgərlərə çatdırdılar. Qoşunun bütün adamları başa düşdülər ki, Qarabağ xanı itaət edir. Qacar da öz adamlarından birinə göstəriş verir ki, uca səslə İbrahimxəlil xana desin ki, onun özü və şəhər əhalisi bağışlanır - əfv edilir, hədiyyələr qəbul olunur və Şuşadan alınan vergilər hər il ödənilməlidir. Beləliklə, Şuşa 33 gün mühasirədən sonra Ağa Məhəmməd xan Qacarın göstərişi ilə qoşun mühasirədən əl çəkib Tiflisə doğru gedirlər. Məhərrəm

ayının 23-də Şuşanın mühasirəsinə son qoyuldu (140, s.94).

1795-ci ilin yayında Şuşa qalası ətrafında, Qarabağda baş vermiş hadisələrin belə təsviri ağlabatan deyil və digər qaynaqların məlumatları ilə tam təkzib olunur. Həmin hadisələrin belə şərhi, çox güman ki, rəsmi fars tarixşünaslığının lüzumsuz təəssübkeşliyi və hadisələrə tam sərbəst yanaşmadan doğmuşdur.

Ağa Məhəmməd xan Qacar ehtiyat üçün özünün piyada və atlı ordusundan 3000 nəfərini Qarabağda qoyur ki, İbrahimxəlil xan arxadan ona hücum etməsin (əgər hadisələr, doğrudan da, yuxarıda göstərilən kimi bitsə idi, bu qoşuna ehtiyac olmazdı - Y.H.). İbrahimxəlil xan gürcü çarı İrakli ilə ittifaqa sadiq qalaraq İran qoşunlarının Tiflisə hücumu barədə ona xəbər vermişdi.

Şuşanın ətrafında məğlub olan Ağa Məhəmməd xan Qacar qoşuna və heyvanlara istirahət vermək, sonra isə Gürcüstana hücum etmək məqsədilə Ağdam ətrafında düşərgə salaraq, bir aya qədər burada istirahət etdi. Bundan sonra o, Gürcüstan üzərinə yeridi. Ağa Məhəmməd xan Qacarın Gürcüstan üzərinə hücumunu «Qarabağnamə»lərin müəlliflərinin demək olar ki, hamısı qələmə almışlar. Onlar, bu hücumun təfərrüatı barəsində məlumatları, demək olar ki, eynilə təkrar edirlər.

Mirzə Adıgözəl bəy öz salnaməsində yazır: «Ağa Məhəmməd şah Gürcüstan tərəfinə getmək barəsində əmr verdi. Səhralar üzərində dalğalanan bayrağı ilə irəliyə doğru hərəkət etdi. Mərhum İbrahim xan da iti gedən çapar vasitəsilə Gürcüstan valisinə xəbər verdi ki, Ağa Məhəmməd şah Şuşa şəhərini almaqda aciz qalıb Darüssürura-Tiflisə hərəkət etmişdir, lazımi tədarük və hazırlıq görsün, onu dəf etməkdə vaxt itirməsin» (54, s.52).

Əhməd bəy Cavanşir isə Ağa Məhəmməd xanın Gürcüstana yürüşünü qısaca olaraq belə təsvir edir: «Ağa Məhəmməd xan bir döyüşdən sonra Tiflisi ələ keçirir və 20000 nəfərə qədər əhalini əsir aparır. Dəhşətli sərkərdə qışlamaq üçün

Gürcüstandan Muğana qayıdır ki, yazda nəyin bahasına olursa-olsun Şuşanı zəbt etsin» (17, s.166).

Lakin Ağa Məhəmməd xan Qacarın bu planı baş tutmadı. Ona görə ki, əvvəla İranın fars vilayətlərində yenidən iğtişaşlar baş vermişdir. Ağa Məhəmməd xan Qacar vaxt itirmədən İrana qayıtdı. Mirzə Camal Cavanşir yazır: «Yaz vaxtı, İrəvan qalası və vilayəti hələ işğal olunmadığı bir halda, Fars ölkəsində yeni həyəcan, Kirman və sairədə iğtişaşlar üz verməkdə idi. Buna görə şah işləri nizama salmaq üçün Fars vilayətinə getdi. Haman yaz fəslində, şah Farsda olduğu zaman, İbrahim xan Dağıstandan qoşun gətirtdirib Gəncəni mühasirə etdi. Tiflisin bərbad olmasına Cavad xan bais olduğu üçün İbrahim xan bu işə Gürcüstan valisini də cəlb etdi. Cavad xan oğlu və bacısını İbrahim xanın yanına girov göndərdi. Bir daha İbrahim xanın itaətindən çıxmayacağına söz verdi. Məlik Məcnun isə vuruşma zamanı öldürüldü» (55, s.28).

Məlum olduğu kimi Gəncə hökmdarı Cavad xan və Məlik Məcnun Ağa Məhəmməd xan Qacarın Gürcüstan üzərinə yürüşündə iştirak edərək, onun qoşununa bələdçilik etmişdilər. Cavad xanın Ağa Məhəmməd xan Qacarın ordusuna qoşulub Tiflis yürüşündə iştirakının əsas səbəbini Kartli-Kaxetiya çarı II İraklinin daima Gəncə xanlığının daxili işlərinə qarışmasında və eyni zamanda da onun Gəncə xanlığını tutmaq iddialarında axtarmaq lazımdır. II İraklinin Gəncə xanlığında gözü olması barədə çoxlu mənbə, o cümlədən arxiv sənədləri var. 1789-cu ilə aid olan arxiv sənədlərinin birində belə bir məlumat vardır ki, 1788-ci ildə şahzadə Vaxtanq qoşunları ilə Gəncə şəhərinə yaxınlaşmış, şəhər ətrafı kəndlərdə minlərlə evi viran etmiş, adamları əsir almış və 60000 başa qədər mal-qaranı özü ilə Gürcüstana aparmışdır. Məşhur Ziyadoğlular nəslinin nümayəndəsi Cavad xan keçmişi unutmur, II İraklini özünə güclü düşmən hesab edirdi. Digər tərəfdən də yaddan çıxarmaq olmaz ki, Ağa Məhəmməd xan Qacar və Cavad xan eyni tayfanın nümayəndələri idilər (6 s.102). Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza hücumu ərəfəsində Cavad xan II

İrakliyə hər il ödədiyi 5000 manat bacı verməkdən imtina etdi.

Məlik Məcnuna gəldikdə isə o da, başqa məliklər kimi gizlində Rusiyanın Qafqazda **«Xristian dövləti»** yaratmaq siyasətini dəstəkləyir və xanlar arasında münasibətləri gərginləşdirməklə, Azərbaycanın dövlət müstəqilliyinə zərbə vurmağa çalışır, İbrahimxəlil xana da aralarındakı gərgin münasibətlərə görə kin və nifrət bəsləyirdi (6, s.102).

Salnamə müəlliflərinin hamısı general V.Zubovun 30 minlik qoşununun Azərbaycana gəlişini Rusiya imperiyasının Cənubi Qafqaz xalqlarına o, cümlədən də Azərbaycan xalqına böyük töhfə, burada əbədi asayişin təmin olunması və bir sözlə bölgədə İran işğalının qarşısının alınması kimi qiymətləndirirlər. Bu isə həqiqətdən olduqca uzaqdır. Ağa Məhəmməd xan Qacar qışı Muğanda keçirib. İrana qayıdan kimi, Rusiya imperiyası öz vədinə xilaf çıxaraq əvvəllər (1791-ci ildə), İran hökmdarı ilə bağladığı müqaviləni xaincəsinə pozaraq, Azərbaycan xanlarına müraciət edərək onlara Rusiya təbəəliyinə keçməyi təklif etdi. Bu planların reallaşdırılması isə çar hökuməti tərəfindən general V.Zubova həvalə olunmuşdu. Hər vasitə ilə öz hakimiyyətlərini qoruyub saxlamağa və real Qacar təhlükəsindən xilas olmağa çalışan Şimali Azərbaycan xanları üçün Zubovun hücumu, geniş manevr imkanları açırdı. Onlar Zubovun yanına gəlib rus çarına itaət etdiklərini bildirdikdə, ilk növbədə bu yolla öz hakimiyyətlərini real Qacar təhlükəsindən qoruduqlarını düşünürdülər. «Azərbaycan xanlıqları rus silahı qarşısında aciz qalaraq bir-birinin ardınca, zorla, danışıqsız tabe edilməyə başladılar. 2 may 1796-cı ildə Dərbənd, 6 iyun 1796-cı ildə Quba Rusiyaya tabe edildi. Qarabağ, Gəncə, Talış, Şəki xanları da çarəsiz qalıb V.Zubovun düşərgəsinə öz nümayəndələrini göndərərək tabe olduqlarını bildirdilər. 1796-cı ilin avqust ayında V.Zubov Bakı torpağına daxil oldu. O, şəhərin yaxınlığında düşərgə saldı. Çarəsiz qalan Bakı xanı (Hüseynqulu xan - Y.H.) V.Zubovun düşərgəsinə gedərək tabe olduğunu bildirdi. General Rusiya imperiyasına itaət əlaməti olaraq, Bakı xanına 1.200 manat dəyərində xəncər bağışladı»

(22, s.12-13).

Ruslar tərəfindən belə sürətli uğurlar həm də qüvvələr nisbətinin qeyri-bərabərliyinin nəticəsi idi: əksəriyyəti bir-biri ilə düşmənçilik edən xanlıqlardan heç birinin dişinədək silahlanmış 30 minlik rus ordusu ilə vuruşmaq imkanı yox idi.

İşğalçı Rusiya imperiyasının nümayəndəsi Zubov yerli xanlara hərbi rütbələr və qiymətli hədiyyələr paylayır, «əmanətlər» (girovlar) götürür və xanları özünə tabe etdirdi. II Yekaterina 6 noyabr 1796-cı ildə vəfat etdikdən sonra yeni, imperator I Pavel (1796-1801) V.Zubovun başçılığı ilə Azərbaycana göndərilmiş ekspedisiya korpusunu geri çağırdı. Qoşunun geri qaytarılması bir sıra səbəblərlə bağlı idi. Əvvəla, I Pavel anasına onun oynaşlarına dərindən nifrət bəsləyir, onların bütün tədbirlərinin əksinə hərəkət edirdi. O, Rusiyanın ənənəvi müttəfiqi İngiltərə ilə əlaqələrə girdi, İngiltərənin ən böyük müstəmləkəsi olan Hindistan üzərinə qoşun göndərdi. Əksinə, Yekaterina Rusiyanın düşmən olub vuruşduğu Fransa ilə ittifaq bağladı. Rusiya imperiyasının dövlət mənafelərinə belə etinasızlıq romanovların səciyyəvi nümayəndəsi olan dəlisov I Pavelə baha başa gəldi, o, az sonra öz oğlunun da iştirak etdiyi sui-qəsdin qurbanı oldu.

Ağa Məhəmməd xan 1796-cı ildə şah elan edildi. O, Dərbənd, Quba, Bakı, Şamaxının Rusiya imperiyası tərəfindən işğalı və bəzi xanların Zubov qarşısında baş əymələri ilə barışa bilmirdi. 1797-ci ilin mart ayında V.Zubovun komandası altında olan rus işğalçı ordusunun Şimali Azərbaycandan geri çəkilməsi xəbərini eşidən kimi Ağa Məhəmməd şah Qacar Azərbaycan və Dağıstan hakimlərinə fərman göndərərək rus qoşunlarına müqavimət göstərmədikləri üçün onları hədələyib itaətə çağırdı. Şah lovğalanaraq yazırdı ki, guya «rus qoşunları məndən zərbə yeyəcəklərindən qorxaraq, geri qayıtmağa məcbur oldular» (6, s.106).

Ancaq Rusiyanın Quzey Azərbaycana işğalçı yürüşü və bu hücumun nəticələri Mirzə Adıgözəl bəy, Mirzə Camal bəy, Əhməd bəy Cavanşir, Mirmehdi Xəzani, Rzaqulu bəy Mirzə

Camal oğlu, Mirzə Yusifin əsərlərində də öz obyektiv şərhini tapmamışdır.

Əvvəla qeyd etmək lazımdır ki, Ağa Məhəmməd xanla savaşda çox böyük əsgəri itki vermiş İbrahim xan Zubovun ekspedisiya korpusunun Qafqaza daxil olması ilə Qarabağ məliklərinin separatizm meyllərinin gücləndiyi və Quzey Azərbaycan xanları arasında Rusiyaya qarşı işbirliyinin olmadığı bir vaxtda, Rusiyanın işğalçı ordusuna qarşı hərbi təpki göstərmək imkanına malik olmadığına görə diplomatik səciyyəli addımlar atmaq zorunda qalmışdı. İkincisi, Zubovun işğalçı ordusu, Mirzə Adıgözəl bəyin yazdığı kimi, qısa bir zamanda Cənubi Qafqaz vilayətlərini Qarabağın sərhədinədək almış, «Salyanda qışlaq edib oturmuşdular» (54, s.54). Belə bir şəraitdə çıxılmaz vəziyyətdə qalan İbrahimxəlil xan, yuxarıda qeyd olunduğu kimi, diplomatik səciyyəli addımlar atmaqdan, bu fürsətdən Qacara qarşı mümkün qədər çox yararlanmaqdan başqa çıxış yolu görmürdü. İbrahim xanla Zubov arasındakı danışıqları təhlil deyil, təsvir edən Mirzə Camal yazırdı: «Mərhum İbrahim xan oğlu Əbülfət xanı Qarabağın bir neçə bəyzadəsi ilə birlikdə töhfə, tam bir razılıq və rəğbətlə böyük sərdar Valerian Zubovun hüzuruna göndərib, yüksək Rusiya dövlətinə səmimi qəlbdən itaət edəcəyini və sədaqətini bildirdi. Əzəmətli imperatriçənin adına səmimiyyət və sədaqətini andıran bir ərizə də yazdı» (55, s.124).

İbrahimxəlil xanın rus ordusunun komandanlığı ilə könüllü surətdə sazişə girməsindən az sonra Şamaxı, Şəki, İrəvan, Xoy, Qaradağ, Naxçıvan, Talış, Gəncə xanları da, Mirzə Camal Qarabağinin fikrincə, Rusiyaya itaət barədə məktublarını İbrahimxəlil xana göndərmiş və bu məktubları onun vasitəsilə V.Zubova çatdırmışdılar (55, s.124).

Bu hadisə həm də Qarabağ hökmdarının Azərbaycan xanları içərisində böyük nüfuza malik olmasından xəbər verir. Xüsusilə Şuşanın Qacara qarşı uğurlu müdafiəsi İbrahimxəlil xanın şöhrət və nüfuzunu daha da artırmış, onu faktiki olaraq Azərbaycan xanlarının çoxu üçün liderə çevirmişdir.

Əsərində Rusiya imperiyasının Qafqazda hərbi-siyasi planları və işğalçılıq siyasətinin məram və məqsədlərini açıqlamayan, xanların Rusiya ilə diplomatik danışıqlarının mahiyyətini aydınlaşdırmayan Mirzə Camal yazır: «Hamı yüksək Rusiya dövlətinə itaət etməyə hazırlaşdığı zaman, əzəmətli imperatriçə (II Yekaterina nəzərdə tutulur - Y.H.) vəfat etdi... Bu xəbər həm qəm-qüssəyə, həm də Ağa Məhəmməd şahın ədavətinin artmasına səbəb oldu. Çünki o, mərhum İbrahim xanın tələfat vermədən, xoşluq və mülayimliklə özünə tabe etmək fikrində idi. Lakin İbrahim xanın müharibəsiz əbədi Rusiya dövlətinə itaət edib, səmimiyyət göstərməsi, İslama və İran padşahından üz çevirməsi onu olduqca qəzəbləndirmişdir. Buna görə də mərhum İbrahim xanı yox etmək qərarına gələrək, yaz fəslində böyük qoşunla Azərbaycana tərəf hərəkət etdi» (55, s.125).

Mirzə Camal sözünə davam edərək bildirirdi ki, «Qarabağ vilayətində üç il davam edən quraqlıq nəticəsində taxıl və başqa bitkilər məhsul vermədiyindən, şiddətli qəhətlik baş vermişdi. Taxılın qiyməti o qədər qalxmışdı ki, hətta bir çətvərt buğdanı o vaxtın pulu ilə 45 manata güclə almaq olurdu. İş çətinliyə düşdü. Ağa Məhəmməd şah Qızılbaş qoşunu ilə Araz çayı kənarına çatdı. Azuqənin qəhətliyindən və son neçə ilin əziyyətindən sonra Şuşa qalasında belə bir güclü padşahın qarşısında dayanmaq çətin idi. Əlacsız qalan İbrahim xan arvad-uşağı, qohumları, məruf bəylərin ailəsi və sədaqətli xidmətçiləri ilə birlikdə qaladan köçüb, Car və Tala tərəfə getdi ki, orada dayanıb, Dağıstan, Gürcüstan və başqa vilayətlər kömək edərlərsə, tədarük görüb, müharibəyə hazırlaşsın, əks təqdirdə oradan Dağıstana, öz qohumu Avar hakimi Ümmə xanın evinə gedərək Ağa Məhəmməd şahın əziyyətindən qorunsun» (55, s.122).

Mirzə Camalın fikrincə İbrahim xanın ən yaxın adamları - «kürəkəni Nəsir xan, Əta xan Şahsevən, yenə kürəkəni olan Şəki vilayətinin hakimi Səlim xan və başqa əsilzadələr də» onunla birlikdə idilər. Ağa Məhəmməd şah İbrahimxəlil xanı

tutmaq üçün onun ardınca iki minə qədər atlı göndərdi. Lakin İbrahimxəlil xan sağ-salamat Balakən torpağına gəlib çatdı. «İyirmi gün onu burada saxladılar və böyük hörmət göstərdilər. Bu zaman Ağa Məhəmməd şah Qacarın Şuşada öldürüldüyünü xana xəbər verdilər» (55, s.122).

Mirzə Adıgözəl bəy isə Ağa Məhəmməd şah Qacarın Şuşaya ikinci dəfə yürüşünü belə təsvir etmişdir: «Ağa Məhəmməd şah, Sərdarın qayıtması xəbərini eşidincə, yenə Qarabağ vilayətini almaq fikrinə düşdü. Bahar çağı yağış qətrələri və ağac yarpaqlarının sayından artıq qoşunla Azərbaycan tərəfinə bayraq qaldırdı. Qızılbaş qoşunu Ağa Məhəmməd şahla bərabər Araz kənarına gəldi. Buna görə, Şuşa qalasında dayanıb, əldə olan qüvvə ilə, qaniçən bir düşmənlə vuruşmaq mümkün deyildi. Uca mərtəbəli xan, əhl-əyal, övlad və nəvələrini, canlarından keçən bəylərin əhl-əyalını götürüb Car və Talaya hərəkət etdi. Mərhum İbrahim xanın kürəkəni Nəsir xan, Şahsevən Əta xan, mərhum xanın kürəkəni şəkili Səlim xan və Qarabağın sair məşhur bəyləri də İbrahim xanla bir yerdə səfər etdilər» (54, s.46). Sonrakı hadisələrin təsvirində də Mirzə Adıgözəl bəy eynilə Mirzə Camalın yazdıqlarını təkrar edir.

Mirzə Yusif Qarabaği də İbrahimxəlil xanın Car-Balakənə getməsini Mirzə Camal Qarabaği və Mirzə Adıgözəl bəyin qələmə aldığı kimi təsvir edir. Lakin o, sözünü yekunlaşdırarkan belə bir fikir söyləyir: - «Ağa Məhəmməd şah Qacarın göstərişi ilə ləzgilərdən bir neçəsi yolda İbrahim xana hücum etməli, onu tutub Ağa Məhəmməd xanın yanına gətirməli idilər. Hər iki tərəf vuruşa hazır oldu. İbrahim xanın arvadı, Ümmə xanın bacısı Bikə ağa işə qarışdı və xahiş etdi ki, adət-ənənələrinin əksinə çıxıb vuruşmasınlar. Onlar bu çəkişmədə ikən Şuşa qalasından bir adam gəlib Ağa Məhəmməd xanın öldürüldüyünü xəbər verdi» (58, s.34).

Əhməd bəy Cavanşir isə dövrün tarixi hadisələrinə bir qədər fərqli yanaşaraq qeyd edir: «1797-ci ilin yazında Şuşada Ağa Məhəmməd şahın yenidən saysız-hesabsız qoşunla şəhərə

yaxınlaşması haqqında mənhus bir xəbər alındı. Aclıq və vəba xəstəliyi üzündən daha şəhərdə davam gətirmək mümkün olmadığına, Rusiyadan yaxın zamanlarda kömək gözlənilmədiyinə, Türkiyə sultanının yanına göndərilən elçilərin isə yalnız aparılan hədiyyələr müqabilində yeni hədiyyələr gətirib, heç bir kömək ümidi vermədiklərinə görə, İbrahim xan Şuşanı tərk edərək, öz ailəsi ilə birlikdə Car-Balakən vilayətinə getdi (17, s.167).

XVIII əsrin II yarısında Osmanlı dövləti Rusiya ilə apardığı müharibələrdə itkilərə məruz qalaraq hərbi cəhətdən zəiflədiyinə görə Ağa Məhəmməd xan tərəfindən sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün onunla müqavilə bağlamışdı. Elə buna görə də, İbrahim xanın Osmanlı imperiyasının himayəsi altına keçmək niyyətini bildirdiyi məktubları İstanbulda müsbət qarşılansa da, Osmanlı sarayının Qarabağ xanına real yardım göstərməsi qeyri-mümkün idi (50, s.46).

İbrahimxəlil xanın Şuşanı tərk etməsi səbəbləri salnaməçilər tərəfindən eyni cür izah olunmuşdur. Məlum olduğu kimi, salnamə müəlliflərinin hamısı XIX əsr tarixçiləridir. Onlar İbrahimxəlil xana, Ağa Məhəmməd şah Qacara həmin əsrdə baş verən hadisələr nöqteyi-nəzərindən yanaşdıqlarına görə, əsərlərində nöqsan və təhriflərə yol vermişdilər.

1797-ci ilin Şuşa müharibəsi barəsində bu salnamələrin məlumatları, xüsusən də Qarabağ xanının Cara getməsi haqqındakı məlumatları, nə qədər üst-üstə düşsə də Pənahəli xanın oğlu, heç kəsə baş əyməyən, hökmü uzaq-uzaq ellərdə yeriyən, igid və mərd, görkəmli dövlət xadimi və sərkərdə olan İbrahimxəlil xan Şuşanı və xanlığın əhalisini başlı-başına buraxıb Car-Balakənə qaçmasına inanmaq çətindir. Fikrimizcə, Mirzə Adıgözəl bəy, Mirzə Camal bəy Cavanşir və başqaları İbrahimxəlil xanın bu dövrdəki hərəkətləri barəsində təhrifə yol verirlər. İbrahimxəlil xanın müasirləri olan Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşirin yazdıqlarının əksinə olaraq, son illərdə müxtəlif tarixi qaynaqların araşdırması sübut edir ki, igid

və cəsur İbrahimxəlil xan Şuşanı və xalqını qoyub qaçmamışdı. Qarabağ xanı belə hərəkət də edə bilməzdi. İbrahimxəlil xan 1795-ci ildə olduğu kimi Ağa Məhəmməd şah Qacarın Şuşaya 1797-ci ildəki hücumu zamanı da şəhərin müdafiəsinə başçılıq etmiş və düşmənə ağır zərbələr endirilməsini təşkil etmişdir. Qarabağ xanı İbrahimxəlil xanın Şuşadan çıxması və Qarabağı müvəqqəti olaraq tərk etməsinin başqa səbələri vardır.

**Fransalı Jan Gevrin yazdığı «Xacə şah»** tarixi romanı İbrahimxəlil xan haqqında başqa faktları aşkara çıxarmağa imkan verir. Həmin romanın ikinci kitabında Qarabağ xanı İbrahimxəlil xanın Ağa Məhəmməd şah Qacarın Şuşaya 1797-ci ildə ikinci dəfə yürüşü dövründə «Qarabağnamə»lərdə öz əksini tapmayan tarixi faktlar vardır. Jan Gevr «Xacə şah» tarixi romanının bir fəslini **«İbrahimxəlil xanın Şuşadan çıxması» adlandırır. O, yazır ki, Şuşanın qala divarları bir nöqtəyə yönəldilmiş top atəşləri nəticəsində uçmaq təhlükəsi qarşısında qalanda İbrahimxəlil xan Ağa Məhəmməd şah Qacarın fikrini başa düşdü. Bildi ki, şəhərin divarını dağıdandan sonra Qacar qoşunları yaranacaq yarıqdan şəhərə girərək onu xaraba qoyacaqdır. Bunun qarşısını almağın yeganə yolu topları idarə edən fransız topçularını məhv etməkdir. Ağa Məhəmməd şah da İbrahimxəlil xanın fikrini oxuyurdu. O, bilirdi ki, Arazın suyunu onun düşərgəsinə döndərib böyük xəsarət verən İbrahimxəlil xan çox qorxmaz, eyni zamanda bacarıqlı bir hərbiçidir, topları sıradan çıxarmaq fikri onun ağlına gələcək. Ona görə də Qacar düşmənin hərəkətlərini çox diqqətlə izləyirdi. O, əsgərlərinə demişdi ki, İbrahimxəlil xan qaladan çıxa bilər**, siz gərək onun hücumunun qarşısını almaq üçün hazır olasınız. Qərb tarixçilərinə istinad edən müəllifə görə, «İbrahimxəlil xan 1797-ci ilin yazında Şuşa qalasından xaric oldu. O gün şəhərin darvazalarını açdılar, İbrahimxəlil xan özü bir dəstə başında olmaqla darvazaların birindən çıxdı, qalan əsgərlər də o biri darvazadan çıxdılar. İbrahimxəlil xan tapşırmışdı ki, darvazalardan çıxandan sonra, hər cürə maneələri yolların üstündən

götürüb, özlərini Topxanaya çatdırsınlar. Qarabağ hakimi özləri ilə götürdükləri barıt dolu kuzələrdən istifadə edərək şahın xeyli topunu partladıb geri qayıdarkan, qalanın bütün yolları düşmən tərəfindən tutulmuşdu. Ona görə də şimala çəkilməyə məcbur oldu» (39, s.169-172).

Mirzə Yusif Qarabağı Ağa Məhəmməd şahın Şuşaya daxil olması barədə yazır: «İbrahim xanın Car və Balakənə «qaçmaq» xəbərini eşitdikdən sonra Ağa Məhəmməd şah böyük bir dəbdəbə və təmtəraqla özünü möhtərəm və ehtirama layiq bir adam kimi göstərərək, Şuşa qalasına daxil olub, qalanın aşağı tərəfinə, Müxətər kənd darvazasının yaxınlığında olan İbrahim xanın böyük oğlu Məhəmmədhəsən ağanın evinə gəldi. Ağa Məhəmməd şah İbrahim xanla birlikdə gedə bilməyən əyanları və xanın qohumlarının, dostlarının axtarılıb tapılması və həbs edilməsi əmrini verdi. Həbs olunanların içərisində məlik Şahnəzərin oğlu Məlik Cəmşid, Molla Pənah və bir çox əyanlar var idi. Ağa Məhəmməd şahın məqsədi bunların hər birisindən bir qədər pul və cərimə almaq, sonradan onların hamısını öldürüb öz ürəyindəki köhnə ədavəti soyutmaq idi. Daha sonra Ağa Məhəmməd şah bir neçə gün keflə məşğul oldu» (58, s.34-35).

Təəssüf ki, hadisələrin canlı şahidi olmuş Mirzə Camal Cavanşir Ağa Məhəmməd şah Qacarın Şuşa həyatı haqqında olduqca qısa məlumat verir. O, yazır: «...İbrahim xan qaladan çıxıb Balakənə gedəndən sonra Ağa Məhəmməd şah heç bir maniyəyə rast gəlmədən Şuşa qalasına girib bir həftə orada qaldı» (55, s.127).

Əhməd bəy Cavanşir Ağa Məhəmməd şah Qacarın Şuşa qalasına maneəsiz daxil olmasını və düşmənlərini cəzalandırılmasını bir qədər ətraflı şərh etmişdir (17, s.167).

Qeyd etmək lazımdır ki, fransız müəllifinin tarixi romanda əks etdirdiyi fikir ağlabatandır. Əvvəla, 1795 və 1797-ci illər arasında tərəflərin hərbi-siyasi imkanları elə bir böyük dəyişikliyə uğramamışdır ki, Qarabağ xanı öz qala-paytaxtını, yaxınlarının çoxunu, əhalisini taleyin ümidinə buraxıb qaçsın.

Üç ildən bəri baş verən «qıtlıq və məhsulsuzluğa gəldikdə isə bu, üç ilə» elə 1795-ci ili də nəzərdə «tutur».

Fransız müəllifinin versiyasının daha ağlabatan olması məhz bu cür şərhin artıq elmi ədəbiyyatda, son dövrlərdə çıxmış bir sıra ümumiləşdirici əsərlərdə, məsələn, yeddicildlik «Azərbaycan tarixi»nin III cildində (s. 435) yer almasına gətirib çıxarmışdır.

**Ağa Məhəmməd şah Qacar Şuşaya varid olub bac alandan sonra göstəriş vermişdi ki, İbrahimxəlil xanın əmlakının siyahısını ona gətirsinlər. «Qarabağ hakiminin bütün varı, mülkü zəbt edildi. İbrahimxəlil xanın Qarabağın hansı yerində mülkü var idisə Ağa Məhəmməd şahın əmlakı oldu» (39, s.173-180)**.

«Qarabağnamə»lərin müəllifləri Ağa Məhəmməd şah Qacarın Şuşada öldürülməsini bir-birini təxminən təkrar etməklə qələmə almışlar.

Mirzə Camal bəy yazır: - «Ağa Məhəmməd şahın öldürülməsi təfsilatı belədir: İbrahimxəlil xan qaladan çıxıb Balakənə getdikdən sonra Ağa Məhəmməd şah heç bir maneəyə rast gəlmədən Şuşa qalasına girib bir həftə orada qaldı. Bir gecə xoşu gəlmədiyi bir işə görə Səfərəli bəy və Abbas bəy adlı iki nəfər yaxın xidmətçisinə acıqlanıb dedi: **«Səhər açılan kimi hər ikinizə ağır cəza verəcəyəm»**. Onlar bilirdilər ki, şah heç vaxt dediyindən və buyurduğundan dönmür. Odur ki, canlarının qorxusundan səhər açılana qədər onu öldürməyi lazım bildilər. Sübh açılana qədər şah yuxuda olarkən, otağına girib iti xəncərlərlə onu öldürdülər. Qapıları bağladılar. Şahın bazubəndini, tacını və cavahir həmailini götürüb Sadıq xan Şəqqaqinin yanına getdilər və əhvalatı ona söylədilər» (55, s.127).

Sadıq xan Şəqqaqi bunu şahın hiyləsi kimi düşünərək onların sözlərinə inanmır, «xatircəm olmaq üçün Ağa Məhəmməd şah Qacarın yaşadığı İbrahimxəlil xanın böyük oğlu general-mayor Məhəmmədhəsən ağanın evinə gələrək, şah yatan otağın pərdəsini qaldırdı. Baş əyərək yavaş-yavaş otağa girdi. Səfərəli bəy qabağa düşərək, yorğanı şahın başından çəkdi və

onun xəncərlə parçalanmış cəsədini ona göstərdi. Sadıq bəy, şahın bazubəndini, tacını və həmailini götürüb öz mənzilinə gəldi və şayiə yaydı ki, şah onu Gəncə və Gürcüstana göndərir. Sadıq xan Abbas bəyi özü ilə götürüb Şuşadan çıxdı. Canilərdən biri isə Şuşada qaldı. Az sonra şəhərdə şahın ölüm xəbəri yayıldı. Şahın qorxusundan pərakəndə halda Qızılbaş xanları ələ keçirdiklərini götürüb dəstə-dəstə öz əlaltıları ilə Şuşanı və Qarabağı tərk edib qaçdılar» (55, s.127).

Salnamə müəllifləri həm də qeyd edirlər ki, Ağa Məhəmməd şah Qacar yerli feodallar və saray əyanlarının sui-qəsdi nəticəsində öldürülmüşdür.

Mirzə Yusif Qarabaği yazır: **«Ağa Məhəmməd şahın yaxın qulluqçularından olan Səfərəli bəy və Abbas bəy kiçik bir xəta etdikləri üçün şah onlara qəzəblənib deyir: «Sabah gün çıxan kimi həbs olunan Şuşa əhalisinin başlarını bədənlərindən ayırıb, onlardan minarələr düzəldəcəyəm, sizin də başınızı həmin başların üstünə qoyacağam»**. Onlar bilirdilər ki, Ağa Məhəmməd şah Qacarın sözü sözdür, onun daş ürəyində heç bir rəhm yoxdur. Onların ölümündən keçməyəcəkdir. Həmin gecə Abbas bəy və Səfərəli bəy sübhə yaxın hərəmxanaya girib iti və üryan xəncər ilə onun bədənini Davudun zirehi kimi tikə-tikə doğradılar... onlar şahın qolbağını, cəvahir nişanlı həmailini götürüb, böyük sərdarlardan biri olan Sadıq xan Şəqqaqiyə verdilər və Ağa Məhəmməd şah Qacarı necə öldürdüklərini ona danışdılar. Sadıq xan aradan çıxmaq üçün hay-küy salaraq bildirdi ki, şah onu başqa qulluğa təyin edib, gərək gedə, İbrahim xanı və onun yoldaşlarını harada olsa tutub gətirə. Bu bəhanə ilə sərdar Şəqqaqi qoşununu götürüb qaladan çıxdı. Qatilllərdən Abbas bəyi də özü ilə apardı. Səfərəli bəy isə Şuşada qaldı» (58, s.35-36).

Mirzə Adıgözəl bəy Ağa Məhəmməd şahın Şuşada öldürülməsini belə təsvir etmişdir: «Ağa Məhəmməd şahın Şuşa şəhərinə daxil olmasından bir həftə keçmişdi. Bir gecə yaxın adamlarından və nədimlərindən Səfərəli bəy və Abbas bəyə (gördükləri) əhəmiyyətsiz bir xətadan ötrü dedi: - «Səhər çağı,

fələyin qüdrətli padşahı - işıqlı günəş, cəsədsiz başını məşriqdən çıxardar. Fələyin mina rəngli ətəyini (üfüqü) gül təki qızardır. Mən də sizin başınızı-baxanlara ibrət almaq üçün alçaq olan vücudunuzdan bir cida boyu ayıraram. Gül rəngli qanınızla Qarabağ gülzarını laləzara çevirərəm». Onlar yəqin bilirdilər ki, Ağa Məhəmməd şah sözünü dəyişməz. Vasitəçilərin isti nəfəsi onun dəmir kimi olan soyuq ürəyinə təsir etməz. Çarəsiz qalıb həmin gecə onun işini bitirmək qərarına gəldilər. Səhərə yaxın Ağa Məhəmməd şah yuxunun bihuş edən piyaləsindən xumarlanmaqda idi. Onlar hərəmxanaya daxil oldular. Qan saçan xəncərlə onun cəsədini Davudun zirehi tək deşik-deşik etdilər. Şahın daş-qaşla bəzədilmiş bazubənd, tac və həmailini götürüb özlərini Şəqqaqi Sadıq xanın yanına yetirdilər. Əhvalatı olduğu kimi ona bildirdilər. Sadıq xan onların sözlərinə inanmadı və dediklərinə etimad etmədi; çünki o, öz barəsində xatircəm olmayıb həmişə qorxuda idi. Ona görə onların sözlərini Ağa Məhəmməd şahın hiyləsi hesab etdi. Axırda qəliz andlar içib Sadıq xanı inandırdılar. Onu min qorxu və vahimə ilə İbrahim xanın oğlu mərhum Məhəmmədhəsən ağanın imarətində olan Ağa Məhəmməd şahın mənzilinə gətirdilər. Əvvəlcə Səfərəli bəy otağa girdi. Yorğanın ucunu şahın üstündən qaldırdı. Yenə od yağdıran xəncər ilə onun sinəsindən qan çayları axıtdı. Sadıq xan bu halı görcək, tab və taqətdən düşdü. Dərhal qolbağ, tac və həmayili götürüb öz mənzilinə gəldi. Şəqqaqi qoşunlarını yığıb qaladan köçdükdə dedi: - «Şah məni İbrahim xanın ardınca göndərir». Şahın qatillərindən Abbas bəyi özü ilə bərabər apardı. Səfərəli bəy isə Qalada qaldı. Sadıq xan qaladan çıxandan iki saat sonra, şahın öldürülməsi xəbəri şəhərə yayıldı» (54, s.57-58).

«Qarabağnamə»lərin müəllifləri Ağa Məhəmməd şah Qacarın öldürülməsi səbəbini onun rəhmsizliyi və daş ürəkli olması qarşısında xidmətçilərinin vahiməsində, canlarını xilas etmək arzusunda görürlər. Mirzə Camal yazır ki, şəhər əhalisi tökülüşüb, əllərinə keçən adamları soyundura-soyundura imarətə daxil olurdular. İmarətin şeyləri, xalı – gəbəsi və şahın

başqa qızıl gümüş və cavahiratı qarət edildiyi zaman, igidliyi və şücaətilə məşhur olan, mərhum İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy xəbər tutaraq, bir neçə nəfər nökəri ilə imarətin qapısını kəsdi. Hər kəs əlinə düşəni aparmışdı. «O, yerdə qalan şeyləri camaatın əlindən aldı, cəvahirdən və qızıldan qayırılmış alətləri, qızıl-gümüş qab-qacağı, xalı-gəbə, pul və başqa şeyləri tamamilə ələ keçirib, mərhum Məhəmmədhəsən ağanın evindən öz evinə apardı. Qalanın içərisində hökumət və divan işlərilə məşğul oldu. Ağa Məhəmməd şah Qacarın kəsilmiş başını öz məktubu ilə birlikdə qədim xidmətçilərindən birinin (Qarabağlı Məhəmməd Rəfi bəyin) vasitəsilə Balakənə mərhum İbrahim xanın yanına göndərdi. Şahın başı İbrahim xanın hüzuruna çatdıqda onun öldürülməsi hamıya məlum oldu. Nəcabətin və ehtiramın tələbinə görə, şahın başını tam bir hörmətlə, qüsl və kəfən etdirib, lazımi dini mərasim qaydalarını bilən, yaxşı mötəbər mollalarla Cara göndərərək, o yerin böyük adamlarının qəbiristanlığında dəfn etdirdi» (55, s.127-128).

Mirzə Adıgözəl bəy isə Ağa Məhəmməd şah Qacarın qətlinə münasibətini belə bildirir: «Qızılbaş xanları bu hadisədən qorxuya düşüb özlərini itirdilər. Hər biri öz adamları ilə birlikdə dəstə-dəstə qaçıb dağıldılar. Şəhər əhalisi tam imarətə daxil oldu. Qızılbaş qoşunundan əsir düşənləri soyundurdular. Bu zaman mərhum İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy imarətə daxil oldu. Şahlıq xəzinəsinə aid şeylərin yerdə qalanlarını zəbt etdi. Qızıl-gümüş qabları, alətləri və qiymətli cəvahiratı mərhum Məhəmmədhəsən ağanın imarətindən öz sarayına göndərdi. Səltənət və rəyasət işilə məşğul oldu. Ağa Məhəmməd şah Qacarın başını da Məhəmməd Rəfi bəylə Balakənə göndərdi. Behiştlik İbrahim xan, Ağa Məhəmməd şahın təhlükəsindən asudə olunca, onun başını bir sovqat kimi Gürcüstan valisinə göndərdi» (54, s.58).

Bir neçə gündən sonra İbrahimxəlil xan «öz igid oğlu və vəliəhdi cənab Mehdiqulu ağanı Qarabağa göndərdi ki, əhalisini sakit edib şəhərdə asayişi bərpa etsin. Onun ardınca ən böyük oğlu Məhəmmədhəsən ağanı da Qarabağa tərəf göndərdi... Bir

neçə müddətdən sonra, behiştlik xan özü də, Qarabağa gəldi və keçmişdə olduğu kimi, yenə hökumət taxtında oturdu...» (54, s.58).

«Qarabağnamə»lərin müəlliflərindən Mirzə Adıgözəl bəy və Mirzə Yusif Qarabağidən başqa heç biri Ağa Məhəmməd şah Qacarın kəsilmiş başını Balakəndən Gürcüstan valisi II İrakliyə İbrahimxəlil xan tərəfindən hədiyyə kimi göndərilməsini təsdiq etmirlər. Ola bilməzdi ki, qatı düşməni olan şahın kəsilmiş başı İbrahimxəlil xan tərəfindən xristian hökmdarına hədiyyə göndəriləydi. Bu İslam dininə, şəriət qaydalarına hörmətsizlik olardı. Bu iki müəllifdən başqa digər salnamə müəllifləri göstərirlər ki, Ağa Məhəmməd şah Qacarın kəsilmiş başı İslam dininin tələblərinə uyğun olaraq, İbrahimxəlil xanın göstərişi ilə dəfn edilmişdir.

Jan Gevrə görə, Fətəli şah Tehrana qayıtdıqdan sonra qərara aldı ki, «Ağa Məhəmməd şahın Şuşada, baş ruhani Hacı Babəkin yanında əmanət qoyulmuş cənazəsini Tehrana gətirib, Həzrəti Əbdüləzimin məqbərəsində əmanət qoysun ki, sonra Nəcəf şəhərinə apartdırıb dəfn etsin. Fətəli şah əmisinin cənazəsini Şuşadan gətirmək üçün öz sərdarlarından Hüseynqulu xan İzəddinlu Qacar başda olmaqla nümayəndə heyətini qalaya göndərdi. Cənazə Tehrana gətirildikdən sonra böyük hörmətlə, İslam dininin adət və ənənələri əsasında, 1797-ci ilin payızında, hicri qəməri rəcəb ayının 19-da Nəcəf şəhərində torpağa tapşırıldı.

Haqqında yuxarıda danışdığımız Fransız müəllif öz tarixi romanında Ağa Məhəmməd şah Qacarın şəxsiyyətinə böyük qiymət verir. Bu türk oğlunun faciəli gənclik həyatını çox ətraflı və parlaq boyalarla təsvir edir. Bu tarixçi, alim, ədib yazır ki, Ağa Məhəmməd şah Qacarın yerinə kim olsaydı, hamıya qarşı mərhəmətsiz olardı: «Ağa Məhəmməd şah Qacarın rəhmsizliyi o zamanın rəsmisinə görə olub, ondan kənara çıxmırdı. Baş kəsmək, kor etmək, qol, burun, qulaq kəsmək adi cəza tədbirləri idi» (39, s.172-219).

Ağa Məhəmməd şah Qacarın Şuşada qətlə yetirilməsi,

qızılbaş qoşununun Şuşanı, ümumiyyətlə Qarabağı nizamsız surətdə tərk etməsindən sonra İbrahimxəlil xanın doğma xanlığa qayıtması və yenidən hakimiyyətə başlamasına şərait yaratdı. Amma ilk günlərdə bunun üçün müəyyən maneələr mövcud idi. İbrahimxəlil xanın Şuşada olmamasından və Ağa Məhəmməd şah Qacarın öldürülməsindən istifadə edən xanın qardaşı oğlu, cəsarətli və şücaətli bir şəxsiyyət olan, Qarabağda və onun ətrafında «Batmanqılınc» ləqəbi ilə ad qazanan, eyni zamanda da olduqca şöhrətpərəst və hakimiyyətə son dərəcə hərislik göstərən Məhəmməd bəy Cavanşir Şuşada hakimiyyəti ələ keçirmişdir. Hakimiyyətini bərpa etmək üçün ilk növbədə İbrahimxəlil xan onu zərərsizləşdirməli və vətəndaş qarşıdurmasının qarşısını almalı idi.

Mirzə Adıgözəl bəy, Mirzə Camal və digər salnaməçilərdən hər biri İbrahimxəlil xanın Şuşaya qayıtmasını özlərinə məxsus tərzdə şərh edirlər. Bu barədə Mirzə Adıgözəl bəyin əsərindən yuxarıda iqtibas gətirmişik. Mirzə Camal bəy İbrahimxəlil xanın Şuşaya qayıtması və yenidən hakimiyyətə başlaması barədə yazır ki, İbrahimxəlil xan dərhal Şuşaya qayıtmadı. O, əvvəlcə oğlanlarını Şuşaya yola saldı. Birinci dəfə Mehdiqulu ağanı Qarabağ bəylərinin bir neçə övladı ilə ora göndərdi: «Məhəmməd bəy Mehdiqulu ağanın bəyzadələrlə Qarabağa gəlişindən sonra səmimiyyətdən, düzlükdən və İbrahim xanın itaətindən çıxmayacağından danışırdısa da ürəyində hakimiyyət həvəsinə düşmüşdü. O, bir para dələduz, xain və qorxaqları başına toplayıb, hökuməti öz əlinə almaq istəyirdi. Mehdiqulu ağa zərurətə görə onunla yumşaq rəftar edirdi, çünki pərdəni yırtmaqla bir iş görə bilməzdi. O, gah ətrafda, gah da qalanın içində gəzir, həqiqəti mərhum xana yazıb gözləyirdi. Bu xəbər mərhum İbrahim xana Kür qırağına çatdıqda övladlarının ən böyüyü mərhum Məhəmməd Həsən ağanı beş yüz nəfər ləzgi qoşunu və Qarabağ sərkərdələri ilə təcili olaraq yola saldı» (55, s.128, 129).

«Qarabağnamə»ləri diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, Məhəmməd bəy Cavanşirin siyasi fəaliyyəti Ağa

Məhəmməd şahın Qarabağa hücumu və Şuşanın alınmasından sonra xeyli güclənmişdi. Bir sıra müəlliflər belə bir əsassız fikir irəli sürürlər ki, guya Ağa Məhəmməd şah Qacar onu Qarabağa hakim təyin etmişdi. Halbuki, o, şaha nifrət edirdi. Əhməd bəy Cavanşir Məhəmməd bəyi Ağa Məhəmməd şah Qacarın öldürülməsinin təşkilatçısı kimi qələmə verir. Bu müəllif yazır: «Ağa Məhəmməd xanın Şuşaya 1795-ci ildə birinci hücumu zamanı Araz çayının yuxarılarında ona qarşı Məhəmməd bəyin başçılığı ilə 3000 nəfərlik süvari dəstə çıxarılmışdı. Məhəmməd bəy xəbər tutur ki, Ağa Məhəmməd xan Araz çayının aşağılarından keçib, Hindarx kəndinin yaxınlığındakı düzənlikdə düşərgə salmışdır, xanın ərzaq daşıyan arabaçıları isə Kəhrizli kəndinə hücum edib yandırmışlar. O, dəstəsindən 300 nəfər yaxşı qaçan atı olan süvari ilə intiqam almağa gedir. Axşam üstü onlar yəhərlərinə bir şələ ot bağlayaraq özlərini ərzaq arabaçısı kimi göstərdikləri üçün heç kəs onları tanımır. Dəstə düşərgəyə çatıb otu bir tərəfə atır və heyrət içərisində qalan düşmənə hücum edir. Onlar uzun müddət müvəffəqiyyətlə vuruşur və yalnız iranlılar böyük dəstələr halında birləşdikdən sonra geri çəkilməyə başlayırlar. Doyran kəndi yaxınlığında Məhəmməd bəyin atı çuxura düşür və o, atı güc-bəla ilə çuxurdan çıxardır. Qaş qaralanda onlar Ərki düzündə tələyə salınmış düşmən üzərinə atılaraq onları tamamilə qırırlar» (17, s.178).

Əhməd bəy Cavanşirin salnaməsinə yazılmış şərhdə göstərilir: «Məlum olduğu üzrə, bütün Şərq işğalçıları, etibarlı oturaq yerləri olmadığına görə qiymətli şeylərini həmişə öz yanlarında saxlayırdılar. Buna görədir ki, Məhəmməd bəy Ağa Məhəmməd şahın iqamətgahını ələ keçirərək oradan hədsiz-hesabsız sərvət, o cümlədən qiymətli daş-qaş, qızıl, gümüş, şal, silah və digər qiymətli şeylər tapmışdı. Öz qardaşlarına, bacılarına və İbrahim xana verdiklərindən başqa, qalan qiymətli şeylər Şuşada, şəhərin kənarında, Kirs dağında basdırılmışdı, qalanları isə onun yanında idi, göz ilə görənlərdən eşitdiyimə görə o, Kələntərliyə 80 yüklə gəlmişdi (Kələntərli Tərtər çayı sahilində kənddir - Y.H.). Məhəmməd bəyin bu sərvəti

basdırması barədə xalq arasında müxtəlif rəvayətlər söylənilir. Deyilənə görə, Məhəmməd bəy bu işi ermənilərə gördürmüş, sonra isə onları Xəzinə qayasından tulladıb öldürtmüşdü. Başqaları isə söyləyirlər ki, guya xəzinəni basdıranlar gözü bağlı olublarmış» (17, s.179).

Salnaməçilər Məhəmməd bəyin Şuşadan qaçmasını müxtəlif şəkildə təsvir edirlər. Bu hadisə ilə bağlı Mirzə Camal bəy yazır: «Mərhum xanın gəlmək xəbərini eşidən Məhəmməd bəy Qarabağ ellərini Araz kənarına köçürtmək və müxalifət etmək fikrinə düşdü. Mərhum Məhəmmədhəsən ağa Məhəmməd bəyin qoşunu və tərəfdarlarının yığıncağı olan Kirs dağındakı qalanın üç verstliyinə çatdı. Qarabağ əhli, qoşunu və mərhum ağanı gördükdən sonra hamı dəstə-dəstə onun xidmətinə gəlib əlini öpdülər. Məhəmməd bəyin topladığı ellər yerləşdirildikləri meşə və çöllərdə qalmışdılar. Məhəmmədhəsən ağa adam göndərib Məhəmməd bəyi öz yanına çağırdı. Əvvəlcə Məhəmməd bəy qorxuya düşdü, lakin, sonra xatircəm olub, Məhəmmədhəsən ağanın hüzuruna gəldi, mərhum Məhəmmədhəsən ağanın əlini öpüb, xatircəmliklə onun yanında qaldı. Məhəmmədhəsən ağa Məhəmməd bəyin istiqlaliyyəti zamanında qarışıqlığa bais olan bir neçə cinayətkarı Məhəmməd bəyin gözü qabağında məsuliyyətə cəlb edib, cəzalandırmağı əmr etdi. Qalanın içərisində olan Mehdiqulu ağa mərhum ağanın gəldiyini və qoşunla qalanın yanından keçib getdiyini eşitdikdə, əmisi oğlu Məhəmməd bəyin adamlarını tutub həbs etdirdi. Məhəmmədhəsən ağa Qarabağ ellərini xatircəm edərək, bütün mahallara hökmlər yazdı, hamıya öz işi və kasıbçılığı ilə məşğul olmağı əmr etdi. Nəhayət, İbrahim xan qoşun əhli, yaxın adamları, Nəsir xan və Əta xan Şahsevənlə Qarabağa gəldi» (55, s.129).

Mirzə Camal da Məhəmməd bəy Cavanşirin sonrakı taleyinə biganə qalmamış və onu ətraflı qələmə alaraq yazmışdır: «Məhəmməd bəy mərhum Məhəmmədhəsən ağa tərəfindən xatircəm edildikdən sonra başqa xanların övladı kimi mərhum Pənah xan sülaləsi arasında heç bir qorxu hiss etmədən

yaşayırdı. Buna baxmayaraq, cavanlığı üzündən və dövlətinə məğrur olduğundan Kür qırağına gedib, şəkili Məhəmmədhəsən xanla dostluq etməyə başladı. Məhəmmədhəsən xan onu aldadıb dedi: «Mən bir kor kişiyəm, Mustafa xanın hökmündən cana gəlmişəm. Gəl, qızımı sənə verim, mənim yanımda qal, Şəki vilayətini hökumətini öz əlinə al». Məhəmməd bəy bu sözlərə aldanıb öz adlı-sanlı qohumlarından, möhtərəm əmisindən əl çəkərək Məhəmmədhəsən xanın yanına getdi. Məhəmmədhəsən xan isə onu gəlcək tutub həbs etdi; yanında olan bütün cavahiratına, puluna və başqa şeylərinə sahib oldu. Şirvan xanı Mustafa xan Məhəmməd bəylə qədimdən düşmən idi, çünki atasının əvəzinə onun atasını və qardaşını öldürmüşdü. Mustafa xan Məhəmmədhəsən xanın yanına adam göndərib, Məhəmməd bəyi öz yanına gətirərək, (55, s.130) at üstündə, əli-ayağı bağlı halda, güllə ilə öldürdü. Göründüyü kimi, Məhəmməd bəy Batmanqılıncın həyatının son dövrünün təsviri sahəsində Mirzə Camalla Əhməd bəy Cavanşir arasında müəyyən fərq özünü açıq şəkildə göstərir. Əhməd bəy Cavanşir hər yerdə İbrahim xanın qardaşı Mehrəli bəy və övladlarına mənfi münasibəti ön plana çəkir (6, s.124-125). Bu da Batmanqılıncın birbaşa xələfi olan bu müəllif üçün təbiidir.

Mirzə Camal öz əsərində Məhəmməd bəyin öldürülməsindən sonrakı siyasi vəziyyətə də biganə qalmamış və ona öz münasibətini bildirmişdir. O, yazır: «Bu ölümdən sonra, Şirvan xanı Mustafa xan, Şəki xanı Məhəmmədhəsən xan və Gəncə xanı Cavad xan Qarabağ xanlığına düşmən kəsildilər. Görünür, Ağa Məhəmməd şah Qacarın Şuşaya ikinci dəfə hücumu nəticəsində Qarabağ xanlığının bir qədər zəifləməsindən istifadə etmək fikrində idilər. İbrahimxəlil xan Şuşaya gəlməmişdən bir qədər əvvəl, belə bir xəbər yayıldı ki, Ağa Məhəmməd şah Qacar tərəfindən Şiraza və fars vilayətinə hakim təyin edilmiş Sərdar Xanbaba Cahanbani-Baba xan adlanan Fətəli xan, şahın qətli xəbərini eşitcək Tehrana gəlmiş və padşahın malına, xəzinəsinə sahib olub, şahlıq taxtında əyləşmişdir (55, s.130).

Fətəli şah İbrahimxəlil xanın yanına elçi göndərib Ağa Məhəmməd şahın cəsədini tələb edərkən İbrahimxəlil xanın ona tabe olmasını da arzu etdiyini bildirmişdi. Qarabağ vilayətinin vəziyyəti olduqca çətin olduğundan, ətrafı isə düşmən və bədxahlar bürüdüyündən, İbrahim xan mülayimlik etməyi məsləhət bilərək, Ağa Məhəmməd şahın cənazəsini böyük ehtiramla Tehrana göndərdi. «Fətəli şah İbrahim xanın bu yüksək nəcib hərəkətini olduqca yüksək qiymətləndirdi... Hər iki tərəfin xatircəmliyi üçün əziz və möhtərəm qızı Ağabəyim Ağanı onun hərəmxanasına baş xanım göndərməsini arzuladığını bildirdi. İbrahimxəlil xan bu məsələni Divanın müşavirəsində həll etdikdən sonra Ağabəyim Ağanı Tehrana göndərməyi məsləhət bildi. Fətəli şah İrandan möhtərəm elçiləri İbrahimxəlil xanın yanına göndərərək kəbin kəsdirdi və xan Ağabəyim Ağanı Tehrana göndərdi. Eyni zamanda xan öz oğlu Əbülfət ağanı da xatircəmlik üçün Fətəli şahın sarayına göndərdi. Şah onu, yüksək xanlar sırasında, öz məclisində oturtdu. Bu mehribanlıq Rusiya imperiyasının Zaqafqaziya (Cənubi Qafqaza - Y.H.) işğalçılıq məqsədilə, ayaq basdığı günə kimi davam etdi» (55, s.130, 131).

«Fətəli şaha tam itaətkarlıq əlaməti olaraq, Şuşada onun adına 30 qəpik qiymətində olan gümüş pul (sahibqran) kəsməyə başladılar. Fətəli şah onun ən böyük arzularını yerinə yetirməkdə belə canfəşanlıq göstərilməsi müqabilində mükafat olaraq, xana Qarabağ xanlığının gəlirindən başqa Qaradağ xanlığının gəlirindən də istifadə hüququ verdi» (17, s.180).

Fətəli şahın xarici siyasətinin əsasını dövlətini möhkəmləndirtmək, onun ərazisini genişləndirmək, habelə öz nüfuzunu artırmaq təşkil edirdi. O, bütün Azərbaycan xanlıqlarını, o cümlədən də Qarabağ xanlığını da özünə tabe etmək fikrində idi. Bunu hiss edən, siyasi hadisələrin burulğanında təngə gəlmiş və eyni zamanda, qocalıb taqətdən düşmüş İbrahimxəlil xan oğlunun və qızının İranda bir növ girov vəziyyətində qaldıqları halda, o zaman İranın Cənubi Qafqaz uğrunda mübarizədə güclü rəqibi sayılan Rusiya ilə də

münasibətləri pozmamışdır. Hətta, 1804-1813-cü illər birinci Rusiya-İran müharibəsi dövründə də İbrahimxəlil xan Rusiya imperiyasına və onun Güney Qafqazdakı işğalçılıq müharibələrinə qarşı münasibətini dəyişməmişdi. Eyni zamanda onu da qeyd edək ki, Qarabağ xanlığı nə XVIII əsrin sonunda, nə də XIX əsrin əvvəllərində Rusiya imperiyasına qarşı silahlı müqavimət göstərməmişdir» (6, s.128).

Məlum olduğu kimi 1801-1802-ci illərdə Qafqazdakı Rusiya qoşunlarına K.F.Knorrinq komandanlıq etmiş və 1802-1806-cı illərdə bu vəzifədə onu xalqımızın qəddar düşməni olan general P.D.Sisianov əvəz etmişdi. Onun bu vəzifəyə təyin olunması ilə əlaqədar olaraq Cənubi Qafqazdan, o cümlədən də Qarabağda siyasi vəziyyət tamamilə dəyişdi. Sisianov bütün Cənubi Qafqazda Rusiya imperiyasının kobud, zorakı müstəmləkə siyasətini açıqdan-açığa həyata keçirməyə başladı. Bu siyasət özünün ilk ən qabarıq və səciyyəvi ifadəsini Gəncə hadisələrində tapdı. 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə Gəncə xanlığının Rusiya imperiyasının silahlı qüvvələri tərəfindən qəddarcasına işğalından sonra, Sisianov Qarabağ, Şəki və Şirvan xanlıqlarından Rusiya imperiyasının «himayəsinə» keçməyi tələb etdi (86, c.II, s.1341, 1416). Öz işğalçılıq hərəkətlərinə diplomatik don geyindirməyi belə lazım bilməyən Sisianov həmin məktublarda öz fəaliyyətini silah gücünə davam etdirəcəyini açıq şəkildə bəyan edirdi.

XIX yüzilliyin əvvəllərində Qarabağ xanlığının daxili vəziyyəti son dərəcə mürəkkəb olaraq qalırdı. Məlum olduğu kimi, Ağa Məhəmməd şah Qacarın hücumlarından sonra, əhali var-yoxdan çıxmış, güclü qıtlıq yaranmışdı. Xanlığın müdafiə qüdrəti isə xeyli sarsılmışdı. Digər səbəblərdən biri də Qarabağda yaşayan xristianların bir hissəsinin Rusiya imperiyasına meylli olması da Qarabağ xanlığının Rusiya tərəfindən işğalını sürətləndirir və asanlaşdırırdı.

Əhməd bəy Cavanşir yazır: «Rusiya və İran üçün Qarabağın strateji mövqeyinin böyük əhəmiyyəti var idi. O zamankı İran sərkərdələrinin, o cümlədən şahın özünün rəyinə

görə alınmaz qala olan Şuşa şəhəri iranlılar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı hesab olunurdu. Fətəli şah İbrahim xanla qohum olduğu və aralarında yaxşı münasibətə görə zor işlədə bilmirdi. Ona görə də şahın yeganə çarəsi, xanın oğlu Əbülfət xanın əli ilə fitnə-fəsad törədib, Şuşanın ələ keçirilməsini həyata keçirmək idi» (17, s.182).

Rusiya imperiyasının hərbi-strateji planlarında Gəncənin işğalına xüsusi önəm verilməsində əsas məqsəd bütün Quzey Azərbaycanda onun ağalıq rejiminin qurulması ilə birbaşa əlaqədar idi. Salnaməçi yazır ki, Sisianov xristian tarixi ilə 1803-cü ilin axırlarında gəlib, Gəncə qalasını mühasirə etdi. «Bir aylıq mühasirədən sonra, bir neçə dəfə adam göndərib, Cavad xanı böyük imperatorun itaətinə və qalanı təhvil verməyə dəvət etdisə də bir fayda vermədi. Həmin il ramazan ayının axırıncı gecəsi, orucluq bayramının axşamı hücum edərək qalanı aldı. Cavad xan, oğlu Hüseynqulu ağa ilə birlikdə öldürüldü, bütün əhl-əyalı əsir oldu. Şəhər əhalisinin bir parası qırıldı, yerdə qalanı isə nicat tapdı» (55, s.132).

Mirzə Camalın yazdığına görə Sisyanov mayor Lisaneviçi Gəncə qalasından mərhum İbrahim xanın yanına göndərib, «onu mərhəmətli Rusiya padşahına itaət etməyə dəvət etdi və İbrahim xan isə mayora xoş cavablar verərək, onu ehtiramla və hörmətlə yazılmış məktublarla yola salmışdı» (55, s.132).

Tarixi sənədlər sübut edir ki, Sisianov Gəncə üzərinə hücum edərkən, ona satqın ermənilər hərtərəfli köməklik və bələdçilik etmişlər. Sisianov Gəncə üzərinə 6 batalyon, 11 top, 3 eskadra, hərəsində 100 nəfər olan iki kazak alayı ilə hücuma keçmişdi. Şəhər ələ keçirildikdən sonra Rusiya imperiyasının müstəmləkəçilik, qarətçi, soyğunçu, talançı hərəkətləri özünü açıq surətdə göstərdi. Sisianovun göstərişi ilə Cavad xanın arvadları Bəyim xanım və Şükufə xanım, gəlini Nəsibə bəyim, üç qızı və nəvəsi Zeynəb rusların əlində əsir oldular. Sisianov onları əsirlikdən azad etmək üçün küllü miqdarda pul tələb etdi. Bəyim xanım və Şüküfə xanım ildə 1200 rubl, Nəsibə bəyim və

Zeynəb 600 rubl, qızların hərəsinə görə isə 300 rubl pul verilməli idilər. Bunlardan əlavə Sisianov Cavad xanın Gəncədə olan 19 evini, 40 sənətkarlıq emalatxanasını, pul kəsilən zərbxanasını, dəyirmanını, şüşə zavodunu, habelə şəhər kənarındakı mülklərini, kəndlərini və onların sakinlərini Rusiya dövlətinin xeyrinə müsadirə etdi (22, s.18).

İmperator I Aleksandr Sisianovun Gəncədəki uğuruna yüksək qiymət verirdi. Sisianov 3 mart 1804-cü ildə ona yazdığı məktubunda bildirirdi ki, Gəncə şəhərinə, arvadı Yelizavetanın adı verilmişdir (22, s. 18). Beləiklə də dahi Nizaminin vəfatından 700 il sonra, qədim Azərbaycan şəhəri olan Gəncə ilk dəfə müvəqqəti olaraq öz adını itirdi. Bu qara ləkə 30 iyul 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən tariximizdən silindisə də, 1935-ci ildən 1991- ci ilə kimi bu qədim türk yurdu daha bir işğalçının adı ilə Kirovabad adlandırıldı və ancaq 1991-ci ildən sonra şəhərin əzəl adı Gəncə özünə qaytarıldı.

Göründüyü kimi XIX əsrin başlanğıcında rus imperiyasının işğalçı ordusu və bu işğallara başçılıq edən general və zabitlər xalqımıza divan tutur, qanımızı axıdırdılar. Bu cəlladlar torpaqlarımıza ayaq basan kimi, əhalinin gözünü qırmaq və onu öz iradələrinə ram etmək istəyirdilər. Çox təəssüflər olsun ki, salnamə müəllifləri, bu əclafları ağız dolusu tərifləyir, bəd əməlləri barədə bir kəlmə də olsun danışmırlar. Salnamələrdə 1804-cü il Gəncə qırğını barəsində bir kəlmə belə danışılmır (22, s.191). Gəncə uğrunda döyüşdə yalnız şəhər əhalisi deyil, ətraf kəndlərdə yaşayan əhali də mütəşəkkil surətdə iştirak etmişdi. Bu da onu göstərir ki, sovet tarixşünaslığının «könüllü birləşmə» barəsində saxta müddəalarının əksinə olaraq Rusiya imperiyasının işğalına qarşı mübarizə ümumxalq mübarizəsi xarakteri daşıyırdı. Onu da deməliyik ki, Azərbaycan xanlarının heç biri, amansız düşmənə qarşı mübarizədə Gəncə xanına köməklik göstərmədilər. Bu, bir tərəfdən Sisianov tipli düşmənlərimizin ustalığının, digər tərəfdən isə feodal pərakəndəliyinin xüsusiyyətlərinin nəticəsi idi.

General Sisianovun Cavad xana, onun ailəsinə və

bütövlükdə gəncəlilərə tutduğu divan Azərbaycan xanlıqlarına ağır təsir göstərdi, onları sarsıtdı. Qafqaza çox böyük işğalçılıq planları ilə gələn Sisianov Gəncə və 9 yanvar 1804-cü ildə Samux işğal edildikdən sonra, Qərbi Azərbaycana (İrəvan xanlığına - Y.H.) hücum etdi. Lakin o, burada güclü müqavimətlə qarşılaşaraq geri çəkilməyə məcbur oldu. Sisianov Qarabağ, Şəki, Şirvan, Talış xanlarına məktub yazıb, onları döyüşsüz ruslara tabe olmağa çağırdı. Mirzə Camal bəy bu məsələyə toxunaraq yazır: «Bu xəbər Fətəli şaha çatdıqda İrəvanın Rusiya dövləti əlinə keçməməsi üçün özü knyaz Sisianovun müharibəsində iştirak etmək üçün, güclü qoşunla İrəvana gəldi. Bir tərəfdən Fətəli şah, digər tərəfdən naib üssəltənənin qoşunu və başqa tərəfdən Sərdarla bağladıqları əhdi pozub, qalanı ona təslim etməyən Məhəmməd xan və Kəlbəli xan Rusiya qoşununu dörd tərəfdən halqaya alıb, hətta Rusiya qoşununun azuqə yollarını da kəsdilər. Bu qədər zəhmətə baxmayaraq, Rusiya qoşununa qalib gələ bilmədilər. Hər iki tərəfə çoxlu ziyan dəydi. Nəhayət, Sərdar Sisianov Tiflisə qayıtmağı məsləhət bilib köçüb getdi. Fətəli şah da Azərbaycana və oradan Tehrana getdi» (55, s.132-133). Göründüyü kimi, açıq-aşkar faktların ortada olduğu halda belə, müəllif Sisianovun İrəvan ətrafında aşkar məğlubiyyətini etiraf etmək istəmir.

Fətəli şah hiss edirdi ki, İbrahim xan tərəddüd qarşısında qalaraq xanlığı Rusiya talanları və qırğınlarından qorumaq, öz müstəqilliyini saxlamaq üçün Rusiyaya yaxınlaşmağa zahirən də olsa daha çox meyl göstərir. Ona görə də şah buna mane olmaq məqsədilə 1805-ci ilin yanvar ayında İbrahimxəlil xanın oğlu Əbülfət xanın başçılığı ilə Qarabağa qoşun göndərdi. «Şahın bu hərəkətindən inciyən İbrahim xan həmin qoşunları məğlub edərək Arazın o tayına keçirməyə müvəffəq oldu» (67, s.231-232).

Mirzə Camal və başqa salnamə müəllifləri İbrahimxəlil xanın Fətəli şahdan incikliyinin səbəbini aşağıdakı kimi izah edirlər: «Şah, mərhum İbrahim xanla Rusiya sərdarı arasında

dostluq əlaqəsinin olmasını və elçilərin gedib-gəlişini eşitdiyinə görə, İrəvandan qayıtdığı zaman Əbülfət xana 5 min nəfərlik qoşun verib, atasına yardım və kömək göstərmək adı ilə Qarabağa, İbrahim xanın yanına göndərdi və tapşırdı ki, Məhəmmədhəsən ağanı bir neçə Qarabağ bəyzadələri ilə Fətəli şahın hüzuruna göndərsin, Əbülfət xan İbrahim xanın həyatının axırına qədər vəkil sifətilə Qarabağda qalsın və Əbülfət xandan icazəsiz və məsləhətsiz heç bir iş görməsin.

Mərhum İbrahim xan Fətəli şahın belə təkliflərindən inciyib, Əbülfət xana ağır cavablar verərək, yazdı ki, Qarabağ torpağına girmədən geri qayıtsın. Əbülfət xan möhtərəm atasının sözünə baxmayıb, İbrahim xan və Məhəmmədhəsən ağa Dizaq mahalının Tuğ kəndində olduqlarından, Qızılbaş qoşununu götürüb, o tərəfdən dağlıların qoçaq tüfəngçilərini, özünün işgüzar nökərlərini və başqalarını toplayıb, tam bir sürət və böyük izdihamla mərhum İbrahim xanın və öz böyük qardaşı mərhum Məhəmmədhəsən ağanın hüzuruna gəldi. Həmin gecə Mehdiqulu xan da gəlib çatdı. Səhər Əbülfət xan böyük dəstə ilə Tuğ kəndinə hücum etdi. Mərhum xanın və oğlanlarının yanında olan qoçaq tüfənglilər və adlı-sanlı atlılar hücuma keçərək, Qızılbaş qoşunun məğlub edib düşmən ordusunun bütün at və heyvanını qarət etdilər. Düşməndən çoxlu əsir düşən və ölən oldu. Əbülfət xan Arazın o tayına qaçdı» (55, s.133).

Fətəli şah İbrahimxəlil xanı mövqeyindən çəkindirmək, onun ruslarla yaxınlaşmasına imkan verməmək üçün bütün imkanlardan istifadə edirdi. O, «Kərim xan, Rəhim xan və Abdulla xandan ibarət möhtərəm elçi heyətini İbrahim xanın yanına göndərib söz verdi ki, bütün Qarabağ mahalını, şah xəzinəsinə çatmalı olan mədaxili ilə birlikdə əbədi olaraq mərhum İbrahim xan nəslinə verəcəkdir; övladlarından iki nəfərini də Şuşa qalasına, İbrahim xanın yanına girov göndərəcəkdir». Bütün bunların müqabilində Fətəli şah İbrahimxəlil xanın qarşısında mühüm tələblər də qoyurdu. Bu tələblər aşağıdakılardan ibarət idi: «Müqabilində İbrahim xan Şuşa qalasının üç ağaclığında, Tiflis və Gəncə yolunun üstündə

olan Əsgəranın hər iki qalasını Qızılbaş qoşununa təhvil verməlidir. Rus qoşununun qabağını kəsmək üçün hər iki qala möhkəmləndirilib, içərisində qoşun saxlanılmalıdır. Habelə qalanın bir ağaclığında olan çay, Şuşa qalasının üç verstliyindəki səngərlə birlikdə Qızılbaş qoşununun ixtiyarına verilməlidir. Beləliklə hər iki çay, keçidlər və qalanın yolları Qızılbaş qoşununun əlində olmalıdır. Rusiya dövlətinin qoşunu Şuşa qalasına gəlmək istədikdə onun qabağını almaq üçün buralarda möhkəm səngərlər qurulmalıdır. Bir nəfər Sərdar iki-üç min atlı ilə Şahbulağında oturmalı, Tiflis və Yelizavetpol (Gəncə) tərəflərinin işindən xəbər tutmalı və oralarda qətl-qarət etməlidir. Heç bir kimsə İbrahim xanın itaət və əmrindən boyun qaçırmamalıdır. Qızılbaş qoşununun bütün məxarici Fətəli şahın xəzinəsindən veriləcəkdir. Kimsə Qarabağ vilayətinin zərrə qədər şeyinə belə tamah gözü ilə baxmayacaqdır. Qoşuna lazım olan sursat və başqa şeylər pulla satın alınmalıdır. Bunlardan məqsəd odur ki, Allahın əlilə yaradılmış, Gürcüstanın və Şirvanın qapısı olan möhkəm Şuşa qalası Rusiya dövləti qoşunun əlinə keçməsin» (55, s.134).

Təbii ki, bunların böyük əksəriyyəti Qarabağın Rusiyaya meylinə yol verməmək məqsədi güdən vədlər idi. Onların isə yerinə yetiriləcəyinə heç kəs təminat verə bilməzdi.

Bütün bunlarla yanaşı İbrahimxəlil xan həm Rusiya imperiyasından ehtiyat edir, həm də onun mərhəmət və daimi dinclik vədlərindən yararlanmaq istəyirdi. Xarici siyasəti uğursuzluq girdabına düçar olan xan bilmirdi ki, bu xətt onun nəslinə əmin-amanlıq yox, ölüm və fəlakət gətirəcəkdir. Hadisələrin sonrakı gedişi rusların iç üzünü əsl niyyətlərini çılpaqlığı ilə açıb göstərdi. Fətəli şahın xahişlərinə, vədlərinə məhəl qoymayan İbrahimxəlil xan Tiflis şəhərinə elçilər göndərib, xalqımızın qanına susayan Sisianovla görüşmək arzusunda olduğunu bildirdi. Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının Qarabağa gözlənilən hücumu da İbrahimxəlil xanı narahat etməyə başlamışdı. Öz xarici siyasətində İran qoşunlarını Qarabağa buraxılmaması üzərində quran

İbrahimxəlil xan Rusiya tərəfindən yaxınlaşan təhlükəni dəf etmək üçün İranın köməyindən istifadə etməyi lazım bilməyib Sisianova müraciət etdi. İbrahimxəlil xanın Sisianova müraciəti Sisianovun Çartorıyskiyə göndərdiyi məktubunda belə açıqlanır: «İran qoşunlarının hərəkətindən qorxan İbrahim xan öz nümayəndəsini yanımıza göndərərək bizə itaət edəcəyini bildirir. Mənə elə gəlir ki, onu qorxu buna vadar etmişdir» (86, c.2, s.1421).

İran tarixçisi Nasir Nəcmi Ağa Məhəmməd şah Qacarın ölümündən sonra İbrahimxəlil xanın müstəqil siyasət yürütdüyünü və İranla hesablaşmaq istəmədiyini xüsusilə vurğulayır (73, s.57-58).

İrana qarşı mənfi münasibət, sözsüz ki, Sisianovu razı salırdı. Bundan istifadə edən Sisianov «Qarabağ xanlığının Rusiya himayəsinə qəbul olması haqqında müqavilənin şərtləri ilə İbrahimxəlil xanı hərtərəfli tanış etmək və həmin müstəmləkəçi və işğalçılıq mahiyyəti daşıyan müqaviləni imzalatdırmaq məqsədilə hiyləgər və qan tökməkdən həzz olan mayor Lisaneviçi xüsusi təlimatla Şuşaya göndərdi» (86, c.II, s.1868).

Fətəli şah vəziyyətin getdikcə gərginləşdiyini hiss edir və bu vəziyyətdən çıxış yolları arayırdı. Mirmehdi Xəzani bu barədə öz fikrini belə şərh edir: «Şah, yenə Kərim xan və Abdulla xanı İbrahim xanın yanına göndərib, kamali-hörmət və mərhəmət və mülayimət ilə yazdı ki, Allah rizasına namusi-islamı mənzur edib, hər nə təvəqqeyi var məndən etsin, yerinə yetirim. Urus padşahına itaət etməsin. Şuşa qalası ki, toxunulmazdır və taleyi Xudafərin və məmləkətdə səddi-mətindir və İranın giriş qapısıdır, Urus dövlətinə verib Rusiya qoşunlarını daxili şəhər və onların qalası eləməsin. Və ehtiyat etsin ki, Urus dövlətindən ona zərər və vilayətinə xarabalıq gələr» (53, s.167). Hadisələrin sonrakı gedişi Fətəli şahın bu ehtimallarını 100 faiz doğrultdu. Lakin qocaldıqca siyasi fəhmi kütləşən, iradəsi zəifləyən İbrahimxəlil xan tutduğu səhv yoldan çəkinmədi. Tezliklə burada qurulan kobud rus siyasi rejimi

Qarabağın bütün inkişafına ağır zərbə vurdu.

Mirmehdi Xəzani qeyd edir ki, İbrahim xan şahın elçilərini dustaq edərək qalada saxladı. Sisianov xana buyurmuşdu ki, «əgər o, Rusiyaya ixlas və itaəti varsa şul xanları ki, qasidliyə gəliblər saxlasın, buraxmasın... İbrahim xan cavab verdi ki, mən qədimi ixlas və sədaqətimdə sabit və möhkəm varam. Heç vaxt təğyir verməmişəm və verməyəcəyəm» (53, s.168).

Bu hadisələrə toxunan Mirzə Camal isə qeyd edirdi ki, «mərhum İbrahim xanın qızı Ağabəyim Ağa Fətəli şahın baş xanımı, oğlu Əbülfət xan isə Əmirəlümərа və hörmət sahibi olduqlarına baxmayaraq o, yüksək Rusiya dövlətini əbədi, böyük imperatorun mərhəmətinin dəyişməz olduğuna inamı var idi. Buna görə də İran dövlətinə və onun mərhəmətinə məhəl qoymayıb, yenidən Tiflis şəhərinə elçi göndərdi. Sərdar Sisianovla görüşmək və itaət şərtlərini qurtarmaq istədiyini bildirdi. Sərdar knyaz Sisianov İbrahim xanın elçisini hörmət və ənamla geri qaytarıb, xəbər vermişdi ki, görüş yazda vilayətin yaxınlığında olacaqdır» (55, s.134).

Yuxarıda deyildiyi kimi Sisianovun göstərişi ilə Lisaneviç Şuşaya göndərilmişdir. Onun Şuşaya gəlişi ilə əlaqədar olaraq İbrahimxəlil xan bütün bəylərin iştirakı ilə şura çağırdı. «Altı gün davam edən məsləhətləşmədən sonra, bütün bəylər Rusiyanın himayəsinə keçmək haqqında təklifi rədd etdilər. Lakin İbrahimxəlil xan müqavilənin layihəsindəki bütün bəndlərlə razılaşdığını, gələcək qatili olan Lisaneviçə bildirdi» (86, c.II, s.705).

İbrahimxəlil xanın inadkarlığı hamını heyrətə salmışdı. İran Sərdarı Piriqulu xan İbrahimxəlil xana öz məktubunda belə yazırdı: «...belə bir hərəkətdən bütün nəsilləriniz xəcalət çəkəcək, bütün əraziniz tar-mar ediləcək nə qədər ki, belə bir şey baş verməyib öz işinizi görün, sonra gec olacaq» (86, c.II, s.1427).

İbrahimxəlil xanın sarayında ikitirəlik yaranmışdı. Bir qrup İran, ikinci qrup isə Rusiya tərəfinə meyl göstərdi.

Euspərəst mövqedə dayanan xanın oğlu Məhəmmədhəsən ağanın tərəfdarları nəticədə qəti qələbə çaldılar.

Əhməd bəy Cavanşir bu məsələdə yaranmış olan vəziyyətdən bəhs edərək yazır: «... Məhəmmədhəsən ağa öz tərəfdarları ilə birlikdə qəti qələbə çaldı. Onun təkidi ilə bir neçə nəfər adlı-sanlı bəyin və xanın adından knyaz Sisianova məktub apardılar. Həmin məktubda xan iranlıların niyyətlərindən şikayətlənib, rus imperatorunun təbəəliyinə daxil olmaq haqqında özünün, öz əyanları və təbəələrinin qəti arzusunu bildirdi. Məktubun cavabını bir nəfər qərargah zabiti gətirdi; həmin cavabda müqavilə bağlanmasının vaxtı və yeri haqqında əvvəlcədən razılığa gəlmək təklif edilirdi» (17, s.182-183).

«Qarabağnamə»lərdə bu hadisələrin verilmiş təfsiri açıqca göstərir ki, salnamələrin müəlliflərindən heç biri İbrahimxəlil xanın Rusiyadan nə üçün ehtiyat etdiyini açıq şəkildə izah etməyi öz qarşılarına məqsəd kimi qoymamışdılar. Bu, həmin əsərlərin yazıldığı dövrün siyasi konyukturası baxımından müəlliflərə zərər vura bilərdi. Əks halda Rusiyanın Sisianovun Qarabağı bu müqaviləyə məcbur etmək üçün törətdikləri üzə çıxa bilərdi. «Qarabağnamə»lərin müəlliflərinin əksəriyyəti - Mirzə Camal, Əhməd bəy Cavanşir, Mirmehdi Xəzani, Rzaqulu bəy Mirzə Camal oğlu və başqaları öz əsərlərini əsasən 1805-ci il Kürəkçay sazişinin bağlanması, İbrahimxəlil xanın, onun ailə üzvlərinin və yaxın qohumlarının mayor Lisaneviç və onun quldur dəstəsi tərəfindən vəhşicəsinə qətlə yetirilməsi ilə bitirirlər. Mirzə Adıgözəl bəy və Mirzə Yusif Qarabaği isə öz əsərlərində Qarabağda baş verən hadisələri 10 fevral 1828-ci il Rusiya-İran arasında imzalanmış qarətçi sülhədək, Azərbaycanın iki hissəyə bölünməsinə qədər davam edən hadisələri əks etdirməyə səy göstərmişlər.

Nəhayət, «1805-ci ilin mayında, xanlığın sərhədində, Kürəkçay sahilindəki düşərgədə, Yelizavetpolun 20 verstliyində knyaz Sisianov Qarabağ xanlığının rus imperatoruna sədaqəti haqqında andını qəbul etdi» (17, s.183).

**Mirzə Adıgözəl bəy Kürəkçay müqaviləsinin bağlan-**

**ması haqqında öz əsərinin «Sərdarın mərhum İbrahim xan və Səlim xanla sülh etməsi və əmələ gələn bəzi hadisələr haqqındadır» adlanan fəslində məlumat verir (54, s.71).**

Mirzə Camal Cavanşir isə bu hadisəni «Ağa Məhəmməd şah öldürüldükdən və İbrahim xan Balakəndən Qarabağa qayıtdıqdan sonra baş vermiş hadisələr haqqında» adlı fəsildə qələmə almışdır. Mirzə Camal bəy yazır: «Buna görə 1805-ci il may ayının birində mərhum İbrahim xan, oğlanları Məhəmmədhəsən ağa, Mehdiqulu ağa, Xanlar ağa və Qarabağın başqa əyanları ilə birlikdə böyük sərdar knyaz Sisianovun yanına getdi. Knyaz onlardan qabaq gəlib, Kürəkçay kənarında ordu qurdu. İbrahim xan etimadlı adam göndərib, kürəkəni olan Şəki vilayətinin hakimi Səlim xanı da buraya gəlməyə təşviq etdi və onu Şəki vilayətinin əyanı ilə böyük sərdarın hüzuruna apardı (55, s.134-135).

«Kürəkçay qırağında bir neçə gün bayram, şənlik və qonaqlıq oldu. Sonra, traktat və əhdnamə yazıldı. İbrahim xan və Şəki hakimi Səlim xan ona möhür basdılar, böyük sərdar isə ona qol çəkdi» (55, s.135).

Mirzə Camal bəy yazırdı ki, müqavilə iştirakçıları «bir-birinə böyük hörmət və ehtiram göstərdikdən sonra geri qayıtdılar. Şərtə görə Məhəmməd Həsən ağanın ikinci oğlu Tiflisdə girov qalmalı oldu» (55, s.135).

Mirzə Adıgözəl bəy isə Kürəkçay müqaviləsinin bağlanmasını belə təsvirbəhs edir: «Knyaz Gəncəyə daxil oldu və şəhərin ətrafında zəfər nişanəli çadırlarını qurdu. Qarabağ xanı İbrahim xanın və onun damadı (kürəkəni - Y.H.) Səlim xanın yanına vəkillər göndərdi və onlara məktublar yazdı... Knyaz Sisianov bu vasitə ilə onlara uca Rusiya dövlətinə itaət etməyi təklif etdi... Aralarında bir çox danışıqlar oldu, şərtlər qoyuldu və müahidələr bağlandı. Hər iki tərəf əhd və peymanla sülhün binasını möhkəmləndirdilər. Sonra traktatlar (müqavilənamələr) bağlandı. Ondan sonra, uca mərtəbəli sərdar, mayor Lisaneviçi 500 əsgərlə Qarabağa, bir o qədərini də Şəkiyə göndərdi» (54, s.71).

Mirzə Yusif özünün «Tarixi-safi» əsərində Kürəkçay müqaviləsində «Knyaz Sisianovun Gəncə tərəfə getməsi, İbrahim xan və Səlim xanla müqavilə bağlaması, Qarabağ və Nuxanın qüdrətli Rus dövlətinə tabe olması» fəslində iki qısa abzasla vermişdi. O, yazır: «1805 (1221)-ci ildə knyaz Sisianov İrəvandan qayıdıb Gəncəyə gəldi. Qarabağlı İbrahim xanın və Nuxa hakimi Səlim xanın yanına adam göndərib, onları qüdrətli Rus dövlətinə tabe olmağa çağırdı. Məzkur xanlar Sərdarın təklifini qəbul etdilər. Qarabağdan İbrahim xan, Şəkidən Səlim xan, Gəncədən Sisianov bir-biri ilə görüşmək üçün Kürəkçayının kənarına gəldilər. Bir çox müzakirə və mübahisədən sonra şərti müqavilələr bağlandı, bir-birinə inandırıcı sözlər və vədlər verdilər. Bundan sonra Sərdar mayor Lisianeviçi 500 əsgərlə Qarabağa göndərdi. O qədər də əsgəri Nuxaya yola saldı» (51, s.50).

Göründüyü kimi salnamə müəllifləri Kürəkçay traktatını demək olar ki, eyni şəkildə, XIX əsr tarixçilərinə məxsus tərzdə qələmə almışdılar. Başqa cürə də ola bilməzdi. Müəlliflər müqavilənin qeyri-bərabər, ədalətsiz və müstəmləkəçi xarakterini, təriflərlə ört-basdır etməyə çalışırlar.

Çarizmin müstəmləkə rejimi şəraitində yaşayan bu müəlliflərdən heç biri romanovların müstəmləkəçi niyyətlərinə, Sisianov kimi müsəlman və türk düşmənlərinin əli ilə bu niyyətlərin hansı vəhşilik və həyasızlıqlarla həyata keçirilməsinə toxunmur, orta əsrlər şərq saray tarixşünaslığının ən pis ənənələrinə sadiq qalaraq əsərin yaradıldığı dövrdə hakimiyyətdə olan siyasi qüvvələrin ünvanına, onların imicinə adicə kölgə sala biləcək bircə kəlmə deməmişlər.

Lakin bütün bunlara baxmayaraq «Qarabağnamə»lər XVIII-XIX əsrin əvvəlləri tariximizin öyrənilməsi baxımından qiymətli qaynaqlar olaraq qalır, onların müəlliflərinin Vətən tarixşünaslığında görkəmli xidmətləri şübhə altına qoyula bilməz.

«Qarabağnamə» müəlliflərinin demək olar ki, hamısının çox diqqət yetirdikləri məsələlərdən biri də Kürəkçay

müqavilələrinin imzalanmasıdır. Əhməd bəy Cavanşir Kürəkçay müqaviləsini daha geniş qələmə almışdır. Əhməd bəy Qarabağ xanlığı ilə imzalanmış bu müqavilələrin şərtlərini aşağıdakı kimi verir. O, yazır: «Bağlanan şərtlərə görə:

1. Şuşalı və Qarabağlı İbrahim xan İrandan və hər hansı bir başqa dövlətdən hər cür vassallıq və asılılıqdan həmişəlik imtina edir və yalnız Rus imperatorunun hakimiyyətini qəbul edir.

2. Xan qonşu hakimlərlə heç bir əlaqə saxlamamağı öz üzərinə götürür. Onlardan alınan məktublardan öz məzmunu etibarı ilə daha mühüm olanları baş komandanın həllinə göndərməli, az mühüm olanları haqqında isə Gürcüstandakı baş hakimin İbrahim xanın yanındakı nümayəndəsinə xəbər verilməli və bu barədə ondan məsləhət alınmalıdır.

3. Onun ərazisində saxlanan rus qoşunları üçün baş komandan tərəfindən təsdiq edilən qiymətlərlə ərzaq tədarük edilməlidir.

4. Qoşunlar üçün bina ayrılmalı və odun verilməlidir.

5. Yelizavetpoldan Şuşaya gedən yol arabaların rahat getməsi üçün qaydaya salınmalıdır.

6. Sədaqət əlaməti olaraq, xan böyük oğlundan olan nəvəsini həmişəlik Tiflisdə yaşamaq üçün girov verməlidir.

7. Xan hər il 8 min çervon bac verməli və bunu iki müddətdə:-1 fevralda, 1 sentyabrda ödəməlidir.

Bunların müqabilində xana aşağıdakılar vəd edilmişdir:

1. Onun mülkü salamat saxlanılır, xanlığın idarəsi irsi, böyüklüyə görə nəsildən-nəsilə keçir və bunu rus imperatoru təsdiq edir; məhkəmə işləri, cəza vermək və vergi toplamaq xanın ixtiyarında saxlanılır.

2. Xanın evində daimi saxlamaq üçün üzərində rus gerbi olan bayraq bağışlanır, xanın əmanət təyin edilən nəvəsinin gündəlik xərci 10 manat gümüş pul ilə müəyyən edilir» (17, s.183).

Fikrimizcə, Əhməd bəy tərəfindən verilmiş bu şərtlər Kürəkçay müqaviləsinin sırf işğalçılıq mahiyyətini dərk etməyə

imkan verir.

14 may 1805-ci ildə Gəncə yaxınlığındakı Kürəkçay sahilində Sisianovla şuşalı İbrahimxəlil xan arasında bağlanan biabırçı müqaviləyə əsasən Qarabağ xanı yalnız Rusiyanın ali hakimiyyətini tanıyır və qonşu dövlətlərlə müstəqil əlaqə saxlamaqdan məhrum edilirdi. Eyni zamanda İbrahimxəlil xan Şuşada 500 nəfərlik rus qarnizonunu yerləşdirməli, ildə Rusiya imperiyasına 8 min çervon bac ödəməli və nəvəsini həmişəlik Tiflisdə qalmaq şərtilə girov verməli idi. Əvəzində xanın və bütün xələflərinin əbədi hakimiyyətinə, ərazisinin bütöv saxlanılmasına zəmanət verilirdi.

**Məsələnin belə asan yolla həll olunmasından sevincək olmuş general Sisianov imperator I Aleksandra göndərdiyi məlumatında yazırdı: «Sizi imperiyanızın ərazisinin yenidən genişlənməsi münasibətilə təbrik edirəm. Rusiyanın bir əyalətinə çevrilən bu ərazi nə qılınc, nə də hərbi yolla ələ keçirilmişdir» (86, c.II, s.705)**.

Beləliklə, İbrahimxəlil xanın tutduğu təslimçilik mövqeyi bütün Azərbaycana ağır mənəvi zərbə vurdu. Bu hadisə başqa xanların da təslimçiliyi üçün geniş yol açdı və yerdə qalan ərazilərimizin də Rusiya imperiyası qoşunları tərəfindən işğalını sürətləndirdi. Qarabağ və Şəki xanlıqlarını həvəsləndirmək üçün «general Sisianovun təqdimatına əsasən, İbrahim xana və Səlim xana general-leytenantlıq, Məhəmmədhəsən ağaya və Mehdiqulu xana general-mayorluq, Xanlar ağaya isə polkovnik rütbəsi verilməsi haqqında imperator I Aleksandra ərizə yazıldı. Dörd aydan sonra bu iltifat və daimi məvacibli dərəcələrin verilməsi haqqında imperatorun fərmanı gəlib çatdı» (55, s.135).

Şəki xanı Səlim xanla Sisianov arasında imzalanan 1805-ci il 21 may müqaviləsi də 1805-ci il mayın 14-də İbrahimxəlil xanla imzalanan müqavilənin eyni idi. Yalnız fərq ondan ibarət idi ki, Qarabağ xanlığı ildə 8 min çervon, Şəki xanı isə 7 min çervon xərac verməli idi (86, c.II, s.1301).

Tarixi ədəbiyyatda Kürəkçay müqaviləsi kimi bəlli olan bu sənəd XIX yüzilliyin başlanğıcında Rusiya-Azərbaycan

siyasi münasibətlərinin tarixinə dair rəsmi qaynaqlardan biridir. Qarabağ xanlığının hökmdarı İbrahimxəlil xan və Qafqazdakı Rusiya qoşunlarının baş komandanı general P.D.Sisianov arasında 14 may 1805-ci ildə imzalanmış traktat 11 maddədən ibarətdir. Tarix ədəbiyyatında **«ANDLI ÖHDƏLIK»** kimi də adlanan bu müqavilənin bəzi maddələrinin tam mətni aşağıda verilir:

## BİRİNCİ MADDƏ

Mən Şuşalı və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altında olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın böyük İ.Ə- nin və onun varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin hakimiyyətini tanımıram, həmin taxt-taca vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs Qurana and içməliyəm.

## İKİNCİ MADDƏ

İ.Ə. zati-aliləri (xan) həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç vaxt əsirgəməyəcəklər, buna sübut olaraq İ.Ə. zati-alilərinin (yəni xanın - Y.H.) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.

## DÖRDÜNCÜ MADDƏ

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyanın işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanlar haqda isə Gürcüstan Baş hakimi tərəfindən mənim yanıma təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.

## BEŞİNCİ MADDƏ

İ.Ə-i Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir: - 1) Həmin ölkənin xalqlarını Böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır. 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır. 3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı ölkədən yığılan gəlir zati-alilərin (xanın - Y.H.) səlahiyyətində qalacaqdır. 4) Zati-alilərinin və onun sülaləsinin, eləcə də onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsini bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

«Andlı öhdəlik» İbrahimxəlil xan və general knyaz

P.D.Sisianov tərəfindən imzalanmışdır (86, c.II, s.702-705).

Bundan sonrakı ilk illər ərzində baş verən hadisələr göstərdi ki, çarizm üzərinə götürdüyü öhdəliklərdən heç birinə əməl etmədi. Doğrusu, müqavilələrin bağlanması ərəfəsində mərkəzi və Cənubi Qafqaz rus hərbi-siyasi dairələrin yürütdüyü siyasət romanovlar Rusiyasının xəbis və qəsbkar xislətinin qətiyyən dəyişmədiyinə şübhə yeri qoymurdu.

14 may 1805-ci il Kürəkçay müqaviləsi İran şahı Fətəlinin qəzəbinə səbəb olmuşdur. Şah bu müqaviləni puça çıxarmaq, Cənubi Qafqazda sürətlə irəliləyən rusları geri oturtmaq, Şuşa, Əsgəran və Şahbulaq qalalarını zəbt etmək üçün tədbirlər görməyə başladı. İbrahimxəlil xan və Sisianov onun belə hərəkət edə biləcəyini əvvəlcədən duyduqlarından, Kürəkçay müqavilələrinin imzalanmasından dərhal sonra Qarabağa mayor Lisaneviçin başçılığı altında bir dəstə rus qoşunu və xeyli top yerləşdirilmişdir. Salnaməçi xəbər verir ki, «bu zaman İran sərbazlarının Araz sahillərinə yaxınlaşması xəbəri gəldi, İran qoşunları ilə müharibə aparmaq üçün Məhəmmədhəsən ağanın rəhbərlik etdiyi Qarabağ süvariləri göndərildi». Mirzə Camal öz salnaməsində Kürəkçay müqaviləsindən sonra İranla Qarabağ arasında baş verən hadisələri hərtərəfli qələmə alaraq yazırdı: «Kürəkçay yığıncağından qayıtdıqdan sonra mayor Lisaneviç sərdarın əmri ilə bir dəstə yeger və topxana ilə qalanın 10 verstliyində olan Xanbağına gəldi. Məhəmmədhəsən ağa Qızılbaş qoşununun Qarabağ torpağına girə bilməməsi və vilayətdəki ellərin, kəndlərin əkin yerlərinin tələf olmaması üçün yeger dəstəsini və mayoru götürüb ... düşməni qarşılamağa getdi. Lakin Qızılbaş qoşunu onları qabaqlayıb Xudafərin körpüsünü keçmiş və Qarabağ torpağına girmişdi. Qızılbaşlar Cəbrayıl bağları yaxınlığında rus və Qarabağ əsgərlərinə rast gəldilər. Aralarında bərk vuruşma oldu. Gecə mərhum Məhəmmədhəsən ağa Şuşa qalasının mühafizəsini məsləhət bilib, qoşunla qalaya qayıtdı. Qızılbaş qoşunu qalanın dörd ağaclığında olan Ağoğlana girdi. Beş minə yaxın qoşun isə Əsgəran qalası ətrafına gəlib, iki

tərəfdən qalanı almaq fikrində idilər» (55, s.135).

Qarabağda yaranmış hərbi-siyasi vəziyyət haqqında mayor Lisaneviç Tiflisə məlumat göndərib, Sisianovu bu barədə xəbərdar etdi. Sonuncunun xüsusi göstərişi ilə polkovnik Koryagin və podpolkovnik Kotlyarevski Şahbulağa gəldilər. Abbas Mirzə Çanaxçıdan polkovnik Karyaginin üzərinə hücuma keçərək, vuruşa-vuruşa Əsgəran qalasını tutub, orada möhkəm sədd yaratdı. Döyüşlərin birində polkovnik Kotlyarevski ölümcül yaralandı, rus qoşununun yarısı tələf oldu. Vanya yüzbaşının bələdçiliyi ilə üç yüzə qədər rus əsgəri bütün topları götürüb Şahbulağa qayıtdı. Mirzə Camal bəy Şahbulaq qalasının ruslar tərəfindən tutulmasını qələmə alaraq yazırdı: «Rus qoşununun qalaya girə bilməməsi üçün Şahbulağında çoxlu Qızılbaş piyadası qoyulmuşdu. Buna baxmayaraq (ruslar) həmin gecə hücum edərək qalanı Qızılbaşların əlindən aldılar... Sonra isə satqın Vanyanın bələdçiliyi ilə Gəncəyə getdilər» (55, s.136).

Mirzə Camal bəy rus qoşunlarının Xudafərin körpüsü yanında Abbas Mirzəyə məğlub olmasının səbəblərini izah etmir. Tarixi mənbələrdən məlum olur ki, Kürəkçay müqaviləsi bağlandıqdan sonra, may ayının sonlarından başlayaraq Şuşada itaətsizlik başlanmışdı. Xalq dini cəhətdən ona yad olan işğalçılardan azad olmaq üçün Abbas Mirzənin hücumuna böyük ümid bəsləyir və hər vəchlə ona kömək etməyə hazır idilər. Lakin rus qoşunlarının Şuşaya yerləşdirilməsi Mayor Lisaneviçin burada ağalıq etməyə başlaması vəziyyəti çətinləşdirdi. Lisaneviçin həmin dövrdə başlıca məqsədi məhz bu işə mane olmaq idi. (73, s.62-63).

Fətəli şah da bütün qızılbaş qoşunu ilə Qarabağa gəlib, Şuşa qalasının altı ağaclığında ordu qurmuşdu. Abbas Mirzə də polkovnik Karyagin Gəncəyə getdikdən sonra Şahbulağının yanında ordu qurmuşdu. Lisaneviçin təkidi ilə Sisianov rəqiblərini məğlub etmək üçün rus qoşunu ilə Qarabağ torpağına daxil oldu. Bu zaman, Rəştdən Fətəli şaha xəbər çatdı ki, Rusiya imperiyasının qoşun hissələri Xəzər dənizi yolu ilə Lənkəran və Rəşt bölgələrinə çıxmışdır. Şah bu səbəblərə görə, tələsik

Ərdəbilə getməli oldu. «Həmin ilin (1805-ci il) qış fəslində Rusiya dövlətinin qoşunu Kürdən keçib, Şirvan, Bakı, Quba və Dərbəndi işğal etmək üçün Şəkiyə tərəf hərəkət etdi» (55, s.136).

Kürəkçay traktatından sonra Şimali Azərbaycanın hər yerində Rusiya imperiyasına və onun işğalçı ordusuna qarşı yerli əhalinin kin və nifrəti daha da artmışdı.

Yerli türk-müsəlman əhalisinin çox böyük əksəriyyətinin Qacar qoşunlarını səbirsizliklə gözlədiyindən xəbərdar olan Sisianov İbrahim xana məktubunda heç bir əsas olmadan onun sədaqətinə inanmadığını bildirir və xanı hər iki tərəfə yarınmaqda günahlandırırdı (86, c.II, s.1447). Sisianovun bu və əvvəlki hərəkətləri sübut edir ki, Qarabağ xanı İbrahimxəlil xanı, onun ailəsini, yaxın qohumlarını və səltənətini gözləyən qismət bilavasitə Sisianov kimi istilaçılar tərəfindən əvvəlcədən planlaşdırılmış ssenarinin sadə tərkib hissəsindən başqa bir şey deyidir. Şübhəsiz ki, dəli mayor Lisaneviç qoca xana, onun ailəsinə və rəiyyətinə qarşı belə bir qanlı cinayəti özbaşına həyata keçirə bilməzdi.

Yuxarıda adı çəkilən «Andlı müqavilə»də qeyd edilirdi ki, xanlığın ərazisində hamı, o cümlədən rus qoşunları da xana tabe olmalı və xanın məlumatı əsas götürülməli idi. Qeyri-rus, qeyri-xristian olan hər bir kəsə sonsuz nifrət bəsləyən yerli əhaliyə, o cümlədən İbrahimxəlil xana inanmayan Sisianovun buna əməl edəcəyinə inanmaq sadəlövhlük olardı. Kürəkçay müqaviləsindən sonra Şuşaya göndərilən Lisaneviç, əslində Qarabağ xanlığında bütün işləri öz əlinə alaraq vilayəti idarə edirdi. Rus müstəmləkəçilərinin bu səciyyəvi nümayəndəsinin son dərəcə həyasız və qaba hərəkətləri qısa müddətdə yerli əhalinin böyük narazılığına və nifrətinə gətirib çıxarmışdı.

1805-ci ilin iyulunda narazılıq dalğası demək olar ki, bütün Azərbaycanı bürümüşdü. Bir çox xan və sultanların ruslara qarşı vahid cəbhədə birləşməsi faktı Sisianovun aşağıdakı məlumatından aydın görünür: - «...Şeyxəli xan, Tarkovlu Şamxal (Tərki şamxalı - Y.H.), Avar xanı və atası,

Canqutay sultanı, Şirvan xanı Mustafa xanla birləşərək öz nümayəndələrini Baba xanın (Fətəli şahın) yanına göndərmiş və Rusiyaya qarşı onunla əlbir olacaqlarını söyləmişlər» (73, s.64).

Şəmşəddil sultanlığında Rusiya əleyhinə baş verən üsyan müstəmləkəçilər üçün daha təhlükəli xarakter daşıyırdı. Abbas Mirzənin məğlub olaraq İrəvana-Qərbi Azərbaycan ərazisinə çəkilməsinə baxmayaraq, onlar mübarizəni qətiyyətlə davam etdirirdilər. İnsan qanı tökmədən həzz alan Sisianov şəmsəddillilərə hədə-qorxu gələrək onlara müraciətində yazırdı: «...Kim rusları istəmirsə Arazın o tərəfinə, iranlıların yanına köçsün, Arazın bu üzündə onlara yer yoxdur və mən onları burada yaşamağa qoymayacağam. Abbas Mirzənin məğlubiyyəti, Rusiyaya qarşı çıxışların yatırılmasından sonra, Sisianov erməni arxiyepiskopu Yohana məktubunda bildirirdi ki, «burada çoxlu boş evlər var. Sizdən xahiş edirəm İrəvan ermənilərini təcili buraya köçürəsiniz. Mən əmr edəcəyəm hər ailəyə hazır ev, bağ və tarla verilsin. Üç il onlardan töycü güzəştlə alınacaq və heç bir mükəlləfiyyət daşımayacaqlar» (86, c.II, s.1255). Beləliklə, artıq bu dövrdə ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi üçün müəyyən mənada zəmin hazırlanırdı.

Təəssüflər olsun ki, salnamə müəlliflərinin heç biri Rusiya imperiyasının müstəmləkəçilik və zorakılığına qarşı baş verən üsyanlar və çıxışlar haqqında bir kəlmə də olsun danışmırlar.

Sisianov şah qoşunlarını özünün işğal etdiyi ərazilərdən çıxartdıqdan, müstəmləkəçilərə qarşı baş verən narazılıqları müxtəlif vasitələrlə yatırdıqdan sonra «Şirvan xanlığının məsələsini həll etməyi», yəni bu Azərbaycan torpağını da qəsb etməyi qərara aldı. Bu barədə Mirzə Camal yazır: - «Böyük Rusiya dövlətinə səmimiyyət bəsləyən İbrahim xan öz istəkli oğlu Mehdiqulu ağanı Qarabağ qoşunu və bir neçə bəyzadə ilə birlikdə padşah əsgərləri sırasında tapşırılan vəzifələri yerinə yetirmək üçün sərdarın hüzuruna göndərdi... Şəki hakimi Səlim xan sərdarı lazım olan tədarükat və layiqli peşkəşlərlə Şəki

vilayəti sərhədindən ötürüb Şirvan vilayəti sərhədinə çatdırdı. Öz dövlətinə, gücünə və ölkənin çətin yollarına qürrələnən Mustafa xan bir neçə gün qürurla cavablar yazaraq itaətdən boyun qaçırdı. Lakin qüdrətli rus əsgərləri, Qarabağ və Şəki qoşunu qarşısında müqavimət göstərə bilməyəcəyini və Qarabağ qoşununun fürsət tapıb Şirvan kəndlərinə əl uzatdığını gördükdə o, Mehdiqulu xanla Səlim xanın göstərişi ilə itaət edəcəyinə yalandan söz verdi, İbrahim xan və Səlim xan kimi müqavilə və əhdnamə yazıb, üzdə Rusiya dövlətinin itaəti altına girdi» (55, s.137).

Mirzə Adıgözəl bəy isə Şirvan xanlığının ruslar tərəfindən işğalını belə təsvir edir: «Sərdar Mustafa xanı cəzalandırmaq üçün Şirvana tərəf irəlilədi. Mustafa xan öz elatı və təbəələrini yığıb möhkəm olan Fit dağına çəkildi və orada səngər qurub əyləşdi. Cənab sərdar gəlib çatdıqdan sonra, aralarında barışıq oldu və traktatlar (müqavilələr) bağlandı» (54, s.72). Mirzə Adıgözəl bəy daha sonra Sisianov haqqında yazırdı: «Sərdar dəfələrlə bir atlı götürüb, Mustafa xanın yanına gedirdi. Mustafa xan xeyirxahlıq məqsədilə cənab Sərdara dedi: - «Belə gəzməkdən sizə və xoşbəxt vücudunuza ziyan toxunar». Sərdar isə ona belə cavab verdi: «Cəmşid mərtəbəli, əzəmətli və calallı olan dünya padşahının mənim kimi milyonlarca əsgəri vardır. Əgər mən yox olsam, onun bir əsgəri əskik olar. Mənim kimi bir rütbə sahibi ölsün, ya bir əsgər, heç bir təfavütü yoxdur» (54, s.72).

Yuxarıda gətirilmiş iqtibaslardan göründüyü kimi, XIX əsr salnaməçiləri hadisələrin sadəcə sadalanmasına, zahiri əlamətlərə daha çox yer verir, müxtəlif proseslərin səbəblərinin araşdırılmasına, nəticələrinin qiymətləndirilməsinə o qədər də diqqət yetirmirdilər.

Şirvan xanlığının ələ keçirilməsi nəticəsində ruslar Bakı və Lənkəran xanlıqlarını işğal etmək üçün birbaşa quru yolu əlverişli plasdarm qazanmış oldular. Burada Azərbaycan xanlıqları ilə aparılan müharibələrlə bağlı bir sıra məqamlara toxunmaq lazımdır. Salnamələrdə bunların üstündən sükutla

keçilir və onlardan bir kəlmə də olsun danışılmır. Yeni ərazilər tutan Sisianov xarici işlər naziri Çartorıyskiyə yazırdı: - «Ali manifest, göstəriş olmadan 3 ildir ki, burada (Azərbaycanda - Y.H.) gizli müharibə aparıram və başa düşmürəm ki, yeni ərazilər əldə edəndə səbəblərini necə elan edim» (86, c.II, s.1367).

Şirvan xanlığını işğal edən Sisianov imperator I Aleksandra bildirdi ki, vaxt itirmədən Bakıya doğru hərəkət edəcək (86, c.II, s.1365).

Məlum olduğu kimi Xəzərsahili vilayətlərin, o cümlədən liman şəhəri olan Bakının tutulması hələ I Pyotrun dövründən Rusiyanın müstəmləkəçi hərbi planlarına daxil idi və 1723-1735-ci illərin hərbi məğlubiyyətlərindən sonra bu planların yenidən reallaşdırılması üçün məqam axtarılırdı. Bu məqam artıq yetişməkdə idi. Bakının Rusiya imperiyası üçün əhəmiyyətini isə 1803-cü ilin yanvarında Sisianov Bakıda olan İrandakı Rusiya səfiri Skibnevskiyə yazırdı: «.Bilirsinizmi, Bakı limanı Rusiya üçün nə qədər vacibdir. Öz təbii mövqeyinə görə şəhər öz limanı ilə birlikdə ilk əlverişli məqamda qoşunlarımız tərəfindən tutulmalıdır, tez və ya gec bu həyata keçirilməlidir» (86, c.II, s.1496).

Mirzə Camal Cavanşir yazır: - «Böyük Sərdar Şirvandan keçib Bakı tərəfə hərəkət etdi. Bu zaman mərhum İbrahim xanın xəstə olan böyük oğlu general-mayor Məhəmmədhəsən ağa Allah rəhmətinə getdi....Rus dövlətinə itaət etməyə razı olmayan bir para adamlar Məhəmmədhəsən ağanın vəfatından, mərhum İbrahim xanın xəstəliyi, yaşının çoxluğu və qüvvəsinin azlığından istifadə edərək, müqavilə və əhdnamənin əksinə olan işlər görməyə başladılar. Bunu nəzərə alaraq Sisianov Mehdiqulu xanı Qarabağ qoşunu ilə birlikdə geri göndərməyi məsləhət bilərək böyük ümidlərlə Qarabağa qaytardı. Şuşaya qayıdan Mehdiqulu xan atasının hüzuruna gələrək... fəsadlıq törədən bəzi şəxslərin qarşısını almağa başladı...» (55, s.137). Görünür, Mirzə Camal bəy ya bilərəkdən və ya da bilməməkdən Sisianovun məkrli niyyətlərini açıqlamır. Mirzə Camal Cavanşir

daha sonra yazır: «Bu zaman xəbər çatdı ki, Bakı xanı Hüseynqulu xan və onun adamlarından alçaq və pis hərəkətin baş verə biləcəyini güman etməyən böyük sərdar, Bakı vilayətində iki nəfər bəyzadə ilə birlikdə (xanla) söhbət etməyə getmiş və bu zaman pusquda oturmuş İbrahim bəy və iki nəfər başqa adam onu və yoldaşlarını güllə ilə yaralayıb öldürmüş və bununla da özlərinin padşahın əsgərlərinə müxalif və düşmən olduqlarını bildirmişlər» (55, s.137).

Mirzə Adıgözəl bəy isə bu hadisəni belə qələmə alır: Ruslar «Bakını həm dənizdən və həm də qurudan mühasirə etdilər. Bir müddət keçdikdən sonra, Badkubə (Bakı) xanı Hüseynqulu xan, cürbəcür vasitə və bəhanələrlə sülh və saziş binasını qoydu. Sərdar da onun üstüörtülü sözlərinə inandı. Hüseynqulu xan qaladan çıxdı, çadırlar qurdurub oturdu. Sonra sərdar həzrətlərinə belə bir xəbər göndərdi: «Sizə söyləməyə bir para vacibli və gizli sözlərim vardır. Onları şifahi sizə danışmalıyam. Buna görə, məsləhətdir ki, mənim çadırıma təşrif gətirəsiniz. Saf və təmiz qəlbli cənab Sərdar bu işdə bir qərəz olduğunu ürəyinə gətirmədi. Hüseynqulu xanın çadırına gəldi. Orada oturub danışır və məsləhətləşirdilər. Danışıq və müşavirə əsnasında, Hüseynqulu xanın qohumlarından İbrahim bəy adlı bir şəxs namərdlik edib, güllə ilə Sərdarı yaraladı. Sərdar həmin saat vəfat etdi» (54, s.72-73).

General Sisianov Hüseynqulu xanla görüş ərəfəsində ona məktub göndərib, onun qarşısında aşağıdakı hədələyici məsələləri qoymuşdu. Məktubda deyilirdi ki, «Bakı xanlığında dini inam saxlanılır, Hüseynqulu xanın nəsli əsilzadə kimi tanınır, məhkəmə işlərində Bakı komendantının iştirakı olmalıdır, gömrükdən başqa digər gəlirlər Bakı xanlığında saxlanılır, Bakıda rus ordusunun evlə təmin olunması xanın öhdəsində qalır. Bakıdan neftin və duzun başqa yerə getməsinə Baş komandanın razılığı olmalı, Bakı xanı sadiqlik kimi oğlunu girov verməlidir. Bakı xanı şərtləri pozarsa, onun hakimiyyətinə son qoyulacaqdır. Bakı xanı çarəsiz qalıb bu şərtləri qəbul etməli oldu. Bakının qala açarları P.D.Sisianova verildi. Onun

şərəfinə qalada məclis oldu. Məclisdə P.D.Sisianov və onun köməkçisi Eristov qəlyan çəkdikləri yerdə öldürüldülər. Onları Cənubi Azərbaycandan gələn İbrahim bəy qətlə yetirdi. O, dərhal generalın başını kəsib onu İran vəliəhdi Abbas Mirzənin hüzuruna apardı. Bu xidmətin müqabilində ona xan rütbəsi verildi» (22, s.19- 20).

Azərbaycanda geniş miqyaslı işğallar aparan general Sisianov özünü özgə torpaqlarının «sahibi» hesab edirdi. Əldə etdiyi qələbələri ilə sanki məst olmuşdu. O, Bakı üzərinə hücuma hazırlaşarkan, belə hesab edirdi ki, Kürəkçay sahilində İbrahimxəlil xanla traktatı şampan içə-içə bağladığı kimi irəli sürdüyü məğbuledilməz şərtlərlə Hüseynqulu xanla da belə bir müqavilə imzalaya biləcəkdir. Salnamə müəllifləri onun siyasətini hərtərəfli tərifləyir, şərəfsiz adını şöhrətləndirməyə səy göstərərək, ona haqq qazandırırlar. Belə hesab edirik ki, öz bəd əməlləri ilə əhalinin dərin nifrətini qazanmış Sisianov tez-gec öz layiqli cəzasını almalı idi və aldı da. «Qarabağnamələr»in müəllifləri isə onun layiq olduğu cəzaya çatdırılmasından olduqca təəssüflənir və bunu ümumxalq matəmi və kədəri kimi qələmə verməyə çalışırlar. Bizə elə gəlir ki, onları günahlandırmaq olmaz. Ona görə ki, faktiki olaraq qulluq elədikləri imperiyanın mənafelərini, imicini qoruyur, imperiyanın buyruğunu, siyasi sifarişini yerinə yetirirdilər. Başqa sözlə desək, salnaməçilər Rusiya imperiyasının cızdığı dairədən, müəyyənləşdirdiyi siyasi-ideoloji qəlibdən kənara çıxa bilməzdilər.

Bakının tutulması Sisianova qismət olmadı. Bakı darvazaları qarşısında Hüseynqulu xanın dayısı oğlu İbrahim bəy Sisianovu öldürdü. Elizbar Eristov isə Seyid bəy və Əmir Həmzə tərəfindən öldürüldü. Sisianovun öldürülməsi Rusiyanın Cənubi Qafqazdakı mövqelərinə ağır zərbə vurdu. «Şirvan, Şəki və Qarabağ xanları bu vəziyyətdən istifadə edərək Rusiyadan aralanmağı və öz müstəqilliklərini bərpa etməyi qərara aldılar» (127, s.42). Uğurlu ağa Gəncədə öz müstəqilliyini elan etdi (127, s.42).

Özünü Rusiyanın vassalı hesab edən və 1801-ci ildən

general-leytenant rütbəsi daşıyan Lənkəran xanı Mirmustafa xan qacarların tərəfinə keçərək ruslarla düşmənçilik etməyə başladı (1, s.390). İrəvan xanı isə zəbt olunmuş Şörəyel mahalını geri qaytarmağa hazırlıq görürdü (138, s.235).

Rusiyanın Qafqazda ən qatı əleyhdarları hesab olunan Car-balakənlilər, borçalılar və pənbəklilərin, eləcə də şəmşəddillilərin çıxışları demək olar ki, ara vermir, müxtəlif formalarda davam edirdi.

İmeretiya valisi Rusiyanın düşməninə çevrildi. Dağıstan hakimləri də üsyançılara kömək edirdilər (97, c.V, s.17; 1, s.391; 138, s.235). Göründüyü kimi, az qala bütün Qafqaz Rusiya imperiyasının müstəmləkəçilik və işğalçılıq siyasəti əleyhinə qarşı ayağa qalxmışdır.

Yuxarıda göstərilən hadisələr haqqında salnamələrdə heç bir məlumat yoxdur. Bu hadisələr əhalinin istilaçılara qarşı münasibətini aydın surətdə təcəssüm etdirir. XIX əsrin başlanğıcında baş vermiş həmin hadisələr, rus işğalı prosesində və işğaldan sonra baş vermiş irili-xırdalı xalq çıxışları, üsyanları sovet tarixşünaslığında sonralar kök salmış «könüllü birləşmə» və yaxud «birləşdirmə» elmdən uzaq, kölə - qul psixologiyasından doğan iddiaların puçluğunu sübut edir.

1806-cı ilin yazında Qafqazda baş verən hadisələrdən istifadə edən Qacar qoşunları rusları Azərbaycandan qovub çıxarmaq üçün iki istiqamətdə hücuma başladılar. Birinci dəstə tezliklə Şuşa yaxınlığına çatıb burada düşərgə saldı, ikinci dəstə isə Ağsuya gəlib çıxdı. Qacar qoşunlarından bir hissəsini öz yanına dəvət edən Şeyxəli xan Hüseynqulu xanla birlikdə Abbas Mirzənin yanına getdi (1, s.156).

P.D.Sisianovdan sonra Qafqazdakı rus qoşunlarının baş komandanı vəzifəsinə qraf İ.V.Qudoviç təyin olunur. General İ.V.Qudoviç bu vəzifəni 1809-cu ilədək icra etmişdir.

Mirzə Camal bəy yazır: «Həmin ilin, yəni 1806-cı ilin yaz fəslində Qızılbaş qoşunu Qarabağ torpağına yenidən hücuma keçməyə başladı. Gizlincə adamlar göndərib, mərhum İbrahim xana yenidən vədə və ümidlər verməyə davam etdilər. Elə

qüdrətli düşmənin qabağını almaq üçün Qarabağda mayor Lisaneviç və yeger dəstəsindən başqa qoşun olmadığından və məhsul vaxtı gəlib çatdığından İbrahim xan, Qarabağ elləri və kəndlərinin ayaq altında dağılmaması üçün qızılbaşlarla xoşluqla rəftar etməyə başladı. O, hər bir iş barəsində mayorla məsləhətləşirdi. Mayor isə yüksək rus dövləti qoşununun tezliklə gəlib çatacağını İbrahim xana vəd edirdi. Həqiqətdə isə Rus qoşunu yubandı. Qızılbaşlar və onların qoşunu qalanın iki ağaclığına çatmışdı. Mərhum İbrahim xan evini və köçünü Xan bağından köçürüb, qalanın yaxınlığına gətirdi. Dələ-duzlardan bir neçəsi mayora nə isə demişdilər. Gecə mayor bir dəstə qoşunla İbrahim xanın yaşadığı mənzilə getdi. Hökmü dəyişilməz olan Fələkin qəzasından mərhum İbrahim xan bir neçə nəfər əhl-əyalı və yaxın adamı ilə orada öldürüldü» (55, s.138).

Təəssüflər olsun ki, Mirzə Camal bəy, hadisəni tam təfsilatı ilə vermir, qətlə yetirilənlərin dəqiq sayını göstərmir. Salnaməçi rusların bu xəbis və xain cinayətlərinin üstündən yavaşca ötüb keçməyə çalışır, onun mahiyyətini, səbəb və nəticələrini açıb göstərmir. Xanın və onun adamlarının qətlə yetirilməsinə baxmayaraq, ruslara və qəddar İvan Lisaneviçə qarşı heç bir hərəkət baş vermədi. Ruslar qorxuya düşən şəhər əhalisini sakitləşdirməyə və qoşun üçün azuqə tədarük etməyə çalışırdılar. Bu vaxt artıq Abbas Mirzə qoşunu ilə Ağoğlana çataraq burada yerləşmişdi (55, s.138).

İbrahimxəlil xanın qətlindən on beş gün sonra, «general Nebilson qoşun və topxana ilə Şahbulağında göründü... Mehdiqulu xan və Cəfərqulu ağa da ruslara kömək edirdilər. Abbas Mirzə rus qoşununun ona tərəf hərəkət etdiyini eşitdikdə, ruslarla müharibəyə başladı... 15 iyul 1806-cı ildə hər iki qoşun Xankəndi yaxınlığında 7 saatlıq döyüşdən sonra qızılbaşlar məğlub edildilər. Bu hadisədən sonra, İbrahim xanın sağlığında Məhəmmədhəsən ağanın vəfatından sonra Mehdiqulu ağanı vəliəhd təyin etməsi ilə əlaqədar olaraq, general Nesvetayev Mehdiqulu xanın məktubunu və yazılarını öz ərizəsi ilə

imperatorun hüzuruna göndərdiyinə görə sərdar, onu öz hüzuruna, Tiflisə çağırtdırdı. Mehdiqulu xan bütün kəndxudalar və ellərin bəyləri ilə bərabər Tiflisə gələrək qrafla, (Qudoviçlə - Y.H.) görüşdü. O, biri günü böyük yığıncaq oldu. Qarabağ hakimliyi fərmanı və əhdnamədə qeyd edildiyi kimi, cavahirə tutulmuş qılınc və padşahlıq bayrağı vədəsi Mehdiqulu xana verildi. Sərdar onu böyük hörmət və ümidverici vədlərlə Qarabağa yola saldı» (55, s.140). Mehdiqulu xan 1807-ci ildən 1822-ci ilə kimi Qarabağ xanı olmuşdur.

İbrahimxəlil xanın dəli mayor tərəfindən qətlə yetirilməsi başqa salnamə müəllifləri tərəfindən də işıqlandırılır. Lakin onlar da bu qatı cinayət və əsil amansız kütləvi qətl haqqında quru və ötəri məlumatlar təkrarlanır. Bu məsələ Rzaqulu bəy Mirzə Camal oğlu tərəfindən bir qədər ətraflı qələmə alınmışdı: «14 iyun 1806-cı ildə gecə mayor Lisaneviç mayor Corayev və 200 nəfər əsgərlə birlikdə xanın düşərgəsinə gələrək Rusiya qarşısında heç bir günahı olmayan İbrahim xanı, arvadı Tuba xanımı, qızı Səltənət bəyimi, 12 yaşlı oğlu Abbasqulu ağanı, ümumiyyətlə isə xanla olan 17 nəfəri qətlə yetirdi» (67, s.236-237). Qərb tarixçiləri səhv olaraq belə güman edirlər ki, guya İbrahimxəlil xan və onun ailəsini nəvəsi Cəfərqulu ağa qətlə yetirmişdir.

Bir sıra digər tarixi qaynaqlar və sənədlər İbrahimxəlil xanın qətli barədə daha ətraflı məlumat verir. Əgər xanın satqınlıq fikri olsaydı yəqin ki, hərbi hazırlıq görərdi. General Nesvatayev özü etiraf edir ki, xanın yanında heç bir döyüşçü olmamış və xan özü heç bir atəş açmadan rus qoşunlarının qarşısına çıxmışdır (86, c.İİ, s.605). Əsgərlər isə heç nəyə baxmadan xanı və çadırını gülləyə tutmuşdular. Nesvetayev eyni zamanda qeyd edirdi ki, hücum edənlər xanın bütün əmlakını qənimət kimi ələ keçirmişdilər. Əsası isə xanın heç bir səbəb olmadan öldürülməsi həmin sənəddə təsdiq edilirdi.

General Nesvetayevin raportuna əsasən yuxarıda deyilən fikirləri hərbi nazirə çatdıran qraf Qudoviç belə yazırdı: «İbrahim xanın qohumlarına, eləcə də itaətimizdə olanların

hamısına imperatorun ədalətli və qanunpərəst olduğunu göstərmək üçün podpolkovnik Lisaneviç və mayor Corayev üzərində formal olaraq təhqiqat aparmalıyıq» (86, c.II, s.605). Qafqazdakı baş rus məmuru və baş hərbçisi olan qrafın bu məlumatını riyakarlığın zirvəsindən başqa heç nə adlandırmaq olmaz.

Cəzasız qalan Lisaneviç və Corayev şuşalıları sakitləşdirmək üçün bir müddətdən sonra başqa xanlığın ərazisinə keçirildilər (73, s.76). 80 yaşlı İbrahimxəlil xanın, onun ailə üzvlərinin və yaxın qohumlarının öldürülməsinə hökm verən Lisaneviçin rütbəsi əvvəlcə podpolkovnik, daha sonra isə generallığa qaldırıldı. General İ.V.Qudoviçin adına saysız-hesabsız şikayət ərizələri göndərildisə də nəticəsiz qaldı. Şuşa komendantı Lisaneviç əhalinin dərin nifrətinə və qəzəbinə düçar oldu. Xalqın narazılığı və çoxlu şikayəti nəticəsiz qaldı. «İbrahim xan Rusiya imperiyasının qəddar müstəmləkəçilik və işğalçılıq siyasətinin qurbanı oldu. Həmin faciəli gecədə Mehdiqulu ağa və Cəfərqulu ağa* Şuşada idilər. Bu hadisədən şuşalılar və bütün Qarabağ əhli həyəcana düşdü» (27, s.337). Beləliklə, atasının günahsız ölümünə biganə qalan, Mehdiqulu ağa xan elan olunaraq, 1807-ci ildən 1822-ci ilə kimi Qarabağ xanlığını formal olaraq idarə etməyə başladı. Lakin bütün faktiki hakimiyyət rus komendantlarının əlində idi. İbrahim xanın qətlindən sonra Şuşada və ümumiyyətlə bütün Qarabağda ruslara qarşı əhali ayağa qalxmışdı, onları qovub çıxarmaq üçün əlverişli şərait yaranmışdı. Lakin hakimiyyəti naminə Mehdiqulu xan bu imkandan istifadə etmədi. O, nəinki ruslara qarşı çıxdı, eyni zamanda Ağoğlanda yerləşən Abbas Mirzəyə qarşı hücum əməliyyatında fəal iştirak etdi.

Mirzə Camal Cavanşir yazır: «Nəhayət, Qarabağ atlıları,

---

* Yeri gəlmişkən qeyd edək ki, Lisaneviç İbrahimxəlil xanın qətlini təşkil etmək üçün Cavanşir nəslinin bu xain və ambisiyalı nümayəndəsini yalançı taxt-tac vədi ilə qızışdırıb onun öz əmisi barəsində yalançı və fitnəkar donoslarından yetirincə bəhrələnmişdir - Y.H.).

polkovnik Cəfərqulu ağanın başçılığı ilə Qapan və Ordubad dağlarında Qızılbaş qoşununa çataraq, döyüşə başladılar. Dar dərələrdə, iki minə yaxın Qızılbaş süvari və piyadasını məğlub edərək, hamısını tutub soyundurdular, atlarını, şeylərini, paltarlarını aldılar. Bir tərəfdən general Nebolsinin Mehdiqulu xanla birlikdə Abbas Mirzəni məğlub etmələri, digər tərəfdən də mayorla (Lisaneviç nəzərdə tutulur - Y.H.) Cəfərqulu ağanın belə şücaət göstərmələri Qarabağ camaatını sakitləşdirdi və padşah əsgərlərinin gücünü nümayiş etdirdi. Hər kəs öz yerində yerləşib, rahat və asudə yaşamağa başladı» (55, s.139-140).

Mirzə Camal bəy Cavanşir «Qarabağ tarixi»ndə öz təsvir və şərhlərini 1806-cı ilin sonunda, Mehdiqulu xanın Qarabağda «hakimiyyət»ə gəlməsi ilə başa çatdırır. O, Mehdiqulu xanın 1807-1822-ci illərdə davam etmiş hakimiyyətini qısaca olaraq belə təsvir edir və bu müxtəsərliyi aşağıdakı şəkildə əsaslandırır: «Mehdiqulu xanın hakimiyyəti göstərilən (1807-ci ildən - Y.H.) tarixdən başlayaraq, 1822-ci ilin oktyabr ayına qədər davam etmişdir. Bunun təfsilatı yüksək dövlətin kargüzarları tərəfindən dəfələrlə qeyd edildiyinə görə sizə məlumdur və mənim ərz etməyimə ehtiyac yoxdur» (55, s.140).

Mirzə Camal bəy Cavanşirin 1807-ci ildən 1822-ci ilə kimi Qarabağ xanlığının tarixinə toxunmaması təəccüb doğurur. Ona görə ki, o, 1804-1813-cü illər birinci Rus-Qacar müharibəsinin bütün gedişinin, müharibənin səbəbləri və başlanmasının, Abbas Mirzənin Şimali Azərbaycan uğrunda Rusiya imperiyası qoşunlarına qarşı apardığı mübarizənin, Qarabağda və Şimali Azərbaycanın digər xanlıqlarında Rusiya imperiyasının qanlı cinayətlərinin canlı şahidi olmuş, Gülüstan və Türkmənçay müqavilələrinin imzalandığı dövrün bir sıra mühüm hadisələri onun gözləri önündə baş vermişdi.

Mirzə Camal sonuncu Qarabağ hakimi Mehdiqulu xanın hakimiyyətə gəlməsindən sonra daha 46 il ömür sürmüşdü. Xanlığın nominal varlığının son 15 ilinin Mirzə Camalın salnaməsində əks etdirilməməsinin bir neçə səbəbi ola bilər.

Əvvəla, Mehdiqulu xana və Rusiyaya məxsus olan

inzibati dövlət idarələrində çalışmış bu müəllif öz ağalarının «üzünə ağ olmaq» imkanına malik deyildi.

İkincisi, baş vermiş hadisələrin obyektiv şərhi, son xanlıq dövrü və çar rejiminin əsil mahiyyətinin açıb göstərilməsi Mirzə Camala nəinki mövqeyinə və mal-mülkü, həmçinin canı, fiziki varlığı bahasına başa gələ bilərdi.

Üçüncüsü, bu əsər bir növ Qafqaz canişini Voronsovun (yəni ali Qafqaz hökumətinin) siyasi sifarişi olduğundan müəllif romanovların mənafelərinə toxunan mövqelərdən çıxış edə bilməzdi.

Dördüncüsü, ola bilsin ki, müəllif öz milləti, torpağı və doğma Qarabağın 1807-1822-ci illər tarixinə toxunub yalan danışmaq, vicdanının əleyhinə getməkdənsə, bu dövrə ümumiyyətlə toxunulmağa üstünlük vermişdir.

İstənilən halda XXI əsrin əvvəllərində yaşayan bizlərin tariximiz üçün qiymətli qaynaqlar qoyub getmiş salnaməçiləri bunlara görə qınamağı fikrimcə, haqqımız yoxdur.

Yuxarıda qeyd edildiyi kimi, Gülüstan və Türkmənçay sülh müqavilələri ilə başa çatan hərbi-siyasi proseslər Mirzə Adıgözəl bəy və Mirzə Yusif Qarabaği tərəfindən təsvirçilik mövqeyindən olsa da qələmə alınmışdır.

Məlum olduğu kimi, Rusiya və Qacarlar səltənəti arasında 1804-1813-cü illər müharibəsi, rus qoşunlarının Qafqazda hərbi uğurları Rusiya imperiyasının Yaxın Şərq rayonlarına, Şərq və Qərbi birləşdirən mühüm və rahat ticarət yolları üzərində nəzarəti ələ keçirməyə son dərəcə yaxınlaşması, nəinki Qacarları, eyni zamanda Osmanlı Türkiyəsini, İngiltərə və Fransanı da narahat edirdi. İngiltərə və Fransa Türkiyə və İrana hərbi yardım göstərməklə Rusiyanı Cənubi Qafqazdan vurub çıxarmaq istəyirdilər. Məhz İngiltərəyə arxalanan İran 1804-cü ilin yazında Rusiyadan tələb etdi ki, öz qoşunlarını Qafqazdan çıxartsın. Lakin Rusiya İranın bu tələbini rədd etdi. Buna cavab olaraq Qacarlar səltənəti 10 iyun 1804-cü ildə Rusiyaya müharibə elan etdi (8, s.572).

Tarixi mənbələr, habelə Mirzə Adıgözəl bəyin və Mirzə Yusif Qarabağinin məlumatları sübut edir ki, bu müharibədə Rusiya öz üstünlüyünü nəinki qoruyub saxlaya, habelə yeni uğurlar qazana bildi.

Qafqazda bir-birini əvəz edən Rusiya qoşunları baş komandanları - general A.P.Tormosov, general F.O.Pauluççi, general-leytenant N.F.Rtişşev bütün Qafqazda, o cümlədən Şimali Azərbaycanda Rusiyanın müstəmləkəçilik və işğalçılıq siyasətini həyata keçirirdilər (7, s.410).

Lakin bütün buna baxmayaraq Qafqaz, o cümlədən Azərbaycanın başqa yerlərində olduğu kimi, Qarabağ xanlığında da Ruslara qarşı əhalinin narazılığı durmadan güclənirdi. «Rus silahına inamı bərpa etmək» məqsədilə Qarabağa göndərilən general Kotlyarevski əhaliyə divan tutmağa başladı. İlk olaraq Cəfərqulu ağanın anası Xeyrənisə bəyim həbs edilərək Tiflisə göndərildi. Markiz Pauluççi azad olunması üçün ondan 150 min rubl tələb etdi, əks təqdirdə onu Rusiyaya göndəriləcəyi ilə hədələdi. Lakin Xeyrənisə bəyimdən götürülən «qiymətli daş-qaşların dəyəri 20 min rubl təşkil edirdi. Eyni zamanda Mehdiqulu xanın anası, qardaşı da tutulmuş, sayılıb-seçilən Qarabağ nəsillərinin nümayəndələri girov götürülmüşdü» (97, c.V, s.451-452).

Mirzə Adıgözəl bəy və Mirzə Yusif Qarabaği Qarabağda Rusiya imperiyası əleyhinə olan narazılığa, müstəmləkəçilərə qarşı açıq və gizli müqavimətə, baş verən siyasi hadisələrə öz münasibətlərini açıq formada bildirmirlər. Rus ordusunun zəif rəqiblər üzərində qələbələrini tərifləməklə, rus çarizminin bütün fəaliyyətini təqdir edirlər.

1810-cu ilin aprel ayında Fətəli şah hökumətinin təklifi ilə Əsgəranda Rusiya ilə İran arasında sülh danışıqları başlandı. Danışıqlarda ruslar Naxçıvan və İrəvanı, Qacarlar isə Lənkəran xanlıqlarını tələb edirdilər. Əsgəranda tərəflər heç bir razılığa gələ bilmədilər. Ona görə də sonrakı hadisələrin məhz bu vilayətlərdə baş verəcəyi şübhəsiz idi (73, s.110).

1806-cı ilin sonunda Türkiyə ilə Rusiya arasında başlanan

müharibə 16 may 1812-ci ildə Buxarestdə hər iki ölkə arasında sülh müqaviləsinin bağlanması başa çatdı. Bu sülh müqaviləsinə əsasən Osmanlı Türkiyəsi Rusiyanın Qafqazdakı işğallarını tanımağa məcbur oldu (8, s.576).

Etiraf etməliyik ki, sultan Türkiyəsi ağır hərbi məğlubiyyətlərin təzyiqi altında Buxarest sülhünü imzalamaqda bir qədər tələsmişdi. Ona görə ki, Fransanın imperatoru I Napoleon bu dövrdə Rusiyaya qarşı, böyük hərbi qüvvə ilə hücum etməyə hazırlaşırdı. Doğrudan da, Napoleon Bonopartdan istifadə edib rusları Qafqazdan qovmaq əvəzinə, onunla sülh müqaviləsini imzalamaqla sultan hökuməti ən böyük tarixi səhvə yol verdi. Müharibədə qalib çıxan Rusiya sonralar Osmanlı Türkiyəsini Qafqazdan tamamilə vurub çıxara bildi.

Rusiya-Fransa müharibəsinin başlanmasından istifadə edən Qacarlar ordusu Qafqazda fəal hərbi əməliyyatları bərpa etdi. Bu ordu 1812-ci ilin iyununda Arazı keçib Qarabağa girdi və Şahbulağı tutdu. Lakin general Kotlyarevski onları geri çəkilməyə məcbur etdi. Həmin ilin 2 iyulunda iki minlik Qacar ordusu Gəncəyə hücum etsə də yerli əhali tərəfindən dəstək almadı. Bunun ardınca dörd minlik İran ordusu Şəki xanlığına hücum etdisə də uğur qazana bilmədi. P.Kotlyarevski oktyabrın 19 və 20-də Aslandüz adlı yerdə Abbas Mirzənin qoşununu məğlub etdi. Hər iki tərəf bu döyüşdə xeyli itki vermişdi. İranın 16 nəfər zabiti əsir alınmışdı. Ruslardan da xeyli ölən və yaralanan var idi. Müdafiəçilərin gərgin müqavimətinə baxmayaraq 1 yanvar 1813-cü ildə Lənkəran qalası ruslar tərəfindən işğal olundu. «Rusların bölgədəki hərbi-siyasi müvəffəqiyyətlərindən və İranın içərilərinə doğru irəliləməsindən qorxuya düşən ingilis məsləhətçiləri şahı sülh bağlamağa təhrik etdilər. Beləliklə də, birinci Rusiya-İran müharibəsi İranın tam məğlubiyyəti ilə başa çatdı» (8 s.576-577).

12 oktyabr 1813-cü ildə Qarabağın Gülüstan kəndində Azərbaycan uğrunda 9 ildən artıq mübarizə aparmış tərəflər arasında sülh müqaviləsi imzalandı. Bu müqaviləni İran tərəfindən şahın vəkili Mirzə Əbdülhəsən xan Şirazi, Rusiya

tərəfindən isə Qafqazdakı rus qoşunlarının yeni baş komandanı N.F.Rtişşev imzaladılar. Gülüstan sülhünün şərtlərinə görə Lənkəran, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki xanlıqları Rusiya imperiyası tərkibinə qatıldı. Beləliklə, Azərbaycan iki hissəyə bölündü. İran Şərqi Gürcüstana, Qazax və Şəmşəddil sultanlıqlarına, həmçinin Dağıstana olan iddialarından əl çəkdiyini bildirdi. Bu müqaviləyə əsasən Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiya imperiyasına məxsus idi.

Bu müqavilə həmçinin Rusiya-İran ticarətində rus tacirlərinə çox böyük imtiyazlar verir, onlar sərhəddə çox cüzi (5%) vergi ödəmək şərti ilə bütün Qacarlar səltənəti ərazisində daxili gömrük ödəmədən ticarət etmək hüququ alırdılar. Xalqımız üçün bu istilaçı sülhün ən fəsadlı nəticəsi o olmuşdur ki, Azərbaycan torpaqlarının iki hissəyə bölünməsinin əsası qoyulmuşdu (8, s.577).

Lakin Mirzə Adıgözəl bəy və Mirzə Yusif Qarabaği Gülüstan sülhünün işğalçı xarakteri və ədalətsiz mahiyyəti haqqında bir kəlmə də olsun danışmırlar.

Xalqımızın taleyində çox ağrılı proseslərin əsasını qoymuş və həm də o dövrdə xalqımıza başçılıq etmiş hərbi-siyasi liderlərin fəaliyyətinin nəticəsi olmuş bu qarətçi, işğalçı və ədalətsiz müqavilənin mətninin bir hissəsinin burada verilməsini məqsədəuyğun sayırıq: «1813-cü il oktyabrın 12-də Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində rus ordugahında hər iki tərəfin səlahiyyətli müvəkkilləri vasitəsilə Bütün Rusiya imperiyası və İran Dövləti arasında bağlanmış və 10 sentyabr 1814-cü ildə Tiflisdə hər iki dövlətin səlahiyyətli müvəkkillərinin bir-biri ilə dəyişdikləri ratifikasiyalarla təsdiq edilmiş əbədi sülh və dostluq

**M Ü Q A V İ L Ə S İ**

**QADİR ALLAHIN ADI İLƏ**

İmperator Əlahəzrətləri, Bütün Rusiyanın ən şöhrətli və əzəmətli böyük hökmdarı və imperatoru və İran Dövlətinin

sahibi, hökmdarı Əlahəzrət Padşahın öz təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, onların ürəklərinə zidd olan savaşın fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya İmperatorluğu və İran Dövləti arasında mövcud olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi-qəlbdən qarşılıqlı surətdə arzulayaraq, bu ədalətli və nicatverici iş üçün aşağıdakıları və səlahiyyətli müvəkkilləri təyin etməyi faydalı bilmişlər: - Əlahəzrət Bütün Rusiya İmperatoru - öz general-leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş rəisi... zati-aliləri Nikolay Rtişşevi, Əlahəzrət İran şahı isə özünün, Türkiyə və İngiltərə Saraylarında Fövqəladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş. Məmuru, Ali İran Sarayının Məxfi İşlər Müşaviri, Vəzir nəslinə mənsub olan, İran Sarayında ikinci dərəcəli Xan, Yüksək rütbəli və Çox hörmətli Mirzə Əbdül Həsən Xanı, bu səbəbdən də Biz, yuxarıda adları çəkilmiş səlahiyyətli müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimiz öz tərəfindən bizim Böyük hökmdarlarımız adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və Ali Səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik.

## BİRİNCİ MADDƏ

İndiyə qədər Rusiya imperiyası və İran dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa bu müqavilə ilə bu gündən və gələcəkdə son qoyulur və qoy İmperator Əlahəzrətləri Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, Taxtlarının Varisləri və qarşılıqlı olaraq onları Yüksək Dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah andlaşma olsun.

## İKİNCİ MADDƏ

Bir halda ki, hər iki Yüksək Dövlət arasında ilkin əlaqələr vasitəsilə status-kvo prezenti, yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması özülündə sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda bu gündən və gələcəkdən bütün Rusiya İmperiyası və İran dövləti arasında sərhəd aşağıdakı xətt olsun: - Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzündən Araz çayında Yeddibulaq keçidinə kimi, oradan üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri ilə davam etdirərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinə qədər, buradan İrəvan xanlığını Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmsəddin torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı istiqamətində, **Həmzəçimən** yolu ilə, Pənbək dağları silsiləsi ilə Şörəyel mərzinin küncünə kimi, bu küncdən də qarlı **Alagöz** dağının zirvəsinə qədər, buradan da Şörəyel mərzi ilə, dağlar silsiləsi ilə, **Mastaraz** və **Artkin** arası ilə Arpaçaya qədər. Bununla belə Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin xanlığın **Zinzeley** və Ərdəbil tərəfdən olan hüdudları daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyə kimi hər bir tərəfin gerçək hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələrin, eyni zamanda çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq və təfsilatı təsvirini verəcəklər) tərəfindən, bu müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onun (status-quo ad prezenten), (status-quo ad prezenten latın sözü olub hazırkı vaxtda olan durum deməkdir) əsasında Talış xanlığının sərhəd xətti ilə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu

torpaqların sahibi qalsın. Eləcə də yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kənara nə isə çıxarsa, hər iki Ali dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf status-*quo ad prezenten* əsasında təminat verəcək.

## ÜÇÜNCÜ MADDƏ

Şah Əlahəzrətləri Əlahəzrət Bütün Rusiya İmperatoruna səmimi dostluq hisslərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran Taxtının Yüksək Vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyası hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla yanaşı Dağıstan, Gürcüstan (Şörəyel) əyaləti ilə birlikdə İmeretiya, Quriya, Minqreliya və Abxaziya, eyni zamanda da indi bərqərar edilmiş Qafqaz sərhəd xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperatorluğu mülkiyyətinə mənsub olduğunu qəbul edir.

## BEŞİNCİ MADDƏ

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınlığında üzmək və onlara yan almaq hüququ verilir, həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq, əvvəlki qayda üzrə, Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı qarşılıqlı surətdə iranlılara hər cür yardım göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, savaşdan əvvəl, habelə sülh vaxtı və hər zaman Xəzər dənizində Rusiya hərb bayrağı təkcə yellənəcəkdir. Həmin ehtiram daxilində keçmiş ixtiyar indi də yalnız Rusiya Dövlətinə verilir ki, Xəzər dənizində ondan başqa heç bir Dövlətin hərbi bayrağı dolaşa bilməz.

## ONUNCU MADDƏ

Malları Müqavilə bağlamış hər iki Dövlətin sahillərinə və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərinə gətirildikdən sonra, qarşılıqlı surətdə, tacirlərə nəzarət altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolu ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun, həmçinin satıcıdan və ya alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərti ilə qanuni rüsumlar yığılsın.

## ON BİRİNCİ MADDƏ

Bu müqavilə imzalandıqdan sonra hər iki Yüksək Dövlətin Müvəkkilləri qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımi xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər.

İki bərabər hüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan Yüksək tərəflərin yuxarıda göstərilmiş müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh Müqaviləsi Əlahəzrət Bütün Rusiya İmperatoru və Əlahəzrət İran Şahı tərəfindən bərqərar ediləcək və Əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli Ratifikasiyalarla təsdiq olunacaqdır.

Bu müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu Yüksək Saraylardan, qarşılıqlı surətdə göndərilməklə, onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çatdırılacaq.

Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü, İran sayması ilə min yüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rus ordugahında bağlanmışdır.

İmzalamışlar:

Müvəkkil və Gürcüstanda Baş Komandan Nikolay Rtişşev.

M.y.

Alişöhrətli İran Dövlətindən Müvəkkil Mirzə Əbdül Həsən Xan.

M.y. (9, s.602-607).

Göründüyü kimi, soyğunçu, qarətçi və bütövlükdə müstəmləkə xarakteri daşıyan Gülüstan sülhü Azərbaycan xalqının iştirakı və razılığı olmadan, Rusiya və Qacarlar səltənəti arasında imzalanmışdır. Tərəflər torpaqlarımızı istədikləri kimi, öz mənafelərinə uyğun olaraq böldülər. Bu bölgü Azərbaycanın milli, dövlət mənafelərinə vurulan ən ağır zərbə idi.

Mirzə Adıgözəl bəy Gülüstan sülhünə belə qiymət verir: - «Bundan sonra, (Gülüstan sülhü nəzərdə tutulur - Y.H.) əmin-amanlıq oldu və fitnə ilə dolu olan dünya asayiş tapdı. Bir müddətdən sonra, general Rtişşevi işdən götürüb general Yermolovu sərdar təyin etdilər» (54, s.78).

Mirzə Adıgözəl bəyin əsərində Gülüstan sülhünə son dərəcə subyektiv, birtərəfli münasibət əks olunur, müəllif bu sülhə müsbət, sadiq təbəəlik mövqeyindən yanaşır. Qarabağ bəylərinin çarizmə diz çöküb, romanovlar sülaləsindən ətalar uman zümrəsinin xarakterik nümayəndəsi olan Adıgözəl bəy Yermolovun fəaliyyətinə də müsbət qiymət verərək yazırdı: - «O, böyük general vilayətlərin işinə baxıb vəziyyətin tələblərinə görə, bəzi yerlərdə təzə qanunlar qoydu. Bu dövrdə Qarabağ və Şirvan xanları qızılbaş tərəfinə (İrana) qaçdılar». O, yazır ki, «Şəki xanı İsmayıl xan da vəfat etdi. Beləliklə, üç xanlıq ədalət və əzəmət nişanəli dövlət və səltənətin idarəsi altına keçdi. Cənab Yermolov bu yerlərdə divanxanalar açdı, divanbəyilər

seçdi və komendantlar təyin etdi. İşləri özü qoyduğu qanun üzrə apardı» (54, s.78).

Mirzə Yusif Qarabaği də Gülüstan sülhünə Mirzə Adıgözəl bəyin mövqeyindən yanaşır. Rus idarəçiliyinə yaxın olan, ondan faydalanan bu müəlliflərdən başqa mövqeyin nümayişinə ümid bəsləmək belə mümkün deyildir.

1813-cü il Gülüstan sülhünün nəticələri Qacarlar səltənəti və Azərbaycan üçün olduqca ağır idi. Cənubi Qafqazın əldən getməsi şah hökumətinə bir an belə dinclik vermirdi. Qafqazda itirilmiş mövqelərini yenidən bərpa etmək məqsədilə Tehran hökuməti Rusiyaya qarşı yenidən müharibəyə hazırlaşırdı. Bu işdə İngiltərə bütün vasitələrlə ona kömək edirdi. 1814-cü ildə İngiltərə ilə Qacarlar arasında yeni bir müqavilə imzalandı. Bu müqaviləyə əsasən London Tehrana hərbi müşavirlər göndərir, onu silahla təmin edirdi. Təbrizdə və digər şəhərlərdə İngiltərənin köməyilə hərbi zavodlar inşa olunurdu. Şah hökuməti bu tədbirlərdən sonra özünü hərbi cəhətdən gücləndiyini güman edərək, Rusiya imperiyasından Gülüstan sülhünün şərtlərinə yenidən baxılmasını tələb etdi. Lakin hər iki dövlət arasında bu barədə aparılan danışıqlar heç bir nəticə vermədi. İşi belə görən Qacarlar səltənəti Rusiyaya qarşı birgə mübarizə aparmaq məqsədilə Osmanlı Türkiyə ilə yaxınlaşaraq, İstanbul və Peterburq hökumətləri arasında münasibətləri kəskinləşdirmək üçün bütün vasitələrdən istifadə etməyə başladı. Bundan başqa şah hökuməti öz hakimiyyətini itirib, Cənuba qaçmış Şimali Azərbaycan xanlarından və rus işğalçılarına qarşı nifrət bəsləyən yerli əhalinin də qüvvəsindən istifadə etmək istəyirdi (8, s.577).

14 dekabr 1825-ci ildə Rusiyada baş vermiş dekabristlər üsyanı Rusiyanın daxilində dərin siyasi böhran törədəcəyinə, bununla da Rusiya imperiyasının zəifləyəcəyinə ümid bəsləyən şah hökuməti müharibəyə hazırlığı sürətləndirdi. 16 iyul 1826-cı ildə vəliəhd Abbas Mirzə 60 minlik qoşunla Şimali Azərbaycan torpaqlarına hücuma keçdi. Əvvəllər olduğu kimi, bu dəfə də ilk hədəf kimi Qarabağ, Şuşa qalası seçilmişdi (8, s.578).

Mirzə Adıgözəl bəy əsərində ikinci Rusiya İran müharibəsinə öz münasibətini belə bildirir: - «Məsihi (miladi) 1826-cı ildə xas və avam camaatın arasında belə bir şayiə yayıldı: - İranın dövlət adamları sülhü və və müahidəni pozub ədavət fikrinə düşmüşlər. Rusiyanın dövlət adamları buna inanmadılar. Onlar bu şayiələri yalan hesab etdilər. Bu əsnada knyaz Menşikov səlahiyyətli səfir kimi İrana gedirdi. O, Qarabağa gəlib Xudafərin körpüsündən keçdi və İrana getdi. Bu iş xas adamları və avam camaatı arxayın etdi. Mən özüm üç il olardı ki, İrəvan tərəfində sərhəd qarovulçuluğuna təyin edilmişdim» (54, s.79).

Knyaz Menşikov Qacarlar hökumətinin Rusiyaya qarşı müharibə etmək niyyətində olduğunu göstərən faktlar haqqında general-leytenant Velyaminova Xocaqiyas kəndi yaxınlığında düşərgədən 23 iyun 1826-cı il yazdığı raportda ətraflı məlumat vermişdir. Bundan əlavə 2 iyul 1826-cı ildə də Menşikov Velyaminova növbəti məlumatlarının birində də bu məsələyə bir daha toxunmuşdur (90, c.VI, s.349).

General-leytenant A.P.Yermolov 10 oktyabr 1816-cı ildə Qafqaza baş komandan təyin olunduqdan sonra, Şimali Azərbaycanda formal müstəqil olan xanlıqların Rusiyanın əyalətlərinə çevrilməsini həyata keçirmək uğurunda fəal mübarizə aparırdı. Xanlar bir-birinin ardınca hakimiyyətdən kənarlaşdırılır və keçmiş xanlıqların idarə olunması rus hərbiçilərinə həvalə olunurdu.

General A.P.Yermolov əslində Qafqazın mütləq hakimi idi. Azərbaycanın və ümumiyyətlə bütün Qafqazın Rusiya tərəfindən işğalında o, çirkin rol oynamışdır. Bu işdə xain ermənilərin və xüsusilə də satqın erməni zabitlərinin rolu ayrıca qeyd olunmalıdır. Yermolovun dövründə ermənilərin əli ilə Qarabağın müsəlman əhalisinə qanlı divan tutulurdu. Bütün xanlıqların fəaliyyəti general A.P.Yermolov tərəfindən tənzim olunurdu. Yermolovun qanunsuz hərəkətləri ayrı-ayrı xanlar, bəylər və əhalinin müxtəlif təbəqələrinin Şimali Azərbaycanda böyük narazılıqlarına səbəb olurdu (22, s.27).

Qarabağ xanlığına münasibətdə general Yermolovun məqsədinə çatmasında general Mədətovun böyük rolu oldu. Sonuncunun əli ilə Qarabağ xanı Mehdiqulu xan üçün dözülməz şərait yaradılmışdır. Xan 21 noyabr 1822-ci ildə ailəsini qoyaraq, bir neçə nəfər xidmətçisinin müşayiəti ilə xaricə qaçmağa məcbur oldu. Sevincindən özünə yer tapa bilməyən knyaz Mədətov bu hadisə barəsində elə həmin gün general-leytenant Velyaminova yazdığı raportda xəbər verirdi (90, c.VI, s.848).

Qarabağ xanı Mehdiqulu isə sonralar özünün bu hərəkətini belə qiymətləndirmişdir: **«Mən Tərtərə gedib orada bir neçə nəfər taparaq onlarla öz vəziyyətimi izah etmək üçün Tiflisə getməyi qərara aldım. Lakin məni Tərtərə buraxmamaq və Qarabağdan qovmaq əmri ilə dalımca göndərilmiş Məlik Vanya mənə çatdı və mən qorxaraq İrana yola düşdüm. Hərçənd mənə əslində Qarabağdan getmək lazım deyildi... Lakin mən özümü xilas etmək üçün İrana getdim». Mehdiqulu xan bunu 21 iyun 1827-ci ildə knyaz Abxazova yazdığı məktubunda bildirmişdi (91, c.VII, s.458-459, 558)**.

İ.N.Abxazov hələ polkovnik rütbəsində olduğu vaxt Qafqazda müsəlman əyalətlərinin idarəçiliyində mühüm vəzifələr tutmuşdur. O, Qarabağ, Şirvan, Şəki və başqa əyalətlərin idarə işlərinə müdaxilə edirdi. Bu işdə Qafqazdakı rus qoşunlarının yeni baş komandanı general İ.F.Paskeviç (1827-1831-ci illər) ona həmişə köməklik etmişdir. Mədətov Şimali Azərbaycandan uzaqlaşdırıldıqdan sonra Abxazov 1827-ci ilin aprel ayında Qarabağ, Şəki və Şirvana hakim təyin edilmişdir (91, c.VII, s.1, 542).

General Paskeviçin göstərişi ilə Abxazov Qarabağ xanı Mehdiqulu ilə də əlaqə yaratmışdı. Onun vədlərinə inanan Mehdiqulu xan yenidən Qarabağa qayıtmağa razılıq vermişdir. Halbuki, 1822-ci ildə Mehdiqulu xanın İrana qaçmasından sonra Qarabağ xanlığı ləğv edilmişdir. Mirzə Adıgözəl bəy də İrana getmiş, Mehdiqulu xanla görüşmüş və onun vətənə qaytarılması

üçün xeyli iş görmüşdü (22, s.119).

12 iyun 1827-ci ildə general I.F.Paskeviç Rusiya imperiyası ordusunun baş qərargah rəisi qraf Dibiçə yazmışdı: «Danışıqların (İranla - Y.H.) müvəffəqiyyəti və Mehdiqulu xanın bizim tərəfimizə keçməsi haqqındakı xəbəri zati-alinizin hüzuruna çatdırmağı özümə şərəf hesab edirəm. Bu ayın, yəni iyunun 8-də mən Qarabağdan məlumat aldım ki, xan oraya qayıtmışdı. Onun arxasınca Dərələyəzdən bizim sərhədlərimizə 35000 elat ailəsi köçmüşdür. Mehdiqulu xanın Qarabağa köçürülməsindən əldə edilən fayda olduqca mühümdür:

1. Keçmiş hakim Mehdiqulu xanın alçaldılmasına narazılıqla baxan sərhəd boyundakı adamların tərəddüdlüyünə son qoyuldu. O, sərhəd yaxınlığında olmaqla köhnə əlaqələrindən istifadə edərək istədiyi vaxt onu qəbul etmiş olan İranın mənafeyi naminə çıxışlar [təşkil edə] və aramızda özünə fəal tərəfdarlar tapa bilərdi.

2. Bu tayfaların çox hissəsini Mehdiqulu xan öz ardınca Qarabağa gəlməyə rəğbətləndirdi. Düşmən artıq onlardan kömək gözləyə bilməz. Onlar 4 min yaxşı süvari verə bilərlər ki, bu da nəinki bizim üçün qorxu təşkil edə bilər, əksinə, onlar sərhədlərimizi mühafizə edərlər» (91, c.VII, s.453-454).

Mirzə Adıgözəl bəy yazırdı: «Bu əsnada Dərələyəzdə olan Qarabağ hakimi həmail sahibi general-mayor cənab Mehdiqulu xanla Paskeviç arasında gəliş-gediş oldu. Mehdiqulu xan İran dövlətindən üz çevirib bu işıqlı dövlətin itaətinə gəlmək istəyirdi. Knyaz Abxazov Pankratyevlə müşavirə etdi. İki batalyon qoşun götürüb Mehdiqulu xanın yanına getdi. İki dövlətin sərhədində olan Ağ karvansarada görüşdülər. Knyaz onu xatircəm etdi. Ona qoşulan və tabe olan adamları köçürməklə məşğul oldu» (54, s.85).

Beləliklə, Rusiya tərəfi Qacarlarla növbəti müharibənin gedişində uğur qazanaraq heç bir vaxt möhkəm iradəsi ilə seçilməmiş sonuncu Qarabağ xanını onu saysız-hesabsız təhqirlərə məruz qoymuş romanovların nəzarəti altına qayıdıb itaətini bildirdi. Bu həm Qarabağın cavanşirlər xan sülalələrinin

tam siyasi iflası, həm də Mehdiqulunun şəxsi faciəsi idi.

Mirzə Adıgözəl bəy 1826-1828-ci illər Rus-İran müharibəsini öz əsərinin on ikinci fəslində şərh edir. O, bu fəslə çox maraqlı sərlövhə verib: **«Qızılbaşların öz əhdlərini dübarə sındırıb əzəmətli dövlətə qarşı ədavət və inad göstərmələri haqqındadır». Müəllif burada tarixi faktlarla yanaşı, özünün subyektiv fikir və mülahizələrini də qələmə almışdır. Lakin müəllif nə bu müharibənin, nə də 1828-ci il Türkmənçay sülhünün xarakter və mahiyyətini açmır. Əsas diqqəti «Şuşanın qızılbaşlardan müdafiə olunmasına»**, Şuşa qalasının komendantı İ.A.Reutun və general Paskeviçin hərbi «məharətlərinin» təriflənməsinə yönəldir. Xalqımızın qəddar düşməni, İbrahimxəlil xanın, onun ailə üzvlərinin və yaxın qohumlarının ölümünə sərəncam verən Lisaneviçin son aqibəti haqqında, şahnəzərovlar nəslinə mənsub olan cəllad general Mədətov haqqında tarixi həqiqətlər barəsində Mirzə Adıgözəl bəyin qələmi susur.

Sisianov Rusiya imperiyasının Qarabağdakı cəlladlarından biri olmuş, Lisaneviç də gec-tez, özünün layiqli cəzasını almalı idi. «22 iyun 1825-ci ildə o, Şimali Qafqazda, Qumuqlu knyazı Musa Xasıyev tərəfindən» (Yenə də türk oğlu! Qumuq türkü Azərbaycan türkünün qisasını yağıdan aldı - Y.H.) (22, s.57) cəhənnəmə vasil edildi.

Mirzə Adıgözəl bəy öz əsərini belə yekunlaşdırır: «Abbas Mirzə öz atasına (Fətəli şaha - Y.H) məktub yazıb bildirdi ki, Paskeviç Tehran üzərinə hücuma hazırlaşır. Axırda şah çarəsiz qalıb sülh bağlamağa razılıq verdi. «Türkmənçay» adlı yerdə sülh oldu. Araz çayı iki uca dövlət arasında sərhəd təyin edildi. İran dövləti yeddi kürur dava xərci verməyə razı oldu» (54, s.88). Yeddi kürur 20 milyon rubla bərabər idi.

Mirzə Yusif Qarabaği isə öz əsərində 1826-1828-ci illər müharibəsinə daha çox - 15 «fəsil» həsr etmişdir. O, həmin «fəsillərdə» Rusiya imperiyasının generallarını, xüsusilə mənşəcə erməni olan Mədətovu tərifləyir, rus qoşunlarının bütün cəbhə boyu uğurlu hücumlarını şişirdir, Abbas Mirzəni,

onun başdan-başa Azərbaycan türklərindən ibarət olan ordusunu acizlikdə günahlandırır. Mirzə Yusif Lazarevin və Mədətovun Azərbaycanda, xüsusilə də Qarabağ və Şuşada törətdikləri ağır cinayətləri və qanunsuzluqları təriflərlə ört- basdır edir. Mirzə Yusif bir erməni kimi, Qriqori Davidoviç Lazarevi hərtərəfli tərifləyir. Paskeviçin təşəbbüsü ilə ermənilərin İrandan Azərbaycana köçürülmələri üçün yaratdığı komitəyə Lazarevi başçı təyin etmişdir. Feldmarşal bu erməniyə çox böyük səlahiyyətlər vermişdir. Bu başabəla general İran ermənilərini Qarabağa, Şəkiyə, Naxçıvana, İrəvana və Şamaxıya köçürürdü. Ermənilər hətta Bərdədə də yerləşdirilirdilər. Lazarevin təşəbbüsü ilə qısa müddət ərzində 1.012 erməni ailəsi Bərdədə məskunlaşdırılmışdı (22, s.34).

Mirzə Yusif yazmır ki, Lazarev çalışırdı ki, İran erməniləri daha çox İrəvanda məskunlaşdırılsınlar. Bu zaman İrəvan əhalisinin 95 faizi azərbaycanlılardan ibarət idi. 1828-ci ilin təkcə may ayında Qarabağa 279, İrəvana isə 948 erməni ailəsi köçürülmüşdü (22, s.34).

Belə faktları daha çox göstərmək olar. Mirzə Yusif əsərinin son fəsillərindəki şərhli və təsvirlərin əksər hissəsini rus hakimiyyəti önündə kölə yaltaqlığı, qulun ağaya söylədiyi mədhnamələrə bənzər fikirlər təşkil edir. Məsələn, bu müəllif də Qarabağ xanı Mehdiqulunun İrana qaçması səbəbini açıqlamır. Ona yaxşı məlum idi ki, xanın vətəndən didərgin düşməsinin bütün günahı general Mədətovun üzərinə düşür. Qafqazda rus qoşunlarının baş komandanı A.P.Yermolov onu Dağıstan və Azərbaycanı işğal etmiş qoşununun başçılarından biri təyin etmişdi. Mədətov 1826-cı ilin fevral ayının 2-də Şamxorda (Şəmkir) 2000 azərbaycanlını vəhşicəsinə qətlinə əmr vermiş (22, s.38). Belə misalların sayını uzatmaq da olar. Lakin, Mirzə Yusif öz ermənisinin qanlı əməllərini hər vasitə ilə ört-basdır edir.

Sonralar görkəmli Azərbaycan mütəfəkkiri Abbasqulu Ağa Bakıxanov Qafqaz Baş idarəsində hərbi qulluqda olan Mədətovlar barədə çara xüsusi bir şikayət məktubu göndərmiş,

onların məkrli siyasət yeritdiklərini açıb göstərmişdir. O, 1834-cü ildə Varşavada olduğu vaxt bu məktubu Qafqazın keçmiş canişinini feldmarşal İ.F.Paskeviçə vermişdir. General Mədətov artıq ölmüşdü. Onun yaxın qohumu Mirzəcan Mədətov və digər ermənilər Qafqazda öz çirkin əməllərini davam etdirirdilər. Rusiya imperiyasının köməyi ilə Mədətov Qarabağda xanın, bəylərin və digər imtiyazlı sosial qrupların torpaqları hesabına 102.462 desyatin torpaq ələ keçirərək knyaz adı almağa nail olmuşdur. Qarabağ müsəlmanları isə Mədətovu «general və knyaz kimi yox, at oğrusu kimi tanıyırdılar» (22, s.39-40).

Mirzə Yusif yazır: «Abbas Mirzə dəfələrlə sifariş göndərib Şuşa qalasının təslim olmasını tələb və təkid edirdi. Bəzi şayiələr yayılmışdı ki, guya sərdar (Yermolov nəzərdə tutulur - Y.H.) ruslara vilayətdən kənara çıxmaq və qalanı təhvil vermək hökmünü vermişdir. Ona görə də qızılbaşlar bu məsələnin düzgünlüyünü yoxlamaq məqsədilə Biçin xanı polkovnik Reutun yanına göndərdilər.

Qala əhli polkovnikin əmrinə görə Biçin xanın gözlərini bağladıqdan sonra qalaya buraxıb polkovnikin yanına göndərdilər. Danışıqdan sonra belə qərara gəldilər:

- Qalanın komendantı mayor Çilayev kapitan Adıgözəl bəy ilə birlikdə tərəflərə iki həftə müddətinə əmanət və girov verilir. Bu məqsədlə ki, bir rus və bir də Abbas Mirzənin adamlarından biri Tiflisə gedib Yermolovdan xəbər gətirsin... nümayəndələr Tiflisə gedərək ondan qalanı təslim etməyə icazə verib-verməməsini soruşdular. Yermolov isə cavabında dedi ki, kapitulyasiya sözü rus dilində yoxdur, bu sözün mənası fransız dilində təslim olmaq deməkdir... Abbas Mirzənin nümayəndəsini (yasavulu) general Mədətovun yanına apardılar. General əvvəl yasavula qəzəblənib dedi:

- Mənim yanıma nə üçün əlağacı ilə gəlmisən, - sonra Abbas Mirzəni pis sözlərlə hədələdi:

- Gör o əlağacı ilə Abbas Mirzəyə mən nə edərəm» (58, s.71- 72).

Elə bu iqtibasdan müəllifin rusları idealizə etməsi,

bununla yanaşı erməni Mədətovu müsbət fonda və qabarıq formada oxucunun nəzərinə çatdırmaq meyli açıqca duyulur. Lakin məlumdur ki, bu generalın mənəm-mənəmliyi öz erməni gücünə deyil, rusun gücünə arxalanırdı. Tarixən ermənilər başqalarına, güclü himayədarlara arxalanmışdılar və indi də belədir. Eyni zamanda etnik tərəfkeşlik mövqeyində dayanan Mirzə Yusif general Mədətovun Qafqazdan kənarlaşdırılmasını onun Paskeviçə tabe olmaması ilə bağlayır.

Mirzə Yusif İrəvan qalasının işğalını, Abbas Mirzənin qoşununun əzilməsini, Təbrizin işğalını ağlasığmaz rəvayətlər, yalanlar və əsassız müddəalarla qələmə alır. O, 1826-1828-ci illərin müharibəsinin təsvirini aşağıdakı tərzdə yekunlaşdırır: «Hər iki tərəf sülh müqaviləsini bağlayıb dostluğun əsasını qoydular, iki tərəf arasında müqavilələr yazılıb, möhürlənib bağlandı. Araz çayını iki dövlətin sərhədi təyin etdilər. Bundan başqa Qızılbaş dövləti yeddi kürur - beş yüz min babaxanı tüməni verməli oldu. O zaman hər tümən dörd manatdan bir qədər az idi. Barışıq 1828-ci il fevral ayında bağlandı» (58, s.92).

Mirzə Adıgözəl bəyin və Mirzə Yusif Qarabağinin əsərlərinin son fəsilləri diqqətlə nəzərdən keçirilərkən məlum olur ki, ikinci Rusiya-İran müharibəsi Gülüstan sülh müqaviləsinin şərtlərini pozan Qacarlar səltənəti tərəfindən başlanmışdı.

1826-1828-ci illər ikinci Rusiya-İran müharibəsi hər iki tərəfdən aparılan ədalətsiz, işğalçı və qarətçi müharibə idi. Yeri gəlmişkən son zamanlar bir sıra tədqiqatçılar belə hesab edirlər ki, istər 1804-1813, istərsə də 1826-1828-ci illər müharibələri rus-İran yox, rus-Azərbaycan müharibələri olmuşdur. Biz bu haqlı fikirlə tamamilə razıyıq. Çünki, əvvəla bu müharibələr nə Rusiya imperiyasının, nə də İranın ərazisində getməmişdir. Müharibə Azərbaycan uğrunda və Azərbaycan torpaqlarında aparılmışdı. İkincisi isə, Abbas Mirzənin özündən tutmuş, onun ordusunun sonuncu əsgərinədək rusa qarşı vuruşanların hamısı Azərbaycan türkü idi. Fətəli şahın Tehran sarayı və hökuməti isə Qərbdə İranın «Napoleonu» adlandırılan Abbas Mirzəyə bu

müharibələrdə nəinki kömək etməmiş, əslində ona mane olmuşdur. Bütün bunları N.Nəcmi də, E.Paşayev də təsdiq edirlər.

Rus ordusunun irəliləməsindən Tehran yolunun onun üzünə tam açılmasından qorxuya düşən Fətəli şah, öz inadından əl çəkərək sülh müqaviləsi bağlanmasına razılıq verdi. Bu ədalətsiz, soyğunçu və qarətçi sülh 10 fevral 1828-ci ildə, Təbrizdən bir qədər cənubda yerləşən Türkmənçay kəndində imzalandı.

Bu müharibədən də qalib çıxan Rusiya imperiyası Azərbaycanın şimal torpaqlarını işğal etdi, Azərbaycan xalqı və torpaqları iki hissəyə parçalandı. Bu ədalətsiz müqavilə ilə 107 ildən artıq Şimali Azərbaycan Rusiya imperiyasının, ondan sonra isə 71 il Sovet imperiyasının müstəmləkə əsarətində qalmışdır. Sovet imperiyası süquta uğradıqdan sonra Şimali Azərbaycan müstəqillik əldə edərək, öz dövlətçilik ənənələrini bərpa edib, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolunda böyük uğurlar qazanmışdır.

Türkmənçay sülh müqaviləsi 16 maddədən ibarət idi. Bu müqavilənin 12 oktyabr 1813-cü il Gülüstan sülhündən fərqi ondan ibarət idi ki, bu müqavilə İrəvan və Naxçıvan xanlıqlarının da Rusiya tərəfindən işğalını özündə ehtiva edirdi. Bu müqavilənin XII, XIV və XV maddələri iki ölkə arasında əhalinin hərəkəti və başqa məsələlərə toxunurdu. Bu müqavilə imzalanarkən aparılan danışıqlarda A.S.Qriboyedov və A.A.Bakıxanov da iştirak etmişdilər.

Gülüstan sülh müqaviləsi Rusiya tərəfindən 1828-ci ilin martında, Qacarlar tərəfindən isə iyul ayında ratifikasiya edildi. Türkmənçay müqaviləsinin bəzi mühüm maddələrini bütövlükdə əsərə daxil etməyi lazım bilirik:

## DÖRDÜNCÜ MADDƏ

Müqaviləyə qoşulan yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır: -

sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratın zirvəsindən aralıda düz istiqamətə yaxın nöqtədə başlayaraq o dağların zirvəsindən keçir; buradan maillik üzrə kiçik Araratın cənub tərəfindən axan Aşağı Qarasu çayının yuxarılarına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir; burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yəni 3½ Rusiya versti enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq bir daha o çayın yatağı ilə Yeddibulaq bərəsinədək gedir; buradan İran torpaqları Araz çayının yatağı üzrə 3 ağac, yəni 21 Rusiya versti uzanacaqdır; sonra sərhəd Muğan düzü vasitəsilə Bolqarçayadək, iki kiçicik Adınabazar və Sarıqamış çaylarının birləşməsindən 3 ağac, yəni 21 verst aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı, adları çəkilən kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Çikoir yüksəkliyinin zirvəsinədək elə davam edir ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır, İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələrilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onların Xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Çikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Qəmərkuhun zirvəsinədək keçir. Suların axarını iki yerə bölən dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Çikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə Qəmərkuhun

zirvəsindən Zuvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velgic dairəsinin sərhədlərinədək uzanacaqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna olmaqla Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd xətti su axınının yuxarıda qeyd olunan qaydalarına daima uyğun olaraq, Velgic dairəsi sərhədindən Kloputanın zirvəsi və Velgic dairəsindəki dağların baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarını İrandan ayırmalı olan sərhəd xətti qurtarır.

## BEŞİNCİ MADDƏ

İran şahı həzrətləri Bütün Rusiya İmperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz adından, həm də öz vərəsələri və İran taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında, Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri (yarım köçəri - Y.H.) və başqa xalqların əbədi zamanadək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.

## SƏKKİZİNCİ MADDƏ

Rusiya tacir gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarında İranda olanlara hər cür kömək edilməlidir. Bu üsulla İran ticarət gəmilərinə də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür vəsaitlə kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi

gəmilər Xəzər dənizində üzə bilər; bu səbəbdən də əvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.

## ON İKİNCİ MADDƏ

Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır: - onlardan Arazın hər iki tərəfindən tərpənməyən əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin Bütün Rusiya imperatoru həzrətləri, ona aidiyyəti olduğuna görə, keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.

## ON BEŞİNCİ MADDƏ

Şah Həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırkı müqavilə ilə bu qədər xöşbəxtliklə başa çatmış savaşda törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya savaş ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı kömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət

müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işlətmiş adamlara şamil edilmir.

## ON ALTINCI MADDƏ

Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdan sonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımi fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi Bütün Rusiya İmperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifikasiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvəkkilləri tərəfindən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir. Fevral ayının 10-da İsanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır (9, s.618-624).

*Əslinə qol çəkmişlər:*
*İvan Paskeviç və*
*A.Obrezkov.*

Beləliklə, XIX əsrin ilk sülsündə romanovlar və qacarlar arasında Azərbaycan torpaqları uğrunda mübarizə birincinin uğuru ilə bitdi. Əsərləri mövcud elmi kitabın əsas mövzusu kimi seçilmiş salnaməçilərin bəziləri bu məsələlərə ümumiyyətlə toxunmamış, bəziləri isə bu taleyüklü hərbi-siyasi proseslərə romanovlann mənafeləri baxımından, çarizmin sadiq apologetləri kimi qiymət vermişdilər. Bu salnamələrin tarixi obyektivlə tərs mütənasib olan siyasi qiymətləndirmələrinə baxmayaraq onlarda gətirilən bütöv bir sıra faktlar, materiallar, məlumatlar XVIII əsrin ikinci yarısı- XIX əsrin əvvəlləri üçün Qarabağın, Azərbaycanın, Qafqazın bitkin və hərtərəfli tarixi

mənzərəsini yaratmaq baxımından son dərəcə qiymətlidir. Məhz bunlara görə də bizə belə qiymətli tarixi qoyub getmiş, lakin yaşadıqları dövrün hərbi-siyasi şəraitinin buxovlarından azad ola bilməmiş, həmin Azərbaycan salnaməçilərinin xatirəsini həmişə hörmətlə yad etməliyik.

# NƏTİCƏ

Mövcud əsərdə Qarabağ xanlığının siyasi və iqtisadi tarixinə həsr edilmiş «Qarabağnamə»lərə əsaslanmaqla Aran və dağlıq Qarabağın qədimdən tarixi Azərbaycan torpaqları olduğu bir daha sübut edilmişdir.

**Qarabağ xanlığının siyasi, iqtisadi və mədəni tarixini öyrənmək üçün Mirzə Adıgözəl bəyin «Qarabağnamə», Mirzə Camal Cavanşir Qarabağinin «Qarabağ tarixi», Əhməd bəy Cavanşirin «1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair», Mirzə Yusif Qarabağinin «Tarixi-safi», Mirmehdi Xəzaninin «Kitabi-tarixi-Qarabağ», Rzaqulu bəy Mirzə Camal oğlunun «Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri», Mirzə Rəhim Fənanın «Tarixi-cədidi-Qarabağ», Məhəmməd Baharlının «Əhvalati-Qarabağ», Həsən Ixfa Əlizadənin «Şuşa şəhərinin tarixi», Həsənəli Qaradağinin «Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları» və Abbasqulu Ağa Bakıxanovun «Gülüstani-İrəm» əsərlərində olduqca qiymətli məlumatlar vardır.**

Bunlardan əlavə əsər yazılarkən müəllif XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəllərində Qarabağ xanlığının siyasi və iqtisadi tarixinə həsr olunmuş sənədlərdən, tarixi mənbələrdən, sonrakı dövrlərdə xanlığın siyasi-iqtisadi tarixinə həsr edilən elmi əsərlərdən də məqsədyönlü şəkildə istifadə edərək, müxtəlif xarakterli qaynaqlara söykənilməklə Qarabağın əyyami-qədimdən bəri Azərbaycan torpağı olduğunu, bu xanlığın sırf Azərbaycan dövləti olduğunu, onun məhz Azərbaycan türklərinə söykəndiyini sübut etmişdir.

Çoxsaylı qaynaqlar göstərir ki, Qarabağ xanlığının

meydana çıxdığı Kür-Araz arası torpaqlarda əhali demək olar ki, başdan-başa türk-müsəlman əhalisi olmuş, onun yaradıcıları Azərbaycanın qədim türk boylarının nümayəndələri sırasından çıxmış, bu xanlıq türk əhalisinə söykənən siyasi qurum kimi təxminən 75 il fəaliyyət göstərmişdir.

Məlum olduğu kimi «Qarabağnamələr» salnamə xarakteri daşıdıqları və təxminən eyni tarixi dövrdə baş verən hadisələri əks etdikləri üçün bir-birini əsasən təkrar edir. Başqa cür də ola bilməz. Əsərdə bu salnamələrin diqqətlə təhlil edilməsi nəticəsində, başqa Azərbaycan xanlıqları kimi Qarabağ xanlığının da meydana çıxmasının həmin dövrdə vətənimizdə gedən obyektiv sosial-iqtisadi və ictimai-siyasi proseslərin qanuni nəticələrindən biri olduğu qənaətinə gəlirik.

Əsər yazılarkən Qarabağ xanlığının siyasi, iqtisadi tarixinə həsr edilən tarixi sənədlər və elmi əsərlərdən istifadə edilməsi «Qarabağnamə»lərdəki boşluqlar aradan qaldırılmış, onlardakı qüsurlar və tarixi sənədlər düzəldilmişdir.

«Qarabağnamə»lərin uzun müddət işıq üzü görməməsi də onların tarixçi alimlərin nəzərindən kənarda qalmasına səbəb olmuşdur. Bu qiymətli tarixi salnamələrin diqqətlə araşdırılması göstərir ki, onlarda XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəllərində Qarabağın, həm də bütövlükdə quzeyli-güneyli Azərbaycan, habelə bütün Cənubi Qafqaz və Ön Asiyanın həyatında baş vermiş mürəkkəb ictimai-siyasi proseslərin obyektiv şəkildə işıqlandırılması, bir sıra qaranlıq mətləblərə aydınlıq gətirilməsi, bədnam qonşularımızın canfəşanlıqla dünyaya səpələdikləri məkrli yalanları puça çıxarmaq üçün qiymətli məlumatlar vardır. Qaynaqların analizi bir daha əyani şəkildə göstərir ki, Qarabağ xanlığı Azərbaycan dövləti kimi meydana çıxmış, Azərbaycan dövləti kimi yaşamış, elə Azərbaycan dövləti kimi də Rusiya imperiyasının tərkibinə qatılmışdır. 14 may 1805-ci il Kürəkçay müqaviləsinə Sisianovla birlikdə qol çəkən Qarabağ xanı İbrahimxəlil xan Cavanşir olmuşdur.

Salnamə müəllifləri Qarabağın tarixi coğrafiyasını, onun

daxilində və xaricində baş verən siyasi hadisələri, habelə Pənahəli xan və onun oğlu İbrahimxəlil xanın dövrlərində tikilən şəhər və tarixi abidələr haqqında geniş məlumatlar verirlər. Bu məlumatlar xalqımızın tarixi məişəti, təsərrüfatı, o zamankı həyat tərzinin bir sıra mühüm mətləblərinə işıq salmağa, XVIII əsrin II yarısında bu bölgədə gedən taleyüklü tarixi proseslərin obyektiv mənzərəsini yaratmağa imkan verir.

Müəllif Mirzə Adıgözəl bəy və Mirzə Camal Cavanşir Qarabağinin əsərlərinin Rusiyanın Cənubi Qafqazdakı canişinlərinin sifarişləri ilə yazdıqlarını da nəzərə alaraq, əsərlərə öz münasibətini bildirmişdir. Hər iki tarixçi Rusiyanın dövlət və hərbi-inzibati idarələrində qulluq etmişdir. Məhz bu məqam Rusiya siyasəti ilə bağlı bir çox hallarda bu qiymətli qaynaqların məlumatlarına diqqətlə yanaşmağı, onları başqa məxəzlərlə tutuşdurmaq hesabına əsl həqiqəti aşkara çıxarmağı tələb edir.

Qeyd etmək lazımdır ki, əsərdə tədqiqat obyekti kimi götürülmüş salnamələr içərisində Mirzə Adıgözəl bəyin «Qarabağnamə»si öz tarixi məzmununa görə xüsusilə seçilir.

Mirzə Camal Cavanşir Qarabağinin «Qarabağ tarixi» əsəri də başqa salnamələrlə müqayisədə olduqca zəngindir. Müəllif Pənahəli xan və İbrahimxəlil xanın dövrlərini daha dolğun təsvir edir, tarixi hadisələri ardıcıllıqla verir. Mirzə Camal bəy Cavanşir əsərində Qarabağın ictimai-iqtisadi vəziyyəti, kənd təsərrüfatı, suvarma şəbəkəsi, becərilən bitkiləri, xanlar və onların qohumlarının əmlakı, mədaxil və məxaricləri, hərbi qüvvələri və sairə barədə ətraflı məlumatlar verir. Mirzə Camalın salnaməsi, müəllifin yaşadığı dövrün təsirindən irəli gələn məhdud cəhətlərinə baxmayaraq, digər «Qarabağnamələr»lə müqayisədə xeyli üstünlüklərə malikdir.

Mirzə Yusif Qarabağinin «Tarixi-safi» əsəri də özündən əvvəlki salnamələrdən ciddi şəkildə fərqlənməyərək, Mirzə Adıgözəl bəy və Mirzə Camal bəy Cavanşirin qeyd etdikləri tarixi hadisələri təkrar edir. Müəllifin əsərindəki fərq, erməni millətçiliyinə daha çox üstünlük verilməsidir. Ona görə də

müəllif «Tarixi-safi» əsərinə çox tənqidi yanaşmış və buradakı bəzi məqamları diqqətə çatdırmışdır.

Əhməd bəy Cavanşirin «1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair» salnaməsi də digər salnamələr içərisində özünəməxsus yer tutur. Belə ki, Əhməd bəy Cavanşir öz əsərindən danışarkən yazırdı: «İstifadə etdiyim mənbələr Mirzə Adıgözəl bəy və Mirzə Camalın əsərləri və digər mənbələr olmuşdur». Əhməd bəy Cavanşirin əsərinin fərqli cəhətlərindən biri də əsər yazılarkən Kürəkçay müqaviləsinə də müəyyən diqqət yetirilməsi olmuşdur. Əhməd bəyin əsərində İbrahimxəlil xana qarşı qərəzçilik münasibəti özünü büruzə verir. Əsərdə bu məsələyə tənqidi yanaşılmışdır. Bu müəllif özbaşına Məhəmməd bəy Cavanşirə hər vasitə ilə haqq qazandırmağa çalışır.

Mirmehdi Xəzaninin «Kitabi-tarixi-Qarabağ» əsəri dil və üslubuna görə bir qədər çətin olmasına baxmayaraq tarixi baxımdan çox əhəmiyyətlidir. Əsərdə Qarabağın mədəniyyəti ilə bağlı məsələlərə daha çox yer verilmişdir. Mirmehdi Xəzaninin salnaməsi XVIII əsr Azərbaycan mədəniyyətinin dolğun mənzərəsini yaratmaq üçün çox qiymətli məxəzdir.

Rzaqulu bəy Mirzə Camal oğlunun «Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri» əsəri, müəllifin özünün etiraf etdiyi kimi, atasının əsərinin yığcam xülasəsindən ibarətdir. Lakin hər halda Rzaqulu bəyin salnaməsində bir sıra əlavə materiallar var ki, onlar dövrün tarixinin daha dolğun yazılması üçün faydalı ola bilər. Əsərdə məhz bu məqamlara ciddi diqqət yetirilmişdir. Həmin məqamlar diqqətlə aşkar edilib ətraflı şəkildə təhlil olunmuşdur.

Mirzə Rəhim Fənanın «Tarixi-cədidi-Qarabağ» əsərinin bəzi hissələri əldə edildiyindən onun haqqında tam təsəvvür yaratmaq mümkün deyil. Bu əsərdə də müəllif özündən əvvəl yazılan salnamələri sanki təkrar edir. Lakin bu təəssürat o qədər də düzgün deyildir. Hər halda Fənanın salnaməsi də Qarabağın dolğun tarixinin yazılması baxımından bir sıra məziyyətlərə malikdir. Burada gətirilmiş məlumatlar o dövrün ictimai-siyasi

ab-havasını dərk etmək baxımından xüsusilə maraq doğurur.

Qarabağ xanlığının tarixinə həsr edilən salnamələrdən biri də Məhəmməd Baharlının «Əhvalati-Qarabağ» əsəridir. Müəllif əsərində Qarabağın tarixindən daha çox onun memarlıq abidələrinə, tarixi şəxsiyyətlərinə, adət və ənənələrinə, etnoqrafiyasına yer verilir. Azərbaycan mədəniyyəti, xüsusən də orta əsrlər mədəniyyəti tarixi üzrə qaynaqların kasadlığı şəraitində bu, çox qiymətli mənbədir.

Şuşalı Həsən İxfa Əlizadə də «Şuşa şəhərinin tarixi» əsərini yazmışdır. O, bu əsərində Qarabağ xanlıqının mərkəzi Şuşa şəhərinin bünövrəsinin qoyulmasından Şimali Azərbaycanda sovet işğalı dövrünə kimi baş verən hadisələri izləmiş və Şuşa şəhərindəki məscidlərin üzərindəki daş kitabələri oxumuşdur. Bu məsələlər əsərdə yeri gəldikcə əks etdirilmişdir. Əlizadənin də əsəri xalqımızın ictimai-mədəni irsinin öyrənilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Qarabağ tarixinə həsr olunan salnamələrdən biri də Həsənəli Qaradağinin «Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları» əsəridir. Bu əsər yarımçıq və çox qüsurludur. Lakin burada Şuşa və Qarabağın tarixi abidələrinə aid az da olsa məlumat verilir.

Abbasqulu Ağa Bakıxanov «Gülüstani-İrəm» əsərində Qarabağın tarixinə aid çoxlu tarixi məlumatlar toplanmışdır. O, Qarabağın tarixi coğrafiyası və etnoqrafiyası haqqında xeyli məlumatlar toplamış və əsərinin V fəslində onları çox maraqlı və oxunaqlı şəkildə sistemləşdirilmişdir.

Əsərdə Qarabağ xanlığında iqtisadi inkişafa, sənətkarlığa, kustar sənayeyə, Rusiya-İran müharibələrinə, bu müharibələrin Azərbaycan üçün ağır nəticələrinə, xanlığın xarici əlaqələrinə, xüsusilə Rusiya ilə İran arasında bağlanan işğalçı müqavilələrə də münasibət bildirmişdir.

Əsərdə qeyd olunur ki, müstəqil dövlətlər olan xanlıqlar dövründə ara müharibələrinə baxmayaraq məhsuldar qüvvələrin inkişafı istiqamətində xeyli irəliləyişlər olmuş, XIX əsrin ilk otuzilliyində müharibələr meydanına çevrilmiş Azərbaycan

torpaqlarının romanovlar və qacarlar arasında parçalanması isə Azərbaycana, onun sosial-iqtisadi və mədəni-siyasi həyatına ağır zərbələr vurmuş, rus müstəmləkəçilərinin əli ilə bu günki bəlalarımızın ən böyüyünün əsası qoyulmuşdur.

Əsərdə Qarabağ xanlığının güclü dövlət olması və bununla yanaşı bu dövlətin bütün atributları hərtərəfli surətdə izah edilir. İbrahimxəlil xanın möhkəm iradəsi, yeri gəldikdə xanlığın, qorunub saxlanılması və onun əhalisinin həyatı naminə canında keçməsi də əsərdə hərtərfli izah olunur.

İbrahimxəlil xanın dövründə xanlığın iqtisadi həyatı, maliyyə sistemi, əmtəə-pul münasibətləri, ödənilən vergilər haqqında da əsərdə tutarlı dəlillər irəli sürülür və təhlil olunur.

Əsərdə Qarabağ xanlığının banisi Pənahəli xan və onun oğlu İbrahimxəlil xan haqqında tarixi baxımdan geniş məlumat verilir.

Eyni zamanda Pənah xanın və İbrahimxəlil xanın hakimiyyətləri illərində Qarabağ xanlığının əhalisinin 90 faizinə qədərini Azərbaycan türkləri, 9 faizə qədərini xristianlığı qəbul edən albanlar və 1 faizə qədərini isə azsaylı xalqlar təşkil etmələri öz əksini tapmışdır.

# İSTİFADƏ OLUNMUŞ QAYNAQLAR VƏ ƏDƏBİYYAT

## Azərbaycan dilində


1. Abbasqulu Ağa Bakıxanov. «Gülüstani-İrəm», V fəsil (əlavə). Qarabağnamələr. İkinci kitab. Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.360-397.
2. Abdullayev M.İ. Rusiyanın Şimali Azərbaycanda müstəmləkəçilik siyasəti // Azərbaycan tarixinin çağdaş problemləri məcmuəsi, Bakı, 2000, s.37-53.
3. Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, Adiloğlu, 2005, 232 s.
4. Ağamalı F.R. XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı, Azərbaycan Ensiklopediyası, 1999, 302 s.
5. Ağamalı Y.F. Qarabağ xanlığının qonşu xanlıqlar və digər dövlətlərlə münasibətləri (namizədlik dissertasiyası). Bakı, 2002.
6. Axundov N. Qarabağ salnamələri. Bakı, Yazıçı, 1989, 232s.
7. Axundov N. Qarabağ və «Qarabağnamələr». Qarabağnamələr, ikinci kitab. Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.398-479.
8. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə, I cild, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994, 628 s.

9. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Prof. S.S.Əlyarlının redaktəsilə. Bakı, «Azərbaycan» nəşriyyatı, 1996, 872 s.
10. Baharlı M. Əhvalati-Qarabağ: Qarabağnamələr. İkinci kitab. Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.270-308.
11. Bakıxanov A. Gülüstani-İrəm. Bakı, «Möminin» nəşriyyatı, 2001, 287 c.
12. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Akademik Z.Bünyadov və t.e.n. E.Ağayevanın tərcüməsində. Bakı, Elm, 1999, 160 s.
13. Dəlili H.Ə. Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumat // Azərbaycan SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq 1971, M1, s.42-48.
14. Dəlili H.Ə. Azərbaycan-Rusiya münasibətləri fars və Azərbaycan dilli sənədlərdə. Bakı, Elm, 1976, 107 s.
15. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin II yarısında). Bakı, Elm, 1979, 144 s.
16. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının tarixi (1747-ci ildən 1805-ci ilə qədər). Bakı, Azərb. SSR EA-nın nəşriyyatı, 1961, 101 s.
17. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair: Qarabağnamələr. Birinci kitab. Tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s.150-183.
18. Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1996, 106 s.
19. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1997, 121 s.
20. Əliyev F.M. XVIII əsrin II yarısında Şimali Azərbaycan şəhərləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1960, 133 s.
21. Əliyev İ.H. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı, «Elm» nəşriyyatı, 1989, 120 s.
22. Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər. Bakı, Gənclik, 1993, 144 s.

23. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlər H.Məmmədovundur. Bakı, «Şuşa» nəşriyyatı, 2000, 576 s.
24. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 83s.
25. Hacıyeva Z.Ə. Qarabağ xanlığı, sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Namizəd.dis. avtoreferatı. Bakı, 2005.
26. Həsənəli Qaradaği. Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları //Qarabağnamələr. İkinci kitab. Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.351-357.
27. Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi. Qarabağnamələr. İkinci kitab, Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.310-348.
28. Həmidova Ş.P. XVIII əsrin II yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı, Elm, 1985, 97s.
29. Həmidova Ş.P. Qarabağ xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri tarixindən. Azərb. SSR EA-ın Xəbərləri, 1985, №2, s.41-48.
30. Hüseynli R.S. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından sovet işğalınadək olan dövrdə). Bakı, «Kür» nəşriyyatı, 2002, 266 s.
31. Hüseynzadə Ə. Mirmehdi Xəzanin «Qarabağ tarixi» əsəri haqqında. // «Azərb.SSR EA Xəbərləri», ictimai elmlər seriyası, 1960, №5, s.33-46.
32. Hüseynzadə Ə. Göhər ağanın vəqfnamələri: Azərb. SSR EA Xəbərləri, ictimai elmlər seriyası, 1959, M1, s.39-48.
33. Hüseynzadə Ə. XIX əsrin II yarısında Azərbaycan tarixşünaslığı. Bakı, Azərb. SSR EA, 1967, 219 s.
34. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 119 s.
35. İbişov S.Ə. Quba xanlığının əhalisi (tarixi demoqrafik tədqiqat). Bakı, BDU-nun nəşriyyatı, 2004. 173 s.
36. İsgəndər bəy Hacinski. Qubalı Fətəli xan. Bakı, Azərb.SSR EA-nın nəşriyyatı, 1959, 53 s.

37. İsmayılov M.Ə., Bağırov M. Şəki xanlığı. Bakı, Azərnəşr, 1987, 75 s.
38. İsmayılov M.Ə. Şəki (tarixi oçerk). Bakı, Azərb. Dövlət nəşriyyatı, 1982, 150 s.
39. Jan Gevr. Xacə şah. II kitab. Farscadan tərcümə edəni Hüseyn Əhədi, Bakı, Gənclik, 1994, 220 s.
40. Kərimova S. Çarizmin Azərbaycanın Şimalında müstəmləkəçilik siyasətində ermənilərin rolu (namizədlik dissertasiyası). Bakı, 1995.
41. Kərimova S. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. Bakı, Azərnəşr, 1995, 192 s.
42. Köçərili T.Q. Qarabağ: yalan və həqiqətlər kitabı. Bakı, Azərb. EA İctimai-siyasi Tədqiqatlar və İnformasiya institutu, 1998, 242 s.
43. Qarayev E.T. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində. Namiz.diss.avtoreferatı. Bakı, 2003.
44. Qeybullayev Q.Ə. Qarabağ. Etnik və siyasi tarixinə dair. Bakı, Elm, 1990, 248 s.
45. Quliyeva G.Ç. XVIII əsrin II yarısında Azərbaycan xanlıqlarının Türkiyə ilə əlaqələri. Namiz. dis. avtoreferatı. Bakı, 1998.
46. Quliyev Ə.N., Həsənov T.M. və Striqunov İ.V. XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı. Bakı, Azərnəşr, 1960, 224 s.
47. Məhəmmədhəsən Vəliyev (Baharlı). Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı, «Azərbaycan» nəşriyyatı, 1993, 192 s.
48. Məhəmməd Hüseyn Qüddüsi. Nadir şah (Nadir şah Əfşarın həyatı). Farscadan tərcümə edən Məhəmməd Əli Müsəddiq. Bakı, Gənclik nəşriyyatı, 1999, 240 s.
49. Məmmədova H. Xocalı: – şəhidlər, şahidlər. YNE. Bakı, 2003, 200 s.
50. Məmmədov H.M. Osmanlı imperiyasının xarici siyasətində Azərbaycan xanlıqları // Azərb.SSR Elmlər Akademiyasının

Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, №3, s.44-50.
51. Məmmədov S.A. Azərbaycan XV-XVIII əsrin birinci yarısında. Bakı, APİ, 1982, 108 s.
52. Məmmədov S.A. Azərbaycan tarixi. Bakı, Çaşıoğlu, 2004, 291 s.
53. Mirmehdi Xəzani. Kitabi-tarixi-Qarabağ // Qarabağnamələr. İkinci kitab, Tərtib edəni və çapa hazırlayanı professor N.Axundov, Bakı, Yazıçı, 1991, s.94-202.
54. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. Birinci kitab. Tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s. 6-102.
55. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi // Qarabağnamələr. Birinci kitab, tərtib edəni və çapa hazırlayanı t.e.n. A.Fərzəliyev. Bakı, Yazıçı, 1989, s.104-148.
56. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Tərcümə F.Babayevindir. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1959, 208 s.
57. Mirzə Rəhim Fəna. Tarixi-cədidi-Qarabağ // Qarabağnamələr. İkinci kitab, tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.249-268.
58. Mirzə Yusif Qarabaği. Tarixi-safi // Qarabağnamələr. İkinci kitab, tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.6-91.
59. Musəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1967, 149 s.
60. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVII əsrlər). Bakı, «Elm» nəşryyatı, 1977, 237 s.
61. Mustafayeva H. Cənubi Azərbaycan xanlıqları. Bakı, Azərnəşr, 1995, 96 s.
62. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, Elm, 2002, 272 s.
63. Mustafazadə T. Quba xanlığı. Bakı, Elm, 2005, 457 s.

64. Nemətova M.S. Şuşa şəhərlərindəki «cümə məscidi»nin kitabələri. // Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, İctimai elmlər seriyası, 1961, M1, s.47-59.
65. Onullahi S. Erməni millətçiləri və İran. Bakı, «Maarif» nəşriyyatı, 2002, 85 s.
66. Piriyev V. Azərbaycan tarixi coğrafiyası. Bakı, «Araz» nəşriyyatı, 2002, 150 s.
67. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri // Qarabağnamələr. İkinci kitab, tərtib edəni və çapa hazırlayanı professor N.Axundov. Bakı, Yazıçı, 1991, s.204-246.
68. Sadıqov H.H. Rusiya-Türkiyə münasibətlərində cənubi Qafqaz məsələləri. Bakı, Elm, 1991, 175 s.
69. Süleymanov M.S. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, Hərbi nəşriyyat, 1977, 169 s.
70. Şəki xanlığının tarixindən. Bakı, Azərb. SSR EA-nın nəşriyyatı, 1958, 32 s.
71. Şuşinski F.M. Şuşa. Bakı, Gənclik nəşriyyatı, 1998, 428 s.
72. Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (Qədim zamanlardan müasir dövrədək). Bakı, Elm nəşriyyatı, 2004, 974 s.
73. Umudov V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1826-cı illər), (namizədlik dissertasiyası). Bakı, 1996.
74. Veliçko V.Z. Qafqaz. Bakı, «Azərbaycan» nəşriyyatı,1995, 192 s.
75. Yusibov İ.H. XVIII əsrin axırlarında Azərbaycanda rəiyyətlərin vəziyyətinə dair. // «Azərb. SSR EA Məruzələri». X c., 1954, №5, s.383-387.

## Türk dilində

76. Cemal Gokce. Kafkasya və Osmanlı imperatorluğunun Kafkasya siyasəti. İstanbul, 1979.
77. Çakmak M.A. Hanlıklar devründə Azerbaycan-Türkiye münasibetleri (1723-1829). Doktora tezisi. Ankara, 1996.
78. Faruk Sümer. Kara Koyunlular. Ankara, Türk Tarih Kurumu Basimevi, 1967, c.1. 167 s.
79. Faruk Sümer. Safevi Devletinin kuruluşu və gelişmesinde Anadolu türklerinin rolu. Ankara, Türk Tarih Kurumu Basimevi, 1992, 263 s.
80. Osmanlı devleti ilə Azərbaycan türk xanlıklan arasında münasibetlere dair arşiv belgeleri. Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy. (1578-1914). Ankara, Başbakanlik Basımevi, 1992, c.I. 427 s; c. 2. 481 s.
81. Uzunçarşılı İsmayıl Haqqı. Osmanlı tarihi. IV cild. Ankara, 1967.

## Rus dilində

82. Абдуллаев Г.Б. Из истории Севера-восточного Азербайджана в 60-80 гг. XVIII в. Баку, Изд-во АН Азерб. ССР, 1958, 210 с.
83. Абдуллаев Г.Б. Азербайджан в XIX веке и взаимоотношения его с Россией. Баку, Изд-во АН Азерб ССР, 1965, 620 с.
84. Абдуллаев М.И. Аграрная политика царизма в Азербайджане в первой трети XIX в. Автореферат канд. дис. Баку, 1989.
85. Акты, собранные Кавказской Археографической Комиссией. Под ред. А.Берже. (бундан сонра - АКАК), т.1-12, Тифлис, 1866-1904:
86. АКАК, т.II Тифлис, 1868.
87. АКАК, т.III, Тифлис, 1869.
88. АКАК, т.IV, Тифлис, 1870.
89. АКАК, т.V, Тифлис, 1873.

90. АКАК, т.VI, Тифлис, 1874.
91. АКАК, т.VII, Тифлис, 1875.
92. АРДТА ф.246, оп. 16, л.67, д.58.
93. Ашурбейли С.В. Очерк истории средневекового Баку. Баку, Издательство АН Азерб. ССР, 1964, 333с.
94. Бурнашев С.Д. Описание областей Азербайджана в Персии и их политического состояния. Курск, В типографии Курского приказа общественного собрания, 1793.
95. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. СПб. Изд. АН, 1869, ч.1., 548 с; ч.2, 610 с; ч.3, 620 с.
96. Деконский А.Т. Экономический быт государственных крестьян Шушинского и Джабраильского уездов Елизаветпольской губернии: Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Тифлис, Типография. Меликова, 1886, т.4., с. 1-220.
97. Дубровин Н. История войны и владычества русских на Кавказе. Том.V, СПб. 1887.
98. Исмаилова Г.Н. История Шуши в XIX - начале XX века. Автореферат канд.дис., Баку, 1987.
99. Историческая география Азербайджана. Баку, Элм, 1987, 148 с.
100. Каграманов Д.В. Описание археографических документов. Баку, Издательство «Элм», 1969, 100 с.
101. Кишмишев С.Р. Походы Надир шаха в Герату, Кандагар, в Индию и событий в Персий после его смерти. Тифлис, Издано Военним Отделомь при Кавказского военного округи, 1889, 303 с.
102. Колониальная политика российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Изд-во АН СССР, 1936, т.1, 463 с; т.2, 437 с.
103. Гаджиева З.А. Об административном устройстве и религиозно-этническом составе Гарабагского ханства.: Гарабаг: Кюрекчайский договор - 200. Баку, Тахсил,

2005, с. 102-113.
104. Гасанов Н.Г., Умудлу В.У. Из истории Кюрекчайские договоров: Гарабаг: Кюрекчайский договор - 200. С. 135-144.
105. Губайдулин А. Феодальные классы и крестьянство в Азербайджане в XIX в. «Извд.вост.фак. АГУ» 1928, №3, с. 15-56.
106. Губайдулин А.С. Вакуфные имущества Азербайджана. «Изд. Об-ва обследования и изучения Азербайджанка», 1928, №5, с.215-226.
107. Глинка С.Н. Описание переселения армян Азербайджанских в пределы России. Баку, Элм, 1990, 142 с.
108. Гулиев А.Н. и Гасанов И.М. Историческая наука в Азербайджане во второй половине XIX в. // Тр. Ин-та истории АН Азерб. ССР, т. XIII, 1958, с.231-259.
109. Левиатов В.Н. Очерки по истории Азербайджана в ХУШ в. Баку, Изд-во АН Азерб.ССР, 1948, 228 с.
110. Мамедова Г. Русские консулы об Азербайджане (20-60-е годы XVIII века). Баку, Элм, 1989, 128 с.
111. Мамедова Г.Н. К вопросу о христианских меликах и меликствах Северного Азербайджана в XVIII в.: Гарабаг: Кюрекчайский договор - 200. Баку, «Тахсил», 2005, с.67-82.
112. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII в. Москва, «Наука», 1966, 323 с.
113. Мустафаев Д.М. Северные ханства Азербайджана и Россия (конец XVIII - начало XЫX в). Баку, АН Азербайджанской ССР, 1984,126с.
114. Мустафаев М.М. Экономика Карабахского ханства. На правах рукописи, Берлин 1949, 123 с.
115. Мустафаев М.М. Экономика Карабахского ханства в конце XVIII и первой четверти XIX в. Автореферат канд.дис. Москва, 1953.
116. Мустафаев Дж.М. Из истории города Шуши (вторая

половина XVIII - начало XIX вв). Гарабаг: Кюрекчайский договор - 200. Баку, Тахсил, 2005, с. 128-134.
117. Мустафаев Т.Т. Азербайджан и русско турецкие отношения в первой трети XVIII век. Баку, Элм, 1993, 238 с.
118. Мустафазаде Т.Т. О месте Гарабагского ханства в истории Азербайджана. Гарабаг: Кюрекчайский договор - 200. Баку, Тахсил, 2005, с.89-101.
119. Обозрение Российских владений за Кавказом в статическом, этнографическом и финансовом отношениях. СПб, Типография департамента внешней торговли, 1836, ч.1, 399 с, ч.2. 401 с.
120. Обозрение Российских владений за Кавказом в статическом, этнографическом и финансовом отношениях. СПб., Типография департамента внешней торговли, 1836, ч.3, 392 с.
121. Обозрение Российских владений за Кавказом в статическом этнографическом и финансовом отношениях. СПб, Типография департамента внешней торговли, 1836, ч.4, 401 с.
122. Описание Карабагской провинции (составленное в 1823 году, по распоряжению главноуправлявщаго в Грузии. Ермолова), Тифлис, Типография управления наместника Кавказского, 1866, 425 с..
123. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале ХЫХ вв. Ленинград, Издательств ЛГУ имени А.А.Жданова, 1949, 379 с.
124. Петрушевский И.П. К вопросу об иммунитете в Азербайджане в XVII-XVIII вв // Исторический сборник 1935, №4, с.35-72.
125. Пахомов Е.А. О сословно-поземельном вопрос в Азербайджане. Баку, Изд-во Об-ва обследования и изучения Азербайджана, 1926, 8 с.
126. Потто В.Кавказская война и отдельных очерках, эпизодах, легендах и биографиях. СПб. 1887, т.1. 698 с.;

т.2, 760 с.; т.3, 716 с.; т.4, 678с.
127. Сысоев В.М. Баку прежде и тепер. Краткий исторический очерк. Баку, 1928, 86 с.
128. Свод материалов по изучения экономического быта государственных крестьян Закавказского края. Тифлис, Типография Я.И. Либермана, 1887, т.п., с.426.
129. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Тифлис, Типография МДРатиниянца, 1888, т.III, 384 с.
130. Свод материалов по изучению экономического быта государственных кре-стьян Закавказского края. Тифлис, Типография М.Д. Ратиниянца, 1888, том. IV. ч.1., 559 с.; ч.П., 328 с.
131. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края Тифлис, Типография М.Д. Ратиниянца, 1888, том В. ч.1. 375 с; ч. ЫЫ, 377с.
132. Свод статистических данных о населении Закавказскаго края, извлеченных из племенных списков 1886 г. Тифлис, Типография Мартиросианца, 1893, 870 с.
133. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. Баку, Элм, 1990, 156с.
134. Шукюрова Р. Новый документ (кабала) о владениях Гарабагского хана Ибрагим Халил хана: Гарабаг: Кюрекчайский договор - 200. Баку, «Тахсил», 2005, с. 125-127.
135. Шукюров К.К. Кюрекчайский договор: об основные положениях, претворении о жизнь и последствиях упразднения.: Гарабаг: Кюрекчайский договор - 200. Баку, «Тахсил», 2005, с. 145-152.
136. Шукюрзаде Э.Б. Панах-хан Карабахский (Резюме докл. На сессии Аз ФАН СССР) «Изв. АзФАН СССР», 1943, №3, с. 109.
137. Шукюрзаде Э.Б. Государственное устройство в Карабахского ханства в XVIII в. Автореферат канд.дис.

Москва, 1947.
138. Утверждение русского владычества на Кавказе. Под.ред. В.Потто, т. 1, Тифлис 1901, 309 с.
139. Зелинский С.П. Экономический быт государственных крестьян Зангезурских уезда Елизаветпольской губернии: Материалы для изучения экономического быта гос. Крестьян Закавказского края. Тифлис, Типография Меликова, 1886, т.4., с. 1-322.

## Fars dilində

140. Əlirza Rahvər İqvan və Pərviz Zore Şahmers. Tarix-i Qarabağ. Tehran, 1997.
141. İsgəndər bəy Türkman. Tarix-i aləm aray-i Abbasi. Tehran, Çapxaney-i qolşən, 1350, c.1-2. 1235 s.
142. Məhəmməd Hafizzadə. Qarabağ. Təbriz, 2001, 251 s.
143. Sazman-i edarey-i hökumәte Səfəvi ya təliğate Minorski bər təzkirət əl-müluk. Tərcomey-i Məsud Rəcəbniya, Tehran, 1368, 340 s.
144. Səməd Sərdarniya. İravan yek velayət e müsəlman bud. Tehran, Enteşarate zufa, 1380, 238 s.

*Əlavə M1*

# QARABAĞ XANLARI VƏ ONLARIN AİLƏ ŞƏCƏRƏSİ

Qarabağın məşhur tayfalarından olan Cavanşirlərin tayfa əmirləri XVI əsrdə Səfəvilər hakimiyyəti dövründən başlayaraq Sarıca Əlinin törəmələri olmuşlar. İlk Qarabağ xanı Pənahəlinin (1747-1759) - 1693-cü ildə anadan olmuş, 1763-cü ildə vəfat etmişdir - babası Pənahəli bəy, atası İbrahimxəlil ağa idi.

Qarabağ xanlarının ailə şəcərəsi ilk dəfə XIX əsrdə tərtib olunmuş və Adolf Berjenin redaktorluğu ilə çap edilmiş «Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı Aktlar»ın II cildində rus dilində nəşr edilmişdir.

Bu şəcərənin tərtibçisi isə məlum Lisaneviç olmuşdur. Biz aşağıda Qarabağ xanları və onların ailə şəcərəsini bəzi əlavələr və təkmilləşdirmələrlə veririk:

# QARABAĞ XANLARI VƏ ONLARIN MƏNŞƏYİ

## PƏNAHƏLİ BƏY
(Cavanşir tayfasının əmiri)

## İBRAHİMXƏLİL AĞA
(Cavanşir tayfasının əmiri)

Oğlanları:
1. Pənahəli xan (təxm. 1693-1763)
2. Fəzləli bəy (Nadir şah sarayında eşikağası)

**PƏNAHƏLİ XAN** (Qarabağ xanı - 1747-1763)

Oğlanları:
1. İbrahimxəlil xan (1726-1806)
2. Mehralı bəy
3. Talıbxan bəy

**İBRAHİMXƏLİL XAN** (Qarabağ xanı - 1763-1806)

Oğlanları: (kəbinli arvadlarından):
1. Məhəmmədhəsən ağa (Cavanşir minbaşısının qızı Xanımdan)
2. Mehdiqulu ağa (1807-1822-ci illərdə Qarabağ xanı, Gəncəli Şahverdi xanın qızı Xurşid bəyimdən - Cavad xanın bacısından)
3. Xanlar ağa
4. Əhməd xan (Car-Balakən camaatlarının başçılarından Nusəl xanın qızı Bikə ağadan - Ömər (Ümmə) xanın bacısından)
5. Məhəmmədqasım ağa (Unqutlu Allahyar bəyin qızından)
6. Abbasqulu bəy (knyaz Yevgeni Abaşidzenin qızı Cəvahir xanımdan)

İbrahimxəlil xanın qızları (kəbinli arvadlarından):

1. Ağabəyim ağa (Gəncəli Şahverdi xanın qızı Tuti bəyimdən, Cavad xanın bacısından; 1797-ci ildə Ağabəyim ağa Baba xana-Fətəli şah Qacara ərə verilmişdir)
3. Tuti bəyim (Gəncəli Şahverdi xanın qızı Tuti bəyimdən. Feyzi bəyə ərə verilmişdir)
4. Baxşı xanım (Şahsevənli Bahadır xanın qızı Şahnisə xanımdan. Şahsevənli Fərəculla xana ərə verilmişdir)
5. Tuti bəyim (Şahsevənli Bahadır xanın qızı Şahnisə xanımdan, Tehran bəylərbəyisi Mirzə Məhəmməd xana ərə verilmişdir)
6. Kiçik bəyim (Şahsevənli Bahadır xanın qızı Şahnisə xanımdan).
7. Səltənət bəyim (Nusal xanın qızı Bikə ağadan, Ömər (Ümmə) xanın bacısından).
8. Gövhərnisə (Knyaz Yevgeni Abaşidzenin qızı Cəvahir İbrahimxəlil xanın siğə arvadlarından doğulmuş o ğ l a n l a r ı:

1. Əbülfət ağa (1797-ci ildən Fətəli şah sarayında yaşamış, xanlıq rütbəsi almışdır - Naxıçevanluq kəndindən olan xristian qızı Ruqamdan).
2. Hüseynqulu bəy (?)
3. Səfiqulu bəy (Dizaq məliki Vaxtanqın qızı Xatay xanımdan)
4. Fətəli bəy (Şuşalı Hacı Kərimin qızı Anaxanımdan).
5. Süleyman bəy (Tağ kəndi sakini, xristian qızı Sona xanımdan).
6. Şeyxəli bəy (Bəhrəmli kənd sakini, tatar qızı Xədicə xanım Şəmşədlinskidən).

İbrahimxəlil xanın siğə arvadlarından doğulmuş
q ı z ı

1. Şahnisə (Sarıcalı Gülmalı bəyin qızı Mürəssə xanımdan. Mirzalı bəyin oğluna ərə getmişdir).

İ b r a h i m X ə l i l x a n ı n n ə v ə l ə r i:

1. Cəfərqulu bəy
2. Şükrulla bəy
3. Xancan ağa (Gəncəli Şahverdi xanın qızı, Cavad xanın bacısı Xeyrənisədən)
4. Böyük xan (Xoylu Əhməd xanın qızı, Cəfərqulu xanın bacısı Mahşərəf xanımdan)

Q ı z n ə v ə l ə r i:

I. Tubu bəyim (Gəncəli Şahverdi xanın qızı, Cavad xanın bacısı Xeyrənisədən).

II. Məhəmməd Qasım ağadan:

I. Böyük xanım (Mehrəli bəyin qızı Xədicə xanımdan)

III. Əbülfət ağadan:

I. Gövhərnisə (Tiflisli Mirzə Rəbinin qızı Nisə xanımdan).

IV. Mehdiqulu xandan:

I. Xurşudbanu (Natəvan) - (Gəncəli Cavad xanın nəvəsi Uğurlu bəyin qızı Bədircahan bəyimdən).

QEYD: İbrahimxəlil xanın kəbinli arvadlarından biri də Tuti bəyim olmuşdur. O, Şəki xanı Hüseyn xanın (Müştaq təxəllüslü) qızı, Səlim xanın bacısı idi. Xanın siğə arvadlarından biri də Məlik Şahnəzərin qızı Hürzad

xanım idi.

Mehdiqulu xanın Mehralı bəyin qızı xan Xancəm və Qaraçorlu Əhməd xanın qızı Saray xanım adlı arvadları var idi.

Əbülfət ağa İbrahimxəlil xanın qohumu İsmayıl xanın qızı Bədir xanımı almışdı.

Məhəmmədhəsən ağanın oğlu Cəfərqulu bəyin Bayandur kəndindən olan siğə arvadı, erməni Əcayibnisədən iki oğlu olmuşdur: Abdulla bəy və Kərim bəy.

İbrahimxəlil xanın qardaşı Mehralı bəyin oğlanları, nəvə və nəticələri:

M e h r a l ı b ə y i n o ğ l a n l a r ı:

1. Məhəmməd bəy (Batmanqılınc)
2. Əsəd bəy

N ə v ə s i:

1. Cəfərqulu bəy

N ə t i c ə s i:

1. Əhməd bəy Cavanşir

K ö t ü c ə s i:

1. Həmidə xanım

İbrahimxəlil xanın qardaşı Talıbxan bəyin oğlanları:

Şükür bəy və Alıpaşa bəy Nəvələri:

Abdulla bəy, Nəcəfqulu bəy, Ballı xanım, Məhəmməd bəy, Mustafa bəy, Rüstəm bəy, Kalbalayı Kərim bəy, Telli xanım.

# MÜNDƏRİCAT


**MÜƏLLİM ÖMRÜ – ŞƏRƏFLİ HƏYAT YOLU**……………..… 3

**GİRİŞ**……..……………………………...…………..……… 10

**I BÖLMƏ. QARABAĞIN KEÇMİŞ TARİXİ DÖVRÜNƏ BAXIŞ**……………..…………..........................................…19

**II BÖLMƏ. QARABAĞ TARİXİ MƏNBƏLƏRDƏ**………….. 43

**I FƏSİL. «QARABAĞNAMƏLƏR»İN MƏNBƏŞÜNASLIQ BAXIMINDAN ÖYRƏNİLMƏSİ TARİXİNDƏN**…...........................…..……………..…..43

**II FƏSİL. «QARABAĞNAMƏLƏR»Ə GÖRƏ QARABAĞ XANLIĞININ YARANMASI. XANLIĞIN DAXİLİ HƏYATI** ……………………………………………….63

2.1. Qarabağ xanlığının yaranması və ictimai-siyasi quruluşu ……………………………………….…… 63

2.2. Qarabağ xanlığının təbii-coğrafi mövqeyi, sərhədləri və əhalisi…………………………..……...…….97

2.3. Kənd təsərrüfatı, sənətkarlıq və ticarət……….…..107

**III FƏSİL. QARABAĞ XANLIĞININ XARİCİ SİYASƏTİ**

3.1. Osmanlı Türkiyəsi və Gürcüstanla əlaqələr ……..133

3.2. Qarabağ xanlığının XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Qacarlarla Rusiya arasında beynəlxalq çəkişmə meydanına çevrilməsi …………………..144

**NƏTİCƏ** ………………………………………………222

**İstifadə olunmuş qaynaqlar və ədəbiyyat** ……………………228

**Əlavə**…………………………………………...…….240

**HÜSEYNOV YUNİS RZA oğlu**

**«QARABAĞ TARİXİ MƏNBƏLƏRDƏ»**

**Bakı, «Şuşa» nəşriyyatı, 2012**

Kompüter yığımı: **Ramilə Şıxəliyeva**

Kompüter dizaynı: **Vəfa Məmmədova**

Yığılmağa verilmişdir: 11.07.2012
Çapa imzalanmışdır: 05.10.2012
Sifariş: 71
Formatı: 60/84 - 1/16
Həcmi: 15,5 ç.v. Tirajı: 300
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu